**PSİXOLOGİYA ELMİ-TƏDQİQAT İNSTİTUTU**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ LİDERLİK FENOMENİ

**MÖVZUSUNDA**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ**

**RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI**
**(məqalə və tezislər)**
**Bakı, 06 may 2023**

*Psixologiya Elmi-Tədqiqat İnstitutunun Elmi Şurasının 25 oktyabr 2023-cü il tarixli iclasının (protokol №9) qərarına əsasən çap edilir.*

**Bakı - 2023**

## Təşkilat komitəsi

**Bəxtiyar ƏLİYEV (sədr)** – professor, AMEA-nın müxbir üzvü

**Elnur RÜSTƏMOV (sədr müavini)** – fəlsəfə ü.f.d., Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri

**Məhərrəm ƏLİYEV (məsul katib)** – dosent, Azərbaycan Dövlət Pedaqoi Universiteti

**Ramiz ƏLİYEV** – professor, Azərbaycan Dövlət Pedaqoi Universiteti

**Hökümə ƏLİYEVA** – dosent, Psixologiya Elmi-Tədqiqat İnstitutu, şöbə müdiri

**Mətanət ƏLİYEVA** – Psixologiya Elmi-Tədqiqat İnstitutu, şöbə müdiri

Konfrans Psixologiya Elmi-Tədqiqat İnstitutu və Müasir Azərbaycan Psixoloqları İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilmişdir.

**Ümummilli Lider Heydər Əliyev:**
***"Təhsil millətin gələcəyidir".***
***"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz".***



## I BÖLMƏ
## Ümummilli Lider Heydər Əliyevin fenomen şəxsiyyəti və fəaliyyəti

Bəxtiyar Əliyev. Ümummilli Lider və milli dövlətçilik ........................................8
Fərrux Rüstəmov. Ulu Öndər Heydər Əliyevin təhsil diplomatiyası..................26
Elnur Rüstəmov. Heydər Əliyevin irsində azərbaycançılıq
ideyası və milli-mənəvi dəyərlər....................................................................32
Lətafət Beybutova. Heydər Əliyevin dövlət quruculuğu.................................38
Zümrüd Cavadova. H.Ə.Əliyevin Nizami Gəncəvi irsinin
öyrənilməsi və beynəlxalq aləmdə təbliğinin tarixi xidmətləri..........................42
Cəfər İbrahimov. Heydər Əliyev şəxsiyyəti və onun
milli dilçilik siyasəti...........................................................................................46
Validə Əliyeva. Ümummilli Lider Heydər Əliyev
şəxsiyyətinin ali keyfiyyətlərinin psixoloji portreti ..........................................48
Radif Mustafayev. Vətən müharibəsi qənimət ədəbiyyatında
Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinə münasibət ...............................51
Яшар Алхасов. Языковые единицы в выступлениях
Общенационального Лидера Гейдара Алиева
как средство психологического воздействия................................................55
Südabə Hüseynova. Ümummilli Lider Heydər Əliyevin
psixoloji portreti................................................................................................58
Nigar Məmmədova. Ümummilli Lider Heydər Əliyevin
fenomen şəxsiyyəti və fəaliyyəti....................................................................61
Gültəkin İsmayılova. Azərbaycan dövlət strategiyasının
formalaşmasında Heydər Əliyevin rolu.............................................................66
Rəna Qasımova. Heydər Əliyev - tarix yazmış şəxsiyyət .................................69
Svetlana Balakişiyeva. Ümummilli Lider Heydər Əliyev
fenomenal şəxsiyyət kimi..................................................................................71
Aysu Bülbülzadə. Heydər Əliyev və Azərbaycan
Respublikasında dövlət quruculuğu.................................................................75

## II BÖLMƏ
## Ümumi və sosial psixologiya

Elmar Hüseynov. Ekstremal şəraitə psixoloji hazırlığın əsasları.......................78
Məhərrəm Əliyev. Metamodel və psixoanaliz..................................................82
Məhərrəm Əliyev. NLP-də yenidənçərçivələmə texnikası
və funksional avtonomluq anlayışı...................................................................86
Ülviyyə Əfəndiyeva. Ailədə qarşılıqlı münasibətlər: ailə
başçısı məsələsi.................................................................................................89
Ülviyyə Əfəndiyeva. Siyasi liderin psixoloji portreti..........................................94
Nuralı Çələbiyev. Psixologiyada liderlik nəzəriyyələri:
tipoloji aspekt....................................................................................................97
Şakir Əliyev, Gülnarə Əliyeva, Radə Əsgərova. Parçalarda
ornamental kompozisiyaların müasir üslubda tətbiqi
(sosial-psixoloji aspekt)...................................................................................101
Könül Məmmədova. Şəxsiyyət haqqında anlayış ..........................................106
Rəna Qasımova. Şəxsiyyət problemi və onun psixoloji məsələləri................109
İlham Məmmədov. Ə.S.Bayramov respublikamızda
etnopsixologiya məktəbinin yaradıcısı kimi ..................................................111
Jalə Səfərova. Bullinq və onunla mübarizə yollari .......................................113
Cahanə Bayramova. Geyim moda sənayesində stilin
etnopsixoloji təhlili..........................................................................................117
Ramin Əmrahov. Kişi kostyumlarının dizaynında üslub və
üsulların tətbiqi (sosial-psixoloji aspekt).........................................................121
Bəxtiyar Xosuzadə. Nihilizm: fəlsəfi və psixoloji əsasları..............................125

## III BÖLMƏ
## Pedaqoji və inkişaf psixologiyası

Mətanət Əliyeva. Yeniyetmələrdə böhranın tədqiqi.......................................128
Simnarə Heydərova. Gənc müəllimin şagirdlərlə ünsiyyətindəki
əsas çətinliklər və onları aradan qaldırmağın bəzi səmərəli yolları.................133
Qəribə Rəhimova. Yeniyetmələrdə özünüdərkin formalaşmasına
təsir edən sosial-psixoloji amillər....................................................................135
Yeganə Əskərova. Gənclik dövrünün spesifik xüsusiyyətləri .........................138
Müjkan Məmmədzadə. Tələbələr arasında idarəetmə
bacarıqlarının formalaşmasına təsir edən psixoloji aspektlər...........................141

Günəş Əfəndiyeva. Təlim fəaliyyəti zamanı uşaqlarda pedaqoji qabiliyyətlərin inkişafına dair məsələlər.........................................................144
Günəş Əfəndiyeva. Təlim fəaliyyəti zamanı pedaqoji ünsiyyətin psixoloji məsələləri.............................................................................146
Sona Əliyeva. Aqressiv davranışın yaş xüsusiyyətləri ....................................148
Rəna Cəbrayılova. Tələbə gənclərin özünüreallaşdırması sosial-psixoloji fenomen kimi .......................................................................150
Münəvvər Məmmədova. Tələbələrdə özünüinkişafın psixoloji xüsusiyyətləri.......................................................................152
Leyla Dadaş-zadə. Təlim prosesində tələbələrin ünsiyyət mədəniyyətinin formalaşması ........................................................................154
Teybə Əfəndiyeva. Özünüaktuallaşdırma və şəxsiyyətin inkişaf psixologiyası.............................................................................156
Elnarə İsazadə. Gənclik yaşı dövründə tələbələrin idrak fəallığının xüsusiyyətləri.......................................................................159
Sabina Maharramova. Təlim motivlərinin formalaşmasının psixoloji əsasları ...............................................................................161
Günel Məmmədova. Kiçik məktəb yaşı dövründə şəxsiyyətin inkişafı..............................................................................163
Kubra Mehtiyeva. Məktəbəqədər yaşlı uşaqlarda rollu oyunlar və onların uşaq şəxsiyyətinin formalaşmasında mövqeyi................................166
Mədinə Həziyeva. Təlim fəaliyyətində kiçik məktəblilərin müstəqilliyinin inkişafı.........................................................................167
Günay Kərimi. Şəxsiyyətin sərvət meylinin formalaşmasına dair psixoloji yanaşmalar...........................................................................171
Fatma İslamli. Şagirdlərin idrak fəallığının formalaşmasında yeni təlim metodlarından istifadənin rolu.......................................................180
Nicat Əliyev. Yeniyetmə şəxsiyyətinin formalaşmasında ailənin rolu............182

## IV BÖLMƏ
## Klinik psixologiya

Nigar Muradova. Şəxsiyyət pozuntuları.........................................................185
Allahverdi Tağıyev. Abituriyentlərdə imtahan stressi və onun idarə olunmasına dair tövsiyələr.........................................................188
Aydan Əsgərova. Metanfetamin və amfetamin istifadəçilərində depressiya və təşviş pozuntularının psixoloji təsviri........................................194
Fərid İsgəndərli. Psixi sağlamlıq işçilərində depressiya,

təşviş, stress və həyat məmnuniyyəti səviyyələrinin öyrənilməsi.....................198
Günay Əsədzadə. Qavranılan stress şkalasının azərbaycan
dilinə adaptasiyası: etibarlılıq və validlik analizi.............................................206
Leyla Məmişova. Autizm spektr pozuntusu olan
uşaqların valideynlərinin qarşılaşdıqları çətinliklər.........................................213
Elmira Alicanova. Opioid asılılığının müalicəsində
metadon və buprenorfinin effektivliyi: Hansını istifadə edək?.........................220
Püstə Kərimova.  Natamamlıq kompleksinin özünübiruzə
verməsi və yaranma səbəbləri........................................................................230
Səbinə Əliyeva. Autizm spektri pozuntulu uşaqların
valideynlərinə qarşı stiqmatizasiya..................................................................235
Ülkər Bağırzadə. Emosional yanma sindromunun yaranma
səbəbləri və təzahür xüsusiyyətləri..................................................................241

# I BÖLMƏ
# Ümummilli Lider Heydər Əliyevin fenomen şəxsiyyəti və fəaliyyəti

## ÜMUMMİLLİ LİDER VƏ MİLLİ DÖVLƏTÇİLİK

**Bəxtiyar ƏLİYEV,**
***AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor***

Liderlik mürəkkəb və çoxcəhətli hadisədir. Lider anlayışına və onun təbiətinə müxtəlif yanaşmalar mövcuddur. Bəzi müəlliflərin fikrincə, liderlik – bütün qrupa yönəlmiş və qrup tərəfindən qəbul edilən birmənalılığı və sabitliyi ilə səciyyələnən təsirdir (V.Kats, L.Edinqer). E.Boqardusun əlamətlər nəzəriyyəsinə görə, liderliyin mahiyyəti ayrı-ayrı şəxslərin müstəsna keyfiyyətləri ilə şərtlənir (4). Bu konsepsiyanın tərəfdarları liderə xas olan əsas keyfiyyətlərə bunları aid edirlər: ağıl, möhkəm iradə, məqsədyönlülük, təşkilatçılıq qabiliyyətləri, səriştəlilik.

Bu nəzəriyyənin başqa bir növü kimi faktor-analitik yanaşma da işlənilir. Onun tərəfdarları hesab edirlər ki, liderin siyasi məqsədlərə nail olmasını şərtləndirən fərdi keyfiyyətlər və əlamətlər var. Ona görə də liderlik konkret siyasi şəraitdəki məqsədlə şərtlənir. Lideri səciyyələndirmək üçün müəyyən siyasi şəraitdə onun qarşısına qoyduğu məqsədi təhlil etmək lazımdır. R.Stoqdill və T.Hilton isə şərait nəzəriyyəsini irəli sürürlər. Onların fikrincə, liderlik müəyyən sosial şəraitlə şərtlənir. İnsan yalnız o zaman lider ola bilər ki, bunun üçün real konkret şərait yetişsin. Buradan belə nəticəyə gəlmək olar ki, şəxsiyyət passivdir, o, şəraitin axarından tam asılıdır və hadisələrin gedişatını dəyişməyə qadir deyil. Bu fikir bəlkə də insanların siyasi fəallığının artıb-azalması konteksti üçün məqbuldur. Amma siyasi lider, xüsusən də ümummilli siyasi lider üçün məqbul sayıla bilməz.

Aparılmış tədqiqatlar göstərir ki, hər bir ölkədə gedən ictimai, siyasi, iqtisadi proseslər vətəndaşlarda müəyyən tip siyasi lider obrazı formalaşdırır. Bu və ya digər siyasi lideri qavrayarkən insanlar həmin ideal obrazdan çıxış edərık qiymətləndirdikləri siyasi liderdən konkret hərəkətlər gözləyirlər. Bu heç də o demək deyil ki, siyasi lider "gözlənilən" hərəkətləri edəcək. Əslində, siyasətçilər qarşılarına qoyduqları məqsədə çatmaq üçün həyata keçirdikləri fəaliyyət zamanı özlərinə xas olan şəxsi keyfiyyətləri davranışlarında təzahür etdirirlər. "***Gözlənti***" ilə real hərəkət üst-üstə düşməyəndə isə siyasətçi qrup tərəfindən "qəbul" edilmir. Belə olan halda isə lider tez bir zamanda autsayderə çevrilir və siyasi təsir imkanları məhdudlaşır. Əksinə, "gözlənilən" hərəkətləri edən siyasətçi yüksək reytinq qazanır. Lakin burada bir cəhəti nəzərdən qaçırmaq olmaz. Belə ki, dövlətin idarə edilməsi ictimaiyyətin "gözlədiyi" hərəkətlərin deyil, həmin dövrdə dövlətin maraqlarına uyğun, bəzən də ümuminin hazırki

vəziyyətinə zidd olan qətiyyətli addımların atılmasını, qərarların qəbul edilməsini tələb edir. Birinci hal populist, ötəri siyasətçilərə xasdır, ikinci hal isə ümummilli liderə, tarixi siyasi şəxsiyyətə xas olan davranış tərzidir. Məhz elə buna görədir ki, belə tarixi siyasi şəxsiyyətlər müasirləri tərəfindən kifayət qədər başa düşülmür, onların böyüklüyü, dahiliyi lazımınca qiymətləndirilmir. Təbii ki, bu belə də olmalıdır. Ona görə ki, heç kimin görə bilmədiyini görmək, aşkar etmək və buna uyğun qərarlar qəbul edib qətiyyətlə həyata keçirmək dahi tarixi şəxsiyyətə xas bir keyfiyyətdir. Böyük əksəriyyətin və ya hamının gerçək olduğunu zənn etdiyinin yanlış olduğunu qabaqcadan duymaq, onun qarşısını alaraq cəmiyyəti ağır bəladan, faciədən qurtarmaq, ümumini səfərbər edib ardınca sona qədər aparmaq və onları öz ideyalarının daşıyıcısına çevirmək ümummilli liderin tarixi missiyasıdır.

Liderlik məsələsini araşdıran Hristian Harrison yazır: "Bu günə qədər liderlik termininin dəqiq tərifi yoxdur. R.Stoqdil (1974, s. 259) iddia edirdi ki, "...demək olar ki, konsepsiyanı müəyyən etməyə cəhd edən insanlar qədər liderliyin müxtəlif tərifləri var". Bu, liderlik sahəsinə aid böyük həcmli nəşrlər və araşdırmaları nəzərə alsaq, aydındır"[1]. Son 70 ildə "lider" anlayışına konseptual yanaşmaların müqayisəli cədvəlini verən H.Harrison qeyd edir ki, liderliyin qabiliyyət və davranış kimi qavranılmasından ona təsir prosesi kimi yanaşmaya keçidi görmək mümkündür. Yəni liderlik daha çox təsir prosesi kimi başa düşülür. Məsələn, Hemfil (1949) hesab edirdi ki, liderlik qrup fəaliyyətini idarə etməyə cəlb edilən fərdin davranışıdır. Amma R.Stoqdilə görə, "liderlik məqsəd qoymaq və məqsədə çatmaq istiqamətində səylərində mütəşəkkil qrupun fəaliyyətinə təsir prosesi (hərəkəti) kimi qəbul edilə bilər"[2]. Uoren Bennisin fikrincə isə, liderlik "agentin tabeliyində olan şəxsi arzu olunan şəkildə davranmağa vadar etdiyi prosesdir"[3].

Qari Yukl da liderliyə proses kimi baxır və qeyd edir ki, liderlik başqalarının nə etməli, necə etməli olduğunu başa düşmək və razılaşmaq üçün sövq etmək prosesi və ortaq məqsədlərə nail olmaq üçün fərdi və kollektiv səyləri asanlaşdırmaq prosesidir[4].

Liderin fərdi keyfiyyətlərinin və qarşısına qoyulan məqsədlərin real mövqe ilə qarşılıqlı əlaqəsi nəticəsində onun "ikinci təbiətini" təşkil edən davranış tərzi formalaşır. Liderin üslubu və hədəf istiqaməti müəyyən sosial şəraitin izlərini daşıyır.

[1] Christian Harrison (2018) Leadership Theory and Research: A Critical Approach to New and Existing Paradigms // http://ereserves.unl.edu/contents/mngt811/y12.pdf

[2] Stogdill, R. (1974). Handbook of leadership. New York: The Free Press.

[3] Warren G. Bennis Leadership Theory and Administrative Behavior: The Problem of Authority // https://www.jstor.org/stable/2390911

[4] Yukl, G., 2013. Leadership in Organizations: Global Edition // http://www.mim.ac.mw/books/Leadership%20in%20Organizations%20by%20Gary%20Yukl.pdf.No1fvHJjqGHg1RgmjuyjD0oYNhx7MNeo

Maks Veberin liderlik nəzəriyyəsinə görə, digər institutlar zəif olduqda liderlər əhəmiyyətli təsirə malik ola bilər. Dövlətin iqtisadi inkişafının müəyyən edilməsi, demokratik dəyərlərin oturuşması, xarici dövlətlərlə milli maraqlar kontekstində qarşılıqlı münasibətlərin qurulması, sülhün və sabitliyin təmin edilməsi siyasi liderdən əhəmiyyətli dərəcədə asılıdır. Burada ölkənin demokratik seçkilər keçirilməsində uzun illər qazandığı təcrübəsi və ya yüksək iqtisadi inkişafı aparıcı, təyinedici amillər hesab edilə bilməz. Demokratik seçki nəticəsində seçilmiş dövlət başçısı, siyasi partiya rəhbəri səriştəsiz fəaliyyəti nəticəsində ciddi böhranların yaşanmasına səbəb olan davranışla yaddaşlara həkk ola bilər. Bununla bağlı istənilən ölkədən az və ya çox sayda misal gətirmək olar.

Tarixdə və siyasətşünaslıqda milli liderlərin hadisələrin formalaşmasında rolunu nəzərə alan yanaşmalar var. Determinist yanaşma tərəfdarları hesab edirlər ki, lider sosial hadisələrin baş verməsi və yönləndirilməsi baxımından ya çox az təsirə malikdir, ya da heç bir təsirə malik deyil. Böyük İnsan Nəzəriyyəsi tərəfdarları isə tarixi az sayda şəxslərin tərcümeyi-halı kimi nəzərdən keçirirlər.

Bəzi müəlliflər liderin təsadüfən meydana çıxması ilə bağlı fərziyyəni qəbul etmir və vurğulayırlar ki, lider cəmiyyətin inkişafında əhəmiyyətli, bəzən isə həlledici rola malik olmaqla yanaşı, milli iqtisadi artıma da əhəmiyyətli təsir edə bilir[5].

1840-cı illərdə Şotlandiya yazıçısı Tomas Karlayl tərəfindən irəli sürülən "Böyük İnsan Nəzəriyyəsi" əsl liderlərin doğulduğunu fərz edir. Liderlərin xarizma, zəka, müdriklik və ya başqa keyfiyyətlər vasitəsilə ehtiyac duyulduğu zaman yüksəlmək qabiliyyəti var. O, qəhrəmanların tarixi formalaşdırmaq üçün şəxsi xassələrdən və ya ilahi müdaxilədən istifadə etdiyini qeyd edirdi. Onun ən məşhur "Dünyanın tarixi, ancaq böyük insanların tərcümeyi-halıdır" sözü onun liderlərin doğulduğuna olan inancını əks etdirirdi. Böyük İnsan Nəzəriyyəsi XX əsrin əvvəllərinə kimi öz təsir gücünü saxlaya bilmişdi.

Liderliyə əsas yanaşmalardan biri də "əlamətlər nəzəriyyəsi"dir. Bu nəzəriyyəyə görə, fərdin malik olduğu səciyyəvi əlamətlər onu lider olmağa meyilləndirir və buna yaxşı imkan yaradır. Bu şəxsiyyət əlamətləri və ya davranış xüsusiyyətləri ailəyə xasdır və genetik olaraq ötürülür. Bu nəzəriyyə vurğulayır ki, liderlər onları uğur qazandıran bir çox ümumi əlamətlərə və xüsusiyyətlərə malikdirlər. Bu liderlik əlamətləri ya fərddə olan, ya da olmayan anadangəlmə və instinktiv əlamətlərdir. Əlamətlər nəzəriyyəsinin və xüsusiyyətlərin öyrənilməsinin əsasını qoyan Qordon Ollport və ondan sonrakı tədqiqatçılar liderin effektivliyi ilə fizioloji, demoqrafik, intellektual, vəzifə və sosial xüsusiyyətlərin qarşılıqlı əlaqəsi məsələsini gündəmə gətirdilər. Eyni zamanda, liderlik keyfiyyətlərini inkişaf etdirmək üçün fərdin olaraq nə edə biləcəyini araşdıraraq bu məsələni diqqət mərkəzinə gətirdilər.

---

[5] Yenə orada

Fövqəladə hallar nəzəriyyəsinə görə, liderlik təkcə insanın özü ilə bağlı deyil. Liderlik və liderlik üslubu şərait, ardıcılların keyfiyyəti və ya bir sıra digər dəyişən amillərdən asılıdır. Çünki ətraf mühitin daxili və xarici amilləri liderdən konkret şəraitə uyğunlaşmağı tələb edir. Bu nəzəriyyənin tərəfdarları hesab edirlər ki, bir təşkilatda lider kimi uğur qazanan şəxs başqa bir təşkilatda şəraitdən asılı olaraq uğurlu və ya uğursuz ola bilər. Bu halda lider olan şəxs deyil, təşkilat daxilində mühit, dinamika və kadr dəyişir.

Şərait nəzəriyyəsi fövqəladə hallar nəzəriyyəsinə çox bənzəyir. Effektiv liderlik lider, rəhbərlik edilən qrup və yerinə yetirilməsi tələb olunan vəzifələrlə müəyyən edilir.

Liderliyin davranış nəzəriyyəsi böyük liderlərin doğulmadığını, yaradıldığını fərz edir. Bu nəzəriyyə liderlərin şəxsiyyətinə və ya malik olduqları xüsusiyyətlərə deyil, fəaliyyətlərinə diqqət yetirir. Hesab edilir ki, müşahidə, öyrətmə və təcrübə vasitəsilə insan yaxşı lider ola bilər. Bu nəzəriyyə liderlərin müxtəlif vəziyyətlərlə qarşılaşdıqda lazımi cavab vermək üçün şərtləndirilə biləcəyi düşüncəsi ilə həmin şəraitdə necə davrandığına diqqət yetirir. Liderliyin davranış nəzəriyyəsini təmsil edən Kurt Levin liderliyin 3 tipini müəyyən etmişdir: avtoritar, demokratik və liberal. Avtoritar lider tabeliyində olanlarla məsləhətləşmədən təkbaşına qərarlar qəbul edir. Demokratik lider tabeliyində olanlarla məsləhətləşir, onların fikrini öyrənir və sonra qərar qəbul edir (onların rəyindən istifadə etməklə və ya istifadə etmədən). Liberal lider tabeliyində olanlara müstəqil qərar qəbul etmək imkanı yaradır və buna görə də vəzifənin öhdəsindən gəlməkdən başqa heç bir real liderlik rolu daşımır. K. Levinin fikrincə, bütün liderlər bu üç kateqoriyadan birinə aid edilə bilər.

Əsas suallardan biri ondan ibarətdir ki, özünü siyasi lider kimi təqdim edən və ya özünü siyasi liderlə eyniləşdirən şəxs siyasi proseslərə necə təsir edir? Və ya sual başqa cür də qoyula bilər. Məsələn, siyasi proseslər siyasi lideri müəyyənləşdirərək onu siyasi proseslərin önünə çıxarır, yoxsa siyasi proseslər özünün böhran mərhələsində prosesin axarını deyil onun keyfiyyətcə yeni mərhələyə keçidini təmin edə bilən siyasi liderin meydana çıxmasını diktə edir. Başqa sözlə desək, siyasi lider müəyyən həlledici məqamda siyasi prosesi idarəedilən prosesə çevirərək, yəni öz ideyasına kökləyərək siyasi münasibətlərin yeni arxitekturasını müəyyən edən şəxsiyyət kimi böyük sosial qrupun davranışını müəyyən edir və mənalandırır. Böyük sosial qrupun davranışını mənalandırmadan onun həmrəyliyini təmin etmək və sonda qrupun istədiyini ona vermək, qrupu müəyyən edilmiş məqsədə çatdırmaq mümkün deyil. Məqsədlə hərəkətlər, görülən işlər üst-üstə düşməlidir ki, son nəticə qrup üçün şəxsi məna kəsb etsin.

Siyasi lider özünün yaşadığı, inandığı, mənalandırdığı məqsədi sosial qrupun məqsədinə çevirməyi bacaran şəxsiyyətdir. Belə liderə malik olmayan böyük sosial qrup hərəkətə gəldikdən bir müddət sonra onun davranışı kütlə davranışının psixoloji mexanizmləri ilə tənzimlənir. Belə ki, bir tərəfdən,

davranışın məqsədyönlüyü pozulur, digər tərəfdən, çoxluğun fikir və emosiyalarının şəxsləşdirilməsi və vahid birlik kimi qrup üzvlərinin identifikasiyası pozulur. Nəticədə idarə olunmaz proseslər baş verir, idarə olunan sosial qrup kütləyə çevrilir və impulsiv, aqressiv davranışın təzahürü üçün əlverişli şərait yaranır. Çünki hərəkətə gələn sosial qrup məqsəd aydınlığını itirdikdə qarşıya qoyulmuş vəzifələri həll edə bilmir və sosial qrupda qrupdaxili təzyiq güclənir. Bu zaman yaranan güclü enerji yaradıcı fəaliyyətə deyil, dağıdıcı fəaliyyətə yönəlir.

Tarix və tarixdə şəxsiyyətin rolundan danışarkən iki mühüm məsələni qeyd etmək lazımdır. Birincisi, tarixi şəraiti və onun tələblərini, ikincisi, liderin şəxsiyyəti və onun keyfiyyətlərini. Bu baxımdan XX-XXI əsrlərin görkəmləri siyasi liderlərinin şəxsiyyətlərinin tədqiqinə həsr edilmiş elmi araşdırmaların müqayisəli təhlilini də aparmaq olar. Lakin bütün bu tədqiqatları birləşdirən bir neçə məsələni qeyd etmək lazımdır. Fəlsəfi, sosioloji, politoloji və psixoloji araşdırmalarda dövlətin və xalqın təşəkkül tarixində şəxsiyyətin roluna xüsusi önəm verilsə də, şəxsiyyətin siyasi liderə çevrilməsi və tarixi proseslərə təsir edərək onları müəyyən məcraya yönəldə bilmək imkanı haqqında ziddiyyətli fikirlər ortaya qoyulur. Ən azından iki maraqlı və metodoloji əhəmiyyətə malik yanaşmanı qeyd etmək istərdik. Birinci fikir ondan ibarətdir ki, liderlik həyatda qazanılmır və bu qabiliyyət anadangəlmədir. İkinci fikir isə ondan ibarətdir ki, liderlik anadangəlmə qabiliyyət deyil və fərdin şəxsiyyət kimi təşəkkülü prosesində formalaşan inteqrativ keyfiyyətdir.

Heydər Əliyev Azərbaycanın 1991-ci ildə yenidən əldə etdiyi müstəqilliyinin 1991-1993-cü illərində baş verən hadisələrdən danışarkən dövlət quran, yönəldən, inkişaf etdirən siyasi lideri belə səciyyələndirir: “Azərbaycan kimi bir dövlətdə hakim, yəni başçı olmaq üçün ağıl, zəka, insani keyfiyyətlər, mərdlik, cəsurluq, böyük təcrübə, dövlətçilik təcrübəsi və bir çox başqa xüsusiyyətlər lazımdır. Ən əsası isə - xalqa sədaqət lazımdır”[6]. Ulu öndər burada liderliyin dövlətə, xalqa xidmət olduğunu ön plana çəkir.

Liderliyə fenomenoloji yanaşmada, ilk növbədə, lider olmağı mümkün edən dörd əsas məqamı qeyd edilir: 1) liderin xüsusiyyətləri; 2) yerinə yetirməyə çalışdığı vəzifələr; 3) onun ardıcılları və seçiciləri; 4) onların qarşılıqlı əlaqə sistemi, lider və onun komponentləri arasında əlaqə mexanizmi.

Əsl lider o insan ola bilir ki, heç bir rəsmi səlahiyyəti, vəzifəsi olmasa da başqalarının potensialını birləşdirməyə və ümumi məqsədə yönəltməyə imkan verən ***güc*** nümayiş etdirir. Güc liderliyin zəruri komponentidir. Güc şəxsə heç bir rəsmi səlahiyyət verilməsə də, əsasən, ünsiyyət qurmaq və başqalarını əhəmiyyətli bir məqsədə çatmaq üçün səylərə qoşulmağa inandırmaq qabiliyyətinə əsaslanır. Bəzən insan çox çətin bir işə başlayanda hansısa bir qüvvəyə müraciət edərək deyir ki, ilahi, sən mən güc, qüvvət ver. Bu çağırış daxili potensialın, psixi enerjinin səfərbər edilməsinə yönəlir. Daxildən gələn bu

---
[6] Heydər Əliyev Müstəqilliyimiz əbədidir. Bakı, 2007, cild 22, səh.284.

güc nəinki şəxsin özünü, həm də onun ətrafında olan insanları hərəkətə gətirir. Biz buna Peyğəmbərlərlə bağlı olan rəvayətlərdə, dastanlarda və mifologiyada rast gəlirik. Eyni zamanda, idman yarışlarında da idmançının qəflətən haradansa bir ilahi güc aldığının və çox çətin maneələri aşaraq qələbə qazandığının şahidi oluruq. Bu hadisə onu müşahidə edənləri-azarkeşləri vəcdə gətirir, emosiyaları coşdurur və bu "güc" insanları maqnit kimi özünə çəkir.

Liderlik məsələsinin əsas tədqiqatçılarından biri hesab edilən Northaus Peter Qay liderlik mövzusuna aid tədqiqatları təhlil edərək yazır: "Liderliyin konseptuallaşdırılmasının çoxsaylı üsullarına baxmayaraq, aşağıdakı komponentlər liderlik fenomeninin mərkəzi kimi müəyyən edilir: (a) liderlik bir prosesdir, (b) liderlik təsir göstərir, (c) liderlik qruplarda baş verir və (d) liderlik ümumi məqsədləri ehtiva edir. Bu komponentlərə əsaslanaraq, bu mətndə liderliyin aşağıdakı tərifindən istifadə olunur: ***Liderlik** bir şəxsin ümumi məqsədə çatmaq üçün bir qrup şəxsə təsir etdiyi bir prosesdir*"[7]. Ola bilsin ki, bu tərif sadə və yaxşı bir tərif kimi qəbul edilsin. Amma qeyd etmək lazımdır ki, bu tərifdə şəxsiyyət liderlik mənbəyi kimi nəzərdən keçirilir. O fikrini belə şərh edir: "Liderliyi bir ***proses*** kimi təyin etmək o deməkdir ki, bu, liderdə olan bir əlamət və ya xüsusiyyət deyil, lider və ardıcıllar arasında baş verən bir tranzaksiya hadisəsidir. Proses liderin ardıcıllarına və ardıcıllarının isə ona təsir etdiyini özündə ehtiva edir. Liderlik xətti, birtərəfli hadisə deyil, daha çox interaktiv bir hadisədir. Liderlik bu şəkildə müəyyən edildikdə, o, hər kəs üçün əlçatan olur. Bu, qrupda rəsmi olaraq təyin edilmiş liderlə məhdudlaşmır.

Liderlik ***təsiri*** ehtiva edir. Burada söhbət liderin ardıcıllarına necə təsir etməsindən gedir. Təsir liderliyin dəyişməz şərtidir. Təsir yoxdursa liderlik də yoxdur. Təsir olmadan liderlik mövcud deyil.

Qeyd etmək lazımdır ki, liderlik bilavasitə ***ümumi məqsədlə*** bağlıdır. Liderlər enerjilərini birlikdə nəyəsə nail olmağa çalışan şəxslərə yönəldirlər. Ümumilikdə, lideri və onun ardıcıllarını bir ümumi məqsəd birləşdirir. Ümumi məqsədə yönəlişliyi liderin davranışına yeni etik çalar verir və seçilmiş məqsədə nail olmaq üçün liderin ardıcıllarla işləmək zərurətini ortaya çıxarır. Bir məqsəd, amal uğrunda həvəslə birgə çalışmaq qarşılıqlı münasibətlərin xarakterini şərtləndirir və liderlərin ardıcıllarına qarşı məcburi və ya qeyri-etik hərəkət etmək ehtimalını azaldır. Bu, həm də liderlərin və ardıcılların ümumi məqsədə doğru birlikdə işləməsi ehtimalını artırır (Rost, 1991)"[8].

Liderin və ardıcıllarının ümumi məqsədə doğru birlikdə hərəkət etməsi üçün lider qrupa təsir edən, onun davranışını şərtləndirən qrup dəyərlərini, ideyasını müəyyən etməlidir. Həmçinin siyasi lider xalqı bu məqsəd uğrunda mübarizə aparmağa, birlikdə hərəkət etməyə yönləndirməyi və birləşdirməyi bacarmalı, cəmiyyətdə vətəndaş həmrəyliyini təmin etməlidir. Buna misal olaraq

[7] Northouse, Peter Guy. Leadershop : theory and practice/ http://www.mim.ac.mw/books/Leadership%20Theory% 20and%20Practice%207th%20-%20Peter%20G%20Northouse.pdf.3tdp1Hihf5m2ZDoWZ8nbUIaDwuJ4D2I1

[8] http://www.mim.ac.mw/books/Leadership%20Theory%20and%20Practice%207th%20-%20Peter%20G%20Northouse.pdf.3tdp1Hihf5m2ZDoWZ8nbUIaDwuJ4D2I1

Azərbaycan xalqının 1991-ci ildə öz müstəqilliyini yenidən bərpa etdikdən sonra onu qoruyub saxlamaq və inkişaf etdirmək uğrunda mübarizəsini göstərmək olar. Bu mübarizə zamanı uğurun da, uğursuzluğun da siyasi lider amili ilə daha çox bağlı olduğunu görməmək mümkün deyil. Təsadüfi deyil ki, Ümummilli lider Heydər Əliyev Azərbaycanın keçdiyi inkişaf yoluna qiymət verərkən vurğulayırdı ki, müstəqilliyi əldə etmək şərəfli olduğu qədər də çətindir, lakin müstəqilliyi qoruyub saxlamaq və möhkəmləndirmək isə ondan qat-qat çətindir. Müstəqilliyi qoruyub saxlamaq və möhkəmləndirmək məqsədinə çatmaq üçün xalqın qəbul gözlədiyi, onu birləşdirəcək milli birlik ideyasının, gələcək haqqında aydın təsəvvür və bu gələcəyə inam yaradan, onun təmin edilməsi yollarını dəqiq göstərən milli dövlətçilik konsepsiyasının siyasi lider tərəfindən müəyyən edilməsi əsas məsələdir. Əminliklə deyə bilərik ki, Ümummili lider Heydər Əliyevin müəyyən etdiyi azərbaycançılıq məfkurəsinin və milli dövlətçilik konsepsiyasının həyata keçirilməsi bugünkü demokratik, güclü müstəqil Azərbaycan dövlətinin təşəkkülünü təmin etmiş və bundan sonrakı inkişaf uğurlarını da şərtləndirən aydın məqsədlərə yönəlik vahid dövlətçilik konsepsiyasıdır. Bu konsepsiya açıq sistem prinsipinə əsaslanır və daim inkişafdadır.

**Bir daha vurğulamaq istəyirəm ki, siyasi liderin xalqı birləşdirən milli ideyanı gerçəkləşdirməsi olduqca vacib, zəruri tarixi-siyasi hadisədir. Çünki yalnız bu halda siyasi lider və ardıcıllarının qarşılıqlı təsirinin məqsədyönlülüyü təmin edilə bilər. Əgər 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərini Azərbaycanda baş verən hadisələrə bir daha nəzər salsaq görərik ki, cəmiyyət bunu anlayır və gözləyirdi. Lakin bunu həll edə biləcək siyasi qüvvə, siyasi iradə və siyasi lider tələb edilirdi. Hakimiyyətdə olanlar da, hakimiyyətə can atanlar da bunu anlasalar da bu** *gücə* **malik deyildilər. Çünki ildırım surəti ilə baş verən dəyişikliklər həm də çevik, tənqidi təfəkkür, siyasi iradə, qətiyyət və tarix qarşısında tarixi məsuliyyət tələb edirdi. Bu məsuliyyəti dərk edərək öz üzərinə götürmək qabiliyyətinə malik olmayan, amma özlərini siyasi lider hesab edənlər elə ilk addımlarında iflasa uğradılar. Ona görə ki, xalqı bir məqsəd uğrunda birləşdirə bilmədilər. Ona görə ki, bu birliyi təmin edə biləcək nə aydın milli ideya və milli dövlətçilik konsepsiyasına, nə də gücə malik deyildilər. Siyasi lider kimi özünü təqdim edənlər xalqla qarşılıqlı adekvat münasibətləri də qura bilmədilər. 1988-1993-cü illərdə Azərbaycanda xalqın ayrı-ayrı qruplara parçalanmasına, azadlığın yanlış olaraq separatizm əhval-ruhiyyəsi ilə əvəzlənməsinə şərait yaradan "siyasi liderlərin" meydana gəlməsi ümumi məqsədi arxa plana keçirdi. Ən təhlükəlisi isə ondan ibarət idi ki, siyasi lider iddiasında olan, amma heç bir liderlik imkanı olmayan şəxslər xalqın müstəqil dövlət quruculuğuna, azadlıq hərəkatının uğuruna inamını, liderə, öndərə etimadını qırdılar, xalqın birliyinə sarsıtdılar. Çünki tarixin burulğanından çıxmaq üçün verilən tələblərdən onlar çox uzaq idilər.**

Bu baxımdan müstəqillik dövründə əldə edilmiş uğurlarla yanaşı, həm də milli dövlətin təşəkkülü prosesində xalqın yaşadığı ağır böhranlı tarixi hadisələrin yaratdığı çətinliklər və onların aradan qaldırılması da araşdırılmalıdır. Qeyd etmək lazımdır ki, 1988-1993-cü illərdə yaranmış tarixi şərait bu məsələni həll edə biləcək siyasi iradəyə, dövlətçilik təcrübəsinə, siyasi gücə və səriştəyə malik cəsur liderin meydana çıxmasını zəruri edirdi. Belə bir lider var idi, lakin xarici və xaricdən idarə edilən daxili qüvvələr həmin liderə qarşı müxtəlif üsullarla mübarizə aparır, hətta qarayaxmalardan çəkinmirdilər. Öz xalqı ilə həmişə bir yerdə olan, Azərbaycanın Respublikasının inkişafı, xalqının sosial rifahı üçün mövcud siyasi quruluş çərçivəsində mümkün olan bütün imkanlardan istifadə edərək böyük işlər görmüş Heydər Əliyev 1990-cı ilin 20 yanvarında azərbaycanlılara qarşı törədilmiş Qanlı Yanvar qırğını ilə bağlı Moskva şəhərində Azərbaycan nümayəndəliyində bu cinayətin təşkilatçılarını və onu törədənləri sərt tənqidi, həmişə olduğu kimi bu ağır gündə də xalqı ilə bir yerdə olduğunu bəyan etməsi onun güclü siyasi iradəyə malik cəsur və qətiyyətli siyasi lider olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi. Xalq öz xilaskarını artıq aydın şəkildə görürsə də, bu xilaskarlıq missiyası geniş mənada yalnız tarixi "Qayıdış"dan sonra - 15 iyun 1993-cü ildən gerçəkləşməyə başladı. Bu, qanunauyğunluq idi və heç bir güc, heç bir maneə bu prosesin qarşısını artıq ala bilməzdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli sərəncamında deyildiyi kimi: *"Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir"*[9].

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin iki dövrü var: 1969-1982-ci illər və 1993-2003-cü illər. Hər iki dövrdə Heydər Əliyev Azərbaycan dövlətinin və xalqının ən çətin zamanlarında siyasi hakimiyyətə gəlmiş və xalqın birliyini təmin etmiş, Azərbaycanın iqtisadi yüksəlişi, xalqın sosial rifahı, Azərbaycan dilinin, ədəbiyyatının, incəsənətinin, ənənələrinin qorunması üçün böyük işlər görmüşdür.

Məhz həmin illərdə Azərbaycan bütün sahələrdə sürətlə inkişaf etməyə başladı. Respublika yenidən qurulurdu. Aqrar ölkə kimi tanınan, amma kənd təsərrüfatı sahəsində böyük uğurları olmayan respublikada həm kənd təsərrüfatı inkişaf etdirildi, həm də ölkə sənayeləşdirildi – həmin dövrün yüksək texnologiyaları əsasında yeni zavod və fabriklər tikildi. Ölkənin sosial-iqtisadi tərəqqi dövrü başladı.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasına 1969-1982-ci illərdə rəhbərlik etdiyi dövrdəki fəaliyyəti Azərbaycan Respublikasının

---

[9] Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respulikası Prezidentinin sərəncamı // https://e-qanun.az/framework/52506

Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli sərəncamında dolğun şəkildə səciyyələndirilmişdir: *"Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.*

*Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir"*[10].

Bu iqtibasdan da göründüyü kimi, Heydər Əliyev siyasi liderə xas olan keyfiyyətlərlə səciyyələndirilir və mürəkkəb şəraitdə belə tənqidi və yaradıcı düşüncəyə əsaslanaraq vəziyyətdən ən optimal çıxış yolunu taparaq ardıcıllarını, həmfikirlərini birləşdirərək aydın məqsədlərə doğru apara bilmişdir. Liderlik və idarəetmə bəzən bir-birini əvəz etsə də fərqli anlayışlardır. Liderlər nəyə nail olmaq lazım olduğunu təsəvvür edir, bunu insanlara çatdırır, onları hədəflərə çatmaq üçün ruhlandırır və həvəsləndirir.

Ümumi bir məqsəd üçün liderlə ardıcıllarının birgə fəaliyyətdə qarşılıqlı təsiri zəruridir. Liderlərin ardıcıllara, ardıcılların isə liderlərə ehtiyacı var. Bu fəaliyyətin baş tutması və məqsədə çatmaq üçün liderlə ardıcılları bir-birləri ilə sıx bağlı olsalar da, onlar arasında əlaqələri quran, ünsiyyət yaradan və münasibətlərin davamlılığını tənzimləyən liderdir.

Bəzi müəlliflər hesab edirlər ki, bir fenomen kimi liderlik bir çox səviyyələrdə baş verir: təkbətək münasibətlər, qrup səviyyəsi, təşkilati səviyyə və sairə[11]. Bu o deməkdir ki, liderlik kontekstlə müəyyən edilir. Məsələn, təşkilati liderlik "təşkilati məqsədlərin inkişafına və əldə edilməsinə töhfə verən prosesləri və yaxın nəticələri (işçinin öhdəliyi kimi)" əhatə edir və "sistemin xüsusiyyətləri və dinamikası ilə mahiyyətcə məhdudlaşır"[12]. Bu, bir-biri ilə

---

[10] Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // https://e-qanun.az/framework/52506

[11] Humphrey, R.H., 2014. Effective Leadership: Theory, Cases, and Applications. Thousand Oaks, CA SAGE Publications.

[12] Zaccaro, S.J. and Klimoski, R.J., eds. 2001. The Nature of Organizational Leadership: Understanding the Performance Imperatives Confronting Today's Leaders. San Francisco, CA; Jossey-Bass.

əlaqəli üç amilin araşdırılmasını nəzərdə tutur: lider, ardıcıllar və kontekst[13]. Bu baxımdan lider "müxtəlif biliklərə, qabiliyyətlərə və bacarıqlara malik bir və ya bir neçə ardıcıl(lar)ı seçən, təchiz edən, öyrədən və təsir göstərən və ardıcılı(ları) təşkilatın missiyasına, məqsədlərinə yönəldən və məqsədlərə nail olmaq üçün mənəvi, emosional və fiziki enerjini həvəslə sərf edən şəxsdir"[14]. Beləliklə, təşkilati məqsədlərə çatmaqda liderin rolu əsasdır. Buna görə də yaxşı bir lider dürüstlük, xarizma, zəka, sağlam düşüncə, məsuliyyət və sairə bu kimi xüsusi əlamətlərə malik olmalıdır. Belə siyasi lider olmadıqda istər kiçik və ya böyük sosial qruplar, istərsə də dövlət özünün inkişaf potensialını aşkar etmək və gerçəkləşdirmək imkanına malik olmur. Nəticədə isə tənəzzül və ya dağılma baş verir. Bunu biz 1988-1993-cü illərdə Azərbaycanda baş verən hadisələri nəzərdən keçirdikdə daha aydın şəkildə görə bilirik. Bu məsələ geniş miqyaslı fənlərarası tədqiqatın mövzusu olduğu üçün biz bu məqalədə siyasi lider mövzusu kontekstində həmin dövrün yalnız bəzi sosial-psixoloji cəhətlərin ilkin qısa təhlilini verməyə çalışacağıq.

Qeyd etməliyik ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikası 1990-cı illərin əvvəllərində nəinki bölgədə və dünyada baş verən hadisələrə təsir etmək gücünə malik deyildi, hətta özünün mövcudluğu belə sual altında idi. Gənc Respublikada xaos, özbaşınalıq hökm sürürdü. Siyasi hakimiyyətdə olan şəxslər baş verən tarixi prosesləri tam və aydın dərk etmir, nə baş verir, niyə baş verir və nə etmək lazımdır kimi suallara cavab verə bilmirdilər.

Keçmiş SSRİ-nin rəhbəri olmuş Mixail Qorbaçovun Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevi 1987-ci ilin oktyabrında siyasi hakimiyyətdən uzaqlaşdırılması üçün onun tutduğu vəzifələrdən istefasına nail olması xalqımıza qarşı hazırlanmış məkrli planın işə salınmasına bir işarə olduğunu çoxları zamanında anlamadılar. Hətta, Mixail Qorbaçov 1887-ci ilin noyabrında Fransaya rəsmi səfəri edərkən onu müşayiət edən erməni əsilli iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Fransada Azərbaycana qarşı saxta ittihamlarla çıxış edəndə tarixi proseslərin təhlükəli məcraya məqsədyönlü şəkildə yönləndirildiyinin fərqinə varmadılar. Əbdürrəhman Vəzirovun 1988-ci ildə Azərbaycana rəhbər göndərilməsi və onun qəbul etdiyi antimilli qərarlar isə yaşanacaq faciələrin miqyasını daha da genişləndirdi. Əsasən ermənilərdən təşkil edilmiş Sovet qoşunları tərəfindən 1990-cı ilin 20 yanvar gecəsi mülki Azərbaycan əhalisinin qətlə yetirilməsinə imkan verərək, gecə il öz sahiblərinin yanına qaçdı. Azərbaycanın o vaxtkı rəhbərliyi bu qanlı qırğına siyasi qiymət verməyə nə siyasi iradəsi, nə də cəsarəti çatmadı.

Həmin dövrdə Azərbaycanda baş verən hadisələr haqqında obyektiv məlumatın yayınlamasına da imkan verilmirdi. Ölkə tam informasiya

[13] Bratton, J., ed. 2020. Organizational Leadership. Thousand Oaks, CA: SAGE Publications.

[14] Winston, B.E. and Patterson, K., 2007. An integrative definition of leadership. International Journal of Leadership Studies, 1(2), pp.6-66.

blokadasında idi. Xalq nə baş verdiyini, niyə baş verdiyini və nə edəcəyini bilmirdi. Belə bir məqamda 1990-cı il yanvarın 21-də Ümummilli lider Heydər Əliyev İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi və bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törədilməsi səbəblərini də açıqladı, xalqına dəstək oldu. Hesab edirik ki, bu tarixi hadisə idi. İlk dəfə nə baş verdiyini Heydər Əliyev bütün dünyaya bəyan etdi. Məhz buna görə SSRİ rəhbərliyi və şəxsən azərbaycanlılara qarşı hərbi cinayətin törədilməsinə əmr vermiş Mixail Qorbaçov bu həqiqəti gizlətmək üçün Heydər Əliyevə qarşı repressiyaları daha da gücləndirdi.

Bu hadisənin üzərindən ötəri keçmək olmaz. Çünki həmin dövrdə baş verənləri və sonrakı prosesləri düzgün qiymətləndirmək üçün mühüm əhəmiyyət kəsb edir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin hadisə haqqında demişdi: "*Hamımız yaxşı xatırlayırıq ki, pensiyada olan Heydər Əliyev faciə baş verəndən dərhal sonra Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmişdi, öz etiraz səsini ucaltmışdı. O vaxt Sovet İttifaqının çökməsinə hələ iki il vaxt qalırdı. Biz o vaxt Sovet İttifaqının rəhbərliyinə qarşı açıq ittihamları, demək olar ki, çox nadir hallarda görürdük. Bu, böyük cəsarət tələb edirdi. Heydər Əliyev həmişə olduğu kimi, o ağır günlərdə də xalqla bərabər, birlikdə idi*". Bəli, Ulu Öndər həmişə xalqı ilə birlikdə oldu, ondan dəstək aldı və Vətəninə, xalqına, dövlətinə sadiq oldu.

1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, bu gün müstəqil, qüdrətli, sürətlə və davamlı inkişaf edən, yeniləşən, demokratiya yolunda inamla irəliləyən, şanlı zəfərlər qazanan Azərbaycan dövləti bəlkə də yox idi. Məhz Ulu Öndərin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunun əsası qoyuldu və nəticədə, qurtuluş savaşında tənəzzüldən tərəqqiyə doğru dönüş başlandı. Ulu Öndərin qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu:

Bu gün Azərbaycan dövləti tarixinin ən qüdrətli dövrünü yaşayır və bu uğur 30 il əvvəl Heydər Əliyev tərəfindən müəyyən edilən müstəqil dövlət quruculuğu siyasətinin bəhrəsidir. 1993-cü il iyunun 15-dən başlanan tərəqqi yolu tariximizə qızıl hərflərlə yazılıb. Amma əldə edilən nailiyyətlər o qədər də asan başa gəlməyib.

1991-ci ildə Azərbaycan müstəqilliyinə qovuşsa da, formal olaraq özünü müstəqil elan etsə də, sözün həqiqi mənasında müstəqil dövlət hesab etmək mümkün deyildi. Çünki, müstəqil dövlətlərə xas olan əlamətlərin heç biri Azərbaycanda yox idi və bunun nəticəsi kimi cəmi üç il sonra - 1993-cü ildə ölkə tarixinin ən ağır günlərini yaşamağa bağladı. Dövlət ağır, çətin sınaq qarşısında idi və o dövrdəki hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində vəziyyət daha da dramatikləşdi.

Bir tərəfdən torpaqlarımız işğal edilirdi, digər tərəfdən on minlərlə soydaşımız köçkün həyatı yaşamağa məcbur qalırdı. Bu azmış kimi ölkədə vətəndaş müharibəsinə də rəvac verildi. Döyüş bölgələrindəki hərbi birləşmələr çıxarılaraq Bakı və Gəncə arasında üz-üzə gətirilib toqquşmalara sövq edilirdi. Bu da Azərbaycanın dövlət kimi taleyini sual altında qoyurdu. Məhz belə bir məqamda xalqın çağırışı ilə Bakıya gələn Ümummilli Lider Heydər Əliyev ilk növbədə hadisələrə obyektiv qiymət verdi, vəziyyətdən çıxış yollarını göstərdi və sonra qanlı hadisələrin qarşısını alma üçün Gəncəyə getdi, qardaş qırğınının qarşısını aldı.

Hələ 1991-ci ilin yayında dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinin sessiyasında çıxış edərək Qarabağın başı üzərindəki qara buludların hansı ağır nəticələrə səbəb ola biləcəyi haqqında mesaj verib və problemin qarşısının alınması istiqaməti ilə bağlı təkliflərini səsləndirmişdi. Çox təəssüflər olsun ki, həmin dövrdə Ayaz Mütəllibovun rəhbərlik etdiyi və AXC rəhbərliyinin dəstəklədiyi bir komanda Heydər Əliyevin bu çağırışına nəinki səs verdi, hətta ona qarşı qarayaxma kampaniyasına başladılar. Bunun nəticəsi isə çox ağır oldu, Azərbaycan xalqı ağır məşəqqətlər yaşadı. Milli birliyə və müstəqilliyə xəyanət edildi.

Bu tarixi həqiqətləri Azərbaycan xalqı yaşadı və bütün proseslərə şahidlik etdi. Çünki həmin zaman hakimiyyət dairəsində vəziyyətdən çıxış yolunu göstərə biləcək, ağır yükü çiyinlərinə götürəcək nə siyasi qüvvə, nə də siyasi lider var idi. Nicat, qurtuluş yolu yalnız Heydər Əliyevin uzaqgörən siyasətindən keçirdi.

Həmin dövrdə Azərbaycan getdikcə daha böyük təhlükəyə doğru yuvarlanırdı. Həmin zaman ölkənin müstəqilliyinin əleyhinə olan bəzi xarici dairələrin ölkə daxildə dəstək verdiyi qüvvələr də hərəkətə keçmişdi. Cənub bölgəsində separatçı Əlikram Hümbətovun yaratdığı qondarma qurum, şimal bölgəsinə yeridilən separatçı dəstələr Azərbaycan dövlətçiliyinin əsasını sarsıtmağa cəhd edirdilər. Bütün bunlar Azərbaycanı parçalamağa yönəlmişdi və bütövlükdə müstəqil dövlət kimi mövcudluğunu sual altına qoyurdu.

Lakin xalq Ulu Öndərin ətrafında sıx birləşməklə öz gələcək taleyini həll etdi. Ümummilli Lider Heydər Əliyev həyatı üçün real təhlükələrə baxmayaraq, xalqın çağırışına səs verərək Bakıya gəldi və daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı. İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, dövlətin və xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

Məhz, bu dövrdən Azərbaycanda ciddi şəkildə müstəqil dövlət quruculuğu işləri başladı. Dövlət quruculuğu ilə yanaşı, həm də Ermənistanın Azərbaycana qarşı işğalçı hücumlarının qarşısını almaq üçün qısa müddətdə çevik ordu birləşmələri yaradıldı, əks hücumlara başlanıldı. İtirilmiş yaşayış məntəqələrinin

bir qismi geri alındı, amma daha böyük təhdidlər olduğuna görə müvəqqəti atəşkəs elan edildi. Çünki həm də dövlətin büdcəsində müharibə aparmaq, əhalinin normal həyat fəaliyyətini təmin etmək üçün vəsait yox idi. Əvvəlki siyasi hakimiyyət ölkəni elə vəziyyətə salmışdı ki, insanlar gecədən səhərə qədər çörək növbəsinə dayanırdılar, amma çörək çatmadığı üçün bir çoxları evə əliboş qayıdırdılar. Arzular puç olur, ümidlər qırılırdı. Hər şey dağıdılmış və ya talan edilmişdi. Biz bunu heç vaxt unutmamalıyıq ona görə ki, bir daha belə dövrə qayıtmayaq.

Digər tərəfdən, həmin dövrdə hakimiyyətdə olanlar vəzifələrini donduraraq dövlətin fəaliyyətini iflic vəziyyətinə salmaq yolunu tutdular. Bu, məsuliyyət hissini itirən məmurların dövlətə və xalqa qarşı xəyanəti idi. Ona görə də Azərbaycan bu vəziyyətdən qurtulmaq üçün zaman qazanmalı idi və belə də oldu.

Ümummilli Lider Heydər Əliyev bütün istiqamətlər üzrə inkişaf konsepsiyasını müəyyən edərək Azərbaycanın xarici əlaqələrini gücləndirməyə başladı. 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalamaqla möhkəm dövlətçiliyin əsası qoyuldu. Ölkədə sabitlik yaradıldı, xarici şirkətlər Azərbaycana investisiya yatırmağa başladılar.

Heydər Əliyev uzaqgörənliyi 1993-cü ildə məhv olmaq təhlükəsi ilə üzləşən Azərbaycanın anarxiyadan 1995-ci ildə sabit, güclü dövlət quruculuğu prosesinə keçidini tam təmin etdi. 1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi yaddaşlarda və tarixdə qaldı. Müstəqil Azərbaycan Respublikasının Yeni tarixi yazıldı. Azərbaycanın beynəlxalq əlaqələri formalaşdırıldı, dünya birliyində yüksək yer tutan ölkəmiz nəinki beynəlxalq təşkilatlara üzv oldu, həm də həmin təşkilatlarda söz sahibi oldu. Həmin dövr "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamda haqlı olaraq belə qiymətləndirilir:

*"Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir"*[15].

Bu gün Azərbaycan özünün İntibah dövrünü yaşayır və əminliklə deyə bilərik ki, bu uğurların əsası 30 il öncə qoyulub. Hesab edirik ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf konsepsiyasını uğurla gerçəkləşdirən Prezident İlham Əliyev ölkəmizi məhz Heydər Əliyevin görmək istədiyi Azərbaycana çevirib. Və birmənalı olaraq qeyd etməliyik ki, *"Müstəqil*

[15] Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // https://e-qanun.az/framework/52506

*Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir"*[16].

Bu gün Azərbaycanın qətiyyətli və tam müstəqil siyasət yürüdən güclü siyasi lideri, möhkəm və davamlı inkişaf edən iqtisadiyyatı, qüdrətli ordusu var. 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmiz bunu bir daha həm təsdiq etdi, həm də daha da möhkəmləndirdi. Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə qəhrəman əsgər və zabitlərimiz Qarabağı erməni-faşist işğalçılarından azad edərək Zəfər tariximizi yazdılar. Bu, həm də təməli 1993-cü ildə Ulu Öndər tərəfindən qoyulmuş Azərbaycan Silahlı Qüvvələrinin Ana Vətənin azadlığı uğurunda müqəddəs savaşda yazdığı Şərəf tarixi idi.

Heydər Əliyev dövrünün ən nüfuzlu siyasətçilərindən biri idi. Və Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında haqlı olaraq deyilir: *"Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir"*[17].

Birmənalı olaraq deyə bilərik ki, biz Ulu Öndər Heydər Əliyevin müstəqil, güclü Azərbaycan üçün işləyib hazırladığı və həyata keçirdiyi siyasətin təntənəsinin şahidiyik. 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmiz də bunun bariz nümunəsidir. Bu siyasəti uğurla davam etdirən və ölkənin keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidini təmin edən müasir milli dövlət quruculuğu modelinin müəllifi Prezident İlham Əliyev Azərbaycan Respublikasını dünyanın ən qüdrətli dövlətləri ilə bir sırada duran dövlətə çevirib. Bu gün Azərbaycan inkişaf etmiş böyük güclərlə birlikdə müştərək beynəlxalq layihələr həyata keçirir, BMT-dən sonra dünyada ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına rəhbərlik edir. Azərbaycan müstəqil siyasət aparan az sayda dövlətlərdən biridir. Bütün bunlar fitri istedadla yanaşı, siyasi liderə xas olan ən mühüm keyfiyyətlərə malik yeni tip liderin dünyanın yeni obrazını formalaşdıran yaradıcı fəaliyyəti nəticəsində mümkün olmuşdur. Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyev 15 oktyabr 2003-cü ildə keçiriləcək prezident seçkiləri ilə bağlı xalqa müraciətində yazırdı ki, İlham Əliyev "yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və

[16] Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // https://e-qanun.az/framework/52506

[17] Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // https://e-qanun.az/framework/52506

iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyətdir...İnanıram ki, mənim axıra satdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək”[18]. Bəli, Prezident İlham Əliyev xalqın dəstəyini və məhəbbətini fədakar fəaliyyəti nəticəsində qazanaraq milli birliyi təmin etdi. Ölkə iqtisadiyyatının 10 dəfə böyüyərək Müstəqil Azərbaycan dövlətinin dünya siyasətində və dünya iqtisadiyyatında təsir gücünə malik dövlətə çevrilməsinə nail oldu. İlham Əliyev güclü siyasi lider kimi yeni dünyanın siyasi paradiqmalarının formalaşmasında əhəmiyyətli rol oynadı. Prezident İlham Əliyev Azərbaycan Respublikasının 30 il bundan əvvəl Ermənistanın işğalı nəticəsində pozulmuş ərazi bütövlüyünü və suverenliyini beynəlxalq hüququn prinsip və normaları çərçivəsində güc və diplomatiya diadasının yeni düsturunu irəli sürərək tam və qəti şəkildə həll etdi. Eyni zamanda, Prezident İlham Əliyev XXI əsrin ən güclü siyasi lider və rəhbər kimi yeni geosiyasi gerçəklik yaradaraq dünya düzəninə baxışı dəyişdi: ***gücün*** münaqişələrə, dağıntılara, yoxsulluğa, ayrı-seçkiliyə deyil, insan ləyaqətinə və milli kimliyə hörmətə, insan hüquq və azadlıqlarının təmin edilməsinə, sülhə, davamlı inkişafa, multikultural həyat tərzinə, sosial ədalət və rifaha necə yönəltməyin modelini dünyaya təqdim etdi və bu modeli Azərbaycan Respublikasında uğurla gerçəkləşdirdi. Mübaliğəsiz deyə bilərik ki, Prezident İlham Əliyev xoşbəxt cəmiyyətin siyasi liderinin obrazını yarada bildi.

Yekunda bir daha qeyd etmək istərdim ki, siyasi liderin xalqı ümumi məqsədə-müstəqil, suveren, demokratik rifah dövlətini quraraq firavan, azad və təhlükəsiz yaşayıb-yaratmağa çatmaq üçün birləşdirməsi cəmiyyətdə həmrəyliyin, yekdilliyin və məmnunluğun təmin edilməsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövrünün ən güclü siyasi lideri kimi Azərbaycanın Ən Yeni tarixini yazır və həyata keçirdiyi siyasətlə müstəqil Azərbaycan dövlətini sürətlə inkişaf etdirir, hər bir vətəndaşın rahat, təhlükəsiz, firavan və xoşbəxt həyatını təmin edir.

## ƏDƏBİYYAT:


1. Avery, G.C., 2004. Understanding Leadership: Paradigms and Cases. London: SAGE.
2. Barker, R.A., 2001. The nature of leadership. Human Relations, 54(4), pp.469-494.
3. Bass, B. M., 1990. Bass & Stogdill’s Handbook of Leadership: Theory, Research, and Managerial Applications. 3rd ed. New York: The Free Press.
4. Bass, B.M. and Bass, R., 2009. The Bass Handbook of Leadership: Theory, Research, & Managerial Applications. New York, NY: Simon and Schuster.


[18] Əliyev İlham İnkişaf – məqsədimizdir. B., Azərnəşr, 2008, səh.10.

5. Bogardus, E.S., 1934. Leaders and Leadership. New York, NY: D. Appleton-Century Company.
6. Bolden R. The elusive nature of leadership practice // https://ore.exeter.ac.uk/repository/bitstream/handle/10036/104833/Bolden R.pdf?sequence=4&isAllowed=y
7. Bolden, R., Witzel, M. and Linacre, N., eds. 2016. Leadership Paradoxes: Rethinking Leadership for an Uncertain World. London: Routledge.
8. Bratton, J., ed. 2020. Organizational Leadership. Thousand Oaks, CA: SAGE Publications.
9. Carmichael, J., Emsell, P., Collins C. and Haydon, J., 2011. Leadership & Management Development. Oxford: Oxford University Press.
10. Caroll, B., Levy, L. and Richmond, D., 2008. Leadership as practice: Challenging the competency paradigm. Leadership, 4(4), pp.363-379.
11. Crevani, L., Lindgren, M. and Packendorff, J., 2010. Leadership, not leaders: On the study of leadership as practices and interactions. Scandinavian Journal of Management, 26, pp.77-86.
12. Crevani, L. and Endrissat, N., 2016. Mapping the leadership-as-practice terrain: Comparative elements. In: J. A. Raelin, ed. 2016. Leadership-As-Practice: Theory and Application. New York, NY: Routledge. pp.21-49.
13. De Pree, M., 2004. Leadership Is an Art. New York, NY: Doubleday.
14. Fairholm, M.R. and Fairholm, G.W., 2009. Understanding Leadership Perspectives: Theoretical and Practical Approaches. New York, NY: Springer.
15. Gill, R., 2011. Theory and Practice of Leadership. 2nd ed. London: SAGE.
16. Grint, K., 2005. Leadership: Limits and Possibilities. Basingstoke: Palgrave Macmillan.
17. Grint, K. (2004) What is Leadership? From Hydra to Hybrid. Working paper, Saïd Business School and Templeton College, Oxford University.
18. Grint, K. (1997) Leadership: classical, contemporary and critical approaches, Oxford: Oxford University Press.
19. Goethals, G.R. and Sorenson, G.L.J., eds. 2006. The Quest for a General Theory of Leadership. Cheltenham: Edward Elgar Publishing.
20. Gosling, J. and Murphy, A. (2004) Leading Continuity. Working Paper: Centre for Leadership Studies, University of Exeter
21. Gosling, J., Jones, S., Sutherland, I. and Dijkstra, J., 2012. Key Concepts in Leadership. London: SAGE.
22. Hanbing Zhang*, Maolin Ye A Literature Review of Self-Sacrificial Leadership // https://www.scirp.org/(S(i43dyn45teexjx455qlt3d2q))/journal/paperinformation.aspx?paperid=69604

23. Haslam, S.A., Reicher, S.D. and Platow, M.J., 2020. The New Psychology of Leadership: Identity, Influence and Power. 2nd ed. Abingdon: Routledge.
24. Helms, L., ed. 2012. Comparative Political Leadership. Basingstoke: Palgrave Macmillan.
25. Humphrey, R.H., 2014. Effective Leadership: Theory, Cases, and Applications. Thousand Oaks, CA SAGE Publications.
26. Janda, K.F., 1960. Towards the explication of the concept of leadership in terms of the concept of power. Human Relations, 13(4), pp.345-363.
27. Keating, C.J., 1982. The Leadership Book. New York, NY: Paulist Press.
28. Koestenbaum, P., 2002. Leadership: The Inner Side of Greatness, A Philosophy for Leaders. San Francisco, CA: Jossey-Bass.
29. Kotterman, J., 2006. Leadership vs management: What's the difference? The Journal for Quality & Participation, 29(2), pp.13-17.
30. Kouzes, J.M. and Posner, B.Z., 1995. The Leadership Challenge. San Francisco, CA: Jossey-Bass.
31. Kuper, S., 2014. Soccer Men: Profiles of the Rogues, Geniuses, and Neurotics Who Dominate the World's Most Popular Sport. New York, NY: Nation Books.
32. MacArthur, J. 2004. The Book on Leadership. Nashville, TN: Thomas Nelson.
33. Marinescu, P., Toma, S.-G. and Săseanu, A., 2011. Intelligence and leadership in education. Studia Universitatis "Vasile Goldiş" Arad- Seria Ştiinţe Economice, 21, pp. 422-429. [online] Available at: <https://core.ac.uk/reader/26797160 > [Accessed 21 September 2020].
34. Morrell, K. and Hartley J. (2006) 'A Model of Political Leadership', Human Relations, 59(4): 483-504. // https://www.academia.edu/19426397/Morrell_K_and_Hartley_J_2006_A_Model_of_Political_Leadership_Human_Relations_59_4_483_504
35. Nohria, N. and Kurana, R., eds. 2010. Handbook of Leadership Theory and Practice. Boston, MA: Harvard Business School.
36. Northouse, P.G., 2013. Leadership: Theory and Practice. 6th ed. Thousand Oaks, CA: SAGE Publications.
37. Palestini, R, 2009. From Leadership Theory to Practice: A Game Plan for Success as a Leader. New York, NY: Rowman & Littlefield Education.
38. Raelin, J. A., 2011. From leadership-as-practice to leaderful practice. Leadership, 7(2), pp.195-211.
39. Raelin, J.A., 2016a. It's not about the leaders: It's about the practice of leadership. Organizational Dynamics, 45(2), pp.124-131.
40. Raelin, J.A. ed., 2016b. Leadership-As-Practice: Theory and Application. New York, NY: Routledge.
41. Richards, D. and Engle, S. 1986. After the vision: Suggestions to corporate visionaries and vision champions. In: J.D. Adams, ed. 1986.

Transforming Leadership. Alexandria, VA: Miles River Press. pp.199-215.
42. Riggio, R.E., 2017. Management and leadership. In: A. Wilkinson, S. J. Armstrong and M. Lounsbury, eds. 2017. The Oxford Handbook of Management. Oxford: Oxford University Press. Ch.14.
43. Robbins, S., 1998. Organizational Behavior: Concepts, Controversies, Applications. Upper Saddle River, NJ: Prentice Hall International.
44. Rosenbach, W.E., Taylor, R.L. and Youndt, M.A., eds. 2018. Contemporary Issues in Leadership. 7th ed. New York, NY: Routledge.
45. Rost, J.C., 1991. Leadership for the Twenty-First Century. Westport, CT: Praeger.
46. Saseanu, A.-S., S.-G. Toma and Marinescu, P., 2014. Feminine leadership and organisational culture. Manager, 19(1), pp.144-150.
47. Skipton, L.H., Lewis, R., Freedman, A.M. and Passmore, J., eds. 2013. The Wiley-Blackwell Handbook of the Psychology of Leadership, Change, and Organizational Development. Chichester: Wiley-Blackwell.
48. Stogdill, R. (1948). Personal factors associated with leadership: A survey of the literature. Journal of Psychology, 25, 35-71.
49. Stogdill, R. (1974). Handbook of leadership. New York: The Free Press.
50. Storey, J., ed. 2004. Leadership in Organizations: Current Issues and Key Trends. London: Routledge.
51. Toma, S.-G. and Marinescu, P., 2013. Steve Jobs and modern leadership. Manager, 17, pp.260-269.
52. Toma, S.-G., Marinescu, P. and Constantin, I., 2016. Carlos Ghosn, a leader par excellence. Manager, 24,pp.191-198.
53. Toma, S.-G., Marinescu, P., Constantin, I. and Costea, D., 2019. Beyond charismatic leadership: The case of Jack Ma. Manager, 29, pp.99-105.
54. Toma S.-G., Grădinaru, C. and Zainea, L.N., 2020. Leadership and wisdom. Manager, 31 (1), pp.86-92.
55. Tourish, D., 2008. Challenging the transformational agenda: Leadership theory in transition? Management Communication Quarterly, 21(4), pp.522-528.
56. Zaccaro, S.J. and Klimoski, R.J., eds. 2001. The Nature of Organizational Leadership: Understanding the Performance Imperatives Confronting Today's Leaders. San Francisco, CA; Jossey-Bass.
57. Winston, B.E. and Patterson, K., 2007. An integrative definition of leadership. International Journal of Leadership Studies, 1(2), pp.6-66.
58. Yukl, G., 2013. Leadership in Organizations: Global Edition // http://www.mim.ac.mw/books/Leadership%20in%20Organizations%20by%20Gary%20Yukl.pdf.No1fvHJjqGHg1RgmjuyjD0oYNhx7MNeo

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TƏHSİL DİPLOMATİYASI

**Fərrux RÜSTƏMOV,**
***ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi***

Ulu Öndər Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən mühüm göstəricisi Respublikada azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin keçmişin bütün buxovlarından azad olması, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərin güclənməsinə, real siyasi amilə çevrilməsinə nail olunmasıdır. Ulu Öndərin keçən əsrin 60-cı illərinin axırlarında siyasi hakimiyyətə gəlişi, Azərbaycanın tərəqqiyə dönüşü, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünüqayıdışa dönüşün başlanğıcı oldu. Milli ruhun inkişafına, milli özünüdərkin və milli qürurun yüksəlməsinə səbəb oldu.

Ulu Öndər o illəri xatırlayaraq deyirdi ki, XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri elmin, təhsilin sürətlə inkişaf etməsidir. 1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil olmamışdır, ancaq Azərbaycan xalqı böyük inkişaf yolu keçmişdir. Həmin illərdə, daha doğrusu Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk mərhələsində Azərbaycanın şəhər, kənd və qəsəbələrində 770-ə qədər məktəb binası istifadəyə verilmiş, respublikada ali məktəblərin sayı 12-dən 17-ə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılmışdı. Qətiyyətlə demək olar ki, Azərbaycanın inkişafının mühüm dövrü kimi səciyyələndirilən XX əsrin 70-80-ci illəri xalqımızın qəlbində, düşüncəsində illərlə yığılıb qalmış milli ideyanın - azadlıq, müstəqillik, suveren Azərbaycan dövləti ideyalarının canlanmasına, gələcəkdə qüdrətli milli azadlıq hərəkatının ideya - mənəvi əsası və hərəkətverici qüvvəsi dərəcəsinə yüksəlməsinə zəmin yaratdı. Bu illərdə Ulu Öndərin uzaqgörənliklə istiqamətləndirdiyi ən dəyərli təhsil ənənələri sırasında azərbaycanlı gənclərin Respublikamız üçün gərəkli ixtisaslara yiyələnmələrindən ötrü keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərinə göndərilməsi təcrübəsi idi. Bu yolla Azərbaycanın elmi və kadr potensialının yüksəldilməsi ilə yanaşı, ən qabiliyyətli gənclərimizin vasitəsi ilə xalqımızın mədəniyyətinin, mənəvi-əxlaqi dəyərlərinin təbliği kimi çox vacib bir məsələ də yerinə yetirildi.

O dövrdə reallaşdırılan məqsədyönlü siyasətin nəticəsidir ki, indi Rusiyada və digər keçmiş İttifaq dövlətlərində güclü Azərbaycan diasporu fəaliyyət göstərir. Diasporumuzun ən fəal üzvləri Ulu Öndərin 70-80-ci illərdə Azərbaycandan kənarda ali təhsil almaq üçün göndərdiyi tələbələrdir.

Azərbaycandan kənarda təhsil almaq üçün gənclərin göndərilməsi ideyasının tarixi qədimdir. Hələ orta əsrlərdə azərbaycanlı gənclər Şərqin

tanınmış məktəb və mədrəsələrində təhsil almış Şərqdə elmin və mədəniyyətin inkişafına dəyərli töhfələr vermişlər. Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra bu tendensiya dəyişdi. Azərbaycanlı gənclər təhsil almaq üçün Rusiyanın və Avropanın tanınmış təhsil ocaqlarına üz tutdular. Azərbaycan Demokratik Respublikasında bu ideyanın gerçəkləşməsi üçün real addımlar atıldı, 100 nəfərə yaxın gənc Rusiyanın, Türkiyənin və Avropanın tanınmış elm və təhsil mərkəzlərinə yola salındılar. Çox təəssüf ki, onların taleyi uğurlu olmadı. Azərbaycan 1920-ci il aprelin 28-də bolşeviklər tərəfindən yenidən işğal olundu. Demokratik hökumətin xaricə göndərdiyi tələbələr təqaüddən məhrum edildilər. Onların bəziləri vətənə qayıtdı, bəziləri isə xaricdə təhsillərini yarımçıq qoyaraq başqa sahədə işləməyə başladılar. Vətənə qayıdanların da taleyi uğurlu olmadı, onlar Stalin repressiyasının qurbanlarına çevrildilər.

1970-80-ci illərdə Ulu Öndərin şəxsi təşəbbüsü və qayğısı sayəsində bu ideya praktik həllini tapdı. Keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15000-dək azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yarandı. Ulu Öndər Azərbaycandan kənarda təhsil alan gəncləri diqqət mərkəzində saxlayır, onların inkişafına hər cür qayğı göstərir, onları “Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti” adlandırırdı. Ümummilli Lider hər il avqust ayının axırlarında vətəndən kənarda təhsil alacaq tələbə gənclərlə respublikanın partiya və sovet fəallarının görüşünü keçirir, orada dərin məzmunlu çıxışı ilə öz tövsiyələrini verirdi. O, 29 avqust 1981-ci ildə tələbə gənclərin respublikanın partiya və sovet fəalları ilə görüşündəki nitqində demişdi: “Azərbaycan KP MK-nın gördüyü tədbirlər özünü tamamilə doğruldur. Ali məktəblərə layiqli gənclərin gəlməsini təmin edir. Respublikadan gənclərin bir çox qruplarının Moskva, Leninqrad və digər şəhərlərin ali məktəblərində oxumağa göndərilməsi praktikası yüksəkixtisaslı kadrlar hazırlanmasında mühüm istiqamətdir. İndi bizim respublikada xalq təsərrüfatının daha kəskin ehtiyac hiss etdiyi ixtisaslar üzrə Sovet İttifaqının ən yaxşı tədris müəssisələrində hazırlanmış böyük kadr dəstəmiz vardır. Bu il başqa şəhərlərin ali məktəblərinə 853 nəfər, o cümlədən, 1-ci kursa 720 nəfər göndərilir. Bundan əlavə 42 nəfər Kiyev Mülki Aviasiya İnstitutuna qəbul olunmuşdur. Bu il Azərbaycandan cəmi 3600 oğlan və qız Sovet İttifaqının müxtəlif ali məktəblərində 244 ixtisas üzrə təhsil alacaqlar”.

Azərbaycanlı tələbələrin respublikadan kənarda ali təhsil alacaqları tədris ocaqlarının coğrafiyası və kadr hazırlığı istiqaməti müxtəlif idi. Demək olar ki, keçmiş İttifaqın ən nüfuzlu universitet və institutları seçilmişdi. Milli məktəblərimizin məzunlarının ümumi şərtlər daxilində həmin ali təhsil ocaqlarına qəbulu çox çətin idi. Həmin ali təhsil müəssisələrinin içərisində M.V.Lomonosov adına Moskva Dövlət Universiteti, Moskva Energetika İnstitutu, Moskva Kimya Maşınqayırma İnstitutu, Moskva Dəzgahqayırma İnstitutu, P.Lumumba adına Xalqlar Dostluğu Universiteti, Leninqrad Soyuducu

Cihazlar Sənayesi İnstitutu, Aviasiya Cihazqayırma İnstitutu, Kiyev Politexnik İnstitutu, Belarusiya Kənd Təsərrüfatı Mexanikləşdirmə İnstititutu, Surikov adına Moskva Rəssamlıq İncəsənət İnstitutu, Muxina adına Leninqrad Ali Rəssamlıq Sənaye Məktəbi, Xarkov Rəssamlıq Sənaye İnstitutu, Dövlət Teatr Sənəti İnstitutu, Moskva Kənd Təsərrüfatı Mühəndisləri İnstitutu, Ryazan Radiotexika İnstitutu, Leninqrad Toxuculuq və Yüngül Sənaye İnstitutu, Ukrayna Kənd Təsərrüfatı Akademiyası və s. mühüm yer tuturdu.

Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələnə qədər respublikamızdan kənara hər il 47 nəfər ali təhsil almağa göndərilirdi. Halbuki plan 60 nəfər idi. Qeyd etmək yerinə düşər ki, göndərilən 47 nəfərin az bir hisssini azərbaycanlılar təşkil edirdi. SSRİ-nin tanınmış məktəblərində azərbaycanlılar üçün ayrılmış yerlərə respublikamızda yaşayan erməni və digər millətin nümayəndələri göndərilirdi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində bu tendensiya qısa bir müddətdə dəyişdi. Əgər 1969-cu ildə SSRİ-nin tanınmış ali məktəblərinə cəmi 47 nəfər göndərilmişdisə, 1975-ci ildə onların sayı 700 nəfərə çatdı. 1975-ci ildən başlayaraq azərbaycanlı gənclərin respublikadan kənarda təhsil alması intensiv xarakter aldı. 1978-ci ildən başlayaraq hər il kənara 800-900 nəfər tələbənin göndərilməsinə nail olundu. Əvvəlki illərlə müqayisədə həm tələbələrin, həm ali məktəblərin və həm də ixtisasların sayı sürətlə artdı. Faktlara diqqət yetirək: 1977-ci ildə 1970-ci illə müqayisədə göndərilən tələbələrin sayı 14 dəfədən çox artaraq 818 nəfərə, ixtisasların sayı 5 dəfə artaraq 244-ə çatmış, ali məktəblərin sayı 140-a, ali məktəblərin yerləşdiyi şəhərlərin coğrafiyası genişlənərək 40-a yüksəlmişdi. Bu proses sonrakı illərdə də (1978-1982) intensiv olaraq artmış, 1978-ci illə müqayisədə 1982-ci ildə tələbələrin sayı 11% artmış, ali məktəblərin sayı 151-dən 170-ə yüksəlmiş, ixtisasların sayı 244-dən 250-yə qalxmış, ən zəruri istiqamətlərin sayı 80-ə çatmışdır. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1970-ci ilədək 40% təşkil edirdi. 1976-cı ildə bu rəqəm 85%-ə, 1977-ci ildə 92%-ə, 1980-ci illərin əvvəllərində isə 98%-ə yüksəlmişdi. Bu yüksək tarixi-mədəni nailiyyət Ulu Öndərin Azərbaycanın gələcəyinə istiqamətlənmiş qlobal tədbirlərin tərkib hissəsi idi.

Keçən əsrin 70-ci illərində özünün ən yüksək mərhələsinə çatmış bu tarixi-mədəni və təhsil ənənələrinin inkişafının Azərbaycanın gələcək inkişafına hədəflənməsindən bəhs edən Ulu Öndər Azərbaycan gənclərinin I Forumunda demişdi: "Burada 70-80-ci illərdə hər il 800-900 nəfər gəncin Azərbaycandan kənarda olan təhsil ocaqlarına göndərilməsi yada salındı. Doğurdan da, hər il burada, bu salonda biz həmin gəncləri Moskvaya, Leninqrada, Kiyevə, başqa-başqa şəhərlərə yola salırdıq, onlara xeyir-dua verirdik, onları yüksək təhsil almaq üçün, yaxud bizim respublikamızda olmayan ixtisasları mənimsəmək üçün həmin təhsil mərkəzlərinə göndərirdik. Bunlar öz bəhrəsini verir. Burada deyildi ki, indi həmin təhsil ocaqlarında təhsil almış, mütəxəssis kimi fəaliyyət göstərən şəxslərin cəmiyyəti yaranıb. Mən bu cəmiyyəti salamlayıram, ona çox

böyük ehtiramımı bildirirəm və çalışacağam ki, bu cəmiyyətin üzvləri ilə görüşüm. Çünki vaxtilə belə kadrların hazırlanması üçün mən xeyli səylər göstərmişəm".

21 may 1998-ci ildə Ulu Öndər respublikamızdan kənarda təhsil almış mütəxəssislər Cəmiyyətinin üzvləri ilə görüş zamanı demişdir: "1970-1980-ci illərdə Azərbaycandan kənarda təhsil almağa göndərdiyim insanlar mənim doğma övladlarımdır. Bəlkə də Siz bilmirsiniz ki, mən bu işi təşkil edənə qədər nə əziyyət çəkmişəm".

31 avqust 1998-ci ildə məhz həmin tələbələrlə indi Ulu Öndərin adını daşıyan Sarayda möhtəşəm görüş oldu. Azərbaycandan kənarda ali təhsil almış mütəxəssislərin ümumrespublika toplantısında Ulu Öndər o illəri məmnunluqla xatırlayaraq demişdi: "Mən çox həyəcanlıyam və eyni zamanda böyük sevinc hissi keçirirəm. Çünki bugünkü - 1998-ci ildəki toplantımız 1969-cu ildə Azərbaycanda ilk dəfə əsası qoyulmuş görüşlərin nəticəsidir. Mən həmin görüşlərin təşəbbüskarı, təşkilatçısı olmuşam. Bu görüşlər, o vaxt görülmüş həmin işlər barədə və bunların sizin hər birinizin taleyində oynadığı rol haqqında burada kifayət qədər deyildi. Mən ona görə sevinirəm ki, 29 il bundan əvvəl əsasını qoyduğum xeyirxah işin gözəl bəhrələrini görürəm.... Vaxtilə bu salona 16-17 yaşında daxil olmuş insanlar - siz ötən illərdə böyük həyat yolu keçmişsiniz, formalaşmısınız, püxtələşmisiniz, Azərbaycanın həyatının müxtəlif sahələrində fəaliyyət göstərirsiniz. Bunların hamısının əsası həmin illərdə qoyulubdur. Ona görə də mən sizin hər birinizin həyatında etdiyim xidmətin nəticəsini görərək bu gün sevinirəm, şadlanıram və iftixar hissi keçirirəm... Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal, birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım... mən bu işi başladım, genişləndirdim. Özüm də təsəvvür etmədən gördüm ki, Azərbaycan üçün yeni bir ali məktəb yaratmışıq. Bu nədən ibarətdir? 1969-cu ildə biz respublikadan kənara oxumağa heç 50 nəfər də göndərmədik. 1970-ci ildə 60 nəfər göndərdik. Ondan sonra bunu ilbəil artırdıq. Nəhayət, biz 1975-ci ildə, gərək ki, 600 nəfər, 1977-1978-ci illərdə isə hər il 800-900 nəfər gənci respublikadan kənar ali məktəblərə göndərdik.

Ali təhsil sahəsində işləyənlər bilirlər hər il ali məktəbin illik qəbulu 700-800 nəfər olur. Beləliklə, əgər biz ildə 800-900 nəfər azərbaycanlı balasını o vaxtlar Sovetlər İttifaqının müxtəlif şəhərlərindəki ali məktəblərə göndərirdiksə, deməli, biz Azərbaycan Dövlət Universitetinə olan qəbul qədər əlavə tələbə hazırlayırdıq. Sonralar bunu Moskvada hiss etmişdilər. Onlar görmüşdülər ki, beləliklə, biz Azərbaycanın ərazisində olmayan, ancaq respublikamız üçün kadr hazırlayan yeni bir ali məktəb yaratmışıq.... 1969-cu ildən 1982-ci ilin avqust ayına qədər bir il də olmayıb ki, mən tələbələrlə görüş keçirməyim... O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqlar. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəkdir".

Ulu Öndər sonralar həmin tarixi həqiqəti belə etiraf edirdi: "Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 1970-ci ildən başlamışıq. Mən də bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyi barədə düşünmüşəm, həmin illərdən başlayaraq gələcəyimiz haqqında düşünürdüm. Zaman keçdi, artıq biz XX əsrin son illərini yaşayırıq. İndi isə sizinlə görüşərək və bu problemlərlə daim şəxsən məşğul olaraq Azərbaycanın gələcəyi haqqında düşünürəm".

Ulu Öndər Azərbaycandan kənarda təhsil almış Mütəxəssislər Cəmiyyətinin üzvləri ilə görüşündə xatırlayırdı ki, elə bir il olmayıb ki, respublikadan kənara ali təhsil üçün göndərdiyim gənclərlə görüşməyim. İlk vaxtlar onlarla görüş Mərkəzi Komitənin binasında, sonra isə Respublika sarayında keçirilirdi. Bakıdan Moskvaya gedəndə buradakı mənzilimi təhvil verdim. Çoxlu kitablarım var idi, onları aparmaq mümkün deyildi. Göstəriş verdim ki, mənim üçün ən əsas olan kitabları, sənədləri seçsinlər. Mən hər il respublikadan kənarda oxumağa göndərdiyim tələbələrin cildlənmiş siyahılarını özümlə Moskvaya apardım.

Heydər Əliyev SSRİ rəhbərliyinin yürütdüyü məkrli siyasətinə etiraz olaraq tutduğu vəzifələrdən istefa verəndə də Kremldən özü ilə götürdüyü sənədlərdən biri də məhz həmin siyahı olmuşdur.

Azərbaycanın çağdaş tarixində Heydər Əliyev həqiqətlərinin təntənəsi milli təhsil tariximizin qızıl hərflərlə yazılmış şanlı səhifələrini təşkil edir. 70-80-ci illərdə respublikadan kənarda azərbaycanlı gənclərin təhsil almağa göndərilməsi böyük elmi-mədəni, iqtisadi-siyasi əhəmiyyət daşıyırdı. Sanki mövcud ali məktəblərdən əlavə, Azərbaycan üçün yüksəkixtisaslı kadr hazırlığını həyata keçirən daha bir ali məktəbimiz respublikadan kənarda fəaliyyyət göstərirdi. Hər il həmin ali məktəbə oxumağa orta hesabla 800-1000 nəfər gənc göndərilirdi. Bu rəmzi, simvolik ali məktəbin yaradıcısı və rəhbəri Heydər Əliyev idi. Bu gün istər ölkəmizdə, istərsə də xarici ölkələrdə fəaliyyət göstərən 15 mindən çox yüksəkixtisaslı kadrların hamısı Heydər Əliyev məktəbinin məzunlarıdır.

70-80-ci illərdə yaranan bu ənənə çox təəssüf ki, Ulu Öndər SSRİ rəhbərliyindən uzaqlaşdırılandan sonra unuduldu.

Azərbaycan müstəqillik qazandıqdan sonra azərbaycanlıların xaricdə təhsil alması prosesi sürətləndi. Ulu Öndərin xalqın təkidli tələbi ilə təkrar siyasi hakimiyyətə gəlişi ilə bu proses sürətləndi. Azərbaycanlı gənclərin xarici ölkələrin universitetlərində təhsil alması müxtəlif istiqamətlərdə həyata keçirilməyə başlandı: 1)öz təşəbbüsləri və imkanları hesabına xaricdə təhsil; 2)müxtəlif təhsil mübadilə proqramlarını həyata keçirən təşkilat və digər donor qurumların təqaüdləri hesabına xaricdə təhsil; 3)təhsil sahəsində əməkdaşlıq çərçivəsində ikitərəfli razılaşmalar əsasında Azərbaycan vətəndaşları üçün

ayrılan təqaüdlər hesabına hökumət tərəfindən həyata keçirilən xaricdə təhsil; 4)Dövlət Proqramı xətti ilə xaricdə təhsil.

Heydər Əliyevin milli dövlətçilik strategiyasını uğurla həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan gənclərinin xarici ölkələrin nüfuzlu universitetlərində bakalavriatura, magistratura və doktoratura səviyyələrində təhsil almaları ilə bağlı təsdiq etdiyi Dövlət Proqramları maddi kapitalın insan kapitalına çevrilməsinə, davamlı insan inkişafına, Azərbaycan dövlətinin və dövlətçiliyinin möhkəmlənməsinə və tərəqqisinə istiqamətlənmişdir. Ümummilli Liderin xaricdə təhsil ənənəsi indi daha çox ölkələri, ixtisasları və istiqamətləri əhatə etməklə öz bəhrəsini verməkdədir.

**Elnur RÜSTƏMOV**
***Fəlsəfə üzrə fəlsəfə doktoru,***
***Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri***
**E-mail: elnur.r@psixologiyainstitutu.az**

# HEYDƏR ƏLİYEVİN İRSİNDƏ AZƏRBAYCANÇILIQ İDEYASI VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

*Açar sözlər:* azərbaycançılıq ideologiyası, idarəetmə, siyasi irs, milli-mənəvi dəyərlər, dövlətçilik ənənəsi

Tarixdə həmişə qəhrəman olmaqla kifayətlənməyən, məşəl kimi xalqının bütün gələcək yolunu işıqlandıran şəxsiyyətlər olub. Azərbaycanın ən yeni tarixi Heydər Əliyevin adı ilə bağlıdır. Onun hakimiyyətə gəlişi ilə intibah, milli şüurun oyanışı dövrü başlandı, müstəqilliyimiz məhz onun sayəsində dönməz xarakter aldı. Milli birlik və azərbaycançılıq məfkurəsi ətrafında sıx birliyimizin əsasında çoxsaylı amillər durur. Müasir dünyanın çağırışlarını və prioritetləri, habelə  azərbaycançılığın inkişaf tarixi göstərir ki, bizim bütün uğurlarımız və nailiyyətlərimiz Şəxsiyyət fenomeni ilə birbaşa bağlıdır. Ümumiyyətlə, böyük bir insan haqqında danışanda, həyatı boyu etdiklərini əsas götürürlər. Heydər Əliyev hər bir tutduğu vəzifədə bütün imkanlardan firavanlıq naminə və öz xalqının mənafeyi naminə istifadə edirdi. Rasionallıq və müdriklik, dövlət idarəçiliyində uzaqgörənlik və peşəkarlıq, qətiyyət və yenilik – Heydər Əliyevə siyasi zirvəni fəth etməyə kömək edən keyfiyyətlərdir.Bu gün də Azərbaycan xalqı öz nailiyyətləri ilə fəxr edir, onları gündən-günə artırır, dünya iqtisadiyyatına, mədəniyyətinə öz töhfəsini verir.

Azərbaycanın milli ideyası uzun bir yol keçib, cəmiyyətin inkişafı üçün ümumi məqsəd və strategiyaya çevrilib. XIX — XX əsrin əvvəllərində xalqımız onun həyata keçirilməsi uğrunda mübarizə aparmışdır. Milli ideya uzun müddət insanların şüuraltısında böyüyür və müəyyən bir tarixi dövrdə sosial reallıqla dəstəklənir. Buna görə də hər bir millətin öz milli ideyası olmalıdır, əks halda onun mövcudluğunu heç bir şəkildə əsaslandırmaq olmaz. Çoxmillətli bir dövlətdə ərazi bütövlüyünü qorumaq üçün milli fikir, dil, etnik fərqlərindən asılı olmayaraq ölkənin bütün əhalisinin maraqlarını nəzərə almalıdır. Milli ideya cəmiyyətin həyatında, siyasi təcrübədə mühüm rol oynayır, xalqın milli kimliyini qoruyub saxlamaqda, ölkəni mənəvi və fiziki cəhətdən zəiflətmək cəhdlərindən qorumaqda, Azərbaycanın unitar, hüquqi və demokratik dövlət kimi möhkəmlənməsində və inkişaf etməsində ifadə olunur. Xalqın yaddaşı həmişə siyasi xadimin əhəmiyyətinin meyarı kimi çıxış edir, zaman keçdikdən sonra obyektiv qiyməti verən də xalqdır. Heydər Əliyevin böyük fəxrlə dediyi "Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, mən Azərbaycanlıyam!" ifadəsi bu böyük şəxsiyyətin öz torpağına və xalqına güclü bağlılığını bir daha təsdiqləyir.

Ümümmilli liderin zəngin idarəetmə təcrübəsi, həm ölkə daxilində, həm də xaricdə son dərəcə yüksək nüfuzu ilə əldə edilmiş nəticələrin möhkəmlənməsinə və ölkə qarşısında duran uzunmüddətli strateji vəzifələrin həllinə kömək etmişdir. Ənənəvi olaraq, siyasi liderin missiyası iki koordinatda müəyyən edilir: xalqın iradəsini ifadə etmək və dövlətçiliyi gücləndirmək. Müstəqil Azərbaycanın dövlət suverenliyinin əldə edilməsi və dünyanın siyasi xəritəsində yer alması öz dövlət modelininin inkişaf etdirməsi ehtiyacını yaratmışdır. Azərbaycanda prezidentlik institutu Heydər Əliyevin dünya miqyasında xarizmatik lider kimi ölkənin davamlı inkişafı, dünya birliyinə daxil olması və bütün mənfi amillərə və təhdidlərə uğurla qarşı çıxması üçün ən vacib şərt olmuşdur. Təəccüblü deyil ki, 90-cı illərin sonlarında beynəlxalq siyasi elmdə dinamizm, islahat istəyi, praqmatizm və yüksək idarəetmə səmərəliliyinin simvolu olan "Əliyev fenomeni" termini meydana çıxdı. "Əliyev fenomeni" sabit inkişaf, sosial birlik, milli birlik, fəaliyyətdə olan azərbaycançılıqdır. Azərbaycançılıq, Heydər Əliyevin qeyd etdiyi kimi, öz milli mənsubiyyətinin, milli mənəvi dəyərlərinin qorunub saxlanılmasını, eyni zamanda onların sintez, ümumbəşəri dəyərlərlə inteqrasiyası yolu ilə zənginləşdirilməsini, hər bir insanın inkişafının təmin edilməsini nəzərdə tutur. Onun siyasəti mürəkkəb idi, lakin buna baxmayaraq ardıcıl və aydın idi.

1993-cü ilin iyununda Ermənistanın ölkəmizə qarşı təcavüzünü davam etdirdiyi zaman, Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu böyük sual altında idi. Azərbaycan genişmiqyaslı vətəndaş müharibəsi astanasında idi: ölkəmizin öz dövlət quruculuğunu həyata keçirmək üçün hətta nəzəri şansı yox idi. O vaxtkı 7 milyonluq Azərbaycanın hər yeddinci vətəndaşı məcburi köçkün idi. Məhz bu həlledici dövrdə Heydər Əliyev öz təbiətinə xas olaraq, aydın və konkret şəkildə milli müstəqilliyin əsası kimi dövlətçiliyin inkişafı və möhkəmləndirilməsi kursunu təklif etmişdir. Dövlət quruculuğunun əsaslardan, təməl daşlardan başlamasının vacibliyini hamıdan yaxşı bilən Ümummilli Lider ani dividendlər almağa çalışmırdı. Üzun müddətli uğurlu strateqiyanın həyata keçirilməsi ilə sözün əsl mənasında müstəqil bir dövlət qurmaq mümkündür. Bu gərgin əməyin nəticələrini biz indi - artıq Yeni Azərbaycanda görürük.

Heydər Əliyevin siyasi irsini öyrənən siyasətçilər və politoloqlar hər bira zaman onun "uğur düsturu"nu tapmağa çalışırlar. Ulu öndərin Qarabağ münaqişəsinin sülh danışıqları yolu ilə ədalətli və uzunmüddətli həllinə nail olmaq məsələsində göstərdiyi qətiyyət regionda sülhün və sabitliyin bərqərar olmasında böyük rol oynayıb. Eyni zamanda, onun mövqeyi və həyata keçirdiyi tədbirlər Azərbaycanın iqtisadi vəziyyətini möhkəmləndirən əhəmiyyətli xarici investisiyaların cəlb edilməsinə səbəb olmuşdur. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatının yaxşılaşması ilə bərabər, Azərbaycanın iyirmi birinci əsrə müstəqil dövlət kimi daxil olması üçün hər cür şərait yaratmışdır. Heydər Əliyev Azərbaycan cəmiyyətinin həyatının bütün sahələrinin köklü şəkildə yenidən qurulmasının təşəbbüskarı oldu. Yeni iqtisadi münasibətlərin, büdcə və gömrük sistemlərinin formalaşması idarəetmə, mənəvi, mədəni, elm və təhsil

siyasətində əsaslı dəyişiklik tələb edirdi. Ölkənin taleyinin həll olunduğu çətin anda Ulu Öndər Azərbaycan xalqına sədaqətini nümayiş etdirdi. Azərbaycanlılar öz liderinin ətrafında toplaşaraq ölkəni keçmişdən miras qalmış problemlərdən çıxarmağa nail olmuşdur. Bundan əlavə, iqtisadiyyat bərpa edildi, xalqın hüquqları təmin edildi, hüquqi vətəndaş cəmiyyəti quruldu.

"Azərbaycançılıq-öz milli mənsubiyyətinin qorunması, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və eyni zamanda onların sintezi, ümumbəşəri dəyərlərlə inteqrasiyası ilə zənginləşdirilməsi, habelə hər bir insanın inkişafının təmin edilməsi deməkdir" ideyasını irəli sürən Ümümilli Lider hesab edirdi ki, heç bir vasitə xalqları dil, milli-mənəvi ənənələr və dəyərlər kimi birləşdirmir. İnsanlara qarşı mehriban münasibəti ilə fərqlənən Ulu Öndər, xarici ölkələrdə yaşayan azərbaycanlıların həmrəy, bir-birlərinə dəstək olmalarını və öz milli adət-ənənələrinə riayət etmələrini, milli bayramları birlikdə qeyd etmələrinin vacibliyini xüsusi vurğulayırdı. Azərbaycançılığın əsas dəyərlərinə sadiqlik xalqımızın birləşdirici amili olması, ictimai sabitliyi və rifahı, islahatların uğurunu, qlobal siyasətdə milli maraqların reallaşmasını təmin etmişdir.

Ümummilli lider tərəfindən xalqın milli kimliyinin qorunmasının qarantı kimi işlənib hazırlanmış azərbaycançılıq ideyası Azərbaycan xalqının ictimai şüurunun inkişafı üçün yeni paradiqma kimi çıxış etmişdir. Onun vəsiyyət etdiyi azərbaycançılıq ideyası Azərbaycanda yaşayan və onu öz ümumi vətəni hesab edən bütün etnik qrupların ideyasına çevrilmişdir. Azərbaycanın polietnik təbiəti hələ əsrlər öncə qədim yunan filosofu Aristotelin xalqın yüksək etik yetkinlik və məsuliyyət hissi kimi əsaslandırdığı "birlikdə yaşamaq ideyası"nı yaratdı. Heydər Əiyevin uzaqgörən siyasəti nəticəsində "millət" anlayışının strukturuna özünüdərkin etnik, dini, sosial-mədəni, siyasi kimi bütün kollektiv formaları daxil edilmişdir:. 1993-cü ilin iyun ayından etibarən milli ideya milli müstəqillik və suveren dövlət strateqiyasında inkişaf edir. Bu gün də polietniklik müasir Azərbaycanı səciyyələndirən dəyər kimi milli identifikasiyanın yeni formasını inkişaf etdirir, onu davamlı inkişaf və Azərbaycan millətinin dövlət müstəqilliyinin möhkəmləndirilməsi formatında azərbaycançılıq ideologiyası ilə eyniləşdirir. Azərbaycançılıq ideya kimi həm məqsəd, həm yol, həm də milli varlığın düsturu kimi çıxış edir. Bu, təkcə Azərbaycanın iqtisadiyyat sahəsində sürətli inkişafına deyil, həm də müstəqilliyinin təmin olunması üçün uğurlu tədbirlərin həyata keçirilməsinə imkan yaratmışdı. Əsl müstəqillik öz sərvətlərinə tam sahib olmaqdır. Beləliklə, Azərbaycan ilk dəfə olaraq öz resurslarının sahibi kimi çıxış edərək, böyük regional layihələrə, Avropanın və bütövlükdə dünyanın enerji təhlükəsizliyi sisteminə qoşulmuşdur. Heydər Əliyevin həyata keçirdiyi bütün bu tədbirlər 1995-ci ildə Azərbaycan Respublikasının yeni konstitusiyasının qəbul edilməsi üçün münbit zəmin hazırlamışdır. Keçmişə nəzər salsaq, əminliklə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin ilk milli Konstitusiyasının qəbul edilməsi Ulu Öndərin xidmətidir. Yeni Konstitusiya Azərbaycanın sonrakı illər ərzində sabit inkişafını təmin edən əsas qanuna çevrilmişdir.

Ümummilli liderin uzaqgörənliyini və sərkərdə cəsarəti, dərin təhsili və təbiətin bəxş etdiyi incə estetik hissləri ilə bir birini tamamlayırdı. Müstəsna dürüstlük və möhkəm iradə, dinləmək və eşitmək, yüksək təşkilatçılıq və ilk növbədə özünə qarşı tələbkarlıq — Ümümmili Liderin şəxsiyyətinin əsas keyfiyyətlərindən idi. Politoloqlar və jurnalistlər onu "hakimiyyət ustadı" adlandıran zaman, Heydər Əliyev gülümsəyərək qeyd edirdi ki, hakimiyyətin yeganə mənbəyi xalqdır. Onun fikrincə, hər bir liderin siyasi şücaəti və uzun ömürlülüyünün sirləri, xalqın etimadında, inamında, insanların ümidinin canlı təcəssümündə axtarılmalıdır. Umümxalq sevgini qazanmaq üçün yalnız yaxşı siyasətçi olmaq kifayət deyil, müstəsna ümumbəşəri keyfiyyətlərə sahib olmaq lazımdır. "Böyük siyasəti xırda hisslərə və maraqlara tabe etmək olmaz", – deyən Heydər Əliyev buna əmin idi. Onun tükənməz enerjisi Azərbaycan xalqına yeniləşmiş, yaradan, xoşbəxt Azərbaycana inam aşılayırdı. Heydər Əliyev xalqa heç vaxt yerinə yetirilməyən vədlər verməyib, əksinə, həmişə əldə edilə biləcək nəticələri bəyan edib.

Ulu Öndər öz xalqının mədəni sərvətinin qorunmasına xüsusi diqqət göstərirdi. Azərbaycanın incəsənəti, ədəbiyyatı, musiqisi, tarixi və memarlıq abidələri əsrlər boyu humanizm, gözəllik və mənəvi dəyərlərin rəmzləri olmuşdur. "Yüksək mədəniyyətə malik xalq həmişə irəliyə gedəcək, yaşayacaq və inkişaf edəcək", – deyən Heydər Əliyev, azərbaycan xalqına öz millətí, mədəniyyəti və incəsənəti ilə qürur hissini aşılamışdır. Mədəniyyət, ənənələr, tarix hər bir xalqın mənəvi dəyəridir. Bir çox xalqların tarixinin təcrübəsi milli tarixin kritik bir dövründə ölkədəki vəziyyətin necə dəyişdiyinə, cəmiyyətin və onun ən yaxşı nümayəndələrinin həyati hədəflərə çatmaq üçün necə birləşdirildiyinə dair nümunələrlə zəngindir. Azərbaycan xalqının ən yeni tarixində belə bir şəxsiyyət öz baxışı, təcrübəsi və əməlləri ilə indiyə qədər mövcud olan bütün dəyərlər və siyasi sistemləri üzərində yüksəlmiş bir insan məhz Ulu Öndər idi. Onun müstəqil və sabit dövlət quruculuğu yolunda atdığı addımlar nəticəsində Azərbaycanın milli maraqlarının keşiyində durmağa qadir olan Milli Ordu formalaşdı. Dövlət müstəqilliyinin bərpasından sonra iki il ərzində müharibə vəziyyətində olan Azərbaycanda ordu quruculuğu sahəsində heç bir iş görülməmişdir, vahid komandanlığa tabe olan nizami ordu yox idi. Ulu Öndərin 1993-cü ilin oktyabrında andiçmə mərasimində çıxışında qeyd etmişdir ki, "Azərbaycan Respublikası müstəqil dövlət kimi onu müdafiə etməyə qadir orduya malik olmalıdır. Bizim əsas vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü, respublikanın müdafiəsini təmin etmək üçün güclü ordu yaratmaqdır". Ümümmilli liderin başladığı, və onun layiqli davamçısı olan İlham Əliyevin prezidentlik etdiyi illər ərzində qurulan Azərbaycan ordusu bu gün dünyanın 50 ən güclü ordusundan biridir. Arsenalında ən müasir silahlara malik olan, Ali Baş Komandana inanan və güvənən bu ordu, igid Azərbaycan əsgəri canı və qanı bahasına 30 illik işğala son qoydu.

Heydər Əliyev dərin zəkası, fenomenal yaddaşı, iradi keyfiyyətləri haqqında çox danışılıb, lakin Ümümmilli Liderin xalqla danışmaq bacarığı, hər

bir vətəndaşın dediyi sözlərin şəxsən ona ünvanlandığı təəsüratını yaradırdı. İncə bir psixoloq və diplomat, həmsöhbətin əhval-ruhiyyəsinin ən kiçik nüanslarını necə qəbul etdiyini bilirdi. Azərbaycan dili Heydər Əliyevin xüsusi diqqət mərkəzində olmuşdur. "Hər bir xalq ana dili ilə yaradılır" fikrini əminliklə irəli sürən Ulu Öndər, Azərbaycan dilinə dövlət dili statusu verilməsinə nail olmuşdur, bu da 1978-ci il Konstitusiyasında qanunvericiliklə təsbit edildi. O vaxt belə bir addım qəhrəmanlığa bərabər idi. 2007-ci ildə (ölümündən sonra) Heydər Əliyev Atatürk türk dili mükafatına da layiq görülmüşdür. Milli-mənəvi dəyərlərin qoruyucusu kimi Ümümmilli Lider dünya azərbaycanlılarına müraciətində dövlət dilini mənimsəməyi, adət-ənənələrdən istifadə etməyi, şəraitə uyğunlaşmağı, qitədən və yaşadığı ölkədən asılı olmayaraq Azərbaycanın inkişafını əbədiləşdirməyi tövsiyə edirdi.

Dünya Azərbaycanlılarının I Qurultayında 09 noyabr 2001-ci il tarixli nitqində doğma dilin dəyərləndirilməsinə, digər dilləri mənimsənilməsinə, xüsusi diqqət yetirən Ulu Öndər qeyd edirdi: “Biz Azərbaycan dilinin Azərbaycanda hökmranlığını, Azərbaycan dilinin tədricən inkişafını təmin edəcəyik. Ancaq eyni zamanda, biz arzu edirik ki, qitəsindən və yaşadığı ölkədən asılı olmayaraq hər bir azərbaycanlı ölkənin adət-ənənələrindən istifadə edərək bu ölkənin şərtlərinə uyğunlaşsın, lakin Azərbaycan dilini dəstəkləyib inkişaf etdirsin". Həmçinin, ümümili lider, bu günə qədər gəlib çatmış islam dininin prinsipləri və tələblərini saflıq, kamillik və şəffaflığa dəvət edən milli – mənəvi dəyərlərin əsası hesab edirdi. Əlamətdar haldır ki, məhz Heydər Əliyev həm Quranda, həm də Konstitusiyada sədaqət andı içmiş Azərbaycanın ilk prezidenti oldu.

Ulu Öndər hakimiyyətə gəlişinin əvvəlindən və fəaliyyətinin sonuna qədər güclü, müstəqil, hüquqi dövlət qurmaq üçün durmadan çalışırdı. "Müstəqillik yolundan daha çətin yol yoxdur" deyən Ümümmilli Lider, yenə də öz xalqını inamla bu yolla apardı, cəmiyyətin sosial, iqtisadi, mədəni və ideoloji sahələrini inkişaf etdirdi, eyni zamanda ölkənin xarici siyasət və milli təhlükəsizlik problemlərini həll etmişdir. 1999-cu ildə Kembric Beynəlxalq Bioqrafiya Mərkəzinin Direktorlar Şurası sülhsevər siyasət yürütdüyünə və demokratiyanın inkişafına verdiyi böyük töhfəyə görə Heydər Əliyevə "XX əsrin görkəmli xadimi" adını vermişdir. O həmişə Vətənə, xalqına böyük sevgi, onu xoşbəxt, sülh və harmoniya içində yaşamaq istəyi, insanlıq və ədalət hissi ilə fərqlənidir. Heydər Əliyev, demək olar ki, bütün sahələrdə dəyişikliklərə nail olmaqla bərabər, xalqın qeyd-şərtsiz lideri olaraq, ömrü boyu təmənnasız sevgi və minnətdarlıq qazanaraq canlı bir əfsanəyə çevrilmişdir. Hakimiyyət və şəxsi nüfuzunu birləşdirən Ulu Öndər, siyasi varislik meyarlarını qoymuşdu.

Beynəlxalq mədəni əlaqələr, qarşılıqlı mədəni inteqrasiya Azərbaycanın dövlətlərarası siyasətinin əsas prioritetlərindən biridir. Bu gün Azərbaycan demokratiyanı tarixi inkişafın qaçılmaz prosesi kimi dərk edərək öz inkişaf modelini nümayiş etdirir. Azərbaycan Cəmiyyətinin demokratikləşməsi milli xüsusiyyətlərə riayət olunması, müstəqil dövlət quruculuğu və milli kimliyin

qorunması şərti ilə həyata keçirilən prosesdir. Heydər Əliyevin geosiyasətinin və ideoloji irsinin əsas mənası digər ölkələrlə əməkdaşlıqda inkişaf etmək idi. Heydər Əliyevin həyatı Azərbaycanın yaşadığı həyatın bir hissəsidir, onun tarixidir. Onun məqsədi, ilk növbədə, xalqın milli ləyaqətinin və özünə hörmətinin qorunması idi, bu da yalnız millətin tam birləşməsi, onun məsuliyyəti və yüksək mənəvi əhval-ruhiyyəsi ilə mümkün ola bilərdi. Heydər Əliyev fəaliyyətinin bütün sahələrində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasının və möhkəmləndirilməsinin təmin edilməsi prinsiplərinə əsaslanırdı. Onun vətənpərvərliyi həmişə biliyə, müasir elm və mədəniyyətin nailiyyətlərinə hörmətə əsaslanmış, cəmiyyətin inkişafına yönəlmiş, lakin başqa ölkələrə və xalqlara nifrətdən uzaq olmuşdur. Ümummilli Liderin irsi bu gün də təkcə vətənpərvərlik tərbiyəsi nümunəsi kimi deyil, həm də hər hansı bir işin təşkili,bir çətinliyin həllinə və aradan qaldırılmasına yönəlib. 44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra aydın oldu ki, indiki dünyada yalnız güclü liderlər xalqla birlikdə ən böyük uğurları təmin edə bilərlər və bu uğurlarda ulu öndərin ideoloji irsi müstəsna rol oynayır.

## ƏDƏBİYYAT


1. Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir https://justice.gov.az/articles/90
2. Rəhimzadə V. Milli mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin rolu: medianın dəstəyi və qiymətləndirməsi prizmasında https://elibrary.az/docs/jurnal/jrn2017_1048.pdf
3. İsmayılov N. Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. Bakı: Səda, 2003
4. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz https://scwra.gov.az/az/view/news/4910/heyder-eliyev-ve-milli-menevi-deyerlerimiz
5. Heydər Əliyevin milli-mənəvi dəyərlərin formalaşmasında rolu https://www.muallim.edu.az/news.php?id=24451
6. Heydər Əliyev ideologiyası milli-mənəvi dəyərlər və milli özünə dərk müstəvisində https://azerbaijan-news.az/az/posts/detail/heyder-eliyev-ideologiyasi-milli-menevi-deyerler-ve-milli-ozunuderk-mustevisinde-1651963977

**Lətafət BEYBUTOVA**
*Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"*
*Elmi araşdırmalar, ekspozisiya və fond şöbəsinin müdiri*
**E-mail: qubatovaltaft@gmail.com**

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU

*Açar sözlər:* siyasi xadim, şərəfli həyat, milli maraqlar, xalqa xidmət, peşəkarlıq

Ulu öndər Heydər Əliyev tarix yaradan dahi şəxsiyyətlərdən biridir. Lakin ulu öndərin həyatının qəhrəmanlıq anlarını, zamanı qabaqlamaq, tarix yaratmaq bacarığını yalnız onun rəhbər vəzifələrdə çalışdığı illərlə ölçmək olmaz. Onun mənalı həyatının hər günü, hər anı zaman-zaman xatırlanacaq tarixi hadisələrlə zəngindir. Ümummilli lider dövlət quruculuğu siyasəti və idarə etmə strategiyası, siyasi xadim kimi peşəkarlığı təkcə bir ölkənin inkişafı ilə deyil, bütün dünya xalqlarının faydalana biləcəyi bir siyasi məktəb kimi tanınırdı. Onun şəxsi həyatı, uşaqlıq, gənclik və ömrünün bütün dövrləri gərgin zəhmətlə keçib. Əlbəttə, bu dövrlərin çətin anları yaşanmasaydı, maneələri qətiyyətlə dəf edilməsəydi sonrakı zamanların uğurları qazanılmazdı.

Ötən əsrin 40-cı illərində xalqına və dövlətinə bağlı olan Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsində fəaliyyətə başlamış və bu orqanın tarixində milli prioritetləri dəqiq müəyyənləşdirmişdir. Sovetlər dövründə milli təhlükəsizlik orqanlarında işləmək nə qədər şərəfli olsa da, bir o qədər çətin və məsuliyyətli idi. Təhlükəsizlik orqanlarında xidmət etdiyi müddətdə yüksək idarəçilik və təşkilatçılıq qabiliyyəti, cəsarəti, qeyri-adi yaddaşı, cazibədar natiqliyi ilə fərqlənən Ulu öndər eyni zamanda əməliyyat tədbirlərinin, kombinasiyalarının işlənib hazırlanmasında, həyata keçirilməsində şəxsən iştirak etmiş, bununla da bütün rəhbər və sıravi əməliyyat heyətinin dərin rəğbətini qazanmışdır. Xalqına qarşı törədilən haqsızlıqları, sovet reallıqlarının iç üzünü olduğu kimi görən Heydər Əliyev çox böyük təsirlərə, çətinliklərə məruz qalmasına baxmayaraq həmin dövrdən bəri qarşısına yalnız Azərbaycan naminə çalışmaq kimi yüksək məqsəd qoymuşdur. Azərbaycanın xüsusi xidmət orqanlarında milli maraqların ön plana çəkilməsi, milli kadrların rəhbər vəzifələrə təyinatı, gənc işçilərin xüsusi ali təhsil almaq üçün Moskva, Leninqrad, Minsk və digər şəhərlərə göndərilməsi, ümumiyyətlə, orqanlarda milliləşmə prosesinin aparılması məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev təhlükəsizlik orqanlarında elə bir məktəb yaratmışdır ki, bu məktəbin əsasını millilik, vətənpərvərlik, peşəkarlıq, prinsipiallıq və tələbkarlıq təşkil edirdi.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında böyük xidmətlərindən söhbət açanda ilk öncə 1969-1982-ci illərə, onun Sovetlər birliyi dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlara nəzər yetirmək vacibdir. O vaxta kimi

Azərbaycan adlı respublika nəinki dünya, hətta ittifaq miqyasında o qədər də tanınmır, adı ucqar milli əyalətlərdən biri kimi çəkilirdi. Halbuki respublikamız ittifaqda zəngin yeraltı və yerüstü sərvətləri ilə seçilib.

Məhz 1969-cu ildə Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildi və ölkənin ali idarəçilik sükanı arxasına keçdi. Bununla, Sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Xalq Heydər Əliyevi rəğbətlə qarşıladı, onu sevdi və arxasınca getdi. Azərbaycan xalqının tarixində Heydər Əliyev dövrü başlandı. Xalqın dahi oğlu Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək Azərbaycanı tərəqqi yoluna çıxarmaq siyasəti yeritməyə başladı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycan Respublikasını Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı.

Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin ikinci hakimiyyət dövrü isə müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edir. 1990-cı illər Azərbaycanın tarixinə ağır faciələrin yaşandığı bir dövr kimi daxil olub. Həmin vaxt Sovetlər birliyi süqut edəndə 15 ittifaq dövləti sırasında Azərbaycan yeganə ölkə oldu ki, ərazisinin 20 faizi işğal edildi, 20 mindən çox şəhid verdik, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Azərbaycan xalqı öz tarixinin ən şərəfli və ən mürəkkəb dövrünü, keçid dövrünü yaşayırdı. 1990-cı ilin əvvəlindən başlayaraq Azərbaycanda yaranmış hakimiyyət böhranı, artan erməni işğallarının artdığı mürəkkəb şəraitdə insanlar ölkənin belə bir çətin vəziyyətdən çıxış yolunu, milli qurtuluşunu məhz Heydər Əliyevinin hakimiyyətə qayıdışında gördülər. Xalqın iradəsi ilə baş tutan du qayıdış tariximizə Qurtuluş Günü kimi düşdü və bu hadisə həm də Azərbaycanın xilası oldu.

Həyatını xalqına və dövlətinə həsr edən Heydər Əliyev xalqının önündə gedərək Azərbaycanı tarixin ən qanlı burulğanından çıxara bildi. Azərbaycan dövlətçiliyini - siyasi varlığımızı yox olmaq təhlükəsindən xilas etdi. Müdrik siyasətçi ölkədə vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, xarici düşmənlərin və onların daxildəki əlaltılarının Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxardı. Çox qısa müddətdə Azərbaycanı beynəlxalq arenada böyük nüfuza və söz sahibinə malik bir ölkəyə çevirdi. Azərbaycanın Ermənistanla müharibə şəraiti böyük dövlətləri və şirkətləri Azərbaycana sərmayə yatırmaqda ehtiyatla davranmağa vadar edirdi. Lakin, ulu Öndərin beynəlxalq arenadakı şəxsi nüfuzu bu tərəddüdlərə son qoydu: 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni

tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. Sonradan "Əsrin müqaviləsi" adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi. Azərbaycan artıq bütün dünyada neft ölkəsi olaraq tanınmağa başladı.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alırdı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Böyük dövlətlərin yeritdikləri imperiya siyasətinin icraçısı olan ermənilərin əli ilə dəfələrlə azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasəti yeridilmiş, yüz minlərlə dinc azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilərək öz ata-baba yurdundan didərgin salınmış, Azərbaycanın qədim yaşayış məskənləri xarabalığa çevrilmişdir. Sonralar tarixi dovr 30-cu illərin ağir represiyaları ilə müşayət olunaraq Azərbaycanin ziyalı genofondunun məhvinə nail olunmuş, bunun ardınca 1948-53-cü illər azərbaycanlıların kütləvi deportasiya dalğası, 80-ci illərdən başlayaraq Dağlıq Qarabağ probleminin yenidən süni şəkildə qızışdırılması, 1990-cı il 20 yanvar faciəsi və 1992-ci il Xocalı soyqırımı demək olar ki, bu faciələrin pik nöqtəsi oldu.

Ulu öndər Heydər Əliyevin keçmiş hadisələrə siyasi-hüquqi qiymət verilməsi istiqamətində verdiyi qərarları və deyərdim ki, ən vacibi 1918-ci il mart soyqırımının öz siyasi qiymətini tapması oldu. Tarixə nəzər salsaq görərik ki, 1919 və 1920-ci illərdə martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümumilli matəm günü kimi qeyd edilib. Əslində bu, azərbaycanlılara qarşı törədilən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir. Məhz bütün bunları nəzərə alan Heydər Əliyev 1998-ci il martın 26-da "31 martı Azərbaycanlıların Soyqırımı günü kimi qeyd edilməsi haqqında" fərman imzalamışdır. Fərman imzalandığı vaxtdan hər il 31 Mart respublika səviyyəsində qeyd edilir və soyqırımı qurbanlarının xatirəsi ehtiramla anılır.

Bu gün Azərbaycan Prezidentinin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir.

ƏDƏBİYYAT

1. "Azərbaycan xüsusi xidmət orqanlarının rəhbərləri. Əliyev Heydər Əlirza oğlu: 1967 iyun – 1969 iyul". Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin *saytı* (az.). *mns.gov.az.*
2. "Heydər Əliyevin xatirəsinə həsr olunan əsərlər" https://azertag.az
3. Qasımlı Musa "Heydər Əliyev – istiqlala gedən yol. "Prezident Kitabxanasının saytı (az.). preslib.az. Bakı-2006. səh. 180.
4. Leyla Hüseynova, Heydər Əliyev irsində azərbaycanlıların soyqırımı və doğma yurdlarından deportasiya edilməsi məsələlərinə münasibət www.science.gov.az
5. Naxçıvan ensiklopediyası. Bakı, Elm, 2002. səh. 137–138.

**Zümrüd CAVADOVA**
***Dosent,***
***Gəncə Dövlət Universitetinin***
***Psixologiya kafedrasının müdiri***
**E-mail: cavadova.zumrud51@mail.ru**

# H.Ə.ƏLİYEVİN NİZAMİ GƏNCƏVİ İRSİNİN ÖYRƏNİLMƏSİ VƏ BEYNƏLXALQ ALƏMDƏ TƏBLİĞİNİN TARİXİ XİDMƏTLƏRİ

*Açar sözlər:* Nizami, Ulu öndər, Heydər Əliyev, xalq, dahi, klassik, ədəbiyyat, “Xəmsə”.

*Azərbaycan xalqının qədim tarixini, mədəniyyətini, ədəbiyyatını, şerini Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar. Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə - Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər ədəbi minnətdarlığa layiqdirlər.*

*Heydər Əliyev*

Azərbaycan xalqının özünəməxsus dahi tarixi şəxsiyyətləri olub və onlar hər zaman xalqımızın fəxri, qüruru və güvənc yeri olmuşdur. Ancaq dahilər hər bir xalqın həyatında hər bir əsrdə yetişməyə də bilər. Biz doğurdan da xoşbəxt xalqıq ki, Azərbaycanı Nizami Gəncəvi, Ulu öndərimiz H.Əliyev kimi nadir dahilərimiz dünyaya tanıtdırır.

Ulu öndərimiz H.Əliyev öz bacarıqlı xalqını çox sevirdi. Klassiklərimizə verdiyi qiymətə görə Ulu öndər özü də hər cür hörmətə layiqdir.

Böyük iftixar hissi ilə deyə bilərik ki, Nizami Gəncəvi Azərbaycan xalqını dünyada tanıdan nadir dahi şəxsiyyətdir. Digər tərəfdən Nizami elə böyük sənətkardır ki, o təkcə poeziyanın zirvəsini kəşf etməklə deyil, elm sahələrinin əksəriyyəti haqqında məlumat verməsi və ölməz “Xəmsə”si vasitəsilə bunu əks etdirməsi bariz nümunədir [3, s.3].

Azərbaycan xalqının payına XX əsrdə daha bir nadir dahi insan bəxş edilmişdir. Bu, əlbəttə, hörmətli el ağsaqqalımız respublikamıza 35 il rəhbərlik etmiş, dünya siyasət arenasında özünə layiqincə yer almış, fenamenal bilik potensialına malik olan, ölməz prezidentimiz Heydər Əliyev cənablarıdır.

Konkret olaraq Nizami Gəncəvi və Heydər Əliyev arasındakı bağlılığı açmaqla bu iki böyük şəxsiyyətin əməlləri qarşısında borcumuzdan qismən də olsa çıxmağa çalışaq. Məqsədimiz Heydər Əliyevin geniş qəlb diapozonuna malik olmasını göstərmək və Nizami Gəncəviyə bəslədiyi xüsusi rəğbəti açıb göstərməkdən ibarətdir.

H.Əliyev bu işlərə daima özü bir qayda olaraq nəzarət və rəhbərlik etmişdir. Bütün bunlar azmış kimi ədəbi prezidentimiz iki il sonra 1981 –ci ildə Nizami Gəncəvinin doğum gününü nəzərə alaraq, onun 840 illiyi haqqında yeni bir sərəncam imzalayır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda Nizamini təbliğ edənlərin hamısına imkan yaranır. Dövlət fərman və sərəncamları və müəlliflərə çap imkanı və maddi marağın artması bu sahəyə öz bəhrəsini verir. Onlara Nizamişünas alim, şair, yazıçı riqqətə gəlib şair haqqında illərcə yatıb qalan mətləbləri həyata keçirməyə başladılar. Bundan sonra xeyli iş görüldü. Dövlət əhəmiyyətli bu iki qərar, fərman və sərəncamla kifayətlənmək olardı. Ancaq uzaqgörən H.Əliyev cənablarının şəxsi təşəbbüsü diqqəti cəlb edir. Belə ki, Bakıda metronun “Nizami” stansiyası tikilərkən cənab H.Əliyev özü şəxsən bir neçə dəfə oraya gəlmiş, işin gedişi ilə maraqlanmış, metro dayanacaqlarındakı rəsimlərin Nizami əsərlərindən alınan qəhrəmanların və əməkçi insanların olmasına öz tövsiyələrini vermişdir. Sevindirici haldır ki, şairin doğma yurdu Gəncədə Nizami məqbərəsinin yenidən qurulub, onun adına layiq olması ilə əlaqədar göstəriş vermişdir.

Çox ciddi bir məsələni də xatırlamaq yerinə düşərdi. Aydındır ki, Ulu öndər H.Əliyev öz xalqını və onun bacarıqlı insanlarını çox sevirdi. Bu baxımdan Nizami xüsusi yer tuturdu. Milli rəhbərimiz hər zaman bu barədə fəxarətlə və özəl olaraq gözəl nitq qabiliyyəti ilə diqqəti cəlb edirdi. Ulu öndər H.Əliyev Moskvada işləyərkən təklif etmişdir ki, Nizaminin 840 illiyi qeyd edilsin lakin o zaman Kremlin daha yüksək məmurlarının buna etirazı olmuşdur. Ancaq Heydər Əliyev isə özünəməxsus soyuqqanlılıqla onlara deyir: ”Nizami elə böyük dahidir ki, biz onu hər il keçirməliyik”. Bu kəlamdan sonra hamı Əliyevlə razılaşır. Onun bilavasitə köməyi ilə 2002-ci ildə Rusiyanın paytaxtı Moskva şəhərində və 2004-cü ildə elm mərkəzi sayılan Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin heykəlinin təntənəli açılışı oldu. Cəsarətlə demək lazımdır ki, cənab H.Əliyevin bu sahədə böyük rolu və şəxsi iştiraki fikirlərimizi bir daha təsdiq edir.

Ümumilli liderimiz göstərilənlərlə kifayətlənməyib Nizami irsinin daha yaxşı öyrənilməsi üçün AMEA-da xüsusi nizamişünaslıq şöbəsi yaratmış, respublikanın görkəmli nizamişünas alimlərini oraya cəlb etməyə nail olmuşdur. Heydər Əliyev cənabları Nizaminin vətəni Gəncə şəhərində olarkən AMEA-nın Gəncə Elmi Mərkəzində də nizamişünaslıq şöbəsinin açılması təşəbbüsündə bulunmuşdur [7, s.5].

6 yanvar 1979-cu ildə Azərbaycan KP MK Nizaminin anadan olmasının 850 illik yubileyinin təntənəli keçirilməsi, məqbərəsinin yenidən klassik və muasir memarlığın köhnə və yeni müsbət ənənələrinə uyğun bərpası, hər il sentyabr ayında böyük şairin şərəfinə, adına layiq poeziya günlərinin keçirilməsi, əsərlərinin Azərbaycan və dünya xalqlarının dillərində gözəl, bəddi tərtibatla çap edilməsi Heydər Əliyevin şəxsi təşəbbüsü ilə bağlıdır.

Ümumilli liderimiz H.Əliyev 2000-ci ildə Avstriyaya rəsmi səfər edən zaman əsərin bərpası barədə tapşırıq vermişdi. 2002-ci ildən bərpa olunan

"Xəmsə"nin əlyazması əsasında multimedia diskinin təqdimatı 2008-ci ilin aprelində keçirilib. Bu XII əsrin şeirləri toplusu olan "Xəmsə"nin tam əlyazmasıdır.

Məlum olduğu kimi, 2011-ci ilə dahi şairin anadan olmasının 870 illiyi tamam olmuşdur. Həmin yubileyi dövlət səviyyəsində qeyd etmək üçün Azərbaycan Respublikasının prezidenti İ.Əliyev 30 dekabr 2011-ci il tarixdə xüsusi sərəncam vermişdir. Həmin sərəncamda N.Gəncəvinin yaradıcılığı "bəşər bədii fikrinin nadir hadisəsi" kimi qiymətləndirilmiş, onun 870 illik yubileyini ölkə miqyasında geniş qeyd etmək üçün əlaqədar nazirlik və təşkilatlara, Gəncə şəhər icra hakimiyyətinə tapşırıq verilmişdir və şairin yubileyi ilə əlaqədar ən genişmiqyaslı tədbirlər onun vətəni Gəncə şəhərində həyata keçirilmişdir. İlk növbədə dahi Nizaminin məqbərə kompleksi yenidən təmir edilmiş, park salınmış, "Nizami Gəncəvi Mərkəzi"nin bünövrəsi qoyulmuş, açıq havada muzey yaradılmış, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Regional Mərkəzində "Nizami İnstitutu" təsis olunmuş, "Nizami Gəncəvi" adlı jurnal nəşrə başlamış, silsilə elmi – praktik konfranslar keçirilmiş, şəhərin ali və orta məktəblərində dahi şairin poeziyasına hsr olunmuş bədii qiraət və inşa yazıları müsabiqəsi təşkil olunmuş, təhsildə fərqlənən tələblərə "Nizami adına təqaüd" təsis edilmiş, "Xəmsə" bağında yenidənqurma işləri aparıldıqdan sonra burada şairin şəhərdə ikinci heykəli ucaldılmışdır.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın 1981-ci ilin avqust plenumunda Nizami Gəncəvinin anadan olmasının 840 illiyinin qeyd olunması haqqında qərar qəbul edildi.

H.Əliyevin 1998-ci il 30 mart tarixli sərəncamından: "Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi şair və mütəfəkkir Nizami Gəncəvinin xatirəsini əbədiləşdirmək məqsədilə qərara alıram:

1. Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində abidəsinin qoyulması haqqında Azərbaycan Respublikası Mədəniyyət Naziliyinin Sankt-Peterburq meriyası ilə razılaşdırılmış təklifi qəbul olunsun.

2. Azərbaycan Respublikası tərəfindən qoyulacaq abidə Sankt-Peterburq şəhərinə hədiyyə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti Nizami Gəncəvinin Sankt – Peterburq şəhərində abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin".

Nizami Gəncəvi məktəbi Gəncədə də, Azərbaycanın başqa diyarlarında da davam etmişdir. Bu gün də bizim ədəbiyyatımızın, şeirimizin, mədəniyyətimizin əsas mənbələrindən biri Nizami Gəncəvi yaradıcılığı, onun əsərləri – "Xəmsə"si –poemalarıdır".

2012-ci ilin aprel ayında Roma şəhərinin məşhur "Villa Borghese" parkında dahi Nizaminin heykəlinin açılışı olmuşdur və bu heykəl H.Əliyev Fondunun dəstəyi ilə qısa vaxt ərzində İtaliyanın paytaxtında ucaldılmışdır.

H.Ə.Əliyev Gəncə şəhərinə həmişə qayğı göstərmiş və bu gün də Ulu öndərimizin bu siyasəti hörmətli prezidentimiz İ.Əliyev tərəfindən davam

etdirilir. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nizami Gəncəvi irsinin təbliğinə böyük həssaslıqla yanaşır. Cənab İlham Əliyevin təşəbbüsü ilə 2004-cü ildə "Xəmsə" latın qrafikası ilə nəfis şəkildə yenidən nəşr edilmiş, Nizami poeziya günləri keçirilmiş, Sankt-Peterburq şəhərində Nizami Gəncəvinin heykəlinin təntənəli açılış mərasimi olmuş, 2005-ci ildə isə Nizami adına Ədəbiyyat Muzeyinin təmir-bərpasına 13 milyon manat vəsait ayrılmışdır.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublıikası Prezidentinin 23 dekabr, 2011-ci il tarixli sərəncamına uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Şəhər İcra Hakimiyyəti ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, mütəfəkkir-şair Nizami Gəncəvinin 870 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirmişdir.

İllər ötəcək, Heydər Əliyevin bu sahədəki xidmətləri əbədi yaşayacaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan KP Mərkəzi komitəsinin "Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında" Qərarı. Bakı, 1981.
2. "Azərbaycan" qəzeti, 21 aprel 2012-ci il.
3. Cavadova Z.S. N.Gəncəvinin əsərlərində insan təkamülünün psixoloji konsepsiyası. Monoqrafiya. Bakı: "Elm və təhsil", 2016.
4. Gəncə qonaqların gözü ilə. "Gəncənin səsi" qəzeti, 25 fevral 2014-cü il.
5. Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. "525-ci qəzet" 14 yanvar 2011.
6. Məmmədov A. "Heydər Əliyev və Gəncə". Gəncə: 1970. - 216 s.
7. Nizami Gəncəvinin irsini gələcək nəsillər üçün yaşatmalıyıq. "Gəncənin səsi" qəzeti, 17 oktyabr 2017-ci il, - s.5.

**Cəfər İBRAHİMOV**
***Gəncə Dövlət Universitetinin***
***Psixologiya kafedrasının***
***dosenti, fəxri professor***
**E-mail: ibrahimov-cefer@list.ru**

# HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ VƏ ONUN MİLLİ DİLÇİLİK SİYASƏTİ

*Açar sözlər:* Şəxsiyyət, ana dili, milli dil siyasəti, dünya Azərbaycanlıları, azərbaycançılıq konsepsiyası.

Şəxsiyyət mürəkkəb və çoxcəhətli anlamdır. Müasir psixologiyada şəxsiyyət ekstrapsixoloji kateqoriya hesab olunur. Şəxsiyyətin tələbat – motivasiya sahəsi, "Mən – konsepsiyası" mentaliteti, münasibətlər şəbəkəsi, fərdi – psixi xassələri və s. struktur planda təhlil olunur. Sosial aktivlik insanın orqanizmində qabaqcadan proqramlaşdırılmır. İnsanın həyat yolu və ya fərdi inkişafı, həm də sosial cəhətdən şərtlənir, konkret cəmiyyətdə, onun tarixi inkişafının müəyyən bir mərhələsində, onun təşəkkülü tarixi kimi meydana çıxır.

XX əsrin 80 – 90 – cı illərində Azərbaycanda milli azadlıq hərəkatının gedişində ana dilinin ictimai – siyasi nüfuzunun güclənməsi ümummilli lider Heydər Əliyevin vaxtilə yürütdüyü siyasətin bilavasitə nəticəsi idi. Lakin həmin illərdə Xalq Cəbhəsinin hakimiyyətdə olduğu zaman etnik – kulturoloji məsələlərlə bağlı buraxılan səhvlər milli dilimizin nüfuzuna mənfi təsir göstərdi. Geniş və hərtərəfli müzakirələr aparılmadan ana dilinin "türk dili" adlandırılması, eləcə də kiril əlifbasından latın əlifbasına keçidin hazırlıqsız başlanması sonralar bir sıra problemlər yaratdı.

Xalqın təkidi və tarixin hökmü ilə Azərbaycanda yenidən hakimiyyətə qayıtmış Heydər Əliyev qısa bir zamanda ölkədə iqtisadi, ictimai – siyasi, ideoloji – mənəvi həyatın stabilləşməsinə nail oldu.

Dövlətin dilçilik elminə, dilin özünə diqqəti, həssaslığı, ilk növbədə azərbaycançılıqla, dövlətin milli dil siyasəti ilə bağlıdır. Heydər Əliyevin bir dövlət başçısı kimi uğurlu dil siyasəti yürütməsinin səbəblərindən biri milli dil quruculuğu təcrübəsinin mövcudluğu, ikinci həmin təcrübəni dərindən öyrənməsi idisə, üçüncüsü ona sözün geniş mənasında yaradıcı münasibət idi. Sələflərində olmayan bir mühüm xüsusiyyət Heydər Əliyev üçün xaqrakterik idi ki, bu da milliliklə ümumibəşəriliyin (modern dünyagörüşün ) bir şəxsiyyətdə mükəmməl şəkildə birləşməsindən ibarət idi. Ona görə də demək olar ki, bütün maneələri aradan qaldıraraq o, millətin mütəşəkkilliyinə nail oldu. Azərbaycan dilinin Respublikada dövlət dili olaraq nüfuzunun maksimum yüksəlməsi üçün bütün tədbirlərin görülməsini təmin etdi.

Azərbaycan ədəbiyyatının, ümumən mədəniyyətin klassiklərinin ümumxalq səviyyəsində keçirilən yubileyləri həm də ana dilinin geniş miqyasda təbliği

demək idi. Xalq özünün Nizami, Nəsimi, Füzuli, Xətai, Vaqif, Zakir, Mirzə Cəlil, Sabir, H.Cavid kimi dahilərin dövlət miqyasında nə qədər yüksək qiymətləndirildiyini gördükdə özü də yüksəlirdi.

Heydər Əliyev böyük dövlət adamı olaraq dilin inkişafını şərtləndirən amilləri bilir və həmin amillərin bərqərar olması üçün bütün imkanlardan maksimim yararerlanmağa çalışırdı. O, ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdışından sonra təşəbbüskarı olduğu Dünya Azərbaycanlılarının I qurultayının ruhunu ifadə edən fikirləri ibrətamizdir. Dünya Azərbaycanlılarının Bakıya toplaşan nümayəndələrinə müstəqil dövlətin rəhbərinin söylədiyi ən dəyərli tövsiyə soydaşlarımızın harada yaşamasından asılı olmayaraq milli dəyərlərimizi və dilimizi qorumaq idi. O, müstəqil dövlətin əsas ideyasını azərbaycançılıq adlandırırdı. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir.

Ümumtürk kökündən ayrılmış bir qol olan Azərbaycan dili, dunyanın ən yüksək kürsülərindən eşidilir, o həyatımızın mühüm tərkib hissəsi olmaqla, həm də xalqımızın milli quruculuq daşıyıcısı kimi səslənir. Onu qorumaq və inkişaf etdirmək hər bir Azərbaycan vətəndaşının borcudur.

## ƏDƏBİYYAT


1. Cəfərov N. Ümummilli liderin milli dil siyasəti. /Azərbaycan məktəbi, №6, 2015. s. 17-28.
2. Hüseynova M. Elm və təhsilin böyük dostu. /Azərbaycan müəllimi, 21 oktyabr, 2022 –ci il.
3. Петровский А.В., Ярошевски М.Т. Основы теоретической психологии. М., 1998. стр. 223-269.

**Validə ƏLIYEVA**
***Psixoloiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin***
***"Humanitar fənlər" kafedrasının dosenti***
**E-mail: valid.aliyeva61@mail.ru**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİNİN ALİ KEYFİYYƏTLƏRİNİN PSİXOLOJİ PORTRETİ

*Açar sözlər:* şəxsiyyət, fərdi-psixoloji xüsusiyyət, qabiliyyət, psixoloji məharət, təfəkkür.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünü ölkə ictimaiyyəti böyük ruh yüksəkliyi və coşqu ilə dövlət səviyyəsində təntənəli şəkildə qeyd etməyə hazırlaşır. 44 günlük Vətən müharibəsində əldə edilmiş Zəfərin bu dahi şəxsiyyətin həyat və fəaliyyətinə yeni nəzər salarkən onun psixoloji siyasi portreti daha da zəngin təsir bağışlayır.

Heydər Əliyev Azərbaycan xalqının taleyinə Allah-Təala tərəfindən bəxş edilmiş nadir şəxsiyyətlərdən biridir. Ulu öndər dünya siyasətinin nəhənglərindən sayılır. Onun Azərbaycan xalqının qan yaddaşında ümummilli lider və xalq məhəbbətini qazanan rəhbər kimi qalması təsadüfi deyildir. Xalqımızın taleyində mənəvi, psixoloji həyatında, dövlət quruculuğunda onun qədər çalışan ikinci dövlət adamına rast gəlmək mümkün deyildir. Elə bu səbəbdən də, Heydər Əliyev tanıdığımız ilk gündən onun son gününədək ən vacib psixoloji xüsusiyyətlərini təhlil edib unudulmaz portiretini yaradaraq, gələcək nəsillərə nümunə kimi təqdim etməyə çalışırıq.

Heydər Əliyev dünyada gedən psixi proseslərə təsir etmək gücündə olan fövqəladə şəxsiyyət kimi tarixin psixoloji nüanslarını yazan və eyni zamanda onu yönəltməyi bacaran şəxsiyyət idi. O, kütləni arxasınca aparmağı və auditoriyanı inandırmağı bacaran məharətli psixoloq və mahir siyasətçi idi. Ulu öndərin dərin məntiqi təfəkkürü və maraqlı nitqi, gözəl ünsiyyət qurmaq bacarığı onu dinləyənləri heyran edirdi.

Mahir psixoloq, insan qəlbinin sərrafı olan Heydər Əliyevdən Allah-Təala heç nəyi əsirgəməmişdir. O, analitik təfəkkür tərzi ilə ən çətin vəziyyətlərdən məharətlə çıxırdı. O, öz yüksək intellektual qabiliyyəti ilə ətrafdakıları daim təəccübləndirirdi.Ulu Öndər bəlkə də dünyanın ən nadir psixoloqlarından biri kimi əqli və məntiqi keyfiyyətlərindən ustalıqla istifadə edirdi.

Heydər Əliyevin ən ali keyfiyyətləri - fenomenal xüsusiyyətləri, hərəni öz dilində danışdırmaq qabiliyyəti onu tanıyanların sevimlisinə çevirirdi. Alicənablıq, etibar, təmkin, diqqət və bu kimi yüksək fərdi-psixoloji xüsusiyyətlər Heydər Əliyevin təbiətinin fəlsəfəsini təşkil edirdi.Onun gücü məntiqi-təfəkküründə, işgüzarlığında, tükənməz səbrində, müsahibini təmkinlə

dinləməklə birgə həm də eyni zamanda həmsöhbətinə psixoloji təsir etmək bacarığında idi.

Mahir psixoloq diplomat olması Ulu öndəri dünyanın ən məşhur siyasətçiləri ilə bir sıraya qoyur. Heydər Əliyev sanki dünyaya böyük siyasət adamı kimi gəlmişdir. O təkcə ölkə miqyasında deyil, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətlə sözünü deyən nadir siyasətçi idi. Onun fitri istedadı və fövqəladə qabiliyyəti dövlətçilik məsələləri ilə bağlı baxışlarında da özünü doğrultmuşdu. O, həmişə zərgər dəqiqliyi ilə, ölçülüb-biçilmiş qərarlar verirdi.

Heydər Əliyev idarəetmədə böyük səriştəsi və bacarığı olan, nəyi nə zaman etməyi dəqiqliyi ilə bilən siyasi liderdir. Heydər Əliyevin siyasəti tamamən milli maraqlar üzərində qurulmuşdu.

Hər bir xalqın müstəqillik yolu bir çox əsas daxili-xarici amillərlə şərtlənir. Bu da bir həqiqətdir ki, Azərbaycan dövləti əlverişli tarixi şəraitdən, özünün intellektual potensialından istifadə edərək Heydər Əliyevin müəllifliyi ilə öz arzusunu reallaşdırıb. Ümummilli lider Heydər Əliyevin bu fikri bir daha sübut edir ki, "müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onun qorunub saxlanılması, əbədi olması daha da çətindir".

Bu analitik-sintetik təhlil həm də onu sübut edir ki, dövlət qurmaq üçün çətin, mürəkkəb bir vəzifəni yalnız iradəli, geniş dünyagörüşlü, xalqın ümummilli liderinə çevrilmiş ali keyfiyyətlərə malik şəxsiyyət yerinə yetirə bilər. Heydər Əliyevin problemlərə kökündən yanaşmaq, səbəb-nəticə əlaqələrinə dərindən nüfuz etmək kimi ali keyfiyyətləri çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirir.

Ümummilli Liderin şəxsiyyəti və fəaliyyətinin psixoloji təhlili aşkar edir ki, o, həm yüksək analitik təfəkkürə, həm də yenilməz iradəyə malik rəhbər olub. Onun zəngin irsinin tədqiqi təkcə bu gün üçün deyil, həm də gələcək nəsillər, Azərbaycana rəhbərlik edəcək bütün liderlər üçün ən əsas nümunədir. Eyni zamanda, Ümummilli Lider Azərbaycan vətəndaşlarını beynəlxalq aləmdə vahid məqsəd ətrafında birləşdirən azərbaycançılıq ideologiyasını psixoloji aspektdə yaratmağa müvəffəq olmuşdur.

Bu gün elm və mədəniyyətə, vətənpərvərlik tərbiyəsinə yetirilən diqqət dövlət siyasətinin əsas tərkib hissəsidir. Ona görə də bu gün ilk yada düşən Heydər Əliyevin bu sahədəki fəaliyyəti və əsasını qoyduğu siyasi xəttdir. Biz əgər Heydər Əliyevin çıxışlarını dəqiqliklə izləsək, görərik ki, onun ən böyük nailiyyət hesab etdiyi hadisə Azərbaycanın müstəqilliyi, ən çox vurğuladığı və diqqət verdiyi sahə müstəqilliyin dönməzliyinin təmin edilməsidir.

Heydər Əliyevin bir şəxsiyyət kimi hərtərəfli intellektual səviyyəyə malik olması daxili və xarici siyasətini vəhdət şəkildə həyata keçirilməsinə imkan verirdi. Bu gün hər kəs böyük məsuliyyət hissi ilə başa düşür ki, bütün sahələr üzrə psixoloji aspektdə Azərbaycanın öz maraqlarına uyğun işlənib - hazırlanmış müstəqil inkişaf kursu məhz Heydər Əliyev dühasının məhsuludur. Həm də bu maraqların Ümummilli Lider tərəfindən rəhbər tutulması elə incə

siyasi-psixoloji məharətlə həyata keçirilirdi ki, O, qonşuların maraqları ilə birbaşa ziddiyyət təşkil etməsin. Çünki Heydər Əliyev siyasəti iqtisadiyyatdan, mədəniyyətdən, milli-mənəvi dəyərlərdən təcrid etmirdi həm də onun özünün bir şəxsiyyət kimi hərtərəfli hazırlıqlı olması, bütün sahələrdə yüksək intellektə malik olması xarici siyasət kursunun yüksək səviyyədə həyata keçirilməsinə imkan verirdi.

Heydər Əliyevin demokratik dəyərlərə verdiyi qiymət onun böyük mənəviyyat sahibi olduğunu, şəxsiyyətcə böyüklüyünü bir daha təsdiq edən çoxsaylı faktlardandır.

Ulu öndərin o dövrdə apardığı siyasətin psixoloji nəticəsidir ki, bu gün Azərbaycan dövləti "Xalq – Ordu - Prezident" birliyi sayəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə "Dəmir yumruq" əməliyyatı keçirdi, tarixi qələbə qazandı. 30 ildən artıq düşmənlərin zəbt etdiyi ərazilərimizə, nəhayət ki, doğma sakinləri geri dönüb öz yuvalarına sahib çıxa bildilər. Demək, Vətən müharibəsində qazanılmış tarixi Zəfər, hər şeydən öncə, Heydər Əliyev ideologiyasının parlaq təcəssümüdür.

Beləliklə, dövlətimizin müstəqillik illərində əldə etdiyi uğurlar məhz Heydər Əliyevin təcrübəsi ilə bilavasitə bağlıdır.Ulu Öndərimizin yarımçıq qalmış arzularının həyata keçirilməsində milləti bir yumruq altında birləşdirməyə nail olmuş Prezident İlham Əliyevin rəhbərliyi altında çoxşaxəli islahatlar daha da yeni və möhtəşəm formada zənginləşdirilir.

ƏDƏBİYYAT

1. Hacıyev R. "Azərbaycan gəncliyinin himayədarı : Heydər Əliyevin gənclər siyasəti ." Bakı, 2014. 192 s.
2. Heydər Əliyev yolunun davamçısı… https://azerbaijan.az/related-information/152 (istinad tarixi: 05.04.2023).
3. https://ikisahil.az/post/217825-heyder-eliyev-mefkuresi-ve-muasir-dovlet-quruculugu (istinad tarixi: 05.04.2023).
4. Səfərli F. "Heydər Əliyev irsi - əbədiyaşar təlim". Naxçıvan, 2014. 200s

**Radif MUSTAFAYEV**
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*İslam fəlsəfəsi şöbəsinin aparıcı elmi işçisi*
**E-mail: hradif@mail.ru**

# VƏTƏN MÜHARİBƏSİ QƏNİMƏT ƏDƏBİYYATINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİNƏ MÜNASİBƏT

*Açar sözlər:* Azərbaycan Respublikası, II Qarabağ -Vətən müharibəsi, H.Əliyev, Dağlıq Qarabağ, milliyyətçilik

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Müzəffər Ali Baş Komandan, cənab prezident İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü tam təmin edilmişdir. Bu Vətən müharibəsinin iştirakçısı kimi işğalçılardan azad edilmiş Xocavənd rayonu Böyük Tağlar kəndində qərargah rəisim mayor Samiq Əliyevin, batareya komandirim kapitan Zaur Gülüyevin, özümün və digər əsgər döyüş yoldaşlarımın vasitəsilə əldə etdiyim ədəbiyyat və sənədlər hərbi qənimətlərimiz olub, fikrimizcə bunların prizmasından Azərbaycan həqiqətlərinə diqqət yetirmək baxımından olduqca lazımlı materiallardır. Belə ki, ölkəmizin qədim və müasir tarixini Azərbaycan və dünya ədəbiyyatı üzrə bildiklərimizlə yanaşı erməni mənbələri əsasında da müqayisəli şəkildə nəzərdən keçirməyimiz hər şeydən əvvəl bir tədqiqatçı vəzifə borcumuz olub Azərbaycan həqiqətlərinin aşkarlanması və təbliği baxımından da böyük önəm kəsb etməkdədir. Buna görə də biz sözügedən qənimətlərdə əbədiyaşar liderin həm Sovet dövrünə, həm də müstəqillik dönəminə aid məqamlara diqqət yetirmək, buradakı yanlış, qərəzli, düşmən mövqelərini tutarlı sübut və dəlillərlə ifşa etmək niyyətindəyik. Bu məqsədlə aşağıdakı tezisləri irəli sürə bilərik:

- Əldə etdiyimiz qənimətlər sırasında Ulu Öndər Heydər Əliyevin fəaliyyətinə geniş toxunulmuş ədəbiyyat kimi 2015-ci ildə nəşr edilmiş tarix elmləri doktoru, Rusiya Elmlər Akademiyasının N.N.Mikluxa-Maklay adına etnologiya və antropologiya İnstitutunun baş elmi işçisi, Rusiya akademiyasının təbiət elmləri üzrə həqiqi üzvü və etnoqrafik ermənişünaslıq sahəsində dünyada tanınmış mütəxəssis kimi təqdim edilən Alla Ervandovna Ter-Sarkisyansın "Dağlıq Qarabağ erməniləri (Tarix. Mədəniyyət. Ənənələr)" adlı iri həcmli (918 səhifə + 40 s. rəngli illüstrasiyalar, xəritələr) kitabı səciyyəvidir. Belə ki, bütün səyləri ilə Qarabağın (Arsaxın), o cümlədən də Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-nin (Azərbaycan Respublikasının) tərkibində olduğunu inkar edib, bunu böyük ədalətsizlik hesab etmiş müəllif, Sovet dövründən bəhs edərkən başqa şəxslərlə yanaşı o zamanlar Azərbaycan SSR DTK-nın rəhbərliyindən başlayaraq

Ümummilli lider Heydər Əliyev barəsində çoxlu qeydlər etmişdir. A. Ter-Sarkisyans yazır ki, hələ1969-cu ilin aprelində Heydər Əliyev SovİKP MK-nın nəzdində partiya nəzarəti Komitəsinə Dağlıq Qarabağla əlaqədar qeydlərində baş vermişləri milliyyətçi bir hərəkat kimi qiymətləndirmişdir;

- Sözügedən ədəbiyyatda xüsusilə də Ulu öndər Heydər Əliyevin Sovet dövründə hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ Muxtar Vilayətində milliləşmə, azərbaycanlaşdırma siyasətinin geniş vüsət aldığını qeyd edib, bu addımlardan biri kimi tədris proqramlarında Azərbaycan dilinin tədris edilməsini vurğulamışdır;
- A.Ter-Sarkisyansı narahat edən digər məqamlardan biri kimi Ulu Öndərin hakimiyyəti zamanı Azərbaycan tarixçiləri və arxitektorlarının da guya erməni xalqına dostcasına deyil, daha çox düşmənçilik mövqeyindən yanaşdıqlarını iddia edərək onların guya erməni xristian mədəniyyəti abidələrini "əvvəlcə alban, daha sonra isə azərbaycan mənbələri elan edib, xalqlarını qədim xristian albanların və onların mədəniyyətlərinin varisləri olduqlarını bildir"mələrinə qarşı etiraz etmişdir;
- Müəllifə görə, guya "Qarabağ ermənilərinə münasibətdə bütün bu qeyd edilmişlər son nəticədə Dağlıq Qarabağ ermənilərinin onlara qarşı edilmiş tarixi ədalətsizliyi aradan qaldırmaq üçün 1980-ci illərin ikinci yarısındakı milli-azadlıq hərəkatının hissediləcək şəkildə fəallaşmasına gətirib çıxartmışdır" (1, s.358);
- Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda hakimiyyətə qayıtması ilə əlaqədar hadisəyə qeyd yerində müəllif yazır ki, "1980-ci illərin sonlarında, artıq H.Əliyev [Sovet rəhbərliyində] iş başında olmadığı vaxtlarda M.S.Qorbaçov ətrafındakılarla Azərbaycanın keçmiş başçısına (Heydər Əliyevə - R.M.) qarşı "rəşidov işindən də təmiz iş aparıldığını" bölüşürdü" (1, s.466). Hətta Rusiyanın keçmiş prezidenti B.N.Yeltsinin xatirələrinə istinad etmiş A.Ter-Sarkisyans bir daha Ümummilli lider Heydər Əliyevə qarşı aparılmış çirkin kompaniyanı ifşa etmiş olur;
- Bütövlükdə Ümummilli lider Heydər Əliyevin hakimiyyətinin əvvəlki iqtidarlardan fərqli olduğunu vurğulamış müəllif, dərhal 23 iyul 1993-cü ildə Ağdam şəhər mərkəzinin işğal edilməsi ilə guya H.Əliyevin nüfuzuna hissediləcək dərəcədə zərbə vurulduğunu iddia edir (1, s.474). Halbuki, özü də etiraf etməli olur ki, bu hadisə ilə əlaqədar BMT-nin Təhlükəsizlik Şurasının 29 iyul tarixli 853 saylı qətnaməsi qəbul edilmişdir. 822 saylı qətnaməni isə o, Dağlıq Qarabağın tərəf kimi tanınmasına görə ermənilər tərəfindən qəbul edildiyini vurğulayır (1, s.475);
- Erməni müəllif adını çəkməsə də, məhz Ümummilli lider Heydər Əliyevin sayəsində, qeyd edir ki, Azərbaycan yeni vasitə və qüvvələr

əldə edib 1993-cü ilin dekabrında əks hücuma keçməklə yanaşı İslam dünyası və Qərblə əlaqələri genişləndirməyə başlamışdı (1, s.476);

- Xüsusilə də Qərb şirkətləri ilə Xəzərin neft yataqları ilə əlaqədar yenə də adını qeyd etməsə də, Ümummilli liderin aktiv danışıqlar apardığını vurğulamışdır;
- A.Ter-Sarkisyanç artıq fevralın sonunda Ümummilli lider Heydər Əliyevin Londonda aralarında "Dostluq və əməkdaşlıq" haqqında müqavilə olmuş səkkiz müqavilə bağlandığını və olduqca uğurlu olduğunu qeyd və etiraf edir (1, s.477);
- Müəllif 12 may 1994-cü ildə "Atəşkəs haqqında razılaşma" imzalandığını qeyd edir. Və vurğulayır ki, o zaman H.Əliyev münaqişə ərazisinə rusiyalı sülhməramlı qüvvələrin yerləşdirilməsinə etiraz etmişdir (1, s.483);
- O, 1996-cı ildə Minsk Qrupunun Rusiya və Finlandiyanın həmsədirliyi ilə danışıqların 8-ci raundunun baş verdiyini qeyd edərək, artıq burada Azərbaycan tərəfi (sözsüz Ümummilli lider Heydər Əliyev başda olmaqla) ərazi bütövlüyü məsələsini, işğal olunmuş torpaqların boşaldılması, o cümlədən də Şuşa və Laçının azad edilməsi məsələlərində israr etmişlər (1, s.488). Müəllif qeyd edir ki, həmçinin Dağlıq Qarabağın demilitarizasiyası təqdirində geniş muxtariyyət və əhalisinin təhlükəsizliyinə söz verilmişdir;
- Müəllif etiraf edir ki, 24 noyabr 1996-cı il Dağlıq Qarabağda keçirilmiş prezident seçkiləri "Aparıcı Qərb ölkələri və Rusiya tərəfindən "qeyri-qanuni" hesab edilmişdir" (1, s.489);
- Yenə də müəllifdən, Ümummilli lider Heydər Əliyevin adı xatırlanmadan, oxuyuruq ki, 1996-cı ildə Lissabondakı ATƏT-in sesiyasında yekun razılıq Azərbaycanın ərazi bütövlüyü dəstəklənməklə erməni nümayəndə heyətinin narazılığına səbəb olmuşdur (1, s.490). Çünki, erməni tərəfinin "xalqların öz müqəddaratını müəyyən etmək" prinsipi qəbul edilməmişdi. A.Ter-Sarkisyanç 11 fevral 1997-ci ildə Finlandiyanın xarici işlər naziri cənab T.Halonendən sitat gətirir ki, "Lissabon sammitindəki dramatik çevriliş danışıqlar prosesinə öz damğasını qoydu...Rollar dəyişdi; vasitəçilərin mövqeləri ilə razılaşan Azərbaycan tərəfi tamamilə Ermənistanın fəaliyyət azadlığının olmadığını ortaya çıxartdı...Azərbaycan beynəlxalq ictimaiyyətin gözü önündə Ermənistanı küncə sıxışdırdı. Hətta həllin olmaması belə Azərbaycanın qələbəsi oldu. Ermənistan qınına girən ilbiz kimi ortalığa çıxan vəziyyəti müzakirə etməyə özünə çəkildi" (1, s.491).

Bir sözlə, fikrimizcə bu və digər məqamlarda görünən Ümummilli lider Heydər Əliyevin prinsipiallığını və Azərbaycanın haqlı mövqelərinin necə qoruduğu barədə bəhs edərək A.Ter-Sarkisyansın adıçəkilmiş kitabında nə qədər də təhrif edilmiş, saxta məqamlar yer alsa da, ölkəmizin bu olduqca mürəkkəb,

çətin və eyni zamanda da milli maraqlarımızın heç zaman güzəşt edilmədiyi Ulu Öndər və Müzəffər Ali baş komandan İlham Əliyevin hakimiyyət illərində baş vermişlərin bu prizmadan da araşdırılması olduqca vacibdir.

ƏDƏBİYYAT

1. Тер-Саркисянц А.Е. Армяне Нагорного Карабаха: История. Культура. Традиции. Институт политических и социальных исследований Черноморско-Каспийского региона. -М.: НП ИД «Русская панорама», 2015, - 918 с. +40 с.цв.ил., карты
2. Əlizadə A. "Cənubi Qafqazda "Qaz qarşıdurmaları" (1962-1967)/ Həyat sosiologiyası (tarix v müasirlik prizmasından)" toplusu, 2021, s.63-73.
3. Кулизаде З. "Концептуальные проблемы исследования социокультурного развития (конец XX – начало XXI вв.) Ч.I. Баку: «Текнур», 2009, 396 с.
4. Mustafayev R. Vətən müharibəsi qənimətlərində Azərbaycan həqiqətlərinə baxış/Azərbaycanın strateji hədəfləri və Cənubi Qafqazda yeni reallıqlar. Bakı, 2021, s.195-202.
5. Mustafayev R. II Qarabağ-Vətən müharibəsi qənimətlərində Azərbaycan həqiqətlərinə baxış/Cənubi Qafqazda ərazi-sərhəd problemləri: Qars müqaviləsindən Şuşa bəyannaməsinə, 23 sentyabr 2021, Bakı, Respublika Elmi Konfransı, tezislər, s.55-56.

**Яшар АЛХАСОВ**
***Доктор философии по педагогике,***
***Доцент кафедры практического русского языка***
***и методики его преподавания***
***Бакинского Славянского Университета***
**E-mail: a-yashar@rambler.ru**

# ЯЗЫКОВЫЕ ЕДИНИЦЫ В ВЫСТУПЛЕНИЯХ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА КАК СРЕДСТВО ПСИХОЛОГИЧЕСКОГО ВОЗДЕЙСТВИЯ

*Ключевые слова:* Гейдар Алиев, речь, азербайджанский язык, русский язык, азербайджанство, психологическое воздействие.

Гейдар Алиев как великий патриот искренне и горячо любил свою страну и её культуру и историю. Он прекрасно понимал, что, наряду с экономическим развитием, один из ключевых элементов независимости – культура. Поэтому сразу же после прихода к политической власти в Азербайджане Гейдар Алиев как Президент выдвинул идею азербайджанства, которая стала главной идеологической платформой для внешней и внутренней политики Азербайджанской Республики. Он всемерно поддерживал культурное наследие Азербайджана, справедливо полагая, что оно лежит в основе национальной идентичности всей страны. Именно сильное чувство идентичности позволяет нации оставаться единой, даже когда окружающие политические силы бросают вызов этой нации и её праву на существование.

Наряду с эффективной и целенаправленной деятельностью во всех сферах жизни, Гейдар Алиев придавал большое значение развитию образования в стране. Образование и воспитание подрастающего поколения всегда были ведущими направлениями в государственной программе дальновидного и мудрого лидера народа. «Слово было самым мощным оружием Гейдара Алиева. Он пользовался им и как оратор, и как дипломат, и как тонкий психолог. Прекрасно пользовался – на грани самого высокого искусства. Гейдар Алиев использовал свой талант блестящего оратора в своих выступлениях в самых разных местах. Он говорил уверенно и точно. Его слова изменили жизнь, изменили историю. Разговаривать с народом так, чтобы каждый гражданин воспринимал сказанное как обращение лично к нему, – не каждому дано. Ему было дано. Равно как и потрясающая точность реагирования на мельчайшие нюансы настроения собеседника. Равно как и огромное чувство внутреннего такта, дарующее ему способность проникнуться болью и тревогой каждого. Равно как и суперинтуиция, позволявшая ему находить поразительно верные решения в самые судьбоносные для азербайджанского народа

моменты» [1, s. 5]. Анализ языка его выступлений с точки зрения психолингвистики показал, что Гейдар Алиев непревзойдённый мастер в использовании языковых средств в вербальной речи. Следует отметить, что Гейдар Алиев блестяще говорил на русском и на своём родном, азербайджанском языке. По мнению известных российских политиков, деятелей искусства, журналистов, русская речь Гейдара Алиева была необыкновенно яркой, красочной, он обладал удивительной способностью проникать в душу слушателей, действовать на умы людей. Будучи членом Политбюро ЦК КПСС, Первым заместителем Председателя Совета Министров СССР, Гейдар Алиев в своей речи употреблял словосочетание «исторические предначертания съезда партии». Лингвистический статистический анализ показал, что только Гейдар Алиев из политической элиты бывшего Советского Союза употреблял данное словосочетание, а все остальные – «исторические решения съезда партии».

Нами были проанализированы выступления Общенационального лидера в 1999-2000 годы. Когда Гейдар Алиев говорил на азербайджанском языке, часто употреблял синонимы, тем самым усиливал психологическое воздействие слова. Приводим примеры: sevgilərimi, sayqılarımı bildirirəm, məhəbbət bəsləyirəm (2000); diqqətsiz qala bilməzdim, biganə qala bilmərəm (1999); bildirmək, ifadə etmək (2000); zehninin məhsulu, beyninin məhsulu (1999); əməldə göstərmək, özünü konkret işlərdə büruzə vermək (1999); məqsədimiz, hədəflərimiz (2000); fəxr etmək, qürur duymaq (1999) [3;4].

Особую привлекательность азербайджанской речи Гейдара Алиева придаёт антитеза, которая красной нитью проходила через его выступления. В научной литературе антитеза определяется как риторическое противопоставление, стилистическая фигура контраста в художественной или ораторской речи, заключающаяся в резком противопоставлении понятий, положений, образов, состояний, связанных между собой общей конструкцией или внутренним смыслом [2]. Обратимся к примерам: 1. İnanıram ki, o gün *uzaqda deyil,* hər birimiz öz fəaliyyətimizlə qələbəmizi *yaxınlaşdıracağıq* (На встрече с беженцами, 1997). 2. Говоря о реализации нефтяной стратегии: Neft xalqımızın sərvətidir. Çalışırıq ki, yeni iş *yerləri açaq*, işsizliyə *son qoyaq*, *yoxsul* insanlar olmasın, hamı *varlı, firavan* həyat sürsün (1999). 3. Говоря о постановлениях ООН по Гарабагскому конфликту: Bizim fəaliyyətimizin əsas məqsədi və qayəsi ölkəmizin ərazi bütövlüyünü təmin etmək, tarixi torpaqlarımızın işğalına sonqoymaq, insanlarımızın təhlükəsiz yaşamalarını təmin etməkdir (1999). Эти слова оказались пророческими: спустя ровно 21 год наш Президент Ильхам Алиев освободил оккупированные земли от армянской нечисти.

У Гейдара Алиева было особое отношение к изучению языков. Великий лидер говорил: «Я хочу, чтобы наша молодежь читал Низами Гянджеви на азербайджанском, Шекспира – на английском, а Пушкина –

на русском языке». Эти слова могут служить главным лейтмотивом общего и языкового образования современной молодежи Азербайджана. В 1972 году в соответствии с решением №362 от 2 ноября 1972 года Совета Министров Азербайджанской ССР и по инициативе руководителя Азербайджанской ССР Гейдара Алиева на базе Азербайджанского педагогического института языков был восстановлен Азербайджанский педагогический институт русского языка и литературы им. М. Ф. Ахундова. А в 2000 году Указом Президента Азербайджана Гейдара Алиева от 13 июня 2000 года для усовершенствования образовательной системы республики, а также создания уникального высшего учебного заведения, на базе Азербайджанский педагогический институт русского языка и литературы имени М. Ф. Ахундова был создан Бакинский славянский университет.

Талант и воля – ключевые качества харизматичной личности Гейдара Алиева. Высочайшая организованность и требовательность – прежде всего к себе. Умение слушать и слышать одного человека и понимать устремления всех, кого объединяет ёмкое понятие – «народ», «нация». В нём органически сочетались пророческая дальновидность большого политика и полководческая отвага. Глубокая образованность и дарованное природой тонкое эстетическое чувство. Всё это передавалось людям через величайший талант Гейдара Алиева оперировать его величеством СЛОВОМ!

ЛИТЕРАТУРА

1. Гейдар Алиев: лидер, который стал национальной легендой // Каспій. – 2018. – 13 декабря – С.5.
2. Литературная энциклопедия терминов и понятий / Под ред. А. Н. Николюкина. – Институт научной информации по общественным наукам РАН. – М.: Интелвак, 2001. – стб.37-38. – 1596 с.
3. https://files.preslib.az/projects/toplu/v2/f3_9.pdf
4. https://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf

**Südabə HÜSEYNOVA**
***Psixologiya üzrə fəlsəfə doktoru, dosent,***
***AMEA Qafqazşünaslıq İnstitutunun elmi katibi***
**E-mail: sudabeaskerova@gmail.com**

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN PSİXOLOJİ PORTRETİ

*Açar sözlər:* Heydər Əliyev, dövlət quruculuğu, ümummilli lider, dövlətçilik ənənəsi, şəxsiyyət, siyasi lider, psixoloji portret, siyasi fəaliyyət.

Siyasi liderliyin psixologiyasının tədqiqi məsələsi ən qədim və eyni zamanda müasir tədqiqat sahəsidir. Tarixdə mühüm iz qoyan, siyasi transformasiyaların səbəbkarı olan, proqressiv dəyişikliklər yaradan şəxsiyyətlər həmişə böyük maraq doğurub. Bu baxımdan ümummilli lider Heydər Əliyevin strategiyası və qoyulan məqsədlərə çatması yolu siyasi liderliyin nadir nümunəsidir.

Tarixdə şəxsiyyətin rolundan danışarkən iki cəhəti nəzərə almaq lazımdır. Birincisi, şərait və onun tələbini, ikincisi, şəxsiyyəti və onun şəxsi keyfiyyətlərini. Liderin şəxsi keyfiyyətləri həm bütövlükdə, həm də yaranmış siyasi şərait kontekstində vətəndaşlar tərəfindən qavranılan siyasi lider üçün çeviklik ən mühüm keyfiyyətlərdir. [B.Əliyev, 2004, səh. 5].

Ümummilli lider Heydər Əliyev öz psixoloji keyfiyyətləri və siyasi təfəkkürü ilə siyasi liderlər arasında müstəsna yer tutur. İlk növbədə ona görə ki, onun psixoloji keyfiyyətlərini onun siyasi fəaliyyəti tamamlayır, fəaliyyətinin nəticələri ümumbəşəri əhəmiyyət kəsb edir. Heydər Əliyevin bütün siyasi fəaliyyəti, psixoloji keyfiyyətləri zəmanəmizi ifadə edən, onun daşıyıcısına çevrilən əzəmətli abidədir. Özü də bu digərlərinə bənzəməyən qeyri-adi, fenomenal abidədir. Heydər Əliyev Azərbaycana rəhbərliyinin istər birinci dövründə, istərsə də müstəqillik dövründə zamanın və şəraitin diktə etdiyi çərçivələrdən müdrik uzaqgörənliklə çıxaraq öz dövrünü qabaqlamış və həlli mümkün olmayan problemləri də reallaşdıra bilmişdir.

Ümummilli lider Heydər Əliyevin müasir dövrümüzün ən görkəmli dövlət xadimlərindən, liderlərindən birinə çevrilməsi yalnız onun xarakterinə xas olan şəxsi keyfiyyətləri, özünüdərketməsi, özünü adekvat qiymətləndirməsi, intellektual bacarığı, şəxsi fikirlərində çevikliyi ilə deyil, həm də özünün şəxsi intellektual bacarıqlarından, aldığı tərbiyə və təlimdən lazım gələndə istifadə etmək qabiliyyətini özündə əks etdirən bacarığa malik olması ilə bağlı idi.

Heydər Əliyevin siyasi taleyinin tədqiqi göstərir ki, müasir siyasi lider hər şeydən əvvəl, təşkilatçılıq qabiliyyəti ilə üzvi surətdə birləşən təbii intuisiyanın qeyri-adiliyidir. Komandanı formalaşdırmaq, onu möhkəmlətmək, məqsədləri müəyyən etmək, cəmiyyəti birləşdirən proqramı yaratmaq bacarığı – siyasətçi qarşısında qoyulan müasir tələblər bunlardır.

Siyasi liderin psixoloji portretinin yaradılmasında onun məsuliyyət hissinin hansı səviyyədə inkişaf etməsinə, insanları inandırmaq bacarıqlarına da xüsusi diqqət yetirmək lazımdır. Şəxsiyyət hər şeydən öncə fəaliyyətdə, təhsildə, tərbiyə prosesində formalaşır. Heydər Əliyev şəxsiyyətinin fenomenallığını yalnız onun formalaşdığı tərbiyə sistemində, xeyirxahlıq hissinin başlıca məziyyət kimi formalaşdığı şəraitdə axtarmaq lazımdır. Onda formalaşan işgüzarlıq, əməksevərlik, enerjililik kimi məziyyətlər hər kəsə nəsib olan xüsusiyyətlər deyildir. [N.Mamayeva, 2008, səh. 3].

Ulu öndər nəinki natiq-diplomat, həm də tükü-tükdən seçən psixoloq-siyasətçi kimi tanınmışdır. Xalqın, ölkənin hər bir vətəndaşının eşitdiyi sözün məhz ona müraciətlə deyildiyi kimi başa düşməsi səviyyəsində danışmaq hər kəsin hünəri deyil. Onda hər kəsin ağrı-acısını seçmək qabiliyyəti olmaqla yanaşı, həm də şəxsiyyətin əhvalında ən kiçik dəyişmə hallarını, insanların daxili dünyasını duymaq bacarığı vardır. Bu ulu öndərin fenomenal şəxsiyyət olduğunun bariz göstəricilərindən biridir.

Heydər Əliyevdə öz xalqına və millətinə olan məhəbbət hissi, vətənpərvərlik duyğusu, öz xalqını fəlakətdən, təhlükədən, məhv olmaqdan qurtarmaq motivi təhrikedici amil kimi özünü göstərmişdir. Məhz belə bir motivasiya Heydər Əliyev kimi dahi şəxsiyyətdə ola bilərdi. Başqaları hakimiyyəti qoyub qaçanda o, özünü təhlükəyə atıb, xalqı məhv olmaqdan qurtardı, onun gələcək perspektivlərini müəyyənləşdirdi.

Heydər Əliyev elə bir tarixi şəraitdə rəhbərliyə gəlmişdir ki, daxili problemlərlə yanaşı, xarici təzyiqlər, Respublikanın strateji mövqeyi, neft amili, Qarabağ müharibəsinin daha da şiddətlənməsi, ərazilərin işğalının günü-gündən artması və s. məsələlər siyasi liderdən uzaqgörənlik, perspektiv hesablanmış siyasət, çevik qərar qəbuletmə qabiliyyəti və s. tələb edirdi. Təcrübəli dövlət xadiminin idarəçilik məharəti nəticəsində dövlətimiz onu təhdid edən fəlakətlərdən, məhv olmaq təhlükəsindən, etnik parçalanmadan xilas edildi. Sabit sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna qədəm qoydu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində uzunmüddətli atəşkəs əldə olundu. Problemin sülh yolu ilə həlli üçün ardıcıl fəaliyyət göstərilməyə başlandı. Taleyüklü məsələlərə kreativ yanaşma, neytrallaşdırılmış siyasət və onun müsbət nəticələri Heydər Əliyev şəxsiyyətinin digərləri ilə müqayisə edilə bilməyəcək səviyyədə fenomenal olduğunu göstərdi. Heydər Əliyevin qoyub getdiyi siyasi yaradıcılıq təcrübəsi buna parlaq nümunədir.

Ümummilli liderin dövlət quruculuğunda rolunu hərtərəfli tədqiq edən AMEA-nın müxbir üzvü, professor Bəxtiyar Əliyev yazır: *"Qısa bir müddət ərzində ilk dəfə olaraq Şərqlə Avropanın qovuşacağında demokratik dünyəvi dövlət quruculuğuna başlandı. Təssüf ki, milli dəyərlərə demokratik prinsiplərə söykənən yeni bəşəri dövlətin qurulmasına o dövrdəki daxili və xarici qüvvələr imkan vermədi. Bunun səbəbləri bu gün tarixçilər, politoloqlar və digər mütəxəssislər tərəfindən araşdırılır. Yəqin ki, burada çox səbəblər ola bilər. Lakin onlardan biri, bəlkə də ən birincisi, sosial-psixoloji baxımdan həqiqi*

*ümummilli liderin, siyasi iradəyə malik liderin olmaması idi. Çünki, həlledici tarixi məqamlarda məhz şəxsiyyət tarixin inkişaf istiqamətlərini müəyyən edir. Tarixlə şəxsiyyətin dialektik vəhdəti özünü həlledici məqamlarda büruzə verir*". [B.Əliyev, 2003, səh. 7].

Azərbaycan alimi Səlahəddin Xəlilovun ümummilli lider Heydər Əliyevin dövlətçilik ənənəsi, quruculuğu haqqında qeyd edir: *"Ümumiyyətlə, Heydər Əliyevin dövlətçilik nəzəriyyəsi və praktikasında gətirdiyi ən böyük yeniliklərdən biri sosial-siyasi sistemləri öz daxili enerjisi hesabına dəyişdirmək bacarığıdır. Bu zaman ən əsas məsələ mürəkkəb proseslərə müxtəlif rakuslarda yanaşmaq qabiliyyətidir. Heydər Əliyev dövlətçilik problemini də etik-milli və milli-siyasi aspektləri arasında optimal nisbəti nəzərə almaqla ümumi ahəngi pozmadan, təkamül yolu ilə inkişaf üçün zəmin hazırlayır"*. [S.Xəlilov, 2001, səh. 52].

Siyasi liderin psixoloji portretini yaratmağa cəhd edərkən, onun intellektual keyfiyyətləri, o cümlədən işgüzarlığı və iş qabiliyyəti xüsusi təhlil olunmalıdır. Ümummilli lider Heydər Əliyevin fenomenal iş qabiliyyətinə malik olması heç kimdə şübhə doğurmur. Saatlarla ayaqüstə auditoriya qarşısında nitq söyləməsi, onların hər bir problemindən geniş şəkildə danışması, onun fenomenal iş qabiliyyətinə malik olduğunu görsədir. Ulu öndərin möhkəmliyi, prinsipiallığı hər kəsdə ona qarşı simpatiya hissi yaradırdı.

Heydər Əliyevin siyasi şəxsiyyət kimi psixoloji cizgilərini yaratmaqda mühüm bir məqamı da qeyd etməmək olmur. Ulu öndərin şəxsiyyətində çox vacib olan psixoloji cəhət – riskə meyilliyi xüsusi qeyd olunmalıdır. Ehtiyatlılıq və riskə meyillilik onun şəxsiyyətində inteqrativ vəhdətdə özünü göstərdi. Bu, çox vacib keyfiyyətlər olmaqla yanaşı, siyasi liderin iradəsinin bariz göstəricisidir.

Əsl rəhbərə və liderə xas olan cəhətlər – idarəetmə qabiliyyəti, uzaqgörənlik, düzgün və yerində qərar qəbul etmə bacarığı, təşkilatçılıq onun şəxsiyyətində cəmlənmişdir. Onda formalaşan işgüzarlıq, əməksevərlik, enerjililik kimi məziyyətlər hər kəsə nəsib olan xüsusiyyətlər deyildir.

Respublikada rəhbərlik etdiyi bütün dövrlərdə Heydər Əliyevin doğma Azərbaycan mühitinə, milli zəminə, milli köklərə bağlı olması onu bir şəxsiyyət, dövlət xadimi və lider kimi səciyyələndirən keyfiyyətlər sırasında xüsusi yer tuturdu. Azərbaycan dilinin inkişafı, milli mədəniyyətin, əxlaq normalarının, dinimizin, mənəviyyatımızın yüksəlməsi, gənclərin milli ruhda tərbiyə edilməsi bu böyük şəxsiyyətin liderlik qayəsini təşkil edən ümdə cəhətlərdəndir. [S.Mirzəyeva, 2017, səh. 142 ].

Heydər Əliyev şəxsiyyəti hamıya ən yaxşı nümunə, ən yaxşı örnəkdir. Ümummilli lider öz həyatı, şəxsiyyəti ilə böyük bir məktəb yaratdı. Bu məktəbdə vətənpərvərlik, milli şərəf və ləyaqət, milli-mənəvi dəyərlər, əqidə və amal, rəhbərlik və idarəetmə vardır.

Ulu öndərin psixoloji keyfiyyətləri, şəxsiyyət xüsusiyyətləri, idarəçilik qabiliyyəti ilə çulğalaşaraq, inteqrasiya edərək onu fenomenal şəxsiyyətə, dahi şəxsiyyətə, dahi siyasətçiyə, ulu öndərə çevirmişdir.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həytının bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti ilə yanaşı, şəxsiyyəti də Azərbaycanın tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir Azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır.

ƏDƏBİYYAT

1. Əliyev B.H. Siyasi psixologiyada ümummilli lider problemi // Psixologiya jurnalı, 2004, №1, s. 3-11
2. Əliyev B.H. Milli lider dövlətçiliyin və demokratik inkişafın təzahürü kimi // Psixologiya jurnalı, 2003, №2, s. 3-20
3. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı: Azərbaycan Universiteti, 2001, 358 s.
4. Mamayeva N.Ə. Siyasi lider şəxsiyyətinin formalaşmasının sosial-psixoloji xüsusiyyətləri. Psixol. elm. nam... dis. avtoref. Bakı, 2008, 18 s.
5. Mirzəyeva S.S. Şəxsiyyətin siyasi proseslrə təsirinin sosial-psixoloji məsələləri. Bakı: Avropa nəşriyyatı, 2017, 224 s.

**Nigar MƏMMƏDOVA**
***ADPU-nun Pedaqoji psixologiya***
***kafedrasinin baş müəllimi***
**E-mail: nigar.memmedova.6200@mail.ru**

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN FENOMEN ŞƏXSİYYƏTİ VƏ FƏALİYYƏTİ

*Açar sözlər:* Müdrikliyin dühası, siyasət nəhəng, müstəqilliyimizin qurucusu, dünya miqyaslı şəxsiyyət

Ulu öndər Heydər Əliyev həm tarixi yaradan, həm də tarixi şəxsiyyətdir Bəşəriyyət yarandığı gündən çox böyük şəxsiyyətlərə, sərkərdələrə, onların əldə etdikləri şanlı qələbələrə şahidlik edib, bu şəxsiyyətlərin qurub-yaratdıqları, miras qoyduqları dövlətçilik ənənələri, intibah xalqlarının gələcəyinə işıq tutub, onların bəlkə də yüz illər sonrakı tarixdə mövqeyini müəyyənləşdirib. Məhz, buna görə də, belə şəxsiyyətlər tarixdə dahi, öndər, lider kimi öz layiqli yerlərini tutublar. Onların yaratdıqlarını, zəngin, böyük irsini araşdıranda, haqqında danışanda isə bir sual daim müzakirə mövzusu olub, cavabını axtarıb: yaşadığı dövrün gerçəklikləri, tarixi reallıqlar şəxsiyyətləri formalaşdırır, yoxsa böyük, güclü, qüdrətli şəxsiyyətlər öz tarixini yaradır? Təbii ki, bu suala müxtəlif zamanlarda yaşayan şəxsiyyətlərə münasibətdə fərqli cavablar vermək

mümkündür. Lakin Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev barədə danışarkən bu mübahisələrə birmənalı olaraq, aşağıdakı şəkildə nöqtə qoymaq olar- Heydər Əliyev ham tarixi şəxsiyyətdir, həm də tarixi yaradan şəxsiyyət! Bu fikri qüvvətləndirən, arqumentlərimizi genişləndirən faktlar isə yetərincədir. Ulu öndər Heydər Əliyev o şəxsiyyətlərdəndir ki, O, Özü bir tarix, salnamə yaratmış, zamanın axarını nizamlamaq qüdrətinə sahib olmuşdur. Bu gün isə Onun fəaliyyətinin, gərgin əməyinin bəhrələrindən təkcə xalqımız yox, bütün region xalqları, böyük İslam dünyası və türk xalqları faydalanır. Elə buna görə də, Ulu öndərimizin adı dünyanın hər yerində Uca tutulur, xatirəsi ehtiramla anılır.Ulu öndər Heydər Əliyev Azərbaycanın və azərbaycanlıların Ümummilli lideridir Bu dahi şəxsiyyət haqqında danışarkən öncə qeyd etmək lazımdır ki, Ulu öndər Heydar Əliyevin xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil etməkdədir. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip və norma kimi qəbul edən Ümummilli liderimiz bugünkü müstəqil Azərbaycanın memarıdır. Ulu öndər Heydər Əliyevin ölkəsinə və xalqına bəxş etdiyi misilsiz, əvəzedilməz dəyərlərin və sərvətlərin mahiyyətini daha dərindən anlamaq üçün isə, sadəcə, bir neçə fundamental önom kasb edan fakta toxunmaq kifayət edir.Məlum olduğu kimi, Ulu öndər Heydər Əliyev hələ keçmiş SSRİ dönəmində, daha dəqiq desək, 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra respublikamızın tərəqqisi üçün müxtəlif sahələrin mütəmadi inkişafı istiqamətində fundamental səciyyəli tədbirlər görməyə başladı. Belə ki, sənayenin inkişafı, istənilməyən səviyyədə və vəziyyətdə olan iqtisadiyyatın yenidən dirçəldilməsi yönündə, məhz Ulu öndərin rəhbərliyi altında mühüm addımlar atılmaqla digər sahələrin inkişafına geniş şərait yaradıldı. Bu tədbirlərin fonunda isə ümummilli inkişafın təmin edilməsi namina strateji quruculuq prosesinə başlanıldı. Heç şübhəsiz, bu proses çərçivəsində milli məfkurənin yüksəlişi və s. bu kimi təməl xarakterli məsələlər xüsusi diqqət mərkəzində dururdu. Məhz bu cür strateji mahiyyət kəsb edən vəzifə qarşısında Ulu öndərimiz Azərbaycan dilinin həqiqi dövlət dili statusu əldə etməsi yönündə yorulmaz və ardıcıl fəaliyyət göstərdi. Çünki milli məfkurənin sağlam ideoloji tomallar əsasında möhkəmləndirilməsi və yüksəlişi üçün buna nail olmaq, sözün əsl mənasında strateji önəm kasb edir və ideoloji manada, dövlət quruculuğu prosesinin onurğa sütununu təşkil edirdi.

Beləliklə, Ümummilli lider Heydər Əliyevin sistematik səyləri və yorulmaz fəaliyyəti naticəsində 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin sovet Azərbaycanında dövlət dili statusu təsbit olundu. Bundan sonra milli dəyərlərimizin təbliği və ideoloji asasların gücləndirilməsi yönündə atılan addımlar ardıcıllıqla davam etdirildi.Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, fikir, düşüncə sahiblərinin, yaradıcı insanların keçmiş ittifaq miqyasında yubileylərinin keçirilməsi, elmi, ədəbi, mədəni abidələrin planlı şəkildə tədqiqi və nəşri Ulu öndərin milli dövlətçiliyimizin ideoloji əsaslarının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü fəaliyyətinin praktik səmərəli

nəticələri idi.Yeri gəlmişkən, Ulu öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində müstəqillikdən sonra da dövlət quruculuğu sahəsində fundamental addımlar atıldı. Belə ki, mürəkkəb siyasi problemlər məngənəsində olan ölkəmizdə Ulu öndərimizin praqmatik və rasional strateji siyasi kursu sayəsində sabitlik əldə edildi. Imperialist qüvvələrin korporativ maraqlarının təmin olunması missiyasına xidmət edən daxildəki avantürist subyektlərin bölücü fəaliyyəti neytrallaşdırıldı və ölkədaxili stabillik təmin edildi. Beləliklə, Ümummilli lider Heydər Əliyevin asasın qoyduğu iqtisadi inkişaf strategiyası Azərbaycanın bir dövlət kimi öz ayaqları üzərində sərbəst inkişafını təmin etdi. Bu strategiyanın bu gün də uğurla davam etdirilməsi nəticəsində Azərbaycan iqtisadi baxımdan regionun lider dövlətinə çevrilib.Heydər Əliyev gənclərin hamisi idi Ulu öndərin ölkəmiz üçün misilsiz xidmətlərindən söhbət açarkən, Onun Azərbaycan gəncliyinə göstərdiyi xüsusi diqqət və qayğı barədə danışmamaq olmaz. Ümummilli liderimizin gəncliyə diqqət və qayğısı barədə detallara keçməmiş onu vurğulamaq yerinə düşər ki, hazırda ölkəmizdə həyatın bütün sahələrində xüsusi fəallıqları ilə seçilən gənclər cəmiyyətin məsul və şərəfli yükünü öz çiyinlərində daşıyırlar.Məlum olduğu kimi, Ümummilli lider Heydər Əliyev hələ respublikaya rəhbərlik etdiyi birinci dövrdə, yəni, ötən əsrin 70-80-ci illərində də Azərbaycanda gənclərin inkişafına, öz potensialını həyata keçirməsi üçün gənclərə şərait yaradılmasına daim diqqət yetirirdi. Ümumiyyətlə, Ulu öndər Heydər Əliyev Azərbaycanın inkişafim heç vaxt gənclərsiz təsəvvür etmir, gəncliyin parlaq zəkasını, qaynar və tükənməz enerjisini Vətənimizin hərtərəfli yüksəlişinə səfərbər edirdi. Məsələn, həmin vaxt Heydər Əliyevin təşəbbüsü ilə gənclərin yüksək elm və biliklərə yiyələnməsi üçün bir neçə yeni ali məktəb, bir çox orta ixtisas məktəbləri açılmış, minlərlə azərbaycanlı gənc oğlan və qızlarımız ən müasir ixtisaslar üzrə keçmiş SSRİ-nin on nüfuzlu ali məktəblərində oxumağa göndərilmişdi. Milli zabit kadrların hazırlanması üçün xüsusi hazırlıq məktəbi açılmış, ali hərbi məktəblərdə gənc soydaşlarımızın təhsil alması üçün əlverişli şərait yaradılmışdı. Əməkdə və ictimai işdə fərqlənən gənclər irəli çəkilmişdi. Təsadüfi deyil ki, bugünkü Azərbaycanın elmi potensialının böyük bir hissəsi, məhz, Ulu öndər Heydər Əliyevin təşəbbüsü sayəsində formalaşıb və həmin insanların çiyinləri üzərində qərar tutmaqdadır.Ulu öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra da gənclərə olan qayğısını davam etdirdi. 1993-cü ilin iyun ayında Azərbaycan parlamentinin sədri seçiləndən sonra ölkə gənclərinin bir qrup nümayəndəsi ilə görüşən Ümummilli liderimizin həmin görüşdəki çıxışı həm ölkə daxilindəki, həm də xaricdəki qüvvələrə təsirli bir mesaj oldu: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik". Ulu öndərin bu çıxışını özünün fəaliyyət istiqaməti seçən, Heydər Əliyevdən böyük inam və etimad görən Azərbaycan gəncliyi tezliklə dövlətin və Yeni Azərbaycan Partiyasının (YAP) "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu

günü, gələcəyi haqqında düşünməlidir" deyən Ulu Öndər 1994-cü ildə Gənclər və İdman Nazirliyinin. əsasını qoydu. Bu siyasi dövlət institutu qısa vaxtda gənclər siyasətinin əsas konturlarını müəyyənləşdirdi və reallaşdırmağa başladı.

1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında İştirakını və məsuliyyətini yüksəltmək məqsədilə Ümummilli lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Beləliklə də, 2 fevral 1996-ci ildə gənclərin I Forumu keçirildi. İlk Forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı. 1997- ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən ulu öndər Heydər Əliyev 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Sərəncam imzaladı.Azərbaycanın digər mühüm sahələrlə yanaşı, həm də bir idman ölkəsi olaraq beynəlxalq aləmdə tanınması və olimpiya hərəkatına qoşulması geniş vüsət aldı. sıx birlaşdi. 1994-cü ildə Heydər Əliyevin Fərmanı ilə Azərbaycanda Gənclər və İdman Nazirliyinin yaradılması isə gənclərimizin dövlət quruculuğu prosesindəki iştirakına əsaslı təkan vermiş oldu. Əslində, Heydər Əliyevin bu addımı Azərbaycanda gənclər siyasətinin sistemli şəkildə həyata keçirilməsinə təminat verirdi.

Onu da qeyd etmək yerinə düşər ki, Ulu öndər Heydər Əliyevin gənclərə qayğısı geniş və əhatəli idi. Bu, həm gənclərin təhsil almasında, ham gənclərin qarşılaşdıqları problemlərin aradan qaldırılması istiqamətində görülən işlərdə, həm də gənclərin dövlət orqanlarına işə qəbulunda özünü göstərirdi.Beləliklə, həm yuxarıda sadalanan addımların atılması, həm də gənclərlə bağlı çoxsaylı layihələrin həyata keçirilməsi, müxtəlif fərman və sərəncamların imzalanması, qanunların qəbul edilməsi, Azərbaycan gənclərinin forumlarının keçirilməsi, Gənclər Gününün təsis edilməsi və Cənab İlham Əliyevin YAP-ın II qurultayında partiya Sədrinin birinci müavini vəzifəsinə seçilməsi gənclərimizdə böyük ruh yüksəkliyi yaratdı. Gənclər dövlətin qayğısını hiss etməklə yanaşı, quruculuq prosesində daha yaxından iştirak etməyə çalışdılar. Ulu öndər Heydər Əliyev ideyalarına sədaqət nümayiş etdirərək dövlətçiliyin qorunmasında və dövlətin idarə edilməsində mühüm rol oynadılar. Ümummilli lider Heydər Əliyevin "azərbaycançılıq", "vətənçilik" ideyalarına əsaslanan Azərbaycan gəncləri gündən-günə daha mütəşəkkil şəkildə təşkilatlandılar. Yəni, bu bir həqiqətdir ki, Azərbaycan gənclərinin hamisi olan Ümummilli liderin sivasətinin mühüm istiqamətlərindən biri məhz gənclərlə bağlı idi. Bu siyasət gənclərin Şəxsiyyət və zaman münasibətlərində şəxsiyyət ağırlıq təşkil etdikdə zaman irəli gedir.Şəxsiyyət zamanı idarə etməyi, qabaqlamağı, irəli aparmağı bacardıqda tarixi şəxsiyyətə çevrilir. Belə tarixi məqamlarda şəxsiyyət zamanı yaradır və ona öz damğasını vurur.Heydər Əliyev böyük zəka və iradə ilə zamanı nəinki idarə etmiş, qabaqlamış, irəli aparmışdır. Sözün əsl mənasında Heydər Əliyevin simasında şəxsiyyətin miqyası mövcud cəmiyyətin səviyyəsindən yuxarıda dayanmış, onun inkişaf yollarına işıq salmışdır. Azərbaycan xalqının ümummilli

lideri Heydər Əliyev ölkəmizin tarixində öz epoxasını yaratmış qüdrətli tarixi şəxsiyyətdir.

Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1969-1982 və 1993-2003-cü illər çoxəsrlik Azərbaycan tarixinin Heydər Əliyev epoxası dövrüdür. Birinci mərhələni əhatə edən 1969-1982-ci illər Azərbaycan tarixinin qızıl dövrü hesab edilir. Bu tarixi mərhələdə Azərbaycan keçmiş Sovetlər İttifaqında geridə qalmış bir respublikadan inkişaf etmiş ölkə səviyyəsinə yüksəldilmişdir. İqtisadiyyatın bütün sahələri üzrə göstəricilər rekord həddə çatdırılmış, xalqın yaşayış səviyyəsi köklü surətdə dəyişmişdir. Lakin iqtisadi göstəricilər əsas olsa da və digər istiqamətlərdə olan inkişaf üçün stimullaşdırıcı faktor funksiyası daşısa da, "qızıl dövr" - milli intibah mərhələsi üçün tam yetərli deyildir. Bunun üçün mütləq cəmiyyətin hərtərəfli inkişafı və harmoniyası baş verməli, xüsusən elmi-ədəbi-mədəni gedişat və milli- mənəvi özünüdərk prosesləri dərinləşməli və zamanın miqyası səviyyəsinə çatdırılmalıdır. Məhz görkəmli dövlət xadimi Heydər Əliyev 1969- 1982-ci illərdə Azərbaycan Sovet Respublikasında qazanılan iqtisadi göstəricilərdən daha yüksək səviyyədə xalqın milli-mənəvi intibahını formalaşdırmağa nail olmuşdur.Əvvəla, Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə Azərbaycan elmi, ədəbiyyatı və İncəsənəti yüksək templerle inkişaf etdirilmişdir "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" deyən Ulu Öndər 1994-cü ildə Gənclər və İdman Nazirliyinin. əsasını qoydu. Bu siyasi dövlət institutu qısa vaxtda gənclər siyasətinin əsas konturlarını müəyyənləşdirdi və reallaşdırmağa başladı.

1995-ci ildə Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bir çox vacib problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında İştirakını və məsuliyyətini yüksəltmək məqsədilə Ümummilli lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürüldü. Beləliklə də, 2 fevral 1996-ci ildə gənclərin I Forumu keçirildi. İlk Forum Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadı. 1997- ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən ulu öndər Heydər Əliyev 2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Sərəncam imzaladı.Azərbaycanın digər mühüm sahələrlə yanaşı, həm də bir idman ölkəsi olaraq beynəlxalq aləmdə tanınması və olimpiya hərəkatına qoşulması geniş vüsət aldı.

## ƏDƏBİYYAT

1.Vətən və xalq naminə / Tərtibatçı müəllif: Natəvan Arifqızı. Bakı: “Son söz” qəzeti, - 2001. – 436 s.

2.“Heydər Əliyev irsi” Beynəlxalq elektron kitabxana. https://lib.aliyevheritage.org/en/index.html

**Gültəkin İSMAYILOVA**
*Azərbaycan Milli Elmlər Akademiyası*
*Fəlsəfə və Sosiologiya İnstitutunun "Sosial psixologiya" şöbəsinin elmi işçisi*
**E-mail: gulya.alibekovaa@mail.ru**

# AZƏRBAYCAN DÖVLƏT STRATEGİYASININ FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

*Açar sözlər:* dövlətçilik, azərbaycançılıq ideyası, müstəqillik, uzaqgörənlik, milli özünüdərk

Hər bir xalqın tarixdə yeri və rolu mürəkkəb bir siyasi şəraitdə məsuliyyət götürərək taleyində müstəsna rol oynayan, mütərəqqi fikirləri, qeyri-adi idarəetmə keyfiyyətləri ilə sabit dövlətçilik ənənəsini müdrik və uzaqgörənliklə yaradan dahi şəxsiyyətin fövqəladə missiyası ilə şərtlənir. Belə xarizmatik şəxslər əsrlər boyu inkişaf etmiş dövlət təfəkkürü, siyasi dünyagörüşü, xalqlarının milli dəyərləri əsasında dövlətin optimal modelini və siyasi davamlılıq ənənələrini yaradırlar. XX əsr tariximizin parlaq və görkəmli şəxsiyyəti olan ümummilli lider Heydər Əliyevin psixoloji portreti Azərbaycan xalqının dövlət təfəkkürünün, tarixin sınağını, müasir ictimai – siyasi və fəlsəfi fikrin ən dayanıqlı keyfiyyətlərini uğurla dəf etmiş nadir idarəetmə məktəbinin canlı təcəssümüdür. Heydər Əliyevin şəxsiyyətini öyrəndikcə biz mahiyyət etibarilə müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənə bilərik.

Ümumiyyətlə, böyük şəxsiyyətlərin həyat tərzi adi insanların həyat tərzindən köklü şəkildə fərqlənir. Böyük ideyanın daşıyıcısı olan ulu öndərin atılan addımları, diplomatik üsullarla həyata keçirilən siyasəti onun uzaqgörənliyini və strateji düşüncəsindən xəbər verir. Beynəlxalq müstəvidə dünya liderləri də Heydər Əliyevi öz dövrünü qabaqlayan dünya səviyyəli dövlət xadimi kimi qəbul edirlər. Ümummilli liderin rəhbərlik etdiyi dövrdə milli müstəqilliyin etibarlı əsasını qoyan bir çox amillər var idi. Məhz bu dövrdə öz köklərinə qayıdışın və milli özünüdərkin başlanğıcını qoyan, ötən əsrdə azərbaycançılıq ideologiyasının ən parlaq səhifələrinin müəllifi olan Heydər Əliyevin Azərbaycana gətirdiyi ideyalar ölkənin həyatını tamamilə modernləşdirmişdir. Zamanı qabaqlayan ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin unikal idarəetmə keyfiyyətləri və böyük vətənpərvərliyi milli ideyanın tərəqqisinin təmin olunmasında əvəzsiz rol oynamışdır. Qurtuluş və quruculuq kimi taleyüklü missiyaları uğurla yerinə yetirən ümümmilli lider, Azərbaycanı dərin böhrandan, xaosdan və anarxiyadan, separatizm və müstəqilliyin itirilməsi kimi real təhdidlərdən xilas etmişdir.

Ulu öndər eyni zamanda keçmişin ağır irsi ilə mübarizə aparmış, digər tərəfdən də milli dövlətçiliyin, milli iqtisadiyyatın əsaslarını yaradaraq çətin,

lakin geri dönməz yol keçmişdir. Azərbaycanın yol ayrıcında olmasına və hər şeyin yenidən başlamalı olmasına baxmayaraq, rəhbərin strateji təfəkkürü və uzaqgörənliyi ən düzgün yolu səbirlə, sistemli şəkildə keçməyə imkan verdi. Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüsü sayəsində SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda tikilib və bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşıb. Ulu öndər bu məsələdə həmişə qətiyyətli mövqe tutmuş, keçmiş İttifaq rəhbərliyi qarşısında israrlı tələblərlə çıxış etmiş, prinsipiallıq göstərmişdir.

Ümummilli liderin siyasətinin ən mühüm xüsusiyyəti ondan ibarət idi ki, Azərbaycan bütün sahələr üzrə öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, sözün əsl mənasında intibah dövrünü yaşamışdır. İqtisadi asılılığın aradan qaldırılmasının siyasi müstəqilliyin əsasını təşkil edən əsas amillərdən biri olduğunu aydın dərk edən ulu öndər ölkənin istehsal potensialının mühüm hissəsinin ittifaq şəbəkəsindən çıxarılması və ona həqiqi müstəqillik verilməsi idi. Həmçinin, sənaye potensialının gücləndirilməsi, təhsil sahəsində yeni inkişaf mərhələsinin təməlinin qoyulması, xalqın gələcəyi üçün nəzərdə tutulmuş milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasında nailiyyətlər əldə etmişdir.

Heydər Əliyev neft sənayesinin iqtisadi inkişafdakı rolunu nəzərə alaraq hələ 70-ci illərdə bu sahənin dinamik inkişafına, neft-kimya sənayesinin tam modernləşməsinə nail olmuşdur. O dövrdə neft sənayesinin inkişafında tamamilə yeni mərhələ başlandı, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət vasitəsinə çevrilməsi prosesinin əsası qoyuldu. Heydər Əliyevin müəllifliyi ilə tərtib edilmiş neft emalı sənayesinin yenidən qurulması planı əsasında Azərbaycanda bu tip müəssisələrin, komplekslərin tikintisi və yeni iş prinsiplərinə keçid prosesi sürətlə başa çatmış, yeni neft strategiyasının yol xəritəsi tərtib edilmişdir. Ulu öndər azərbaycançılıq ideologiyasının daşıyıcısı kimi müdrik siyasəti, möhkəm əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının reallaşmasına, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusunun reallaşmasına nail olmuşdur. Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, ideoloji, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil güclü dövlətin sahibi olmaq arzusunu həyata keçirmiş və sağlığında canlı əfsanəyə çevrilmiş dahi şəxsiyyətə çevrilmişdir.

Müasir müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarını əhatə edərək onların milli dayaq nöqtəsinə çevrilmişdir. Ulu öndərin hələ ötən əsrin 70-ci illərinin əvvəllərində Azərbaycan dilinin o vaxtkı Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi möhkəmlənməsinə nail olunması, milli zabit kadrlarının hazırlanması məqsədi daşıyan Cəmşid Naxçıvanski adına indiki hərbi liseyinin uzaqgörənliklə yaradılması kimi tarixi addımlar, onun bir çox müasirlərinin belə düşünə bilmədiyi kimi, Azərbaycanın gələcək nəsillərinin vətənpərvər kimi yetişməsinə əvəzsiz töhfədir. Bunun parlaq nümunəsi kimi II Qarabağ müharibəsi çıxış edə bilər. I Qarabağ müharibəsindən sonrakı müddət ərzində

müxtəlif intensivlik dərəcəsi ilə aparılan və qarşılıqlı maraqlar balansının əldə edilməsinə gətirib çıxarmayan danışıqlardan sonra, Müzəffər Azərbaycan Ordusu əks-hücum əməliyyatı nəticəsində 30 illik problemi 44 gün ərzində həll etməyə nail olmuşdur. Ulu Öndər Heydər Əliyevin 2002-ci ildə Silahlı Qüvvələrin şəhxi heyətini təbrik edərkən çıxışında dediyi kimi "XX əsrin sonunda öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının Silahlı Qüvvələri məhz Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunun layiqli varisidir".

Milli-mənəvi köklərə və milli oyanışa qayıtmağın zəruriliyini nəzərə alaraq, Heydər Əliyev bizim dəyərlərimizi milli və siyasi varlığın – dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Onun lider kimi böyüklüyü ondan ibarət idi ki, o, həmişə strateji vəzifələrin həllinə hesablanmış və milli məqsədləri ön plana çıxaran siyasət yürüdürdü. Məhz ötən əsrin 70-80-ci illərində formalaşmış iqtisadi potensial sonrakı mərhələdə 1990-cı illərin sonlarında dünyada gedən mürəkkəb proseslər nəticəsində suverenlik qazanmış Azərbaycanın müstəqil mövcudluğunu təmin etmişdir. Ümummilli liderin rəhbərliyi ilə həyata keçirilən struktur islahatları Azərbaycanda yerli və xarici investisiyaların, müasir texnologiyaların cəlb edilməsi yolu ilə iqtisadiyyatın bütün sahələrinin dinamik inkişafına, o cümlədən rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun təkmilləşdirilməsi, yeni iş yerlərinin açılmasına imkan yaratmışdır. Ümummilli lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində özəl sektora sosial-iqtisadi inkişafın ən mühüm təminatçısı kimi baxmış, güclü sahibkarlar sinfinin formalaşmasına, onların cəmiyyətdə mövqelərinin möhkəmlənməsinə səylər göstərmişdir. Azərbaycanın islahat praktikasında davamlılıq və ardıcıllıq uğurun düsturudur. İslahat konkret dövr və kontekstdə eyni vaxtda mərhələlərlə həyata keçirildikdə real nəticələr verir. Ulu öndər hakimiyyəti illərində torpaqları kəndlilərin ixtiyarına vermiş, aqrar islahatların əsasını qoymuşdur.

Ulu öndər tarixin irəli sürdüyü görkəmli şəxsiyyətlərdən biri kimi Azərbaycanın inkişafındakı uğur və nailiyyətlərin davamlılığının təmin olunması üçün böyük fədakarlıq göstərmişdir. Buna misal olaraq Ulu Öndərdən sonra ölkəmizə ləyaqətlə rəhbərlik edərək əldə edilmiş uğurların davamlılığını təmin edəcək, xalqın alternativsiz lideri olacaq varis davamçısının hazırlanmasıdır. Bu gün ümummilli liderin ideyaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gərgin əməyi və fəaliyyəti nəticəsində yaşayır və uğurla inkişaf edir. Dövlətimizin başçısının apardığı xarici və daxili siyasətin əsasında Azərbaycan dövlətinin güclənməsi, müstəqilliyinin qorunması, iqtisadiyyatın inkişafı və əhalinin maddi rifahının yaxşılaşdırılması dayanır.

ƏDƏBİYYAT

1. Heydər Əliyev müasir Azərbaycan Ordusunun qurucusudur http://www.anl.az/down/meqale/herbi_and/2020/may/709135.htm
2. Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir https://justice.gov.az/articles/90
3. Стратегия реформ Гейдара Алиева: путь, ведущий от глубокого спада до невероятного прогресса. https://azertag.az/ru/xeber/Strategiya_reform_Geidara_Alieva_put_vedushchii_ot_glubokogo_spada_do_neveroyatnogo_progressa-1056724
4. Феномен, опередивший время - гений Гейдара Алиева https://azertag.az/ru/xeber/Fenomen_operedivshii_vremya___genii_Geidara_Alieva-1281391

**Rəna QASIMOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: rnqasimova@gmail.com**

## HEYDƏR ƏLİYEV- TARİX YAZMIŞ ŞƏXSİYYƏT

*Açar sözlər:* lider, tarix, şəxsiyyət, siyasi, ictimai

Bəşər cəmiyyəti formalaşandan bəri hər bir ictimai-sosial varlıq malik olduğu siyasi formasiyasından asılı olmayaraq, həmişə özünün inkişaf səviyyəsinə uyğun şəxsiyyət və liderə ehtiyac duyur. Hətta insanlar arasında fövqəlfərqliliyin əleyhinə çıxan, ictimai özünüidarəni başlıca ideyası və son məqsədi hesab edən kommunizm təmayüllü ölkələr də siyasi lider amili olmadan fəaliyyət göstərə bilməmişlər və bilmirlər. Bu da təbiidir. Bioloji və sosioloji fərd olaraq insanlar həmişə digər məsələlərdə olduğu kimi siyasi həyat və dünyagörüşlərində də oxşamaq istədikləri və ardınca gedəcəkləri "nümunəvi başçı" axtarışında olublar. Bu axtarışlar insanlarda bioloji kod olaraq genlərdə və təhtəlşüurda yerləşdiyindən, bütün dövrlərdə və xalqlarda mövcud olacaq zəruri bir proses kimi həmişə davam edəcək.

Heç təsadüfi deyil ki, xalqımız Heydər Əliyevin dühasında xarizmatik liderə xas olan bütün yüksək məziyyətləri görməklə ona Azərbaycanın Ümummilli Lideri adını verib. Heydər Əliyev şəxsiyyəti öz unikallığı, təkrarolunmazlığı, siyasi xadim üçün xas olan xüsusiyyətləri ilə nəinki bu kriteriyaları əhatə edir, hətta onların əhatə dairəsindən kənara belə çıxaraq, bu

siyasi məfhumu politoloji baxımdan zənginləşdirir, məzmun etibarilə çoxşaxəli edir.

Dövlət xadimində milli liderlik və siyasi liderlik keyfiyyətlərinin vəhdəti bəşər tarixində nadir bir vəziyyətdir . Ulu öndər bu iki keyfiyyəti özündə ehtiva etməklə yanaşı , fəaliyyət göstərdiyi bütün digər sahələrdə lider kimi təsdiq etmişdir. Bu dahi şəxsiyyət Azərbaycan xalqının yaddaşında qurucu və azadlıqsevər dövlət xadimi , ümummilli lider və xalqın məhəbbətini qazanmış lider kimi qaldı . Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında dövlət qurucuları kimi bənzərsiz xidmət göstərmiş ikinci dövlət xadiminə rast gəlmək mümkün deyil. Bu mənada o , xalqımızın milli iftixarı , qəlbimizdə yer tutan ümummilli liderimiz , güvən yerimiz , fəxr etdiyimiz , arxa bildiyimiz böyük azərbaycanlı idi . Heydər Əliyev dünyanın nadir, seçilmiş siyasətçisi idi. O , dünya siyasətinə təsir etmək gücünə malik lider idi . Elə liderlər var ki, siyasi fəaliyyət, dövlət idarəçiliyi sahəsində uzun illərin işindən və təcrübəsindən sonra tanınırlar. Elə adamlar var ki , fitrələri var , genlərində kodlanıb , başqa sözlə desək ilahi vergidir . Onlara anadangəlmə lider deyirlər.

Ölkəmizin fəxri, milli qüruru, lideri Heydər Əliyev bütün problemlərin öhdəsindən yüksək səviyyədə gəlib. Çünki o, uzaqgörən siyasətçi və nadir xüsusiyyətlərə malik təcrübəli dövlət xadimi idi, bir neçə onillikdən sonra görünəcək işləri həyata keçirməyi bacarırdı. Onun siyasəti ölçülüb-biçilmiş və gələcəyə hesablanmışdı. Ümummilli lider Heydər Əliyev dünyanı dəyişən insanlar sırasında ola bilər. XX əsrin və XXI əsrin əvvəllərinin görkəmli siyasət və dövlət xadimlərindən biri olan Heydər Əliyevin ibrətamiz həyatı və heyrətamiz siyasi fəaliyyəti qarşıdakı əsrlərdə də bir çox siyasətçilərə yol göstərəcək. Bu gün ölkəmiz bu siyasətin uğurunu hiss edir, onunla yaşayır, bəhrələnir. Bu siyasətin icraçısı ulu öndərimizin yaxşı siyasi varisi cənab İlham Əliyevdir. Heydər Əliyev siyasəti onun rəhbərliyi altında yaşayır və uğurla davam etdirilir. Azərbaycan Respublikası tərəqqi edir və Heydər Əliyev siyasəti ilə yaşayır. Heydər Əliyev siyasəti Azərbaycanın nailiyyətlərinin bünövrəsidir, gələcəyə hesablanıb. Onun siyasi kursu dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqinin əldə edilməsi kimi ağır və tarixi məsələlərdə sınaqdan çıxmış və uğurlu olmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar və əldə olunan nəticələr xalqın gələcəyə inamını dəfələrlə artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirilməsi müstəqil Azərbaycan dövlətinin müstəqilliyinə layiqincə möhkəm inam yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini aydın görən xalqımız bu siyasəti yüksək qiymətləndirir, onun ətrafında daha intensiv birləşir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev böyük inam və qətiyyətlə bildirir ki, güclü, qüdrətli Azərbaycan bütün dünya azərbaycanlılarının qürur mənbəyidir.

Hazırda ölkəmizin sabitlik diyarı, iqtisadi möcüzələr ölkəsi kimi tanınması, müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkanda yerləşən ölkə olaraq beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, ən əsası dünyanın inkişafın Azərbaycan modelini təqdir etməsi, siyasi, iqtisadi, humanitar mərkəzə çevrilməsi təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan düzgün siyasətə əsaslanır.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərini bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkündür. Bunların ümumiləşdirimiş ifadəsi Zəfər sevincimizdir.

ƏDƏBİYYAT

1.Abasquliyeva, M. Biz daim yeniləşən bir ölkənin vətəndaşlarıyıq: Bu inkişafda Heydər Əliyev Fondunun xüsusi xidmətləri var [Mətn] /M.Abasquliyeva // Xalq qəzeti. - 2010.- 7 mart.- S. 4

2.Cəbrayılov, R. Humanizm və mərhəmət ünvanı [Mətn]: [Heydər Əliyev Fondunun fəaliyyəti haqqında] / Rafael Cəbrayılov // Xalq qəzeti. - 2010.- 25 avqust.- S. 3.

3.Hikmət Babaoğlu. "Ulu öndər Heydər Əliyev həm tarixi yaradan, həm də tarixi şəxsiyyətdir" Yeni Azərbaycan.- 2010.- 11 dekabr.- S.5.

**Svetlana BALAKİŞİYEVA**
***Mingəçevir Dövlət Universiteti***
***Təhsil fakültəsinin Azərbaycan dili və ədəbiyyatı müəllimi***
**E-mail: nesibli.lana@mail.ru**

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV FENOMENAL ŞƏXSİYYƏT KİMİ

*Açar sözlər:* Heydər Əliyev, Azərbaycan, şəxsiyyət, lider, fenomenal, öndər

Dünyada tarixən bənzərsiz, ideal obrazlar, liderlər çox olub. Məhz belə əvəzsiz şəxsiyyətlərdən biri də Azərbaycan Respublikasının ümummilli lideri, görkəmli fenomenal şəxsiyyət strukturuna malik lider Heydər Əliyevdir. Bəşəriyyət yarandığı gündən bu cür böyük şəxsiyyətlərə, onların əldə etdikləri şanlı qələbələrə şahidlik edib, bu şəxsiyyətlərin qurub-yaratdıqları, miras qoyduqları dövlətçilik ənənələri xalqlarının gələcəyinə işıq tutub, onların sonrakı yüzillik tarixində mövqeyini müəyyənləşdirib. Buna görə də belə şəxsiyyətlər tarixdə dahi, öndər, lider kimi öz layiqli yerlərini tutublar. Onların

yaratdıqlarını, zəngin, böyük irsini araşdıranda, haqqında danışanda gözümüz önündə sanki həmin obrazı canlandırıb onunla bir əlaqə, ünsiyyət yaradırıq.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev barədə danışarkən birmənalı olaraq aşağıdakı şəkildə fikir bildirmək daha məqsədəuyğun olar - Heydər Əliyev həm tarixi fenomenal şəxsiyyətdir, həm də ölkəmizin tarixini yaradan şəxsiyyətdir! Bu fikri qüvvətləndirən, arqumentlərimizi genişləndirən faktlar isə kifayət qədərdir. Ulu öndər Heydər Əliyev o şəxsiyyətlərdəndir ki, o, özü bir tarix, salnamə yaratmış, zamanın axarını nizamlamaq qüdrətinə sahib olmuşdur. Bu gün isə onun fəaliyyətinin, gərgin əməyinin bəhrələrindən təkcə xalqımız yox, bütün region xalqları, böyük İslam dünyası və türk xalqları faydalanır. Elə buna görə də, ulu öndərimizin adı dünyanın hər yerində uca tutulur, xatirəsi ehtiramla anılır.

Ulu öndər Heydər Əliyev Azərbaycanın və azərbaycanlıların ümummilli lideridir. Bu fikri vurğulamağa əsasımız çoxdur. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, fikir, düşüncə sahiblərinin, yaradıcı insanların keçmiş ittifaq miqyasında yubileylərinin keçirilməsi, elmi, ədəbi, mədəni abidələrin planlı şəkildə tədqiqi və nəşri ulu öndərin milli dövlətçiliyimizin ideoloji əsaslarının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü fəaliyyətinin praktik səmərəli nəticələri idi.

Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində müstəqillikdən sonra da dövlət quruculuğu sahəsində fundamental addımlar atıldı. Belə ki, mürəkkəb siyasi problemlər içərisində olan ölkəmizdə ulu öndərimizin praqmatik və rasional strateji siyasi kursu sayəsində sabitlik əldə edildi. İmperialist qüvvələrin korporativ maraqlarının təmin olunması missiyasına xidmət edən daxildəki avantürist subyektlərin bölücü fəaliyyəti neytrallaşdırıldı və ölkədaxili stabillik təmin edildi. Eyni zamanda erməni işğalının qarşısının alınması istiqamətində əhəmiyyətli strateji və taktiki gedişlər edildi. Beləliklə, 1994-cü ildə atəşkəsin əldə olunması ilə Ermənistanın işğalçı ekspansiyası dayandırıldı. Bununla da, dövlət quruculuğu prosesinin ardıcıl surətdə davam etdirilməsi, ölkədaxili sabitliyin təmin olunması və möhkəmləndirilməsi baxımından əlverişli siyasi zəmin yaradıldı. Beləliklə, ümummilli liderimizin siyasi bacarığı sayəsində Azərbaycanın siyasi tarixində yeni bir səhifə açıldı. Bunun ardınca bir neçə istiqamətdə paralel və ardıcıl şəkildə əhəmiyyətli işlər görüldü. İlk növbədə, siyasi sistemin struktur elementlərinin təkmilləşdirilməsi istiqamətində ciddi strateji addımlar atıldı [1, s.5].

Belə ki, 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi-referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Bu akt öz növbəsində siyasi fəaliyyət və inkişafın hüquqi əsaslarının formalaşması mənasına gəlirdi. Daha sonra parlament seçkilərinin keçirilməsi dövlətçiliyin siyasi-hüquqi əsaslarının möhkəmləndirilməsinə mühüm töhfə verdi. Bu proseslərə paralel olaraq vətəndaş cəmiyyətinin formalaşdırılması və hüquqi dövlətin fundamental komponentlərinin mütləq surətdə bərqərar olunması yönündə əhəmiyyətli addımlar atıldı. Ulu öndər Heydər Əliyevin humanist

siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Ölkə daxilində atılan bu addımlarla yanaşı Heydər Əliyevin məqsədyönlü və uzaqgörən xarici siyasət strategiyası sayəsində Azərbaycan beynəlxalq hüququn tamhüquqlu subyektinə və beynəlxalq münasibətlər sisteminin müstəqil tərəfdaşına çevrildi. Ümummilli liderimiz ölkəmizin sahib olduğu xarici siyasət resurslarından səmərəli surətdə istifadə edərək Azərbaycanı dünya miqyasında tanınan bir ölkə səviyyəsinə qaldırdı. Nəticədə, Azərbaycan Cənubi Qafqaz bölgəsinin hərbi-siyasi təhlükəsizliyini təmin edən lokomotiv mərkəzə çevrildi.

Həyata keçirilən məqsədyönlü siyasət əksər iri beynəlxalq şirkətlərin, xarici investorların diqqətini ölkəmizə yönəltdi. Ulu öndərin gərgin əməyinin və möhkəm iradəsinin bəhrəsi olan "Əsrin müqaviləsi"nin imzalanması isə Azərbaycanın bir müstəqil dövlət kimi beynəlxalq arenadakı mövqeyini möhkəmləndirdi. "Əsrin müqaviləsi"nin imzalanması gələcəyə hesablanmış uzaqgörən siyasətin nəticəsi idi. Beləliklə, dünyanın müxtəlif ölkələri ilə qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələri quran Azərbaycan iqtisadiyyatı sürətlə dünya iqtisadiyyatına inteqrasiya olmağa başladı. Ulu öndərin imzaladığı çoxsaylı fərman və sərəncamlarla ölkə daxilində fundamental iqtisadi islahatlar həyata keçirildi. Məhz bu dövrdə reallaşdırılan geniş iqtisadi layihələr, qətiyyətli və məqsədyönlü tədbirlər nəticəsində iqtisadi tənəzzülün qarşısı alındı, qısa müddətdən sonra isə inkişaf göstəriciləri qeydə alındı. Azad bazar iqtisadiyyatına uğurlu keçid sayəsində ölkədə orta və kiçik sahibkarlıq sürətlə inkişaf etməyə başladı. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu iqtisadi inkişaf strategiyası Azərbaycanın bir dövlət kimi öz ayaqları üzərində sərbəst inkişafını təmin etdi. Bu strategiyanın bu gün də uğurla davam etdirilməsi nəticəsində Azərbaycan iqtisadi baxımdan regionun lider dövlətinə çevrilib.

Bunu da böyük fəxrlə, qürurla qeyd etməliyik ki, Heydər Əliyev gənclərin hamisi, rəhbəri idi. Ulu öndərin ölkəmiz üçün misilsiz xidmətlərindən söhbət açarkən, onun Azərbaycan gəncliyinə göstərdiyi xüsusi diqqət və qayğı barədə danışmamaq yanlış olar. Ümummilli liderimizin gəncliyə diqqət və qayğısı barədə detallara keçməmiş onu vurğulamaq yerinə düşər ki, hazırda ölkəmizdə həyatın bütün sahələrində xüsusi fəallıqları ilə seçilən gənclər cəmiyyətin məsul və şərəfli yükünü öz çiyinlərində daşıyırlar. Bu bir həqiqətdir ki, Azərbaycan gənclərinin hamisi, öndəri, lideri olan Heydər Əliyev siyasətinin mühüm istiqamətlərindən biri məhz gənclərlə bağlı idi. Bu siyasət gənclərin inkişafı və gənclərin potensialından cəmiyyətin inkişafı üçün istifadə edilməsində özünü göstərirdi.

Bütün bunlarla yanaşı öndərimizin Azərbaycan dili və bununla bağlı xidmətlərini də diqqətdə saxlamalıyıq. Azərbaycan dilinin milli dil olaraq ədəbi və rəsmi dairələrdə işlənməsi məhz ümummilli liderin əsas prioritet məqsədlərindən biri idi. Uzunmüddətli və gərgin əməyin nəticəsində bu məqsəd

reallaşdı və Konstitusiyanın (1995-ci il 12 noyabr) 21-ci maddəsi sırf Dövlət dilinə həsr olundu, dilimiz milli və dünya arenasında tam təsdiqini aldı.

Heydər Əliyevin dövlətin dili ilə bağlı müzakirələrdə söylədikləri sözlər məhz söz olaraq qalmırdı, o, Azərbaycan dilinin cəmiyyətin bütün sferalarında yayılması üçün ciddi işlər görürdü. Başlıcası isə Azərbaycan dili dövlət səviyyəsində milli- mədəni mənliyin, etnik-siyasi, mənəvi-ideoloji müstəqilliyin şərtinə, göstəricisinə çevrildi. Ana dilini bu günə qədər öyrənə bilməyən, danışanda çətinlik çəkən yüksək vəzifəli adamları həmişə tənqid edən, onların buraxdığı dil-üslub xətalarını düzəldən Azərbaycan Prezidenti həm Azərbaycan dilinə, həm də Azərbaycan dilçilik elminə böyük hörmət gətirmiş, onu daim diqqətdə saxlamışdır [2, s.77-78].

H.Əliyevin natiqlik məharətini, gözəl danışıq qabiliyyətini, fıkrimizcə, aşağıdakı səbəblər şərtləndirir:

1) bir şəxsiyyət kimi fərdi, təbii istedadı;

2) daim öz üzərində işləməsi, ətrafında, dünyada baş verən hadisələrə, onların səbəblərinə, nəticələrinə maraq göstərməsi;

3) dərindən yiyələndiyi ana dilinə məhəbbəti, hörməti, qayğısı;

4) mənsub olduğu xalqı ürəkdən sevməsi, onun tarixini, mentalitetini, mədəniyyətini və s. dərindən bilməsi və bütün bunların ən mükəmməl səviyyədə daşıyıcısı olması və s.

Son olaraq qeyd edək ki, ulu öndər Heydər Əliyevin misilsiz fəaliyyəti nəticəsində əsası qoyulmuş siyasi kurs bugünkü dinamik sosial-iqtisadi yüksəlişin, inkişafın təməl daşını təşkil edir. Onun yalnız ölkənin rifahı üçün bütün səylərini ortaya qoymasından xəbər verir. Bir sözlə, yuxarıda qeyd etdiyimiz fikirlər bir daha sübut edir ki, ümummilli liderimiz Heydər Əliyev fenomenal, hərtərəfli, zəngin siyasi biliyə, praqmatik bacarığa malik real tarixi şəxsiyyət olub. Azərbaycan bu günün reallığına çevrilmiş bir sıra beynəlxalq tədbirlərə, forumlara, konfranslara ev sahibliyi etməkdədir və ölkəmiz Heydər Əliyev siyasi kursu ilə inamla, uğurla gələcəyə addımlayır. Heydər Əliyevin irsi gələcək nəsillər üçün zəngin xəzinə olacaq. Hamıya yaxşı məlumdur ki, bu ənənə hazırda ulu öndər Heydər Əliyev siyasətinin davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi altında böyük məsuliyyətlə davam etdirilməkdədir. Qısası, ulu öndərdən nə qədər danışsaq da, yazsaq da, araşdırsaq da yenə də azdır. Çünki bu cür tarixi obrazı, fenomenal şəxsiyyətin xidmətlərini bir neçə səhifəyə, bir neçə kəlməyə sığışdırmaq mümkün deyil. Zəngin yaradıcılıq fəaliyyətinə malik şəxsiyyətlər kimi öndər Heydər Əliyev daim bizim qəlbimizdə, amalımızda, təfəkkürümüzdə iz buraxmış və gələcəkdə də belə olacaqdır.

## ƏDƏBİYYAT

1.Hikmət Babaoğlu "Ulu öndər Heydər Əliyev həm tarixi yaradan, həm də tarixi şəxsiyyətdir" məqaləsi, "Yeni Azərbaycan" qəzeti, 2010, 11 dekabr, S.5.

http://www.anl.az/down/meqale/yeni_az/2010/dekabr/145186.htm
2.Xudiyev Nizami. Heydər Əliyev və Azərbaycan dili. Bakı, "Elm və təhsil", 2014.

**Aysu BÜLBÜLZADƏ**
**Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin**
**Elmi Araşdırmalar, Ekspozisiya və fond şöbəsinin əməkdaşı**
**E-mail: *bulbulzadaysu@gmail.com***

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QURUCULUĞU

*Açar sözlər:* Azərbaycan Respublikası, Heydər Əliyev, dövlət quruculuğu, siyasi lider, müstəqillik

Yaxın keçmişimizə, dövlətçilik ənənələrimizə nəzər saldıqda aydın olur ki, Azərbaycan xalqının XX əsr tarixinin ən parlaq səhifələri ümummilli lider Heydər Əliyev fenomeni ilə bağlıdır (1969-1982,1992-2003).

Ümummilli lider Heydər Əliyev ölkənin milli maraqlarına və dövlət quruculuğu xəttinə əsaslanan milli dövlətçilik konsepsiyasını irəli sürərkən tarixi ənənələrlə müasir inkişaf meyillərinin optimal vəhdətinə nail olmuş, Azərbaycan Respublikanın dinamik inkişaf strategiyasının əsasını qoymuşdur. Ona görə də bu gün əminliklə deyə bilərik ki, müstəqil Azərbaycanda müasir, demokratik cəmiyyətin formalaşması onun ideyalarının bəhrəsidir.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışından sonra milli və bəşəri dəyərlərə əsaslanan hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində real addımlar atıldı, ölkənin gələcək demokratik inkişafı müəyyən olundu, siyasi şərait yaradıldı.

Ulu öndərin formalaşdırdığı azərbaycançılıq milli dövlətçiliyimizin ideya əsasını təşkil etmiş, dünya azərbaycanlılarının həmrəyliyinin əsasını qoymuşdur. Heydər Əliyevin gərgin və ardıcıl fəaliyyəti nəticəsində son yüz ildə çox ciddi məsələ kimi gündəmə gələn milli dövlətçilik problemi elmdən, nəzəriyyədən, fəlsəfədən praktiki siyasətə və praktik həyata keçir [1,s 128].

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsinin ən mühüm cəhətlərindən biri də ölkəmizdə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas istiqamətlərinin müəyyən edilməsi oldu [2,s 64].

Konstitusiyanın qəbulu və demokratik şəkildə formalaşmış Milli Məclisin mövcudluğu Azərbaycanda vətəndaşların siyasi azadlıqlarının təmin olunmasına imkan yaratdı. Bütün fəaliyyəti boyu humanizm prinsiplərini rəhbər tutan Heydər Əliyev demokratik və vətəndaş cəmiyyəti quruculuğunun fundamental əsaslarından biri olan qanunun aliliyinin təmin edilməsinə daim xüsusi diqqət

yetirmişdir. Bu baxımdan o, islahatların həyata keçirilməsi istiqamətində konkret addımlar atmış, imzaladığı hüquqi sənədlərlə vətəndaş cəmiyyətinin formalaşmasında mühüm nailiyyətləri təmin etmişdir [3,s 44].

Siyasi lider Heydər Əliyevin qətiyyətli addımları sayəsində insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən ən mühüm islahat yaşamaq hüququnun təmin edilməsi olmuşdur. Belə ki, 1993-cü ildə ölüm hökmünün tətbiqi məhdudlaşdırılmış, 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradılmış,1998-ci ildə Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm hökmü ləğv edilmişdir. Azərbaycan Respublikası İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmuş, seçki sistemi təkmilləşdirilmiş, mətbuat və ifadə azadlığının daha etibarlı müdafiəsi təmin edilmişdir. 1998-ci ildə "İnsan hüquqlarının müdafiəsi üzrə Dövlət Proqramı"nıntəsdiq edilmişdir [3,s 100].

Ümummilli lider Heydər Əliyevin siyasi irsində demokratik dövlət quruculuğu məsələlərindən danışarkən, əlbəttə ki, siyasi sistemin inkişafına mühüm töhfələr verən proseslərə xüsusi diqqət yetirmək lazımdır. Onun səmərəli daxili siyasətinin mühüm nəticələrindən biri də siyasi plüralizmin təmin edilməsidir. Azərbaycanda siyasi plüralizm ən yüksək səviyyədə təmin olunub. Ölkədə 55 siyasi partiya var və hazırda ölkə parlamentində 10 partiya təmsil olunur. Əsası 1992-ci il 21 noybarda Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyası demokratik dövlət quruculuğuna töhfə verən ən mühüm amillərdən biridir. 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində ölkəmizdə hökm sürən mürəkkəb siyasi vəziyyətin daxili məntiqinin, dövrün aktual tələbatının, eləcə də Azərbaycan xalqının arzularının ifadəsi kimi yaranan Yeni Azərbaycan Partiyası hər zaman öndə olub. İlk gündən YAP-ın əsas məqsədi Azərbaycanın dövlət müstəqilliyini qorumaq və möhkəmləndirmək, ərazi bütövlüyünü təmin etmək, demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, qüdrətli və güclü dövlət quruculuğu yaratmaqdan ibarət olmuşdur. 30 ildən artıqdır ki, öz proqram məqsədlərinə uyğun fəaliyyət göstərir. Bu gün Azərbaycan bu prinsiplər əsasında inkişaf edir. Qürurverici faktdır ki, Yeni Azərbaycan Partiyası ölkədə ictimai-siyasi mühitin yaxşılaşdırılması, əhalinin sosial rifahının yüksəldilməsi üçün ideoloji bazaya çevrilib [4,s 54] .

Heydər Əliyev müasir Azərbaycan tarixində müstəsna rolu olan şəxsiyyətdir ki, Azərbaycanın tarixinin 40 ili onun adı ilə bağlıdır. Ulu öndər xalqımızın tarixinə Azərbaycanla bağlı gördüyü işlərlə böyük qurucu şəxsiyyət və xilaskar kimi yazılmışdır.[5]

Böyük dövlət xadimi, görkəmli siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı, zəmanəmizin nadir şəxsiyyətlərindən olan Heydər Əliyev tarixə çox zəngin irs qoymuşdur. Xalqımızın mənəvi sərvəti olan bu irsi öyrəndikcə bir daha əmin olursan ki, ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan Respublikasının hərtərəfli inkişafı prosesinə güclü təkan vermiş bu böyük şəxsiyyətin müasir Azərbaycan dövlətinin quruculuğunda müstəsna rolu var.

Ümummilli lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesi məhz demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş, hazırda isə həmin proses Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir.

ƏDƏBİYYAT

1. Abdullayev V. Azerbaijan in the new diplomatic space. Baku: Azerneshr, 2000, 412 p.
2. Kazimli X. Continuation of the great policy. Baku: Nurlan, 2007, 768 p.
3. Mehdiyev R. National statehood in the XXI century. Baku: Azerneshr, 2003. - 340 p.
4. Mehdiyev R. New policy: towards development. Volumes I-II. Baku: Oscar MTM, 2008, 581, 343 p
5. Talıblı S.Ə. "Heydər Əliyevin Azərbaycan hakimiyyətinə ikinci dəfə qayıdışının dövlətçilik tariximizdə yeri" / https://azadmedia.az/gundem/57202-dr-subhan-talbl-heydr-liyevin-azrbaycan-hakimiyytin-ikinci-df-qaydnn-dovltcilik-tariximizd-yeri.html

## II BÖLMƏ
## Ümumi və sosial psixologiya

**Elmar HÜSEYNOV**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının professoru***
**E-mail: elmar-boks@rambler.ru**

# EKSTREMAL ŞƏRAİTƏ PSİXOLOJİ HAZIRLIĞIN ƏSASLARI

*Acar sözlər:* ekstremal, həyat, problemlər, psixologiya, təhlükə, stress, mübarizə, sağlamlıq, təsir, fövqəladə.

İnsanların əhvalında və sağlamlığında pozuntulara səbəb olan bilən təsirlər təhlükəli hesab olunur. Təhlükəlilik "insan – mühit" sisteminin insanlara, təbii mühitə və maddi ehtiyatlara zərər vurmağa qabil elementlərinin xassəsidir. Insanlara təsirin xarakterinə görə bütün təhlükələr zərərli və zədələyici əmillərə bölünür. Zərərli amillərin təsiri insanın əhvalının pisləşməsinə səbəb olur. Bu təsirlər uzunmüddətli olduqda isə insanların xəstələnməsinə gətirib çıxarır. Bu amillərə: atmosfer havasında, suda, qida məhsullarında olan zərərli maddələr, havanın aşağı və və yüksək temperaturu və s. aid edilə bilər [1, s. 124-125].

Əgər ekstremal situasiya eyni zamanda bir çox insan həyatını əhatə edərsə, onda o, fövqalədə hal adlanır. Fövqaladə hallar insanlar üçün çox ağır nəticələr verə bilər. Bunlar müharibə, kütləvi nəqliyyat qəzaları, təbii fəlakətlər, terror aktları ola bilər [2, s. 35-36].

Ekstremal şəraitlər dedikdə, gözlənilmədən baş verən, insanın həyatını təhlükə altına alan gərgin situasiya nəzərdə tutlur. Belə situasiyalar hə təbii fəlakətlər zamanı, ham də insanların öz əməllərindən törənən bədbəxt hadisələr zamanı yaranır. Bunlar da təbii və antropogen olmaqla iki yerə bölünür. Əgər ekstremal situasiya eyni zamanda bir çox insan həyatını əhatə edərsə, onda o, fövqalədə hal adlanır. Fövqaladə hallar insanlar üçün çox ağır nəticələr verə bilər. Bunlar müharibə, kütləvi nəqliyyat qəzaları, təbii fəlakətlər, terror aktları ola bilər. Ekstremal şəraitlər dedikdə, gözlənilmədən baş verən, insanın həyatını təhlükə altına alan gərgin situasiya nəzərdə tutlur. Belə situasiyalar hə təbii fəlakətlər zamanı, ham də insanların öz əməllərindən törənən bədbəxt hadisələr zamanı yaranır. Bunlar da təbii və antropogen olmaqla iki yerə bölünür [3, s. 47-48].

Əgər ekstremal situasiya eyni zamanda bir çox insan həyatını əhatə edərsə, onda o, fövqalədə hal adlanır. Fövqaladə hallar insanlar üçün çox ağır nəticələr verə bilər. Bunlar müharibə, kütləvi nəqliyyat qəzaları, təbii fəlakətlər, terror aktları ola bilər. Ekstremal şəraitlər dedikdə, gözlənilmədən baş verən, insanın həyatını təhlükə altına alan gərgin situasiya nəzərdə tutlur. Belə

situasiyalar hə təbii fəlakətlər zamanı, ham də insanların öz əməllərindən törənən bədbəxt hadisələr zamanı yaranır. Bunlar da təbii və antropogen olmaqla iki yerə bölünür. Insanın ölümlə həyat arasında qaldığı situasiyaları ekstremal situasiya adlandırmaq olar. Onlar təhlükəli situasiyalardan bir qədər çətin olur. Belə hallarda sağ qalmaq üçün insan maksimum qüvvə sərf etməlidir. Insanın əvvəlcədən belə hallara hazır olması vacibdir. Bu avtomobil qəzası, yanğın, keçiddə təqib, yaxın adamın gözlənilməz xəstəliyi və s. ola bilər [4].

Əgər ekstremal situasiya eyni zamanda bir çox insan həyatını əhatə edərsə, onda o, fövqalədə hal adlanır. Fövqaladə hallar insanlar üçün çox ağır nəticələr verə bilər. Bunlar müharibə, kütləvi nəqliyyat qəzaları, təbii fəlakətlər, terror aktları ola bilər.

Ekstremal şəraitlər dedikdə, gözlənilmədən baş verən, insanın həyatını təhlükə altına alan gərgin situasiya nəzərdə tutlur. Belə situasiyalar hə təbii fəlakətlər zamanı, ham də insanların öz əməllərindən törənən bədbəxt hadisələr zamanı yaranır. Bunlar da təbii və antropogen olmaqla iki yerə bölünür.

Ekstremal şəraitlərdə insan davranışı özünəməxsus çalarlara malik olmaqla, müxtəlif formalarda təzahür edir. Onlar aşağıdakılardır:

1. Adekvat – özünümüdafiə üçün vacib olan psixoloji və fizioloji gərginliyin ani səfərbərliyi baş verir. ən vacibi müəyyən vaxt ərzində özünüitirmənin qarşısının alınması, rasional qərarların qəbul edilməsi və onların həyata keçirilməsidir.

2. Hiperdinamiya – hərəkətlər burulğanı, mənasız, xaotik davranışlar toplusu, məzmunsus nitq və s. Hiperdinamiya insanın toxtamasına, özünün şüursuz və avtomatik hərəkətlərindən qorunmasına imkan vermir.

3. Stupor – şok, daşa dönmə, tərpənməyin və davranışın mümkün olmaması. Insanlar adətən embrional bir forma alırlar, başlarını əlləri ilə örtürlər, döşəməyə uzanırlar, gözlərini yumurlar və ya əksinə.

4. Tutqun şüur – psixi funksiyaların məhdudlaşması. Insan pis dərk edir, onları və hətta öz hərəkətlərini də pis xatırlayır, hadisəyə aid olanları pis görür, pis eşidir, onu əhatə edənləri tanımır. Nitq mənasız danışıqdan ibarət olur.

5. Şayə - zəlzələ zamanı yaranan adi reaksiyadır. Onun əsasında idarə edilməyən qorxu hissi dayanır.

Ekstremal şəraitlərə psixoloji hazırlıq iki mühüm amillə müəyyən olunur:

1. Məlumatlılıq – müxtəlif xarakterli fəlakətlər haqqında informasiyaya malik olmaq. Bu ami psixoloji hazırlığın 80 % təşkil edir. Adamlar zəlzələ, daşqın və b. Tipli fəlakətlərdə əvvəlcədən xəbərdar olanda necə davranmaq, hansı hərəkətlərə etmək haqqında biliklərə malik olsalar, istənilən ekstremal vəziyyətlərdən daha asan çıxa bilərlər.

2. Şəxsi amil – insanın fərdi xüsusiyyətləri, iradi keyfiyyətləri, emosional və intellektual cəhətdən yetkinliyi, professional xüsusiyyətləri. Psixoloji hazırlığın 20 % bu amillərlə şərtlənir. Sinir sistemi güclü olan şəxslər stresi daha yaxşı keçirirlər. Zəif sinir sisteminə malik olan şəxslərin fəaliyyəti mənfi qiymətləndirildikdə onların bəzi psixoloji funksiyaları zəifləyir. Bu keyfiyyət

konflikt situasiyalarda xüsusi əhəmiyyət kəsb edir. Müvazinətli şəxslər belə situasiyalara adekvat davranış reaksiyaları göstərməyə daha çox qabildirlər.

Təbii fəlakətlərin 10 % dən 25 % qədərində psixi pozğunluqların miqdarı 35 % qədər artır. Sivil ölkələrdə hər iki göstəricinin nəzərə alınması təbii fəlakətlər, yanğınlar, partlayışlar və və d. qəzalarda insan tələfatını və maddi ziyanı xeyli azaldır.

Ekstremal situasiyadan sonra insanda belə əlamətlər əmələ gələ bilər:

- Yuxunun pozulması
- Iştahanın pozulması
- Fiziki zəiflik
- Nəfəs almanın dəyişməsi
- Mədədə boşluq hissi.

Beləliklə, stres hər zaman şəxsiyyətin psixofizioloji reaksiyasldır. Yalnız həyati və sağlamlığı təhdid edən təhlükələr, soyuq və ya isti, aclıq və ya ağrı deyil, təhqir, günah, qısqanclıq, xəcalət və s. kimi hisslər də stres yaratmağa qabildir.

Streslə baş etmənin ən təsirli yolunun nəfəs almağı öyrənmək və nəfəs məşqləri etməkdən keçdiyini izah edən Kadıoğlu, belə dedi:"Çox insanlar stres altındaykən nəfəs almağı unudur və bədəninə böyük zərər verir.

Praktik psixologiyada stresdən çıxış yolları aşağıdakı kimi müəyyən edilmişdir.

- Özünüzü qüvvəniz çatan işləri görməyi alışdırın
- Həyata real nəzərlə baxın, özünüzdən hədsiz dərəcədə çox şey gözləməyin
- Əgər hər hansı bir iş qüvvəniz xaricindədirsə qəti olaraq “yox” deməyi öyrənin
- Hhəyatı sevməyi, hər ötən gündən, azca da olsa sevinc duymağa çalışın
- Özünüzdə sağlam həyat vərdişlərini yaradıb möhkəmləndirin, zərərli vərdişlərə qarşı möhkəm olmağı öyrənin.

Nəticə:

Yadda saxlamaq lazımdır ki, hər bir insana streslə mübarizənin effektiv üsullarını mənimsəmək zəruridir. Bunu nə qədər tez öyrənməyə başlasanız, bir o qədər yaxşıdır. Sağlam və xoşbəxt həyat yaşamaq üçün bunu etməyə dəyər. Hər bir fərdin fəaliyyət növündən asılı olmayaraq ekstremal şəraitə psixoloji hazırlıq çox vacibdir, bu tip təlimlərə aşağıdakı komponentlər daxil olmalıdır:

a) insanı psixoloji qavrayışa və funksional vəzifələrini və hərəkətlərini yerinə yetirmək ehtiyacını dərk etməyə hazırlamaqdan ibarət olan funksional təlim;

b) normativ element, yəni davranış normalarının qavranılması, hərəkətlərin uyğunluğu, onlara müəyyən diskomfort (müəyyən psixi uyğunsuzluq, uyğunsuzluq, dissonans) səbəb olmayan ruhi vəziyyətdə riayət edilməsi;

c) cəmiyyət tərəfindən fərdin yerləşdiyi mühitə xas olan özünəməxsus (və ya yerinə yetirmək öhdəliyi) kimi elan edilən dəyər oriyentasiyalarını formalaşdırmalı və onlardan xəbərdar olmalıdır;

d) xüsusi qavrayışın, taktiki (mövqe) təfəkkürün bacarıq və bacarıqlarının, etibarlılığın, psixikanın və bədənin səfərbərliyinin (onların potensial ehtiyatlarının), emosional və iradi sabitliyin formalaşması;

e) özünü tənzimləmə üsullarının, müsbət emosional vəziyyətlərin formalaşdırılması bacarıqlarının təkmilləşdirilməsi;

ə) fərdin ünsiyyət imkanlarının (həm şifahi, həm də şifahi olmayan) aşağıdakı səviyyələrdə formalaşması və inkişafı: kommunikativ (informasiyanın ötürülməsi, onun vasitələri və s.); qavrayış, ünsiyyət tərəfdaşlarının qavrayışı kimi; interaktiv, ünsiyyət zamanı fərdlər arasında qarşılıqlı əlaqə prosesi kimi.

## ƏDƏBİYYAT

1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2002, 420 s..
2. Hüseynov E.A. Psixoloji korreksiya işi. Bakı: 2003, 74 s.
3. Qaragözov R.R., Qədirova R.H. "Psixoloji stress: özünü və uşağını xilas et!". Bakı: 1997, 164 s.
4. Cavadov R.Ə., Tağıyeva G.B. Ekstremal şəraitlərdə psixoloji xidmət (Ali məktəblər üçün dərslik), Bakı: 2006, 253 s.
5. Психология экстремальных ситуаций/ Под ред. В.В. Рубцова, С.Б. Малых. – 2-е изд., стер. – М.: Психологический ин-т РАО, 2008, 304 с.
6. Василюк Ф.Е. Психология переживания (анализ преодоления критических ситуаций) / Ф.Е. Василюк. – М.: Изд-во МУ, 198, 200 с.
7. Чурсин А. Влияние экстремальной ситуации на спасателя / А. Чурсин, Г. Неудахин, О. Наливаева. – М.: Изд-во АНАТР, 2005, 56 с.

**Məhərrəm ƏLİYEV**
***psixologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının dosenti***
**E-mail: m_a_1977@mail.ru**

# METAMODEL VƏ PSİXOANALİZ

*Açar sözlər:* metamodel, silmə, ümumiləşdirmə, təhrifetmə, psixoanaliz, röya

Metamodel spesifik bir sıra suallar istifadə etməyinizi və bunlar sayəsində bir adamın mövcud gerçəklik anlayışından yeni bir anlam çıxarmağınıza şərait yaradan bir modeldir. Qısacası, qarşımızdakı adamın dünya modelini və ya xəritəsini genişləndirməyimizə imkan verir.

İstənilən uğurlu psixoterapiya 2 xüsusiyyətlə xarakterizə olunur:

- Kommunikasiyanın əhəmiyyətli payı verbal formada həyata keçirilir;
- Danışanın (kliyentin, xəstənin) reprezentasiyasında (dünya modelində) dəyişiklik baş verir: nəticədə - danışanın (kliyentin, xəstənin) davranış və təcrübəsi dəyişir [2].

Psixoterapevt 3 mümkün davranış yolunu seçə bilər:

1) «kasıblaşdırılmış» modeli istifadə etməyə razılıq
2) Danışandan (kliyentdən, xəstədən) çatışmayan hissə haqqında soruşmaq
3) Onu müstəqil olaraq ehtimal etmək [2]

Şüursuzluq və Şüuröncəsi (və ya Önşüur) təsəvvürlər arasındakı gerçək fərq ondan ibarətdir ki, Şüursuzluq naməlum olan hansısa material əsasında baş verir, Sonuncuna (şüuröncəsinə) isə bu zaman sözlü təsəvvürlərlə birləşmə əlavə olunur [6]. Nəsə necə dərk olunur? sualı növbəti şəkildə məqsədəuyğun şəkildə ifadə olunmuşdur: Nəsə necə öncədən dərk olunur (və ya şüuröncəsinə gətirilir)? Və cavab olardı ki: müvafiq sözlü təsəvvürlərlə əlaqə yolu ilə. Bu sözlü təsəvvürlər xatirələrin qalıqlarıdır – nə zamansa onlar qavranılmış olublar və bütün xatirələrin qalıqları kimi yenidən dərk oluna bilərlər [6].

NLP məhz burada başlayır...1975-ci ildə J.Grinder və R.Bandler dilin psixoterapevtik metamodelini yaratmışlar. Dilin transformasyon modelinin adaptasiyası yolu ilə yaradılmış Metamodel danışanların kliyentlərin, xəstələrin) «kasıblaşdırılmış» modellərinin anlaşılması və dəyişdirilməsinin eksplisit metodur [2]. Metamodel insanın sözlərinin əsaslandığı təcrübəyə çatmağa imkan verən alətləri bizə təqdim edir [7].

«Röyaların yozumu» əsərini Psixoanalizin «mənbəyi və sirri» hesab etmək olar [3]. ... Ruhi həyat yuxu halında ola bilər [5].

Metamodeldə dərin struktur – insanin öz davranışını təşkil etmək və istiqamətləndirmək üçün istifadə etdiyi sensor xəritələr (şüurlu və şüursuz), səthi struktur isə – beyində saxlanılan ilkin sensor təsəvvürlərin təsviri yaxud dəyişdirilməsi üçün istifadə olunan sözlər və ya nitqdir.

Səthi struktur – formalaşdırılan düşüncə və ifadələrdir. Dərin struktur – əsas, tam sensor təmsildir [2].

Aşkar məzmun – röyada danışılandır. Gizli məzmun – yaranan düşüncələrin ardınca gəlib çatdığımız gizli olan [4].

Metamodel səthi strukturdan dərin struktura keçid prosesini müəyyən edir [2].

Yozum işi məqsədi açıq röyadan (yuxugörmədən) gizli röyaya çatmaq olan işdir [4].

NLP-də modelləmə prosesləri aşağıdakılardır:

1. Silmə - ilkin təcrübənin (aləmin), yaxud bütöv dil reprezentasiyalarının (dərin struktur) hissələrinin pozulması prosesi; ... Nəticədə bizim tərəfimizdən yaradılan model modellənən şeylə müqayisədə həmişə kiçildilmiş olacaq [2];
2. Ümumiləşdirmə - göstərilən adama məxsus modelin elementləri, yaxud hissələri özünün çıxış təcrübəsindən ayrılır və bütöv kateqoriyanı reprezentasiya etməyə başlayır [2];
3. Təhrifetmə - hissi verilənlərin qavranılmasının müəyyən şəkildə yerdəyişməsi prosesidir [2]

Psixoanalizdə transformasiya mexanizmləri aşağıdakılardır:

1. Sıxlaşdırma – açıq röya gizli olandan daha az ehtiva edir, başqa sözlə, sonuncunun özünəməxsus qısaldılmış tərcüməsidir [4]:

1) müəyyən gizli elementlər ümumən buraxılır (silmə);

2) gizli röyanın bəzi komplekslərinin ancaq bir hissəsi açıq röyaya keçir (ümumiləşdirmə);

3) Hansısa ümumi cəhətləri olan gizli elementlər açıq röyada birləşirlər, bir tamda qovuşurlar (ümumiləşdirmə)

2. Yerini dəyişdirmə – röya sanki tamamən fərqli qurulur, röyanın məzmunu onun əsasını təşkil edən düşüncələrlə müqayisədə digər elementlərin ətrafında məskunlaşır [5] (təhrifetmə):

Hansısa gizli element öz tərkib hissəsi ilə deyil, nəsə uzaq bir şeylə, başqa sözlə, eyhamla əvəzlənir;

Psixi aksent hansısa vacib elementdən digərinə, qeyri-vacib olana yerdəyişdirir.

3. Çevrilmə – düşüncələrin görmə obrazlarına çevrilməsi; sözün əyani təsviri [4];
4. İkincili işləmə – röyanın bütün materialının, xüsusən də, onun daxili qarşılıqlı münasibətlərinin ixtiyari çevrilməsi [5]

Ümumiləşdirmə və silmə – təhrifetmənin fərdi hallarıdır [7].

Röyada yerini dəyişdirmə prosesi – belə (...) təhrifetmənin əldə olunması üçün başlıca vasitələrdən biridir [5].

METAMODEL nümunələri:

1.İnformasiyanın toplanması (Silmə)

- İsimləşdirmə (Nominalizasiya)

Proses statik bir hadisəyə dönmüş və feil isimləşdirilmişdir. İsmi yenidən feilə çevirin və qeyri-müəyyən feil olduğunu irəli sürün.
"Tam olarak necə/kim/kim kimlə ünsiyyət qurur/nəyə münasibətdə" suallarını soruşun.
Nümunə: *"Ünsiyyət problemimiz var", "Qərarsızam".*

- Qeyri-müəyyən feil

Feil, aydın anlamaya izn verməyəcək qədər ümumidir.
"Tam olaraq necə" sualını soruşun.
Nümunə: *"Bu proyekt çox çətindir", "Verdiyin məlumat yanlışdır".*

- Bəsit Silmə

Önəmli məlumat əksikdir.
"Tam olarak nə/necə/kim" və ya "kim/nə haqqında" suallarını soruşun.
Nümunə: *«Bahadır», «Bu situasiyadan şikayətçiyəm».*

- Qeyri-müəyyən referent indeksi (Naməlum isim)

Məlumat anlaşılmaz, həddən artıq ümumiləşdirilmiş və ya qeyri-müəyyəndir.
"Tam olaraq kim/nə" sualını soruşun.
Nümunə: *«Bu fikri əsla qəbul etməyəcəklər», «Kimsə bu proyektin faydasına inanmayacaq».*

- Müqayisəli Silmə

Müqayisə olunan şeyin kənarda buraxıldığı qarşılaşdırmadır.
(yaxşı, daha yaxşı, ən yaxşı, az/çox)
"Kimə/nəyə nisbətdə və ya nəylə müqayisədə" suallarını soruşun.
Nümunə: *"Onlar daha yaxşı edirlər", "Keçən dəfə bacarmadım", "Daha uğurlu olmaq istəyirəm."*

2.Dünyanın fərdi modelinin məhdudlaşdırılması (Ümumiləşdirmə)

- Universal kvantifikatorlar

İstisnasız ya hər şey, ya heç nə kateqoriyası.
(hər bir, hamısı, hər kəs, heç kimsə, əsla, hər zaman kimi)
Şişirdin və ya soruşun: "Bunun doğru olmadığı bir zaman heç oldumu?/əslamı/heçmi"
Nümunə: "Hər kəs qəbul edir", "Heç kimsə vəziyyəti tam anlamır", "Əsla sabahınız xeyir demirsiniz".

- Modal operatorlar

Zərurət: -malı, -məli, -maq zorunda, -sa yaxşı olar.
Ehtimal: imkansız, edə bilməmək, mümkün deyil.
*Zərurət:* "Etsəydiniz/etməsəydiniz nə olardı?" sualını soruşun.
*Ehtimal:* "Etmənizi nə əngəlləyir/ sizi nə durdurur?" və ya "Etmənizə səbəb olan nə?" suallarını soruşun.
Nümunə:
-"Öncə bunu bitirməliyəm";
-"Bunu edə bilmərəm", "Ona doğrunu söyləyə bilmərəm".

3.Semantik qeyri-tərtiblilik (Təhrifetmə)

- Fikir Oxuma

İnsanın, birbaşa ünsiyyət olmadan bir başqa insanın düşüncələrini və ya hisslərini bildiyini iddia etməsidir.
"Tam olaraq hardan bilirsiniz?" sualını soruşun.
Nümunə: *"Məni sevmir", "Qatılmaq istəmədiyini bilirdim", "O proyekti əsla mənə verməz".*

- İtirilmiş performativ

Fərdi dünyalardan qopmuş ümumiləşdirmələrdir, başqalarına və ya başqa dünyalara proyeksiya olunur.
"Kim demiş?", "Kimin üçün?" və ya "Kimin dünya modelinə (inanclarına) görə?" suallarını soruşun.
Nümunə: "Dünya iqtisadiyyatı çökür", "Belə edilməsi lazımdır".

- Səbəb/Nəticə (A > B)

Bir insanın bir başqasını müəyyən bir şəkildə hiss etməyə zorladığını/nədən olduğunu düşündürəcək şəkildə daxili halları başqalarının davranışlarına bağlamaq. X'in Y'ə səbəb olması.
Bu sualları soruşun: "X, Y'i hiss etmənizə tam olaraq necə səbəb olur?", "Daha öncə Y olmadan heç X'i hiss etmişdinizmi?"
Nümunə: *Şirkətin əl dəyişdirmiş olması özümü inamsız hiss etməyimə səbəb olur".*

- Mürəkkəb ekvivalentlik (A=B)

İki təcrübənin ekvivalent anlamlı olaraq görülməsi.
Necə/heç? suallarını soruşun.
Nümunə: *«Mənə heç gül gətirmir, məni sevmir».*

- Presuppozisiya (Ehtimal, Fərziyyə)

Hökmü anlamaq üçün aydın şəkildə tələb olunan nəysə.
Necə/nə/hardan bilirsən? suallarını soruşun.
Nümunə: *«Əgər ərim nə qədər əzab çəkdiyimi bilsəydi, bunu etməzdi"* (1.əzab çəkirəm; 2.ərim müəyyən bir davranış sərgiləyir; 3.ərim əzab çəkdiyimi bilmir).
*«Əgər müəllim nə qədər zəhmət çəkdiyimi bilsəydi, məni kəsməzdi«* (1. zəhmət çəkirəm; 2. müəllim müəyyən bir davranış sərgiləyir; 3. müəllim zəhmət çəkdiyimi bilmir) [1].

## ƏDƏBİYYAT

1.Acar, E. İnsan kaynakları yönetiminde NLP. İstanbul: Kariyer yayınları, – 2006. – 272 s.
2.Бендлер, Р., Гриндер, Дж. Большая энциклопедия НЛП. Структура магии. – Москва: АСТ, – 2014. – 445 с.
3.Руткевич, А.М. Психоанализ. Истоки и первые этапы развития: Курс лекций. – М.: Изд-я группа ИНФРА-М – Форум, –1997. – 352 с.
4.Фрейд, З. Введение в психоанализ: Лекции. – Москва: Наука, – 1989. – 456 с.

5.Фрейд, З. Толкования сновидений. – Москва: Изд-во ЭКСМО-Пресс, Харьков: Изд-во «Фолио», 2001. – 624 с.
6.Фрейд, З. «Я» и «Оно». Труды разных лет. Книга I / Перевод с немецкого. –Тбилиси: Мерани, – 1991. – 401 с.
7.Холл, М., Боденхамер, Б. Полный курс НЛП. – Москва: АСТ, – 2014. – 635

**Məhərrəm ƏLİYEV**
***psixologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının dosenti***
**E-mail: m_a_1977@mail.ru**

## NLP-DƏ YENİDƏNÇƏRÇİVƏLƏMƏ TEXNİKASI VƏ FUNKSİONAL AVTONOMLUQ ANLAYIŞI

*Açar sözlər:* NLP, çərçivə, yenidənçərçivələmə, funksional avtonomluq, şəxsiyyət

D.Kaneman yazır ki, *"Formulun inanca və seçməyə əsaslandırılmamış təsirini biz Amosla (Amos Tverski nəzərdə tutulur) birlikdə freyminq effekti (çərçivənin qurulması) adlandırdıq"* [5, s. 475]. Çərçivə, içərisinə bir rəsmi yerləşdirdiyimiz vizual bir sahədir. Çərçivə təkbaşına bir rəsmin mənasını dəyişdirə bilər. Sanki insanları geyimlərinə görə mühakimə etdiyimiz kimi, vəziyyətləri də o anda içində olduğumuz ruh halına görə mühakimə edərik.

Çərçivə dəyişdiyi zaman məna da dəyişir. Çərçivəni dəyişdirmək demək, o vəziyyəti fərqli bir şəkildə görə bilmək deməkdir.

Bütün davranışlarımızın altında yatan bəzi səbəblər vardır. Etdiyimiz heç bir şeyi təsadüfən etmərik. Əsasən də, hər şeyi müsbət bir niyyət daşıyaraq gerçəkləşdirərik. Hətta günah işləyən insanlar belə etdikləri doğru olmasa da, özlərincə bunu müsbət bir niyyətdən dolayı gerçəkləşdirərlər.

Davranış və xarakter çox fərqli şeylərdir. Davranış xarakterdən müstəqildir və məkana-zaman bağlı olaraq dəyişir.

Yenidənçərçivələmə, hadisələrə fərqli bucaqlardan baxmağımıza imkan yaradır. Yenidənçərçivələmə texnikası, vəziyyətlərə çox fərqli bir bucaqdan baxmağımıza və seçimlər tapmağımıza şərait yaradır. Bu texnika, davranışlarımızın altında yatan müsbət səbəbləri taparaq, fərqli alternativlər qurmağımıza yardımçı olur.

Misalçün, birisi siqaret çəkirsə, bunu ondan keyf aldığı üçün edir. Siqaret çəkməsinin bir müsbət səbəbi vardır. Bəlkə də özünü rahatlatmaq üçün, sıxıntılarını unutmaq üçün, ya da siqaretin ona güvən verdiyini düşündüyü üçün

çəkir. Məsələ siqaretin özü deyil, adama təklif etdiyi ikinci dərəcəli qazanclardır. Məsələ siqaret deyil, rahatlıqdır, özgüvəndir, sıxıntılarını unutmaqdır. Əgər siqaret çəkmək yerinə sıxıntılarını unutması üçün fərqli seçimlər tapa bilsəniz, o adam bu hərəkəti etməkdən vaz keçəcəkdir.

Məzmunun yenidənçərçivələməsi məna yenidənçərçivələməsi (kompleks ekvivalentlik) və kontekst yenidənçərçivələməsi (müqayisə) olmaqla, iki cür təsnif edilə bilər [R.Bandler, C.Qrinder, 1995]. Məna yenidənçərçivələməsində biz digər məna təklif edirik. Səbəb-nəticə əlaqələrini dəyişdirməklə, məhdudlaşdırıcı inanclarla işdə əsas alətlərdən birinə çevrilir. Məsələn, “O tənbəl deyil, sadəcə istirahəti daha çox sevir”. Kontekst yenidənçərçivələməsində isə biz davranışı elə situasiyaya qoyuruq ki, orda o, fərqli anlam qazanmağa başlayır. Kontekst yenidənçərçivələməsi bir çox şeyin «həddən artıq» nisbi olduğunu, insanı keyfiyyətin özünün deyil, ona münasibətinin üzdüyünü dərk etməyə yardım edir. Məsələn, “Mən həddən artıq astagələm, ancaq gərəkli situasiyada dəqiqəm”.

R.Bendler qeyd edir ki, *“Yenidənçərçivələmənin mahiyyəti davranışın və həmin davranışın köməyilə əldə edilən nəticənin bir-birindən ayrıla biləcəyini başa düşməkdən ibarətdir. Psixoloqlar bunu uzun illər əvvəl dərk ediblər və bunun üçün "funksional avtonomluq" terminini tətbiq ediblər. Bu termin nəticə əldə edildikdən və fərd üçün faydalı funksiyası tükəndikdən sonra belə davam edən davranışı təsvir etmək üçün istifadə edilmişdir. Psixoloqlar bununla nə edəcəyini bilməsələr də, bunu əsaslandırmışlar. Onlar nəticələri birbaşa müəyyən edə və sonra eyni nəticəni əldə etməyə imkan verəcək davranış reaksiyalarını seçə və ya birləşdirə biləcəklərini bilmirdilər”* [4, s. 85]. Gördüyümüz kimi, yenidənçərçivələmənin əsasları psixologiya elmində Q.Olportun inkişaf etdirdiyi şəxsiyyət nəzəriyyəsinə söykənir.

Saysız-hesabsız insan motivlərini şərh etmək üçün Q.Olport (1897-1967) funksional avtonomluq konsepsiyasını yaratmışdır. Olportun motivasiya nəzəriyyəsinin təməl daşıdır və dəyişməyən deyil, dəyişən motivlərin nəzəriyyəsidir.

Q.Olporta görə, funksional avtonomluq “istənilən əldə olunmuş motivasiya sistemidir, hansında ki, ona daxil olan gərginlik qazanılmış sistemin törədiyi özündən əvvəl gələn gərginliklərdən fərqlənir” [7].

Funksional avtonomluq konsepsiyası ondan ibarətdir ki, hamısı deyil, bəzi insan təhrikləri davranışdan məsul ilkin motivlərdən funksional cəhətdən asılı deyil. Funksional avtonomluğun əsas meyarı budur ki, iştirakçı motiv yeni hədəflər axtarana qədər funksional cəhətdən avtonom olur. Bu o deməkdir ki, insan onun motivasiyası dəyişsə belə, özünün əvvəlki kimi apara bilər.

Q.Olport funksional avtonomluğun 2 səviyyəsini ayırd etmişdir:
1)perseverativ (əzmli, inadkar: uzadılmış işlər) – insanlara və heyvanlara xasdır və sadə nevroloji prinsiplərə əsaslanır; təəssüratın sonrakı yaşantılara təsir etmə qabiliyyəti; insanın sinir sistemində əks əlaqə mexanizmlərinə əsaslanır; misal:

bitməmiş işlər fenomeni – bir dəfə başlanmış və yarımçıq saxlanmış işlər gərginlik yaradır və işi bityirməyə sövq edir;
2)propriatriv (qazanılmış) – ali, insan şəxsiyyətinə məxsus motivasiya sistemi; məsələn, peşə məşğuliyyəti, hobbi və maraqlar.

Q.Olport aşağıda göstərilən 8 prosesi fərqləndirir, hansılar ki, funksional avtonomluğa daxil deyildir:
1.bioloji təhriklər (qida və yuxu);
2.bilavasitə əsas təhriklərlə əlaqəli motvlər;
3.reflektor işlər (tənəffüs və göz qırpma);
4.anadangəlmə xüsusiyyətlər (bədən konstitusiyası, intellektual qabiliyyətlər və temperament);
5.adətlər, özlərinin formalaşması prosesində;
6.ilkin möhkəmləndirməni tələb edən davranış şablonları;
7.qeyri-produktiv davranış (məcburi işlər, fiksasiya və reqressiya);
8.sublimasiya, hansı ki, uşaq seksual istəklərilə doğurula bilər.

## ƏDƏBİYYAT

1.Əliyev, M.S. Psixologiya atlası / Dərs vəsaiti. Bakı: Hərbi nəşriyyat, – 2009. – 194 s.
2.Bandler, R., Grinder J. Prenslere dönüşen kurbağalar. 4. Basım. – İstanbul: Alfa basım. – 2011. – 274 s.
3.Yazgan İnanç, B., Yerlikaya, E.E. Kişilik kuramları. Ankara: Pagem yayınevi, – 2014. – 350 s.
4.Бэндлер, Р., Гриндер Д. Рефрейминг. Ориентация личности с помощью речевых стратегий / Перевод Ребейко И. М. Воронеж: Изд-во МОДЭК, – 1995. – 256 с.
5.Канеман, Д. Думай медленно... решай быстро: [перевод с английского] / Даниэль Канеман. – Москва: ИздательствоАСТ, – 2017. – 653 с.
6.Холл, М., Боденхамер, Б. Полный курс НЛП. – Москва: АСТ, – 2014. – 635 с.
7.Фрейджер, Р., Фейдимен, Д. Большая книга психологии. Теории, упражнения, эксперименты. / Пер. с англ. – СПб.: Прайм-ЕВРОЗНАК, – 2008. – 704 с.

**Ülviyyə ƏFƏNDİYEVA**
***psixologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının dosenti***
**E-mail: ulviyya16@ yandex.com**

# AİLƏDƏ QARŞILIQLI MÜNASİBƏTLƏR: AİLƏ BAŞÇISI MƏSƏLƏSİ

*Açar sözlər:* ailə başçısı, ənənəvi, eqalitar, instrumental, ekspressiv

Şəxsi qarşılıqlı münasibətlərdə qrupun hər bir üzvü özünəməxsus yer tutursa da, onlardan hər biri həmin münasibətlərin inkişafında həlledici rol oynayır. Psixologiyada belə adama qrupun lideri və ya başçısı deyilir. Ailənin də öz başçısı olmalıdır. Ailə sosial qrup kimi o zaman səmərəli fəaliyyət göstərə bilər ki, onun həyatı düzgün təşkil olunsun, başqa sözlə idarə edilsin.

Ailə başçısı mühüm roldur. Onun müxtəlif funksiyaları təşkilatçılıq, informasiya və tərbiyə funksiyaları vardır. Təşkilatçılıq funksiyası onda ifadə olunur ki, ailənin başçısı ailənin məqsədini müəyyənləşdirir, əsas işləri planlaşdırır, qərar qəbul edir, vəzifə bölgüsü aparır, ailə üzvlərini konkret işlərə istiqamətləndirir, onların fəaliyyətini əlaqələndirir və s. O, ailə üçün zəruri informasiyaların əldə edilməsində və ailə üzvlərinə çatdırılmasında da əsas rol oynayır.

Ailə başçısının tərbiyə funksiyası da həlledicidir. Belə ki, o ailə üzvlərinin hərtərəfli inkişafı üçün əlverişli şərait yaradır, uşaqların tərbiyəsinə xüsusi qayğı ilə yanaşır.

Biz adətən monoqam ailələrdə olan liderlik məsələlərinə baxırıq. Liderliyin bölünməsinə görə, ailələrin 3 tipini göstərirlər:
1) ənənəvi (kişi-lider, qadın tabe olan-patriarxal üslub);
2) ənənəvi olmayan ( qadın-lider, kişi tabe olan-matriarxal üslub);
3) eqalitar üslub (hər ikisi liderdir).

İki davranış üslubuna uyğun olaraq T. Parsons ailədə liderliyin iki üslubunu müəyyən etmişdir: a) "instrumental" (birgə məsələni həll etmək); və b) "ekspressiv" (emosional razılığın saxlanılması). Kişi adətən instrumental liderliyi, qadın isə ekspressiv liderliyi həyata keçirir. Burada ailənin eqalitar tipi nəzərdə tutulmuşdur (hər ikisi liderdir) (2,s.212).

Aydındır ki, ənənvi və ənənvi olmayan ailədə hər iki liderlik üslubu bir nəfərə mənsub olur. Leykin labarator tədqiqatlarında süni ailə modelləri yaradılmışdır və rolların bölüşdürülməsi Parsonsun göstərdiyi kimi olmuşdur: kişilər instrumental liderin, qadınlar isə ekspressiv liderin rolunu qəbul etmişlər. Qeyd etmək lazımdır ki, çox vaxt labarator tədqiqatlarda gender stereotipləri daha aydın təzahür edir. Bu da tədqiq olunanların bir-biri ilə tanış olmamaları və cinslərarası şablon münasibətləri əks etdirmələri ilə əlaqədardır.

Bu Q. Qerberin (Gerber, 1989) tədqiqatlarında da təsdiq olunmuşdur. O, amerikan tələbə-psixoloqlara guya ki, nikahda olan, təsəvvür edilən cütlüklərin fiziki cəzbediciliklərini təsvir etməyi təklif etmişdir (onlarda liderin ya kişi, ya qadın, ya da hər ikisinin olması göstərilirdi). Aydın oldu ki, tədqiq olunanlara ən cəzbedici olan ənənvi amerikan ailəsində ər-ərvad münasibətlərinə malik cütlüklər olmuşdur (kişi-lider, qadın-tabe olan). Ən az cəzbedici isə rolların bölünməsində əks münasibətlər olan cütlüklər olmuşdur. Ənənvi cütlüklər tipik-gender kimi qəbul edilmişdir: kişiyə daha çox maskulinlik, qadına isə daha çox feminlik. Və əksinə-qadının lider olduğu cütlüklərdə arvad daha az femin, kişi isə daha az maskulin, hətta femin xüsusiyyətlər kimi qəbul edilirdi.

Oxşar nəticələri həm də amerikan psixoloqları D. Ayvey və K.Konoli əldə etmişlər (İvey, Conoley, 1994). Professional psixoterapevtlər ailədə patriarxal üslubu, matriarxal üslubdan daha sağlam hesab edirlər, qadın liderliyi isə ailənin patalogiyası hesab olunur. Real ailələrə baxdıqda isə vəziyyət daha da mürəkkəbləşir. Belə ki, amerikan ailələrində liderliyin tədqiqi ilə bağlı nəticələr zidiyyətlidir. Onalardan bəzilərində kişi liderliyi əks olunur. Peplan və Kemp-bellanın tədqiqatlarında qadınlar ailə münasibətlərində az hakimiyyətı malikdirlər, hətta ər arvadın hər ikisinin işlədiyi ailələrdə qadınlar daha çox iş yerinə yetirirlər. Ştets və Ştausun tədqiqatlarında isə göstərilir ki, qadınlar kişilərə nisbətən ərləri tərəfindən daha çox təhqirlərə məruz qalırlar. Amma başqa nəticələr kişi liderliyini inkar etmişlər: Sekran müəyyən etmişdir ki, qadınların yüksək maaş alması rolların dəyişilməsinə gətirib çıxarmışdır, Plek isə müəyyənləşdirmişdir ki, son dövrlərdə kişilər uşaqların tərbiyəsində daha çox iştirak edirlər.

Bir çox ailələrdə qərarlar birgə və ya daha səriştəli ailə üzvləri tərəfindən qəbul edilir, hər iki lider bir-birinə bərabər dərəcədə təsir göstərir və bu alələrdə vahid daimi lider olmur. Beləliklə, amerikan ailələri tamamlama modelindən-lider aparıcı, simmetrik modelə-hər ikisi lider keçmşlər və onlar həm karyera ilə, həm də işlə məşğul olurlar ( Nichols, 1984).

Kolline və Reyven bu nəticəyə gəlmişlər ki, digər qruplardan fərqli olaraq ailə liderliyi zamana görə daha çox dəyişkəndir və tapşırığın tipində asılıdır, belə ki, nikah nə qədər uzun sürərsə, qadınlar daha çox dominantlıq edirlər və ya kişlərlə bərabər olurlar.

Piplo və onun həmkarları (Peplau, Rubin, Hill, 1977) evli insanları təsnif etmişlər və onları bərabər nikahlar, ənənəvi evliliklər və müasir evliliklər qruplarına ayırmışlar:

-eqalitar nikahlarda gücün tərəfdaşlar arasında bərabər paylanması aiddir;

- ənənəvi evliliklərdə gender rollarına hörmət edilmir. Grey-Little və Burks (Grey-Little, Burks, 1983);

Eqalitar nikahların iki növü müəyyən edilmişdir: sinkratik və avtonom nikahlar. Sinkratik münasibətlər ər və arvadın bərabər gücə malik olduğu nikah modelini xarakterizə edir və onlar bütün sahələrdə (məsələn, uşaqların tərbiyəsi, qarşıdan gələn tətillər və maliyyə uyğunluğu) birgə qərarlar qəbul edirlər.

Avtonom (muxtar) model arvad və ərin müxtəlif sahələrdə güc və səlahiyyətə malik olduğu bərabər münasibətləri xarakterizə edir.

Ənənəvi nikahda ər arvaddan daha üstündür; hər iki tərəfdaş ənənəvi gender rollarını saxlayır. Ənənəvi nikahlarda arvadlar ev işləri və uşaq tərbiyəsi ilə bağlı hər şeydə müstəqil olurlar. Ərlər isə ailə qərarları üzərində tam səlahiyyətə malikdirlər (Grey-Little & Burks, 1983).

Müasir nikahlarda ərlər daha az üstünlük təşkil edirlər. Ənənəvi gender rolları bu gün bir qədər dəyişdirilir. Bu tip evliliklərdə ər arvadının işinə dözümlü yanaşır. Lakin, məsələn, uşaq xəstələnirsə, ər arvadın işə getməyəcəyini və uşaqla oturacağını təbii qəbul edir (Peplau et al., 1977).

Grey-Little və Burks müəyyən etdilər ki, arvadın üstünlüyə malik olduğu evliliklərdə tərəfdaşlar bərabər münasibətlərdən və ya ənənəvi evliliklərdən daha az razıdırlar. Bu cür məlumatların izahı ondan ibarətdir ki, dominant arvadla evliliklər mədəni normalara ziddir. (Paludy M., 2003, səh. 256–257).

Son dövrlərdə aparılan tədqiqatları ümumiləşdirsək növbəti dinamika aydın görünür: sorğu keçirilənlərin çoxu belə fikirlə rastlaşırıq ki, ailə eqalitar tipdə qurulmalıdır. Aşağıda bu nəticəni təsdiq edən faktları görmək olar:

Q.V. Lozqovaya və Rıbakovaya görə (1998), yeniyetmə oğlanlar yeniyetmə qızlara nisbətən hesab edirlər ki, ailə başçısı ər olmalıdır (53% və 36%). Əgər qadına üstünlük verilirdisə, bu zaman qızlar bunu daha çox qeyd edirlər (20% və 6 %).

Eyni zamanda, özlərini kişi cinsinin nümayəndələri kimi dərk etmiş oğlanlar və hələ cinsiyyətini qəti şəkildə müəyyən edə bilməyən oğlanlar, eyni dərəcədə tez-tez ailədə həm patriarxiyaya, həm də biarxiyaya üstünlük verirlər (yəni, həm ata, həm də ananın ailə başçısı ola biləcəyinə inanırlar). Qızlarda da eyni tendensiya var: yarı müəyyən edilmiş qrup qadının ailə başçısı olduğuna inanır, qalan qızlar isə gender bərabərliyinə meyl edirlər.

Böyüdükcə ər və ya arvadın ailə başçısı olması ilə bağlı baxışlar bir qədər dəyişir. Beləliklə, N.V.Lyaxoviçə görə (1999), gənclər hesab edirlər ki, ya ər ailənin başçısı olmalıdır (cavabların 35%-i), ya da bərabər başçılıq (biarxiya) olmalıdır (65% cavablar). Eyni tendensiya qızların cavablarında da müşahidə olunur (ər — 23%, biarxiya - 73%) , 4% fərqlə qadını ailə başçısı adlandırdı.

Evlənənlər arasında ailə başçısını kişiyə verənlər də azdır. Respondentlər. T. A. Gurkoya (1996) görə bunu bəylərin 18%-i, gəlinlərin 9%-i edirdi. Kişilər arasında patriarxal baxışları əsasən (təxminən 40%) kənddən olan, yalnız orta təhsilli insanlar tutur. Rusiyada aparılan araşdırmalara görə, qadınların 15%-dən 30%-ə qədəri 30 yaşdan yuxarı olanlar özlərini ailə başçısı elan edir, ərlərinin isə yalnız 2-4%-i və yetkin uşaqların 7%-i bunu etiraf edir. Bu cavablar davam edən mərhələli keçidi əks etdirir.

Bu cavablar yalnız kişinin rəhbəri olduğu patriarxal tipli ailə quruluşundan qadın və kişilərin hüquqi və iqtisadi bərabərliyinə əsaslanan demokratik tipə keçidi göstərir (4).

Buna baxmayaraq bir çox ailələrdə ailə başçısı rolunu hələ kişilər yerinə yetirir. Çox vaxt da bu rol formal xarakter daşıyır. Elə ailələr də var ki, başçı arvaddır. Ailədə qərar qəbul etmək ər və ya arvad üçün başçılığın obyektiv meyarı ola bilər.

T. A. Gurko (1996) hesab edir ki, hazırda praktiki olaraq ailə həyatının bütün sahələrində ərdən daha çox arvad qərar verir. Lakin digər tədqiqatçılar (1987) müəyyən edilmişdir ki, ər və ya arvadın həlledici səsə sahib olması ailənin tipindən asılıdır.

Cədvəl 1. Ailədə qərarların qəbul olunması (% -hallarda)

| Qərar qəbul etmə sahəsi | Eqalitar ailə | Ənənəvi ailə |
|---|---|---|
| **Maliyyə:** | | |
| Ər | 1 | 2 |
| Arvad | 43 | 66 |
| Hər ikisi | 56 | 31 |
| **Ev təsərrüfatı:** | | |
| Ər | 3 | 1 |
| Arvad | 26 | 63 |
| Hər ikisi | 71 | 36 |
| **Asudə:** | | |
| Ər | 11 | 4 |
| Arvad | 29 | 44 |
| Hər ikisi | 60 | 52 |

Cədvəldəki məlumatlardan göründüyü kimi, eqalitar ailələrdə həyat sahəsindən asılı olmayaraq, qərarlar daha çox ər və arvad tərəfindən birgə qəbul edilir. Ənənəvi ailələrdə bu, yalnız istirahətə aiddir. Maliyyə və iqtisadi sahələrdə, çox vaxt qərar arvad tərəfindən verilir. Oxşar məlumatlar xarici tədqiqatçılar tərəfindən də əldə edilmişdir: ailə gəlirlərinin bölgüsü çox vaxt arvad, daha az - başçılıq növündən asılı olmayaraq əri ilə birlikdə yerinə yetirilir (N. Gunter, B. Günter, 1990).

Arvad başçılığı özünə aid etdiyi hallarda, o, ərinin xüsusiyyətlərini digər başçılıq növlərindən xeyli aşağı və təbii olaraq keyfiyyətlərindən daha çox aşağı qiymətləndirir.

Reytinqlərdəki bu azalma bütün şəxsi keyfiyyətlərdə müşahidə olunur, lakin ərin şəxsiyyətinin iradi və intellektual xüsusiyyətlərinin, habelə onun münasibətini xarakterizə edən keyfiyyətlərin qiymətləndirilməsində xüsusilə aydın şəkildə ifadə edilir.

Kişilər arvadının başçılığını ona görə tanıyırlar ki, onda kişiyə xas olan keyfiyyətlərin, yəni güclü iradəli və işgüzar keyfiyyətlərin varlığını görürlər. Ərin üstünlüyünün tanninması, onun işgüzar, iradəli və intellektual keyfiyyətlərini yüksək qiymətləndirən qadınlarla əlaqələndirilir. Kişilər öz dominantlıqlarını özlərinin ailə-məişət keyfiyyətlərinin yüksək olması, həyat yoldaşının işgüzar, intellektual və iradəli keyfiyyətlərinin aşağı olması ilə əlaqələndirirlər. Eyni zamanda bunlara inanırlar ki, keyfiyyətlər arvad üçün vacib deyil, ona görə də onlara aşağı qiymət verərək, ərlər arvadlarının ləyaqətini alçaltmağa çalışmırlar.

Eyni zamanda, ər və ya arvadın ailə başçısı kimi tanınması heç də o demək deyildir ki, bütün inzibati funksiyalar onların əlində cəmləşmişdir. Əslində, ər-arvad arasında funksiya bölgüsü var idi. Ailənin maddi dəstəyi başçılığın bütün növləri üçün ərin aparıcı rolu kimi tanınır, ancaq bu o zaman özünü göstərir ki, ər və arvadın qazancı arasında uyğunsuzluq böyük olsun. Ərin başçılığı ailədə onun təhsil səviyyəsindəki üstünlüyü, ictimai fəallığı, peşəsindən məmnunluğu ilə əlaqələndirilir. Əgər arvadın təhsil səviyyəsi və ictimai fəallıq daha yüksəkdirsə, o, ailədə üstünlük təşkil edir.

I.V.Grebennikov (1991) ailə rollarının bölüşdürülməsinin üç növünü müəyyən edir:

1.Mərkəzçi (və ya avtoritar) - ailədə əsas məsələləri həll edən həyat yoldaşlarından biri tərəfindən idarə olunur.

2.Avtonom - ər və arvad bir-birinə rollar təyin edir və bir-birinin təsir dairəsinə müdaxilə etməməyə çalışırlar.

3.Demokratik - ailə idarəçiliyi hər ikisinin, ər-arvadın üzərində bərabərdir.

Əgər ər-arvadın hər ikisi özünü başçı kimi aparırsa, ən başlıcası bir-birilərinin nüfuzlarını qəbul etmirlərsə, ailədə istər-istəməz münaqişə şəraiti yaranır. Atalar bu mənada deyiblər: iki qoçun  başı bir qazanda qaynamaz, Bununla belə qeyd edək ki,ailə başçısı dinamik roldur və bu hal müxtəlif aillərin təsiri ilə dəyişilir. B ir qayda olaraq, ailə başçısının mənfi keyfiyyətləri onunn mövqeyi zəifləməsi ilə nəticələnir. Sərxoşluq edən, uşaqlarının tərbiyəsi ilə maraqlanmayan, yalnız özünü dfüşünən, özü üçün yaşayan, ailənihn dərdi-sərini bilməyən ata ailə başçısı kimi öz nüfuzunu asanlıla itirir. Əlbətə , bu halda ailə başçısı funksiyasını ana öz öhdəsinə götürür (1, s. 153).

Nəhayət qeyd etmək lazımdır ki, liderliyin başqa modelləri də mövcuddur: liderlik ərin və ya arvadın deyil, atanın və qızın, ananın və oğulun, qayınananın və qayınatanın əlində ola bilər.

ƏDƏBİYYAT

1.Əfəndiyeva, Ü. A. Əsrin gender konsepsiysı. Dərs vəsaiti. Bakı: ADPU, - 2017.

2.Əlizadə, Ə.Ə., Abbasov A. N. Ailə. Bakı: “Maarif”, - 1989.

3.Çələbiyev, N.Z., Əfəndiyeva Ü.A. Ailə və gender psixologiyası. Dərs vəsaiti. Bakı: ADPU, - 2021.
4. Ильин, Е.П. Психология общения и межличностых отношений. Питер: СПб., - 2009.

**Ülviyyə ƏFƏNDİYEVA**
***psixologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının dosenti***
**E-mail: ulviyya16@ yandex.com**

## SİYASİİ LİDERİN PSİXOLOJİ PORTRETİ

*Açar sözlər:* siyasi lider, psixoloji portret, şəxsi keyfiyyələr

Siyasi liderliyin psixologiyasının tədqiqi məsələsi ən qədim və eyni zamanda müasir tədqiqat sahəsidir. Siyasi liderliyin öyrənilməsində onun motivlərinin, mənəvi və intellektual aspektlərinin, mənəvi dəyərlərinin və ən əsas strategiyasının təhlil edilməsi böyük əhəmiyyət kəsb edir. Tarixdə şəxsiyyətin rolundan danışarkən iki cəhəti nəzərə almaq lazımdır. Birincisi, şərait və onun tələbini, ikincisi, şəxsiyyəti və onun şəxsi keyfiyyətlərini.

Hər bir siyasi liderin yaşadığı zaman və məkan, siyasi şərait, milli stereotiplər, adət-ənənələr amal və məqsəd onun formalaşmasına təsir göstərir ki, bu da bir elmin hüdudlarından kənara çıxır. Bu o deməkdir ki, hər bir siyasi lider öz zəmanəsinin və xalqının milli cəhətlərinin, ümumi dünyagörüşünün, mənəvi sərvətlərinin daşıyıcısı olur. Bununla yanaşı hər bir siyasi və etnik cəmiyyətdə siyasi liderin şəxsiyyət xüsusiyyətləri və psixoloji keyfiyyətləri digər cəmiyyətə köçürülə bilməz. Ayrıca götürülmüş faktlar da bunu təsdiqləyir. Elə tarixi şəxsiyyətlər vardır ki, onların siyasi fəaliyyəti və psixoloji xarakteristikası yalnız milli, konkret şovinist şəraitlə bağlıdır və nəticə etibarilə onların fəaliyyəti müəyyən zaman və məkanla məhdudlaşır, eyni zamanda onların fəaliyyəti tənqid obyektinə çevrilir, unudulur və nəhayət xalqın gözündən düşürlər. Onlar ümummilli liderə çevrilə bilmirlər. Həmçinin siyasi liderlərin fəaliyyətində, siyasi iradəsində elə fenomenal məqamlar özünü göstərir ki, onların fəaliyyəti və siyasi təfəkkürü ayrı-ayrı xalqlar, siyasi liderlər üçün əsas olur, nümunəyə çevrilirlər.

Siyasi liderin psixoloji keyfiyyətlərini qiymətləndirərkən və onun psixoloji portretini yaratmağa cəhd göstərərkən hər bir halda, onun siyasi fəaliyyətini, həmin fəaliyyətin nəticələrini təhlil etmək gərəkdir. Məhz siyasi davranış, fəaliyyətin məqsədəmüvafiqliyi, müxtəlif situasiyalarda özünü

göstərən qərar qəbulu bizə siyasi liderin psixoloji portretini yaratmağa imkan verir.

Məlumdur ki, siyasi liderin psixoloji portretini yaradarkən, onun şəxsiyyət keyfiyyətlərini ön plana çəkmək zəruridir. Xüsusən də şəxsiyyətin özünə münasibəti, öz "Mən" ini dərk etməsi, özünün milli identifikasiyası, özünüqiymətləndirməsi çox vacib cəhətlərdən biridir. Hər bir halda siyasi liderin adekvat özünüqiymətləndirməyə malik olması onun mühüm inteqrativ keyfiyyətlərindən biridir. Adekvat özünüqiymətləndirməyə malik siyasi liderlər siyasi arenada öz rəqiblərinə gözəl nümunə olur, öz davranışları ilə onlarda siyasi liderin necə olması qənaətini yaradır. Onların daxili və xarici siyasəti özünüdərketdirməyə motivasiya olunmayıb, ümummilli dəyərlərin, xalqının milli mənliyinin gerçəkləşdirilməsinə yönəldilmişdir. Özünün siyasi fəaliyyətini adekvat qiymətləndirən siyasi lider digər liderlərə hörmətlə yanaşır və başqalarının da onu yüksək qiymətləndirməsinə şərait yaradır.

Müasir siyasi lider hər şeydən əvvəl, təşkilatçılıq qabiliyyəti ilə üzvi surətdə birləşən təbii intuisiyanın qeyri-adiliyidir. Komandanı formalaşdırmaq, onu möhkəmləndirmək, məqsədləri müəyyən etmək, cəmiyyət qarşısında zəruri vəzifələr qoymaq, cəmiyyəti birləşdirən proqramı yaratmaq bacarığı – siyasətçi qarşısında qoyulan müasir tələblər bunlardır. Siyasi liderin psixoloji portretinin yaradılmasında onun məsuliyyət hissinin hansı səviyyədə inkişaf etməsinə, insanları inandırmaq bacarıqlarına da xüsusi diqqət yetirmək lazımdır.

Siyasi liderin şəxsiyyətinin psixoloji çalarlarınıı ayırd etmək üçün və onu digər keyfiyyətlərlə differensiasiya etmək üçün bilavasitə ən vacib olan bir suala cavab axtarmaq lazımdır. Görəsən insanın siyasəti fəaliyyət növü kimi seçməsini nə motivləşdirir? Onu hansı qüvvələr hakimiyyətə gəlməyə təhrik edir? Tarixən formalaşmış, özündən sonra mənfi və ya müsbət irs qoyub getmiş siyasi şəxsiyyətləri təhlil edərkən bir neçə məqamı fərqləndirmək mümkündür. Bu məqamlardan birinci təhrikedici amil kimi natamamlıq kompleksi qeyd oluna bilər. Ayrı-ayrı tarixi şəxsiyyətlərin, o cümlədən Hitlerin, Stalinin şəxsiyyətində, onların fəaliyyətində, törətdikləri qeyri-bəşəri əməllərdə bu özünü aydın şəkildə biruzə verir. Ancaq bu birinci və ya sonuncu motiv deyildir.İkinci təhrikedici amil şöhrətpərəstlik xəstəliyi, cəmiyyətə özünü nümayiş etdirmək cəhdi və s. ola bilər. Bir sıra tarixi və siyasi xadimlərin fəaliyyətində və davranışında bu cəhət özünü göstərir.Üçüncü məqam, yəni üçüncü təhrikedici amil özünəinamı yüksəltmək, onu qeyri-adekvat səviyyədən çıxarmaq cəhdləri kimi təqdim edilə bilər. Dördüncü amil, pul, var-dövlət yığmaq hərisliyi və onun rəsmi şəkildə həyata keçirilməsidir. Bəzi liderlər hakimiyyətə gəldikdən sonra siyasi fəaliyyətlə məşğul olmaq əvəzinə, əksinə bundan istifadə edərək real var-dövlət yığmaq, öz varidatını artırmaqla məşğul olurlar.

Bütün qeyd etdiyimiz məqamlarda hakimiyyətə gələn siyasi liderlər və ya hakimiyyət nümayəndələri tarixdə "diktator", "korrupsion", "nasist" və s. kimi adlar ierarxiyasında özlərinə yer almışlar və təbii ki, onların siyasi fəaliyyəti ilə psixoloji keyfiyyətləri, əməlləri üst-üstə düşməmiş, çox az keçmiş tarixin və

taleyin arxivinə verilmiş, unudulmuş, bir çox hallarda isə lənətlənmişdirlər. Siyasi-psixoloji baxımdan dövlət başçısının həddən ziyadə yaradıcı keyfiyyətlərə malik olması, kreativ davranışı onun qərar qəbul etməsinə mənfi təsir göstərə bilər.

Siyasi liderin psixoloji portretini yaratmaqda mühüm bir məqam da, çox vacib olan psixoloji cəhət – riskə meyllilik xüsusi qeyd olunmalıdır. Ehtiyatlılıq və risk etməyə meyillilik inteqrativ vəhdətdə özünü göstərməlidir. Bu, çox vacib keyfiyyətlər olmaqla yanaşı, siyasi liderin iradəsinin bariz göstəricisidir.

Siyasi liderin psixoloji portretini yaratmağa cəhd edərkən, onun intellektual keyfiyyətləri, o cümlədən işgüzarlığı və iş qabiliyyəti xüsusi təhlil olunmalıdır. Psixoloji tədqiqatlar göstərir ki, insanın nitq qabiliyyəti, onun təfəkkürü ilə sıx bağlıdır. Nitqin aydınlığı, məntiqiliyi, zənginliyi öz məziyyətləri ilə fenomenal təfəkkürün göstəricisidir.

Siyasi liderin psixoloji keyfiyyətləri yalnız onun davranış tərzində, siyasi iradəsində, mühakimə qabiliyyətində özünü göstərməyib, həm də dövlət quruculuğunda, dövləti idarəetmə mexanizmində, özünün taktika və strategiyasında da göstərir.

Güclü iradəyə malik siyasi xadim isə niyyət və əməllərinin qətiliyi, siyasi mübarizə vasitələrinin seçimində yüksək müstəqilliyi ilə fərqlənir. O, qarşıya qoyulmuş məqsədə çatmaq üçün israrlı və əzmlidir. Əksinə, hətta geniş erudisiyalı və müxtəlif qabiliyyətlərə malik, lakin iradəsiz siyasətçi öz fəaliyyət sahəsində praktik olaraq az effektlidir. İnsan xüsusi, o cümlədən, son dərəcə tamahkar meyllərə əsaslanaraq güclü fərdi iradəyə malik ola bilər və siyasətdə özü üçün əhəmiyyətli qərarlar verə bilər. Lakin tarixi təcrübənin göstərdiyi kimi siyasətdə o insanlar daha çox təsir qüvvəsinə malik olublar ki, onların siyasi iradələri öz ictimai, siyasi, dini və ya digər missiyalarına fanatikcəsinə müvafiq olan ideyalarından doğub. Belə liderlərin əhaliyə təsir etməsinin başlıca amili rolunda onların öz həqiqətlərinə tərəddüd etmədən inanmaları çıxış edir. Bu isə onların ətrafında olanları, bu təntənəli sözlərin arxasında nə isə vacib, müqəddəs bir şeyin gizləndiyinə inanmağa məcbur edir. Siyasi liderin şəxsi keyfiyyətlərinin strukturu çox amillərlə, o cümlədən, yerinə yetirilən siyasi məsələlərin xarakteri ilə müvafiq olmalıdır. Siyasi portreti tərtib edərkən siyasətçinin başlanğıc keyfiyyətlərini fərqləndirmək lazımdır. Bu və ya digər xarakter cəhətinin hədsiz inkişafı onun aksentuasiyasına səbəb olur. Siyasətçinin xarakterində belə cəhətlərin olması onun şəxsiyyətinin özünəməxsusluğunu şərtləndirir və məhz bu ona ümumi fonda fərqlənməyə imkan verir.

## ƏDƏBİYYAT

1. Əliyev B.H. Siyasi liderin psixoloji portreti problemi / Müasir elm: problemlər, perspektivlər. Bakı: 2000, s.3-4.
2. Mirzəyeva S.S., Salamova K.B., Məmmədov C.H. Siyasi psixologiya. Dərslik. – Sumqayıt: 2022, 176 s.

3. Mamayeva N.Ə. Siyasi lider şəxsiyyətinin formalaşmasının sosial-psixoloji xüsusiyyətləri. Psixol.elm.nam.dis.avtoreferatı. Bakı, 2008, 18 s.

**Nuralı ÇƏLƏBİYEV**
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent,***
***Azərbaycan Dövlət Pedaqoji***
***Universitetinin Şəki filialı***
**E-mail: n_chelebiyev@mail.ru**

# PSİXOLOGİYADA LİDERLİK NƏZƏRİYYƏLƏRİ: TİPOLOJİ ASPEKT

## XÜLASƏ

Liderlik problemi XIX əsrin sonları, XX əsrin əvvəllərində sosial psixologiyada tədqiq edilən problemlərdən biri olaraq, aktuallıq kəsb etməyə başlamışdır. Xüsusilə, XX əsrin 30-cu illərində və II Dünya Müharibəsi dövründə baş verən siyasi-iqtisadi böhran dövrünün insanlarda yaratdığı kütləvi psixoz şəraitində ayrı-ayrı xalqlar, düşdükləri bu vəziyyətdən xilas olmaq yollarını axtarırdılar. Bu dövrdə psixoloqlar, filosof və sosioloqlar bu vəziyyətin həllində xilaskar insan obrazını "lider" anlayışı ilə assosiasiya edirdilər. İnsanları öz arxasınca apara biləcək bir liderin hansı keyfiyyətlərə, digər insanlardan hansı üstünlüklərə malik olmasını şərtləndirən amillərin aşkara çıxarılması sosial və humanitar elmi tədqiqatlarda aparıcı istiqamətlərdən birinə çevrilmişdir. Məhz bu dövrdə liderlik problemi ilə bağlı çoxsaylı nəzəriyyələr meydana gəldi. Onların yaradıcıları (T.Karleyl, R.Beyls, K.Levin, E.Boqardus, D.Kreç, H.Homans, A.Hari, T.Nyukom, A.Maslou, L.Bernard, V.Binham, V.Hokkinq, H.Person, A.Merfi, S.Mill, L.Maykert, H.Saymon və b.) liderliyin formalaşması şərtləri, onun funksiyaları, tipləri, liderlik üslubu üçün zəruri olan keyfiyyətlər haqqında müxtəlif nəzəriyyələr irəli sürmüşlər.

*Açar sözlər:* lider, liderlik nəzəriyyələri, lider tipləri, liderlik funksiyaları, liderlik rolu, rəhbərlik, liderlik üslubu.

XX əsrin əvvəllərində baş verən hərbi-siyasi gərginliklərin yaratdığı böyük depressiya və II Dünya Müharibəsinin yaratdığı kütləvi psixoz bəşəriyyəti bu bəlalardan xilas olmaq yollarını axtarmaq məcburiyyəti qarşısında qoyduğundan psixologiyada liderlik problemi aktuallaşmağa başlamışdır. "Lider" sözü ingilis dilində "leader" sözündən götürülmüşdür, dilimizdə "başçı", "rəhbər" mənalarında işlədilir. Psixologiyada "liderlik" dedikdə, qrupda şəxsiyyətlərarası münasibətlər sistemində dominantlıq və tabeçilik, qrup üzvlərinə təsir və izləmə nəzərdə tutulur.

Rəhbərlik və tabeçilik münasibətləri əsasında, yaradılmayan, yəni paritet, bərabər şəxsiyyətlərarası münasibətlərə əsaslanan qeyri-mütəşəkkil qruplardan fərqli olaraq, istənilən mütəşəkkil qrupda rəhbər, başçı, lider olur. O, təyin edilmiş, rəsmən seçilmiş, ya da müsbət şəxsi keyfiyyətlərinə görə qrup üzvlərinin mütləq əksəriyyəti tərəfindən nüfuzuna görə qəbul edilən və tanınan şəxsdir. Belə lider qeyri-rəsmi lider adlanır. "Liderlik" dedikdə isə, işçilərdən birinin şəxsi nüfuzunun kollektivin mütləq əksəriyyəti və ya bütün üzvləri tərəfindən qəbul edilməsi, fəaliyyət nəticəsində qrup üzvlərinin ünsiyyət və qarşılıqlı təsiri prosesində yaranan qrupun differensiasiyası üsullarından biri nəzərdə tutulur. Liderlik özünün sosial-psixoloji təbiətinə görə rəhbərlikdən fərqlənir. O, hər şeydən əvvəl qeyri-rəsmi xarakter daşıyır, qrupda şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsi funksiyasını yerinə yetirir. Rəhbərlik isə sosial qrupda rəsmi inzibati-hüquqi səlahiyyətlər, normalar əsasında tabeçilik münasibətlərinin tənzimlənməsi funksiyasının birgəfəaliyyət və birgəyaşayış şəraitində daşıyıcı rolunda çıxış edir.

XX əsrdə psixologiyada liderlik haqqında bir çox nəzəriyyələr meydana gəlmişdir. Onların sırasında "Liderlik rolları", "Liderin şəxsiyyət əlamətləri", "Liderliyin xarizmatik konsepsiyası", "Liderliyin situativ nəzəriyyəsi", "Sintez və ya kompleks" adlı nəzəriyyələri qeyd etmək olar. 1950-ci illərdə R.Beyls eksperimental yolla aşkar etdi ki, hər bir kiçik qrupda emosional və instrumental lider olmaqla 2 əsas lider tipi mövcuddur. Emosional liderin funksiyası qrupda psixoloji iqlim yaratmaqdan, şəxsiyyətlərarası münasibətləri optimal səviyyədə tənzim etməkdən ibarətdir. Bu mənada adətən o, arbitr, məsləhətçi rolunda çıxış edir. İnstrumental lider qrupun elə üzvüdür ki, o, spesifik fəaliyyət növlərində və ya sahələrində xüsusi səriştəsi əsasında təşəbbüsü ələ alır, məqsədə çatmaq üçün qrup və ya kollektivin ümumi səylərini səfərbər edir və onu əlaqələndirir.

Müasir psixologiyada liderlik problemi ilə bağlı bir çox nəzəriyyələr mövcuddur.

1. "Böyük adam" nəzəriyyəsi. Bu nəzəriyyə liderlik keyfiyyətlərinin anadangəlmə olduğunu əsas götürür. Bu nəzəriyyəyə görə insan böyük lider kimi doğulur. Onun əsası Britaniya tarixçisi və filosofu Tomas Karleyl tərəfindən qoyulmuş, XIX əsrdə məşhurluq zirvəsinə çatmışdır. T.Karleyl, Makedoniyali İsgəndər, Yuli Sezar, Maxatma Qandi, Avraham Linkolin və başqa məşhur dövlət başçılarının həyatından gətirilən nümunələrə əsaslanırdı. Bu nəzəriyyə böyük adamları Allahın davamçıları hesab edir, onları müqəddəsləşdirirdi.
2. "Situasiya nəzəriyyəsi". Bu nəzəriyyəyə görə universal lider mövcud deyil, liderlik konkret şərait, situasiya ilə şərtlənən fenomendir. Konkret şəraitdə seçilmiş liderlik üslubu, davranış və qabiliyyətlər liderliyin əsas xüsusiyyətləri kimi çıxış edir.
3. "Sələflərin təyinedici rolu" nəzəriyyəsi. Bu nəzəriyyəyə görə, uğurlu liderliyin əsasında həmişə insanın özündən əvvəlki liderlərin təcrübəsi, nümunəsi və töhfələri durur.

4. “Şəxsiyyət əlamətləri nəzəriyyəsi”. Bu nəzəriyyə öz mahiyyətinə görə, “Böyük adam nəzəriyyəsi”nə yaxındır. Belə ki, hər iki nəzəriyyə liderin təbii, anadangəlmə şəxsiyyət keyfiyyətlərini önə çəkir və qeyd edilir ki, bütün liderlər üçün şəxsiyyətin xüsusiyyətləri və davranış xarakteristikaları oxşarlıq təşkil edir.
5. “Biheviouristik nəzəriyyə”. “Böyük adam” və “Şəxsiyyət əlamətləri” nəzəriyyələrindən fərqli olaraq, liderliyin biheviorial nəzəriyyəsi belə bir arqumenti irəli sürür ki, böyük liderlər doğulmurlar, əksinə həyatda formalaşırlar. Liderliyi müşahidə və xüsusi vərdişlər qazanmaq yolu ilə öyrənmək olar.
6. “Transformasiya nəzəriyyəsi” həm də “Liderlər və onun ardıcılları arasında qarşılıqlı münasibətlər” nəzəriyyəsi də adlanır. Bu nəzəriyyəyə görə, liderin vəzifəsi ondan ibarətdir ki, onun davamçıları seçilmiş strategiya və taktikanın doğruluğunu başa düşüb qəbul etsinlər. Bunun üçün insanları ilhamlandırmaq və motivasiya yaratmaq lazımdır. Bu nəzəriyyə liderin şəxsiyyətində yüksək əxlaqi-etik keyfiyyətlərinin vacibliyini önə çəkir.
7. “Transaksion və ya idarəetmə nəzəriyyəsi” insanların lider ətrafında səfərbər olunmasında dəqiq təşkilati komponenti və nəzarətin rolunu əsas götürür. Bu tip liderlik mükafatlandırma və cəzalandırma sisteminə əsaslanır. Adətən belə liderlik əmək kollektivlərinin idarə edilməsində keçərli hesab olunur.
8. Ziqmund Freydin psixoanalitik nəzəriyyəsi. Z.Freydin qənaətinə görə, bizim yuxularımızın məzmunu istək və arzularımızın reallaşması ilə bağlıdır. Yuxular sanki bizim şüursuz fikirlərimizi, motiv və cəhdlərimizi əks etdirir.
9. “Liderliyin humanistik nəzəriyyəsi”nin nümayəndələri (C.Març, H.Kelli, H.Saymon, C.Homans) belə bir müddəadan çıxış edirlər ki, hər bir sosial qrupda qarşılıqlı təsir qrup üzvlərinin hər biri özü üçün faydalı nəticə əldə edənədək davam edir. İctimai münasibətlər şəraitində yalnız real, maddi deyil, həm də psixoloji rifah axtarışı baş verir. Belə ki, qrup üzvlərinin seçdikləri liderlərdən gözləntiləri var. Ona xüsusi status ona görə verilir ki, məqsədə nail olduqdan sonra o, qrupun ona etimat etmiş hər bir üzvünə diqqət və qayğı göstərsin.
10. “Liderliyin motivasiya nəzəriyyəsi” adlanan nəzəriyyə (V.Stauno, D.Şlezinger, C.Ştern, C.Atkinson, A.Maslou) liderlikdə hakimiyyət motivinin rolunu önə çəkir. Hakimiyyət, nüfuz, özünü gerçəkləşdirmə üçün liderlik bir fürsətdir. Məsələn, seçkilərə güclü motivasiya ilə qoşulmuş namizəd qalib gəlmək üçün az şansı olsa belə, öz qələbəsinə kor-koranə inanır. O, dərk etdikdə ki, onun qalib gəlmə ehtimalı və ciddi sosial bazası var, motivasiya daha da güclənir.
11. “X” və “Y” nəzəriyyəsi. “X” nəzəriyyəsinə görə, insanlar işləmək istəmədikdə, hər vasitə ilə işdən boyun qaçıqmağa çalışdıqda, təşəbbüskar olmadıqda, məsuliyyətdən yayındıqda, məsuliyyət rəhbərin üzərinə qoyulur.Tabelikdəki insanlar isə daha çox müdafiə olunmaq mövqeyi tuturlar. İnsanları işləməyə məcbur etmək üçün təhdid, qorxutma və digər

cəza növlərindən istifadə etmək lazımdır. "Y" nəzəriyyəsinə görə, əmək təbii prosesdir. Əgər iş şəraiti əlverişlidirsə, insanlar nəinki öz üzərlərinə məsuliyyət götürür, həm də buna könüllü qoşulurlar. Əgər insanlar kollektivin həyatında təşkilati işlərdə iştirak edirlərsə, özləri öz üzərlərində nəzarət və özünüidarəetməni təmin edirlər. Belə halda məqsədə çatmaq üçün mükafatlandırma ən əlverişli metoddur. Bu cür kollektivlərdə problemin yaradıcı həll yoluna daha çox təsadüf olunur.

Müasir dövrdə liderlik fenomeni əsasən siyasi psixologiyada daha çox tədqiq edilən problemlərdən biri və həm də ən aktual olanıdır. Məhz bu problemlə bağlı tədqiqatların əsas massivi, konsepsiya və nəzəri ümumiləşdirmə təşəbbüsləri toplanmışdır. XIX əsrdə meydana gələn liderlik nəzəriyyələri əsasən təsviri faktlar üzərində qurulmuşdu, elmi təhlil və məntiqi ümumiləşdirmələrə əsaslanmırdı.

XX əsrin 80-cı illərindən etibarən, liderlik fenomeninə yanaşmada yeni təmayüllər yaranmağa başlamışdır. Bunlardan biri "Mühit nəzəriyyəsi" adlanan təlimdir. Onun yaradıcıları (E.Boqardus, V.Xokkinq, H.Person, S.Şarte, C.Şneyder, A.Merfi) qeyd edirdilər ki, "liderlik" mühitlə, ətraf aləmlə, yəni, müəyyən zaman, yer, şərait və mədəniyyətlə şərtlənmiş fenomendir. Bu yanaşmanın tərəfdarları israr edirlər ki, insanlar arasındakı fərqlər, onların davranışı mühit amilləri ilə şərtlənir. Yəni, liderləri də mühit yetişdirir. E.Boqardus qeyd edirdi ki, qrupda liderliyin tipi hər şeydən əvvəl qrupun sosial-psixoloji təbiətindən, həll etməli olduğu problemin mahiyyətindən və çətinlik dərəcəsindən asılıdır. V.Xokkinq isə bildirirdi ki, liderlik qrupun funksiyasıdır və qrup liderə ehtiyac hiss etdiyi məqamda o, ortaya çıxır. Psixologiya elminin siyasi psixologiya, etnopsixologiya, şəxsiyyət və fəaliyyət psixologiyası və s. kimi sahələri liderlik problemini müxtəlif aspektlərdən tədqiq edir. Məsələn, siyasi psixologiyada "siyasi lider", etnik psixologiyada isə "milli lider" tipləri, onları səciyyələndirən əsas xarakter əlamətlərinə daha geniş yer verilir.

Liderlik – başqalarını öz ətrafında birləşdirmək, məqsədə nail olmaq üçün onları motivasiya etməkdə təzahür edən ictimai təsir formasıdır. Tarixdə lider kimi tanınan bir çoxları – siyasətçilər, sərkərdələr və ictimai xadimlər insanları öz ətrafında səfərbər edərək həyat tərzini dəyişməyə nail olmuşlar. Lakin lider olmaq üçün heç də dövlət xadimi, siyasətçi və ya sərkərdə olmaq zəruri deyil. Kiçik məsuliyyət zonasında, kollektivdə, qonşuluqda və ya maraq əsasında birləşən insan toplumunda və s. lider olmaq mümkündür.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri. B., Azərnəşr, 1986.
2. Джамтаров Т.Т., Румянцева В.И. Лидерство в спорте. М., «Физкультура и спорт», 1983.

3. Краткий психологический словарь /сост. Л.А.Карненко. / Под общ. ред. А.В.Петровского, М.Г.Ярашевского. М:, Политиздат, 1985.
4. Общая психология./Под.ред. В.В.Богословского, А.Г.Ковалева, А.А.Стенапова. М., Просвещение, 1981.
5. Петровский В.А., Шпалинский В.В. Социальная психология коллектива. М., Просвещение, 1978.
6. Платонов К.К., Голубев Г.Г. Психология. М., «Высщая школа», 1973.
7. Флиппов А.В., Липинский В.К., Князев В.Н. Производственная социология, психология и педагогика. М., «Васшая школа», 1989.
8. hhps://studfile.net/preview/3850392
9. https://psyera.ru/5434/tipologiya-liderstva
10. http://hrhelpline.ru/vidy-liderstva/

**Şakir ƏLİYEV**
***Texnika üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Texnologiya Universitetinin***
***Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının dosenti,***
**Gülnarə ƏLİYEVA**
***Azərbaycan Texnologiya Universitetinin***
***Yüngül sənaye mühəndisliyi və dizayn***
***kafedrasının baş müəllimi***
**Radə ƏSGƏROVA**
***Azərbaycan Texnologiya Universitetinin***
***Yüngül sənaye mühəndisliyi və dizayn***
***kafedrasının müəllimi***
**E-mail: shakir.eliyev@uteca.edu.az**

## PARÇALARDA ORNAMENTAL KOMPOZİSİYALARIN MÜASİR ÜSLUBDA TƏTBİQİ (SOSİAL-PSİXOLOJİ ASPEKT)

*Açar sözlər:* bədii parça, ornamental, kompozisiya, motivlər, dekorasiya, nəbati, folklor, naxış.

Parçaların bəzədilməsi sənəti qədim zamanlarda əmələ gəlib. İnsan istifadə etdiyi geyimi gözəl və yaraşıqlı etmək ehtiyacını kifayət qədər erkən vaxtlardan hiss etmişdir. Toxunma dəzgahı peyda olandan sonra isə insanın bədii fəaliyyəti parçaların üzərində ornamental rəsmlərin yaradılması istiqamətində inkişaf etməyə başlamışdır, məhz bu zaman tekstil ornamenti adı ilə tanınan dekorativ – tətbiqi sənətin bir növü peyda olmuşdur.

Ornament parça və ya digər əşyanın səthini sadəcə olaraq bəzəmir, seyrçilərin diqqətini onun hər hansı detalı üzərində cəmləşdirmir, həm də tətbiqi sənət əsərlərinin bədii obrazlı məzmununu əhəmiyyətli dərəcədə zənginləşdirir və daha sonra ornament obyektiv gərçəkliyin real formaları və əşyalarını şərti səthi ornamental təsvirlərdə ifadə etdirmək kimi nadir və qeyri adi bir xüsusiyyətə malikdir.

Azərbaycan mədəniyyəti dünyanın ən qədim beşiklərindən biridir. Bu baxımdan Azərbaycan Azərbaycanın zəngin mədəniyyəti ən azı özü qədər qədimdir.Xocalı abidələri hələ qədimdəm burada zəngin geyim mədəniyyətinin, həmçinin bu geyimlərin hazırlanmasında müstəsna rola malik nəfis parçaların mövcudluğundan xəbər verir. Bunu dünya muzeylərində maddi mədəniyyət nümunələri və arxeoloji dəlillər sübuta yetirir. Xalq yaradıcılığının məhsulu olan bədii parçalar cəmiyyətin mədəni inkişaf mərhələləri, xalqın xarakteri, tarixini əks etdirir.

XII – XV yüzilliklərdə Azərbaycanda mövcud olan sənətlər içərisində toxuculuq sənəti xüsusi ilə geniş inkişaf etmişdir. Bu qədim köklərə dayanan sənət sahələrindən biri də bədii parça mədəniyyətidir.

XIII yüzilliyin əvvəllərində yazılmış “Əcaib dünya” adlı coğrafi əsərdə bu dövrlərdə Azərbaycan şəhərlərində istehsal olunan parçalar haqqında maraqlı qeydlər vardır. Məlumdur ki, Gəncədə vəzlə işlənmiş atlar, kişilər üçün əva, Beyləqanda ipək parça, Ərdəbildə qara rəngli zərif parça, Səlmaz və Xoyda diva, nazik kətandan paltar, Bərdədə ipək və s. istehsal olunurdu. Gəncədə ipək mallar istehsalı o dərəcədə inkişaf etmişdir ki, moqolların hücumu zamanı şəhərin əhalisi qiymətli parçalar müqabilində özlərini bu basqından xilas edə bilmişlər.

1940 – cı illərdə Nizami Gəncəvinin qəbrində aparılmış qazıntı işləri zamanı tapılmış parça tikələri həmin dövrdə istehsal edilmiş parçaların keyfiyyəti haqqında az da olsa təsəvvür yaradır. Zərif və öz dövrünə görə çox yüksək texniki səviyyədə toxunmuş bu ipək tikələrində bəzəkləri xatırladan həndəsi və stilizə edilmiş nəbati ornamentlər vardır. Parça üzərindəki ornamentlər bu dövrdə Gəncədə, Örənqalada və s. yerlərdə istehsal olunan keramika bəzəklərini yada salır.

XIII yüzilliyin ikinci yarısında Azərbaycanda olmuş səyyahı Marko Polonun Təbriz şəhərində istehsal olunan qızıl, gümüş saplarla toxunmuş parçalar haqqında maraqlı qeydləri vardır. Yazılanların birində o Azərbaycan ipəyi haqqında belə demişdir: “Burada ipək parçalar o qədər çoxdur ki, hətta yol üstündəki kiçik mehmanxanadakı çarpayıların üstü də ipəklərlə bəzənib”

Bir qədər sonra Azərbaycana Ağqoyunlu şahı Uzun Həsənin hüzuruna gəlmiş Venesiya diplomatları Yosib Barbara və Katerina Zeno da buna bənzər başqa bir faktı belə təsdiq edirlər: “Bu ölkədə hətta atların çulları da ipəkdəndir”. Onlar buna təəccübləndiklərini ifadə edirdilər.

Azərbaycanın qədim şəhərlərindən olan Şamaxı XIV yüzillikdən başlayaraq ipəkçilik sənəti mərkəzlərindən birinə çevrilir.

1403 – cü ildə Səmərqənddə Ryu Qonzales De Klavixo yol üstü Azərbaycanda olarkən Şamaxı ipəyi haqqında maraqlı qeydlər etmişdir. Onun dediyinə görə, hələ o illərdə Şamaxı ipəyi bir çox qərb və şərq ölkəsində məşhur olmuş, hətta venesiya və Genuya tacirləri buraya ipək almağa gəlmişlər.

Dekorativ tətbiqi sənətimizin başqa örnəklərindən olduğu kimi, bu dövrün parçalarında da uzaq Şərq mədəniyyətinə xas bir çox bəzək nümunəsinin üstün tutulduğunu görürük.

XVI əsr Azərbaycanın parça tarixində ən zəngin dövr sayılır. Səfəvilərin adı ilə bağlı olan bu dövrdə Azərbaycanda əsl mənada bədii parça istehsalı sənayesi təşkil olunmuşdur.

Hazırda Moskva, Sankt Peterburq, Bakı, həmçinin dünyanın bir çox məşhur muzeylərində o zaman Təbrizdə, Ərdəbildə, Şamaxıda, Gəncədə və Azərbaycanın başqa şəhərlərində hazırlanmış ipək parçaların qırmızı, yaşıl məxmərin, zərli və gümüş saplarla toxunmuş tirmə parçaların çoxlu nümunəsi saxlanılır.

Vaxtı ilə yüksək qiymətləndirilən bu gözəl sənət nümunələrinə Venetsiya, Genuya, Hollandiya, Fransa, İngiltərə və Rusiyada həmişə böyük tələbat olmuşdur.

Məşhur rus alimi B.Denike “Şərq sənəti” adlı kitabında yazır ki, qızılbaş məxməri və zərbaf malları bu dövrdə Rusiya şəhərlərində alıcılar arasında çox geniş yayılmışdır.

Rusların Azərbaycan parçaları ilə ilk tanışlığına biz hələ IX – XII əsrlərin yazılı məxəyzlərində rast gəlirik. Samaxıya, Təbrizə gəlmiş rus tacirləri hələ o vaxt bu parçaların gözəlliyinə heyran qalmışdılar. Moskvada, Kremlin silah palatasının arxivində Azərbaycandan alınan parçalar haqqında çox maraqlı yazılı mənbələr vardır. Həmin mənbələrdə 1663 – cü ildə Rusiyada ilk dəfə geniş miqyasda Demidov başda olmaqla Şamaxıya və Təbrizə yüksək məbləğdə parça almağa göndərilən ekspedisiyadan habelə 1667 – ci ildə Şamaxı ipəyindən rus çarı Aleksey Alekseyeviç Romanov üçün paltar tikilməsindən bəhs edilir.

Rus alimi Svirin o zamanki Azərbaycan parçalarının rus ornamentinə, divar rəsminə, ikonası və xüsusi parçalarına böyük təsir göstərdiyini qeyd etmişdir.

Qərbi Avropa ölkələri arasında Azərbaycan ipəyi ən çox İtaliyada məşhur idi. Bu dövrlərdə Azərbaycan parçalarının belə geniş şöhrət qazanmasına səbəb təkcə onların gözəl toxunuşunda və ya davamlı olmasında deyildi. Bu parçaların qiymətli cəhəti bir ondan ibarətdir ki, milli naxışla bəzənir və çox vaxt daha gözəl görünmək üçün həmin naxışların arasında klassik şairlərin əsərlərindən alınmış obrazlar təsvir edilirdi. Parçaya xas olan xüsusi şərti qaydalarla verilən həmin təsvirlərin əksəriyyəti Azərbaycanın bu dövrdəki miniatür sənətini xatırladır. Məşhur fransız sənətşünası Q.Mijon “Müsəlman incəsənəti” kitabında bu parçaların gözəlliyinə məftun olduğunu etiraf edərək oradakı bəzəkləri belə qiymətləndirmişdir: Onlar elə bil, “Min bir gecə” nağıllarına çəkilmiş illüstrasiyadır.

XVI – XVII əsrlərdə Azərbaycan parçaları içərisində ən görkəmli yerli saray emalatxanalarında toxunmuş "Ali və Zərli" adlı parçalar toxunduğu üçün dünya bazarlarında baha qiymətə satılır, çox vaxt isə qızıla bərabər tutulurdu. Bu çür parçaların tərkibinin 15 faizi xalis qızıl olurdu. Belə toxunma parçaların saplarını, adətən, adi toxucular deyil, zərgərlər hazırlayırdılar.

Qızıl və gümüş saplar belə hazırlanır: adi qızıl və ya gümüş parçasının zindan üstünə qoyub nazik vərəqə çevirilənədək döyüş və bu vərəqələri qıyıqvari metal alətin deşiyindən keçəcək ölçüdə süni sim halına salırdılar.

Bu dövrdə istehsal olunmuş Azərbaycan parçalarının bədii keyfiyyətlərinə nəzəe salsaq, onların bir çox xüsusiyyətinə İran, Hind, Türk parçalarında da rast gəlirik. Bu həm Azərbaycan ustalarının toxuculuq sənəti sahəsində Şərqdə tutduğu mövqedən, həm də onların bir çox ölkədə çalışdıqlarından irəli gəlirdi.

XVI – XVII əsrlərdə Azərbaycanda olmuş əcnəbi səyyahlar (Koruelide, Bryuin, Şarden, Övliya Çələbi və s.) bu dövrün toxucu dəzgahları, cəhrə, iy və s. haqqında da qeydlər etmişlər.

Həmin qeydlərdən məlum olur ki, yerli sənətkarların ayaqla işlədilən toxucu dəzgahları, yun, kətan, ipək saplar üçün xüsusi iyləri, qayçı, bıçaq və s. alətləri olmuşdur.

Azərbaycan parçalarını bəzəyən ornament və rəsmlər onların ən qiymətli cəhətidir. Azərbaycan parçaları öz bədii tərtibatına görə 3 böyük qrupa bölünür: müxtəlif dini sözlər və yaxud Şərq klassiklərinin rübailəri ilə bəzədilmiş parçalar, ornamental və süjetli parçalar.

Keçmişdə başqa sənət nümunələri kimi, parça da həyat və məişətdə sırf əməli əhəmiyyətə malik olmaqla bərabər, həm də üzərindəki söz və rəsmləri ilə təblig edərək, ideoloji rol oynamışdır.

Azərbaycan ərazisində tapılmış ən qədim yazılı parça nümunəsi XV – XVI əsrin əvvəllərinə aiddir. 1936 – cı ildə Bakıda Şirvanşahlar sarayında aparılmış qazıntı zamanı köhnə qəbirlərin birində kəfən yerinə istifadə olunmuş yazılı ipək parça tapılmışdır, bu fars dilində yazılmış şeirdir.

Azərbaycan parçalarının ən qiymətli vəziyyəti süjetli parçalarda əks etdirilmişdir. Parçanı insan, quş təsvirləri ilə bəzəmək Azərbaycanda ta qədimdən məlum idi, lakin XVI – XVII əsrlərdə belə sərgili təsvirlər ən yüksək inkişaf səviyyəsinə çatır. Əvvəllər parçaların üzərindəki rəsmlər nisbətən yeksənək və sərt olduğu halda, XVI – XVII əsrlərə aid parçalarda biz bunun əksini görürük. Bu dövrün parçalarındakı rəsmlər, adətən lirik əhvali – ruhiyyə ifadə edir, hətta müharibə və ov səhnələrini təsvir edən parçalar da lirik sərgidə olurdu.

XVI əsrdə Təbrizdə toxunmuş bu bədii məxmər parça vaxtı ilə dəbdəbəli bir çətirin yuxarı örtüyünü təşkil edirmiş.

XVI – XVII əsrlərdə toxunmuş bədii parçaların dövrün miniatür təsiri altında yaranmasını Londonun Viktoriya və Albert muzeyində nümayiş etdirilən iki parça nümunəsi də təsdiq edir.

Azərbaycanın bədii parçaları içərisində Moskvada kremlin silah palatasında saxlanılan parçalarımız da görkəmli yer tutur. Bunlardan rus çarı Boris Qodunovun taxtının örtüyünü, Mixail Fyodoroviç Romanovun baş geyiminin içərisindəki Şamaxı ipəyini və şahzadə İvan İvanoviçin xəzinəsindən götürülmüş və indi sərgidə nümayiş etdirilən üst geyiminin parçasını göstərmək olar. Parça 1910 – cu ildə Münxendə açılmış "Müsəlman incəsənəti" sərgisində nümayiş etdirilmiş və yüksək qiymət almışdır. Parça üzərində icra olunmuş rəsmlər ardıcıl olaraq bir neçə dəfə təkrar olunan orijinal bir süjeti təsvir edir.

Kremlin silah palatasında saxlanılan bədii parçanın tarixi haqda heç bir məlumat olmamasına baxmayaraq, onun XVI əsrdə Azərbaycanda yaranmasını təsdiq edən çoxlu dəlillər vardır. Belə dəlillərdən biri parçada təsvir olunan qəhrəmanın baş geyimidir. Tarixdən məlumdur ki, XVI əsrdə Azərbaycanlıları "qızılbaşlar" adlandırırdılar, çünki onlar başlarına təpəsi nazik və hündür, qırmızı papaq qoyub, onun da ətrafına sarıq dolayırdılar. Zadəganlar əmmamənin üstündən 12 imama işarə olaraq 12 zərli xətlər çəkdirərdilər.

Adları çəkilən bəzəklər XVI – XVII əsrlərdə parçada əsasən üç üsulla icra olunurdu. Birinci üsulla istənilən bəzək və rəsmlər parça ilə birlikdə toxunaraq, onun ayrılmaz hissəsini təşkil edirdi. İkinci üsulla bəzəklər hazır parça üzərinə tikilirdi. Üçüncü isə basma vasitəsi ilə həkk olunurdu.

XVII əsrdən başlayaraq Azərbaycanda toxunan parçalarda Qərbi Avropa naxışları ünsürlərinə də rast gəlirik. Bu dövrdə müxtəlif məzmuna malik süjetli parça naxışları bütünlüklə sıradan çıxır, nəbati və həndəsi formalı naxışlarla əvəz olunurdu.

Respublikamızın muzeylərində XVIII – XIX əsrlərin yadigarı olan bir sıra qəliblərə basma naxışlı parçalar qalmaqdadır. Hələ XVII əsrin əvvəllərində Azərbaycanın bir çox şəhərində olmuş məşhur türk səyyahı və diplomatı Ovliya Çələbi bu yerlərdə yüksək keyfiyyətli basma parçaların istehsal olunduğunu və satılmaq üçün xarici ölkələrə göndərildiyini qeyd etmişdir.

Hazırda Bakı muzeylərində Azərbaycan sənətkarları tərəfindən XVIII əsrdə hazırlanmış bir neçə bədii parçalar saxlanılmaqdadır. Usta Hacı Məhəmməd tərəfindən hazırlanmış iki qələmkarnamazlıq hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində, Şuşa sənətkarları tərəfindən hazırlanmış bir orijinal köynək isə Nizami adına Azərbaycan ədəbiyyatı Tarixi Muzeyindədir.

Bazar iqtisadiyyatı dövründə əhalinin yeni geyim modellərinə, yəni ornamentli parçalara və digər məmulatlara olan tələbatının öyrənilməsinin mühüm əhəmiyyəti vardır.

Toxunma parça ornamentləri həmişə tətbiqi dekorativ incəsənətin qanunlarına və dövrün tələbinə uyğun formalaşmış, bu incəsənətin səviyyəsi stilistik cizgilərini özündə əks etdirməkdədir.

Toxucu – rəssam parçanın üzərində rəsmlərin tərtib edilməsi üçün ilk növbədə müasir insanların obrazını estetik cəhətdən nəzərə almalıdır. Bununla belə parçadan hazırlanmış məmulatlar insanın normal funksiyasını, onun xarici görünüşünü də nəzərə almalıdır.

Müasir dövrdə parça və məmulatların bədii cəhətdən tərtib edilməsi yeni toxunma parça liflərin və materialların aşkar edilməsinə gətirib çıxarır. Bununla əlaqədar olaraq yeni parça materialların tərtib edilməsinə tələblər verilməlidir. Toxunan parça rəsmlərin estetik qiyməti ilk növbədə, müvafiq parçaya və parçanın yerinə yetirdiyi funksiyaya uyğun gəlməlidir.

Bədii parçalar istehsalı sahəsində respublikamızın məşhur Şəki ipək kombinatının məhsulu xüsusi qeyd edilməlidir. Şəki ipək kombinatı tərəfindən buraxılan bədii parçalar bu illərdə nəinki respublikamızda, onun hidudlarından xeyli uzaqlarda da məşhur idi.

Əsrlər keçdikcə parça istehsalı inkişaf edib, elə bir həddə çatıb ki, onlar al-əlvanlığı, rəng zənginliyi ilə göz oxşayır.

ƏDƏBİYYAT

1.Çıraqzadə, V.A. "Qədim ipəkçilik diyarında". Bakı: Azərnəşr, - 1988.
2.Tarıverdiyev, C., İbrahimbəyov, R. "Bəsləsən ipək olar". Bakı: Səda, - 2004.
3.Əliyeva, K. "Azərbaycanın kustar parça növləri. (XIX – XX əsrlər)". E.A.Xəbərləri, 1961.
4.Əfəndi R. Azərbaycanın bədii parçaları (XVI - XVIII) E.A.Xəbərləri, 1968.
5.Əfəndi R. "Azərbaycan el sənəti". Bakı: 1971.

**Könül MƏMMƏDOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: mmmdovakonul391@gmail.com**

## ŞƏXSİYYƏT HAQQINDA ANLAYIŞ

*Açar sözlər:* şəxsiyyət, davranış, mütəfəkkir, amil

Şəxsiyyət problemi elmin müxtəlif sahələrində çalışan alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərdən biri olmuş və müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Müasir psixologiyada şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi məsələlər, ümumiyyətlə şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. Bu bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq edir.

İnsanlar təkcə gözlərinin rənginə, səslərinin tembrinə, barmaq izlərinə və s. görə deyil şəxsiyyətlərinin xarakteristikasına görə də bir-birlərindən fərqlənirlər. İnsanları gözlərinin rənginə, səslərinin tembrinə və ya digər biofiziki xüsusiyyətlərinə görə xarakterizə etməyə nisbətən onları bir şəxsiyyət kimi xarakterizə etmək olduqca çətindir. Şəxsiyyət anlayışı mürəkkəb anlayışdır.

Onun adekvat şəkildə anlaşılmasının çətinliyi bir sıra amillərlə bağlıdır. Həmin mühüm amillərdən bir neçəsini nəzərdən keçirək.

1. İnsan şəxsiyyəti maddi və toxunula bilən, hiss edilən deyildir. O, bir sıra amillərin, şəraitin, imkanların və determinantların təsiri altında formalaşan psixoloji törəmədir.
2. İnsan şəxsiyyəti bir sıra amillərin təsirinə məruz qalsa da yalnız onlardan asılı bir törəmə kimi şərh oluna bilməz, çünki o formalaşdığı həmin əsası dialektik olaraq rədd edir.
3. İnsan davranışının determinasiyasında şəxsiyyətin mühüm əhəmiyyət kəsb etməsi barədə çoxlu nəzəriyyə və konsepsiya mövcuddur ki, bunların bir çoxunun «şəxsiyyət» anlayışını şərh etməsi ziddiyyətlidir.
4. Nəhayət, şəxsiyyəti anlamaq insan fenomenini anlamaqla birbaşa əlaqədardır. Şəxsiyyət yalnız o zaman insanın əsası, özəyi kimi, onun başlıca parametri, onun eyniləşdirmə vasitəsi kimi şərh oluna bilər ki, antropologiya və insan haqqında biliklər insanın öz təbiətini anlamaq səviyyəsinə yüksəlmiş olsun.

Lakin bütün bu qeyd olunanlar heç də şəxsiyyətin tədqiqi imkanlarının mümkün olduğunu rədd etməyə imkan vermir. Əksinə, şəxsiyyət problemi barədə son nəzəri və eksperimental tədqiqatlar onun öyrənilməsi imkanlarını artırır.

«Şəxsiyyət» sözü Azərbaycan, rus və ingilis dillərində maraqlı və faktiki olaraq eyni etimologiyaya malikdir. Azərbaycan dilində «şəxsiyyət» sözü öz əsasını ərəb sözü olan «şəxs» sözündən götürmüş və hər hansı bir konkret şəxsi, simanı bildirir. Rus dilində «şəxsiyyət» *(Jiçnostğ)* sözü də *«liüo», «liçina»* (üz, sifət) sözləri ilə bağlıdır. İngilis dilində «şəxsiyyət» mənasını ifadə edən *«personality»* sözü öz əsasını iki latın sözündən - «per» və *«sona»* sözlərindən götürmüşdür ki, bu da bir növ «vasitəsilə danışır» mənasını ifadə edir. Sonralar qədim Yunanıstanda və Rim imperiyasında bu söz teatr tamaşasında aktyorun «maskası» şəklində özünü büruzə vermişdir. Adətən, səhnə hərəkətindən asılı olaraq «masqa» dəyişilir, aktyor rola daxil olur. Lakin, yalnız xeyli vaxt keçdikdən sonra «persona» sözü hazırki dövrdə daşıdığı məna yükünü daşımağa yalnız xeyli vaxt keçdikdən sonra «persona» sözü hazırki dövrdə daşıdığı məna yükünü daşımağa başlamış, «personality» - «şəxsiyyət» mənasında işlənməyə başlanmışdır.

Qeyd edilənlərdən göründüyü kimi, ***insanın şəxsiyyəti birbaşa və dolayı mənada onun siması, sifətidir.*** Birbaşa mənada insanın siması, sifəti onun başlıca identifikatorudur. Məhz onun xətləri, formaları, çevrəsi və digər xüsusiyyətləri əsasında bir adamı başqasından fərqləndirir, onun hansı yaş kateqoriyasına mənsub olduğunu müəyyənləşdirə bilirik. Təsadüfi deyildir ki, şəxsiyyəti eyniləşdirməklə bağlı bütün sənədlərdə onun sifətinin (üzünün) şəkli olması tələb edilir. Bununla yanaşı olaraq bizim sifətimiz emosiyalarımızın, hisslərimizin, əhvalımızın, vəziyyətimizin, istəklərimizin ifadəçisinə çevrilir, o bizə təkcə verbal yolla deyil, qeyri- verbal yolla da, zəngin mimiki

imkanlarımızın köməyilə də ünsiyyətə girmək imkanı verir. Dolayı mənada, insan şəxsiyyəti onun «ruhunun», başqa sözlə, onun bütün psixi təzahürünün «sifətidir». İnsana məxsus olan fərdi-psixoloji xassələrin təzahür xüsusiyyətlərinə, onun ünsiyyət üslubuna, davranışına, fikir və ideyalarına görə onu aydın eyniləşdirməyimiz və onun gələcək davranışının istiqamətini proqnozlaşdırmağımız heç kimdə şübhə doğura bilməz.

Bütün yuxarıda qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, şəxsiyyət fərdin özünü cəmiyyətlə eyniləşdirməsinə imkan verən davamlı fiziki və psixi xarakteristikasının məcmuundan ibarətdir.

Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. Şəxsiyyət müəyyən ictimai-tarixi dövrdə yaşayıb fəaliyyət Bütün yuxarıda qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, şəxsiyyət fərdin özünü cəmiyyətlə eyniləş- dirməsinə imkan verən davamlı fiziki və psixi xarakteristikasının məcmuundan ibarətdir.

Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. Şəxsiyyət müəyyən ictimai-tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır.

## ƏDƏBİYYAT

1.Bayramov, Ə.S., Əlizadə, Ə.Ə, Psixologiya. 2-ci nəşri. Bakı: 2002, 140-151 s.
2.Bayramov, Ə.S., Əlizadə, Ə.Ə. Sosial psixologiya. Bakı: 2003, 265-302 s.
3.Əliyev, R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı: 2000. - 288 s.

**Rəna QASIMOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: rnqasimova@gmail.com**

## ŞƏXSİYYƏT PROBLEMİ VƏ ONUN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

*Açar sözlər:* insan, fərd, şəxsiyyət, psixologiya

Amerika Psixoloji Assosiasiyasına görə, şəxsiyyət psixologiyası şəxsiyyətin inkişafını, quruluşunu, xüsusiyyətlərini, dinamik proseslərini, növlərini və pozğunluqlarını sistemli şəkildə öyrənən psixologiyanın bir sahəsidir. Şəxsiyyət psixologiyası insan fərdiliyinin elementlərini inteqrativ nöqteyi-nəzərdən araşdırmaq məqsədi daşıyır. Bu elementlər koqnitiv, emosional, motivasiya, inkişaf və sosial proseslərdən ibarətdir.

Fərd gündəlik həyatında hər an həm ətrafı, həm də özü ilə davamlı qarşılıqlı əlaqədə olur. Fərd bu cür qarşılıqlı əlaqədə olarkən özünəməxsus hisslər, düşüncələr və davranışlar nümayiş etdirir. Şəxsiyyət psixologiyası davranış, düşüncə və duyğuların xüsusiyyətlərini araşdırmağı öz üzərinə götürmüşdür. Şəxsiyyətin necə meydana gəldiyini araşdıran şəxsiyyət psixologiyası, şəxsiyyətin quruluşuna təsir edən dəyişənləri genetik, bioloji və mədəni ölçülər kimi müxtəlif yollarla araşdırır.

Şəxsiyyət keçmişin şüursuz meylləri və gələcəyə şüurlu yönəlmənin qarşılaşdırılmasının imkan və təzahür vasitəsidir.

İnsanları gözlərinin rənginə, səslərinin tembrinə və ya digər biofiziki xüsusiyyətlərinə görə xarakterizə etməyə nisbətən onları bir şəxsiyyət kimi xarakterizə etmək olduqca çətindir. Şəxsiyyət anlayışı mürəkkəb anlayışdır. Onun adekvat şəkildə anlaşılmasının çətinliyi bir sıra amillərlə bağlıdır. Həmin mühüm amillərdən bir neçəsini nəzərdən keçirək.

1. İnsan şəxsiyyəti maddi və toxunula bilən, hiss edilən deyildir. O, bir sıra amillərin, şəraitin, imkanların və determinantların təsiri altında formalaşan psixoloji törəmədir.
2. İnsan şəxsiyyəti bir sıra amillərin təsirinə məruz qalsa da yalnız onlardan asılı bir törəmə kimi şərh oluna bilməz, çünki o formalaşdığı həmin əsası dialektik olaraq rədd edir.
3. İnsan davranışının determinasiyasında şəxsiyyətin mühüm əhəmiyyət kəsb etməsi barədə çoxlu nəzəriyyə və konsepsiya mövcuddur ki, bunların bir çoxunun «şəxsiyyət» anlayışını şərh etməsi ziddiyyətlidir.

Şəxsiyyətin təbii, mədəni, maddi və mənəvi tələbatlarından törəyən və məqsədyönlü səciyyə kəsb edən fəallığı müxtəlif əməliyyatların köməyilə reallaşır. Həmin əməliyyatlar vasitəsilə insan xarici aləmi dəyişdirir. Başqa cür desək insan ətraf-mühiti dəyişməyə, ictimai münasibətlərə birbaşa təsir etməyə

qadirdirsə şəxsiyyət hesab olunur. Şəxsiyyət və cəmiyyət daim qarşılıqlı, arasıkəsilməz əlaqədədir.

Şəxsiyyətin psixoloji mahiyyətini psixologiyada sosial –psixoloji aspektdən təhlil edərkən sosial status anlayışının təhlilinə önəm verilir. Sosial status-insanın cəmiyyətdə, konkret kollektivdə rolunu və mövqeyini əks etdirir. Sosial qarşılıqlı təsirlərin gedişatında konkret funksiyaların icra edilməsi üçün hər bir insana müəyyən vəzifələr qoyulur, bununla birlikdə insana müəyyən edilmiş hüquqlarla imtiyazlar, səlahiyyətlər verilir. Bütün bunlara baxmayaraq, insan bu və ya digər funksiyanı yerinə yetirmir—o qarşılıqlı təsirlərin bu sistemi çərçivəsində müəyyən sosial mövqe tutur. Psixologiya şəxsiyyəti hər şeydən əvvəl sosial keyfiyyətli bir sistem kimi səciyyələndirərək təhlil edir. Sosial keyfiyyətlər fərdin ünsiyyət və fəaliyyət prosesinə, müxtəlif münasibətlər sisteminə yiyələnməsi şəraitində təşəkkül taparaq formalaşır. Bütün bunlara əsaslanaraq şəxsiyyəti ictimai münasibətlərin məcmusu kimi səciyyələndirmək olar. Sosial-psixoloji münasibətlər ümumilikdə şəxsiyyətin həqiqi mahiyyətinin əsasını təşkil edir. Belə ki, məhz sosial – psixoloji amilləri təhlil edərək şəxsiyyətin inkişafına təsirini araşdırmaq mümkündür.

İnsanı orqanizm, fərd və şəxsiyyət kontekstində xarakterizə etmək olar. Orqanizm anlayışı bioloji elmlər, şəxsiyyət anlayışı isə sosial elmlər kontekstində formalaşmışdır. Psixologiya insanı fərd və şəxsiyyət kimi öyrənir.İnsanın bioloji varlıq kimi psixoloji keyfiyyətlərini fərd termini, sosial varlıq kimi psixoloji keyfiyyətlərini isə şəxsiyyət termini ilə ifadə edirlər.

Yuxarıda qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, şəxsiyyət fərdin özünü cəmiyyətlə eyniləşdirməsinə imkan verən davamlı fiziki və psixi xarakteristikasının məcmuundan ibarətdir.

ƏDƏBİYYAT

1.Bayramov Ə.S., Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981, 106 s.
2.Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya. Bakı: Elm və təhsil, 2013, 626 s.
3.Абрамова Г.С. Возрастная психология. М.:Академия, 1999 г, 672 с.
4.Ананьев Б.Г. Человек как предмет познания. СП.: Питер: 2016г, 282 с.
5.Randy J.L. Personality Psychology. N.Y.:McGraw-Hill Education, 2017y, 768 p.

**İlham MƏMMƏDOV**
***Baş müəllim,***
***Gəncə Dövlət Universiteti***
**E-mail: ilhamgdu59@mail.ru**

# Ə.S.BAYRAMOV RESPUBLİKAMIZDA ETNOPSİXOLOGİYA MƏKTƏBİNİN YARADICISI KİMİ

*Açar sözlər:* Etnik psixologiya, etnik psixoloji xüsusiyyətlər, etnos, azərbaycanlılar, ermənilər

Keçən əsrin 50-ci illərində elmi fəaliyyətə başlayan Ə,S Bayramovun dünyasını dəyişənə qədər ən böyük arzusu vətənimizin, onun üçün daha doğma olan, boya başa çatdığı Ağdamın işğaldan azad edilməsi arzusu idi. Bu barədə o yazırdı: "Ən böyük arzum xalqımızın birliyi, maddi və mənəvi əzablardan tezliklə qurtarması, Vətən torpağını tam azad edib, öz ölkəsinə bütövlükdə sahib olmasıdır"( 1, s.13 ).

Əkbər müəllimin elmi yaradıcılığı çoxsahəlidi. İki əsrin reallığını yaşamaq nəsibi olan bu alim, 80-ci illərin sonlarından başlayaraq elmi yaradıcıllığında milli psixoloji tariximizi öyrənməyə xüsusi önəm verməyə başlayır. Günümüzün tanınmış psixoloqlarından biri R.Əliyev qeyd edir ki, o, hələ sovet hakimiyyəti illərimdə etnopsixologiyanın "qadağan edildiyi" vaxtlarda etnopsixologiya ilə bağlı fikir və ideyalarını irəli sürmüş , 1996- cı ildə isə "Etnik psixologiya" məsələləri əsərini nəşr etdirmişdir (3, s.370).

Əkbər müəllim etnopsixoloji araşdırmalarına azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərini psixoloji dəyərləndirməkdən başlamış və onların psixoloji görüşlərinə həsr edilmiş məqalələr çap etdirmişdir. Bu sırada Azərbaycanın görkəmli ədiblərindən N.Gəncəvinin, M.Fizulinin, M.F.Axundovun, A.A.Bakıxanovun, M,Ə Sabirin adlarını sadalaya bilərik. Bu əsərlərin yazılması onun ömrünün aqil dövründə etnik psixologiya məsələlərinə daha çox diqqət ayırdığını sübut edir ki, bunu da keçən əsrin sonlarında xalqımızın başına gətirilən məşəqqətlər şərtləndirir.

Alimin etnopsixologiya sahəsində ilk əvvəl apardığı tədqiqatların nəticələri toplum halında onun 1994- cü ildə çap etdirdiyi "Psixoloji düşüncələr" adlı ilk genişhəcmli əsərində öz əksini tapır. Bu əsərri ilə o, Azərbaycanda etnik psixologiya məktəbinin əsasını qoyur. Bundan sonra onun 1996-cı ildə "Etnik psixologiya məsələləri", 2000 –ci ildə "Kitabi-Dədə Qorqud dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası" əsərini cap etdirib geniş oxucu kütləsinə təqdim edir.

Azərbaycan xalqının milli psixoloji xüsusiyyətlərinin uzun illər öyrənilməmiş qaldığını nəzərə alan alim, qeyd edirdi ki, bu istiqamətdə tədqiqatların aparılmamasının acı nəticələri bu gün addımbaşı hiss olunur. Bu səbəbdən o, Azərbaycanın psixoloji ədəbiyyatında etnopsixologiya məsələlərinə ilk dəfə

diqqət ayıraraq, onun nəzəri-metodoloji məsələlərini xüsusi ustalıqla acıqlayır. Bu barədə onun yaxın dostu və tərəfdaşi, tanınmış psixoloq. mərhum Ə.Ə.Əlizadə yazır: "Prof. Ə.S.Bayramovun son illərdə bu sahədə apardığı araşdırmaları, gərgin axtarışları Azərbaycan psixoloji fikrinin haqlı olaraq önəmli uğurlarından biri sayılır" (2, s.14).

Məhsuldar alim olmaqla yanaşi həm də gənc nəsilə psixologiyanin sirrlərini öyrədən pedaqoq Ə.S. Bayramov, xalqımızın mil etnik psixoloji xüsusiyyətlərinin öyrənilib təhlil olunmasına həsr edilmiş tədqiqatlarını toplayıb ali məktəblər üçün dərslik kimi 2001-ci ildə "Etnik psixologiya " adı altında cap etdirir.

Dərslik üç bölmədən ibarətdir. Onun birinci bölməsində müəllif Etnik psixologiyanın ümumi məsələrinnin araşdırılmasına yer verir. Bu bölmədə Etnik psixologiyanın ümumi məsələlərini təhlil etməklə yanaşı Əkbər müəllim, həm də xalqımızın acı taleyi ilə bağlı olan problemləri yeni faktlara müraciət etməklə araşdırmağa məharətlə xüsusi diqqət ayırır. Bu faktlar sırasında 1988-ci ildən başlayaraq xalqımızaqa rşı mənfur qonşularımızın  rus şovinistlətinin dəstəyi və himayəsi ilə törətdiyi vəhşiliklər diqqəti daha çox cəlb edir.

Ə.S. Bayramovun "Etnik posixologiya" dərsliyinin əsas leytmotivini "Ayil xalqım, ayıl!" nidası təşkil edir. O, xalqımızın unutqanlığına, sadəlövhliyinə, illər boyu beynəlmiləlçilik ruhunda tərbiyə olunmasına xitab edərək yazır: "Belə olmasaydı bəs bir əsr ərzində millətimizin, xalqımızın başına gətirilən və dəfələrlə, demək olar ki, eyni senari ilə təkrar edilən fəlakətlərdən düzgün nəticə çıxarılardı, başımıza gətirilən faciələr bu etnosun qan yaddaşına vaxtında və dəqiq surətdə həkk olunardı " (1, s.132 ).

Dərslikdə erməni vəhşiliklərinin kokləri araşdırılır, "Alman faşızmı" ilə müqayisəyə gəlməməsi vurğulanir, nekrofiliya (E.Fromm) anyayışı axarında ermənilərin etnik xüsusiyyətləri, mənfur xislətləri psixoloji ədəbiyyatda ilk dəfə açıqlanır, yazıqlıq, məzlumluq pərdəsi altında gizlənən erməni faşızminin iç üzünü bütün təfərrüratları ilə səciyyələndirmək imkanı verən zəngin materiallar, əşyavi-dəlillər əsasında aydınlaşdırılır.

Dərsliyin ikinci bölməsində etnik stereotip və yönümlərin təzahür xüsusiyyətləri, ettnik milli hisslər, adət və ənənılər, etnik milli xarakterlər, etnosun davranış və rəftarında onların təzahürü fəsilləri diqqəti cəlb edir.

Bu bolmədə diqqəti daha çox cəlb edən məsələlərdən biri N.Gəncəvinin əsərlərində şəxsiyyət və liderlik probleminə fərqli və bənzərsiz yanaşmadir. Tarixi şəsiyyət problemini İsgəndər obrazı timsalında açıqlayan müəllif qədim yunanlar şəxaiyyət olmuşlarmı sualına birmənalı müsbət cavab verir və əsaslı psixoloji yozumda göstərir ki, İsgəndər tarixi şəxsiyyət olub. Bunu İsgəndərin bir şəxsiyyət kimi, lider kimi sonraki dövrlərdə yaşayan taninmiş tarixi şəxsiyyətlər, sərkərdələr tərəfindən təqlid edilməsi ilə əsaslı sübut edir.

Ə.S.Bayramov bu bölmədə həmçinin xalqımızın etnik stereotip və yönümlərini ermənilərinki ilə müqayisəli təhlilni verərək, bunlar arasında əsaslı fərqlərin olduğunu tutarlı misallarla sübut edir. Bundan belə qənaətə gəlmək

olur ki, bu tayfalarda qafqazlılara xas olan mərdlik, sözünədüzluk saflıq, kişilik kimi stereotiplərlə bağlı keyfiyyətlər yoxdur.

Dərsliyin üçüncü bölməsinin 1-5-ci fəsillərində bütövlükdə ədəbi bədi irsimizdə etnik-psixoloji xüsusiyyətlərin inikası problemi araşdirilib mənalandırılır. Müəllif burada "Kitabi-Dədə Qorqud", Cəlil Məmmədquluzadə və M.Ə.Sabir və digər mütəfəkkirlərimizin əsərlərində xalqımıza xas olan etnopsixoloji xüsusiyyətləri psixoloji mənalandırmaqla yanaşı onları müasirləşdirir.

Əkbər müəllim xalqımızın ədəbi-bədii irsində etnik psixoloji xüsusiyyətlərin inikası probleminin tədqiqinə gənc tədqiqatçıları da cəlb edərək özünün elmi rəhbərliyi ilə 10-a qədər fəlsəfə doktoru dissertasiyasının müdafiəsinə nail olur.

ƏDƏBİYYAT

1.Bayramov, Ə.S. Etnik psixologiya. Bakı: "Renessans nəşr", - 2001. - 374 s.
2.Əlizadə, Ə.Ə. Ön söz əvəzi. Müdrikliyin işığında. Əkbər Səməd oğlu Bayramov psixologiya elmləri dokroru, əməkdar elm xadimi. Bakı: 2000. - 65s.
3. Əliyev R. Psixologiya tarixi. Bakı: "Nurlan", - 2006. - 384 s.

**Jalə SƏFƏROVA**
***Gəncə şəhəri M.A.Abbaszadə adına***
***20 nömrəli tam orta məktəbin psixoloqu***
**E-mail: seferovomer26@gmail.com**

## BULLİNQ VƏ ONUNLA MÜBARİZƏ YOLLARI

*Açar sözlər:* bullinq,fiziki bullinq,şifahi bullinq, kiber bullinq

Bullinq müasir dövrdə bütünlükdə cəmiyyətimizin qlobal problemlərindəndir. Azərbaycanda isə bu problemlə bağlı geniş müzakirələr 4 aprel 2019-cu ildə Bakıda 162 saylı məktəbdə Elina Hacıyevanın bullinqə məruz qalaraq intihar etməsindən sonra başlandı. "Bullinq"sözü ingilis dilindən tərcümə də "təcavüz, qorxutmaq, təhqir etmək"deməkdir. Adətən buller öz qurbanının zəif tərəfini bilir və o, onu məhz həmin yerdən vuraraq güclənir. Bu cür hərəkətlərin davamlı edilməsi qurbanda ümidsizlik yaradır. Nəticə də çıxış yolunu özünəqapanmada, məktəbdən uzaqlaşmada, hətta intiharda görür.

Bullinq - bir və ya bir neçə şəxsin başqa bir şəxsə bilərəkdən, dəfələrlə nümayiş ettirdiyi qərəzli, aqressiv davranış formasıdır. Ancaq hər qərəzli, aqressiv davranış bullinq hesab olunmur. Bu hərəkət bilərəkdən və dəfələrlə qərəzli şəkildə törədildikdə bullinq hesab olunur. Psixoterapevt Cennifer Fridin

sözlərinə görə, bullinq yalnızca qəzəb və alçaldıcı hərəkət deyil, bullinq eyni zamanda təkrarlanmaq və qurbanı qorxu və stessə salmaqdır. Hər bir insan ömrü boyunca bir dəfə də olsa bullinqlə qarşılaşıb: ya şahid kimi, ya qurban kimi, ya da buller kimi. Əgər siz bu zaman yalnız şahid qismində olmusunuzsa, bu sizin üçün o qədər də problem kimi görsənməyəcək. Ancaq bullinqin birbaşa qurbanı olan şəxslər üçün bu heç də belə deyil. Əgər bu problem vaxtında həll olunmazsa, qurbanın psixoloji vəziyyətində depressiya, introversiya, antisosializm, sonda intihara belə sövq edə bilər. Sosial statusu digərlərindən aşağı olan, fiziki cəhətdən zəif, cəmiyyət tərəfindən qəbul edilmiş normalara uyğun gəlməyən, başqa məktəbdən və ya sinifdən sinfə yeni daxil olmuş şəxslərin bullinqə məruz qalma ehtimalı daha yüksəkdir.Zorakılığın qurbanı olmamaq üçün hər bir kəs emosional və psixoloji baxımdan güclü olmalı, zəif tərəflərini kimsəyə göstərməlidir.

Son illərdə Azərbaycan məktəblərində bullinq problemləri, xüsusilə də fiziki, şifahi və kiber bullinq təhlükəli və yayğın bir hal alıb. Bu məsələlər, tələbələr, valideynlər və müəllimlər üçün ciddi təhlükələr yaradır və dərslərin keyfiyyətinə də mənfi təsir edir. Bullinqin (zorakılığın) baş vermə formalarına bir neçə növü var:

1. Fiziki bullinq özünü vurmaq, döymək, itələmək, qısnama və məcburetmə formasında olur. Fiziki bullinq qurbandan fiziki cəhətdən güclü olan şəxs tərəfindən törədilir. Qurban çox zaman aşağı statusa, mənsubiyyətə, qrupa yeni qatılmış və digərləri kimi olmayan, bu və ya digər fərqliliklər göstərən, fiziki və ya əqli cəhətdən qüsurlu(və ya əksinə) olan şəxslər olur. Fiziki bullinq - məktəblərdə yayılan bir problemdir və tərəflər arasında qısqanclıq və digər məsələlər səbəbindən ortaya çıxır. Bu tərəflər arasında güclü bir iyerarxiya yaratmaq və daha zəif olan tərəfə zorakılıq tətbiq etmək üçün istifadə edilir. Bu məsələni həll etmək üçün məktəblər tərəfindən anti-zorakılıq kampaniyaları təşkil edilə bilər və müəllimlər tərəflər arasında hər hansı bir qüvvə qarşıdurmasını təmin edə bilər.

2.Şifahi bullinq ən çox qızlarda müşahidə olunur. Şifahi zorakılıq kimisə təhqir etmə, sözlərlə alçatma, adına ləkə yaxma, söz atma, kiminsə yanında biabır etmə və s. formasında özünü göstərir. Şifahi zorakılıq bir çox hallarda məktəblilər arasında yayılan bir problemdir və son illərdə sosial medianın üstünlük təşkil etdiyi bir dövrdə sosial media və digər internet platformaları üzərindən edilir. Bu məsələni həll etmək üçün məktəblər tərəfindən müəllimlər şagirdləri informasiya səliqəsi, özlərini ifadə etmə məhdudiyyətləri, vəziyyətə görə ictimai şəkildə təhqir edilməyin köklü mənalarını verməyə, davamlı, müntəzəm maarifləndirici söhbətlərlə problemin həllində uğur qazana bilərlər.

3.Psixoloji bullinq - qərəzli baxışlar, kimisə addimbaaddım izləmək formasında özünü göstərir.

4.Sosial bullinqə hər hansı qrupdan təcridetmə, ona qarşı qruplaşmalar, aralarına almama formasında özünü göstərə bilir.

5.Kiber bullinq - təəssüflər olsun ki,məktəblilər arasında bullinqin ən geniş yayılmış formalarından biridir. Kiber bullinq mobil telefonlar, kompüterlər və digər elektron cihazlar vasitəsilə şəxsə qarşı qəsdən, qərəzli şəkildə törədilən zorakılıqdır. Bu zorakılıq forması valideyndən gizli olan səslərin, mesajların, videoların və digər mənfi əməllərin sosial şəbəkələrdə yerləşdirməklə bağlı şantajlardan ibarətdir. Kiber zorakılıq nəticəsi daha ağır olur. Çünki buller qurbanı ilə fiziki yaxınlıqda olmur, onun keçirdiyi emosional və psixoloji sarsıntılardan, düşüncələrindən, düşdüyü vəziyyətdən xəbərsiz olur. Kiber bullinq ictimai media və digər internet platformaları vasitəsilə şikayətləri, şəkilləri və videoları təqdim edərək insanların zorakılıq etməsinə səbəb ola bilər. Bu, tələbələr arasında da yayılan bir problemdir. Ona görə də valideynlər, məktəb idarəçiləri, müəllimlər, məktəb psixoloqları bu problemin həllində daha da ayıq və çevik olmalıdırlar. Bəs bullinqdən necə qorunmaq olar?

Bullinqə məruz qalan şəxsdə aşağıdakı əlamətlər nəzərə çarpır:

1.Uşağın anidən məktəbdən uzaqlaşması;

2.Bədənin müxtəlif nahiyələrində fiziki əlamətlərin olması;

3.Özünəqapanma, yalnızlığa meyl etməsi;

4.Anidən bəzi əşyaların evdən itməsi;

5.Yuxusuzluq,həyəcan,depressiv əhcal-ruhiyyə;

6.Dərslərdəki uğurunun anidən azalması;

Bəs bu zaman nə etməli?

1.Əgər övladınızın bullinqə məruz qalmasından şübhə edirsinizsə,mövzuya birbaşa yox, dolayı yollarla özünün danışa bilməsi üçün şərait yaradın;

2.Söhbət zamanı övladınızı səbirlə, təmkinlə, mühakimə etmədən dinləyin;

3.Bullinqi törədən şəxs barədə mümkün qədər çox məlumat toplamağa çalışın;

4.Övladınıza hər nə olursa olsun, dəstək olduğunuzu, yanında olduğunuzu hiss etdirməyə çalışın;

5.Daha sonra vaxt itirmədən məktəb rəhbərliyinə və məktəb psixoloquna məlumat verin.

Müşahidələr əsasında demək olar ki, bullinqin ən çox baş verdiyi yerlər sosial ədalət prinsiplərinin yaxşı inkişaf etmədiyi və şagirdlərə qarşı etinasız yanaşılan yerlərdir. Ən çox bullinq o məktəblərdə olur ki, orada şagirdə qarşı laqeydlik var, onların tələbatları ehtiyacları heç kim tərəfindən tanınmır və ödənilmir. Buna görə də dərs buraxma və ya vandalizm halları ilə müqayisə də insan şərəfinin təhqirinin daha ağır pozuntu hesab edildiyi yerlərdə bullinqə nadir hallarda rast gəlinir. Ümumiyyətlə, bu problem qlobal problem olduğundan hər bir müəssisə öz üzərinə düşən işi etməlidir. Bunun üçün ilk öncə hər bir müəssisə də,xüsusilə də məktəblərdə bütün şagirdlərlə bullinqlə bağlı anonim sorğu keçirilməli, məktəbdə bullinqin səviyyəsi araşdırılmalıdır. Daha sonra şagird və ya tələbənin təhsil aldığı müəssisə şagird və tələbələr arasında fiziki, şifahi, kiber bullinq ilə bağlı anti-zorakılıq kampaniyalar, maarifləndirici seminarlar təşkil edərək mövzu barədə maksimum səviyyədə məlumatlandırılmalıdır. Bu kampaniyalar onları bu problemlərin təhlükələrinə

və nəticələrinə görə məlumatlandıracaq və onlara özlərini qorumaq üçün lazım olan vasitələri təqdim etmək çərçivəsində olmalıdır. İkincisi, məktəblər tərəfindən müəllimlər, tələbələr və valideynlər üçün təlimatlar təşkil edilməlidir. Bu təlimatlar şəxsi məlumatların paylaşılması, internet platformalarında istifadə edilən məlumatların izlənməsi və tələbələrin güvənli internet istifadəsi ilə bağlı məlumatlar təqdim etməlidir.

Məktəbin hər yerində şagirlərin hər birinin görüb oxuya biləcəyi yerlərdə bullinq və onun nəticələri, eyni zamanda bulleri hansı cəzaların gözlədiyi barədə yazılar olmalıdır. Məktəblər tərəfindən tələbələrə psixoloji dəstək təqdim edilməlidir. Bu dəstək tələbələrin özünəgüvəninə, özəl həyatlarına və məktəb ictimaiyyətinə uyğun şəkildə təsir etmək və onları bullinqin hər türündən qoruyacaqdır. Məktəblər tərəfindən problemin ölçüsü və həllində ediləcək addımların müzakirəsi üçün məktəb ictimaiyyəti ilə görüşlər təşkil edilməlidir. Bu görüşlər məktəb idarəçiləri, müəllimlər, psixoloqlar,tələbələr, valideynlər və digər məktəb ictimaiyyəti üzvləri arasında əlaqə və işbirliyinin daha da sıx olmasını təmin edəcək.

## ƏDƏBİYYAT


1.Mahmudova, Lala. A Comprehensive Approach to Bullying Prevention in Azerbaijani Schools. https://bakuresearchinstitute.org/en/a-comprehensive-approach-to-bullying-prevention-in-azerbaijani-schools/

2.Kristin Oudmayer. Övladımızın gizli kabusu "Bullinq". Libra Kitab, səh. 172

3.Давид А.Лейн. Школная травля( буллинг)/ Под ред. Девида Лейна и Эндрю Миллера. / Перевод: Н. Мухина. СПб: 2001.

4.Ольвейс Дан. Буллинг в школе: что мы знаем и что мы можем сделать. М.,1993.

5.https://www.bbc.com/azeri/azerbaijan-48192076 Müraciət tarixi: 16.03.2023

6.https://tehsil.com.az/bullinq-nedir/

7.https://bakuresearchinstitute.org/en/a-comprehensive-approach-to-bullying-prevention-in-azerbaijani schools/#:~:text=https%3A//www.bbc.com/azeri/azerbaijan%2D48192076

**Cahanə BAYRAMOVA**
***Azərbaycan Texnologiya Universitetinin Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının maqistrantı***
**E-mail: r.asgerova@uteca.edu.az**

**Elmi rəhbərlər: Şakir ƏLİYEV**
***texnika elmləri namizədi, Azərbaycan Texnologiya Universitetinin Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının dosenti***
**Gülnarə ƏLİYEVA**
***Azərbaycan Texnologiya Universitetinin Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının baş müəllimi***
**E-mail: shakir.eliyev@uteca.edu.az**

# GEYİM MODA SƏNAYESİNDƏ STİLİN ETNOPSİXOLOJİ TƏHLİLİ

*Açar sözlər:* stil, fason, aksessuar, imic, dekor, estetik

Yaxşı dizayner rənglərin dünyasını yaxşı tanımalı, hansı rənglərin bir – biri ilə uyğunluq təşkil etdiyini, parçaların əmələ gəlmə şəkillərini, təsnif edilməsini, bir – birindən fərqləndirənxüsusiyyətləri, hətta keyfiyyət nəzarəti, o cümlədən hər bir geyimin detalına hakim olmalıdır. Dizayner rəssam deyil, amma dizaynını etdiyi geyimin detallarını izah edə biləcək və özündən sonrakı kadrları düzgün istiqamətləndirəcək qədər rəsm texnikasını bilməsi və bu bacarığa malik olması vacibdir. Bu göstəricilərin hazırlanan hər bir məhsulunu hansı parçada necə bir nəticə verəcəyini əvvəlcədən xəyal edə bilməli, inkişaf edən texnologiya ilə birgə dəyişən parça sənayesinin istiqamətlərini yaxından izləməlidir. Çünki bu göstəricilərin məhsuldarlığı geyimin stilinin formalaşmasında böyük əhəmiyyəti var.

İmic sözü müasir dövrümüzdə xüsusi ilə papulyardır. Bu söz latınca "İmaǧo - obraz" və görünüş sözlərindən qəbul edilmiş və obrazın məqsədəuyğun formalaşdırılması mənasını verir. Onun vəzifəsi emosional – psixoloji təsirlərin göstərilməsindən ibarətdir. İmic bir tərəfdən digərləri üçün tərtib etdiyimiz vizit vərəqi olub, ətrafdakılara təəssüratların yaradılması məqsədini daşıyır.

Fərdi "stil" və "imic" müxtəlif anlayışlardır, Buna baxmayaraq onların biri digərindən ayrı ola bilməz. Əgər imic müəyyən rol oynayırsa, stil insanın mahiyyətini, daxili aləmini göstərir. Bəzi insanlar üçün öz stilini, özünü tapmağa, öz nəzər nöqtəsini müəyyən etməyə və hisslərini ifadə etməyə imkan verir. Əgər saç düzümünə, parça üzərindəki rəsmlərə və ya qalstukun rənginə diqqətlə fikir verilərsə belə adamın hansı stilə uyğun geyindiyini müəyyən

etmək olar. Müəyyən stillə geyinmiş insanı yaxşı seçə bilən sadəcə olaraq zövqlü geyinən və düymədən tutmuş cib dəsmalına kimi bütün qarderob detallarını yaxşı seçə bilən adam kimi qiymətləndirmək düzgün olmazdı. Təbiidir ki, moda ahəndarlığa və gözəlliyə özünəməxsus korrektivlik göstərir. Bir vaxtlar geyim haqqında qəbul olunmuş qanundan və vahid stildən qeyri – şərtsiz qayda kimi istifadə etmək tələb olunurdusa, sonrakı dövrlərdə stillər bir qədər qarışaraq interpretasiya edilmiş formada olduğundan, fərdiliyin istənilən təzahürünü qəbul edərək müəyyən stilin vahidliyini qorumaq mənfi qarşılanırdı. Lakin modanın nəyi diktə etdiyindən asılı olmayaraq ahəngdarlıq qanunun ləğv edilməsinə heç bir şəxsin qüvvəsi çatmır. Kostyumun stili və fasonu, rəng qamması, parça üzərindəki rəsmlər aksessuarların dizaynı uşaqlıqdan indiyədək öyrəndiyimiz və ətrafdakılarla qurduğumuz ünsiyyət dilidir.

Yeni texnologiya və materialların, yeni ünsiyyət forması və müasir həyat fəlsəfəsinin əmələ gəldiyi müasir dövrümüz durmadan dəyişikliyə doğru meyl etməkdədir. Bu gün stilə ümumilikdə geyimə baxış formalaşır.

Müasir həyatın ritmi geyimə qarşı münasibəti sadələşdirir. Belə ki, getdikcə idman stilinin populyarlığı davam edir.

XX əsrin ortalarında modada eyni zamanda iki – üç istiqamət fəaliyyət göstərirdisə, hazırda bunların sayı çoxdur. Belə situasiyada stilin vahidliyi haqqında danışmaq çətindir. Burada əsas məqsəd bu və ya digər stilin arxasınca getmək məsələsi deyil, öz şəxsi imicin tapılmasıdır. Ümumiyyətlə moda stil demək deyil, obraz və fərdilik əsas faktorlardır. Bütün stillərin və geyimin istiqamətlərini müəyyən şəxsiyyətin xarakteristikası ilə əlaqələndirmək mümkündür. Buna görə ilk növbədə stil haqqında deyil, onların psixoloji tipləri haqqında bəhs edək.

Bütöv, tanınan obrazları olan şəxsi stili və həyat səhnəsində rolunu – imici üzvü surətdə birləşdirən bir neçə tiplərin üzərində dayanaq.

İnsanın müstəqil kompaniyalı geyimi idman geyimidir. Təbii tipin nümayəndəsi enerjilidir, ünsiyyətlidir, aktiv yaşayış obrazı keçirir. Geyimdə rahatlıq, möhkəm komfort, funksiyalılıq geyimin seçilməsinin əsas kriteriyalarıdır. Stilin "tələsi" səliqəsiz görünmək təhlükəsidir.

1950-ci ildə K.Dior tərəfindən təklif olunan "New - look" stili illərin gözəl və səliqəli modasını müəyyən etmişdir. 1954 – cü ildə uzun sürən fasilədən sonra K.Şanel yenidən modaya qayıdaraq və K.Diorun stilinə alternativ olan öz qeyri funksional və süni stilini təklif edir. 1954 – 1955 – ci illərin payız – qış kolleksiyalarında "Şanel" stilinə yeni məşhur, rahat uniformalı kostyumlar təqdim olunur. Bu kostyumlar fiqur və yaşmadan asılı olmayaraq hamıya yaraşır, bu geyimi hər yerdə geymək mümkün olur. K. Şanel müəyyən bəzək detalları, lentlər, metal düymələr, zəncirlər, kameliya çiçəkləri ilə bəzədilmiş, yadda qalan klassik "Şanel" stilinin yaradılmasına nail olur. 1950 – ci illərdə "Yüksək moda" stil və modalı nümunələri diktə edirdi və hazır geyimlərin istehsalı aktiv inkişafda idi. 1950 – ci illərdə İtalyanın "Pyetro Marzotti", AFR – in "Klaus Staylmanı" kimi tanınmış ticarət markaları meydana çıxır. Moda

sənayesində yeni ixtisaslar – dizayner və ya stilistlər əmələ gəlir. Onlar yeni moda və stil istiqamətləri əsasında kütləvi istehsal üçün modellər tərtib edirlər.

1958-ci ildə Fransanın ən tanınmış stilistlərindən olan Cak Esterel bir qədər sonra 1962 – ci ildə Daniel Ester adlı firmasını açır. O geyimin formasının modelləşdirilməsi əvəzinə köbələrdə konstruktiv xətlərdən, lent və relyefi tikişlərdən və konstrant rənglərdən istifadə etməklə yeni texnologiya təklif edirdi, "kosmik" stildə Pyer Karden, Pako Rabanın kimi məşhur modelyerlər də geyimlər tərtib edirdilər. 1966 – cı ildə smokinqləri, 1969 – cu ildə "Safari" stilində şortiklər, 1970 – ci ildə smokinq tipli donlar demək olar. 1972 – ci ildə "cins" stili kütləviləşir və modalı olur. 1970 – ci illərdə artıq çox saylı stillərdən istifadə edirlər, bunlardan "retro", "etnik", "klassik" , "romantik", "folklor", "idman" və s. göstərmək olar ki, sonrakı onillikdə onların sayı artmaqda idi. Stillərin belə müxtəlifliyi hər bir insana öz seçimini etməyə imkan verirdi. 1970 – ci illərin sonunda iqtisadi problemlər artıq cəmiyyəti ciddi narahat edirdi. İqtisadi böhran psixoloji fonda "retro" stilinin əmələ gəlməsinə səbəb olur. Öz və digər xalqların keçmiş mədəni ən - ənələrinin maraq əmələ gəldiyindən meydana "folklor" stili daxil olur. Bu stildə əsasən Avropanın kəndli kostyumlarının motivlərindən istifadə edilir. 1976 – 1977-ci illərin geyim kolleksiyalarında belə motivlərdən "xeyirxah kəndli" və "etnik" stildən istifadə etmişdilər. 1978 – ci ildə İ.Sen – Loran hamıdan əvvəl klassik stilə qayıtmağın vacibliyini duyaraq bunu özünün payız – qış kolleksiyalarında əks etdirir. Cəmiyyətin ekoloji problemlərinin narahatlığından yaranan reaksiyasını əks etdirilməsi ilə bağlı artıq qeyd etdiyimiz kimi 1970 – ci illərin sonları və 1980-ci illərin əvvəllərində "ekoloji" stil əmələ gəlir. Modaya təbii liflərdən hazırlanmış parçalar və onların xüsusiyyətlərinə uyğun rənglər daxil oldu. 1980 – ci illərdə qərbin iqtisadi yüksəlişi ilə bağlı "yappi" stilində klassik "biznes kostyumları" yaradılır. 1980 – ci illərdə klassik formalar sadəcə olaraq bərpa edilməyib, həm də transformasiya olunaraq müasirləşir və "neoklassik" stilinə salınır.

Faktiki olaraq keçmiş illərin stilləri sadələşdirilmiş yığcam idi. Müasir stili müəyyən etmək çətindir. Biz görürük ki, müxtəliflik əsas onun xüsusiyyətidir.

Geyimdə XX əsrin ikinci yarısında kifayət qədər dəqiq növbəti əsas stillərin tipik xüsusiyyətləri klassik, idman, romantik, folklor, gənclər stili meydana gəldi.

Klassik stil baxmayaraq ki, hər mövzunu biz dəbdə olan tendensiyalarda dəyişiklikləri müşahidə edə bilərik, klassik stil artıq tam əsr dəyişməz qalır. Geyimin klassik stilinin əsas üstünlüyü onun univesallıqdır.

İdman stili – Bu idmanla məşğuliyyət üçün peşəkar geyim deyil, amma stilə formanın sadəliyi, artıq detalların yoxluğu və maksimal rahatlıq tipidir.

Romantik stil – Baxmayaraq ki, moda bütün XIX - əsr boyunca dəyişirdi, o həmişə zərif qalırdı. Romantik stil yumşaqlıq və xətlərin hamarlığıdır, həmçinin qadın formasının geyimdə vurğulanmasıdırə.

Folklor stili – Geyimə zəngin rəng palitrası parlaq rənglər, müxtəlif fakturalar, əlavələr zəngin və böyük bəzəklər tipidir.

Gənclər stili – bu stil rəqs nəticəsində meydana gəldi, buna görə o azaddır və hərəkətlərini tabelikdə saxlamır.

Modanın hər bir yaradıcısı daha çox sevimli stilində işləyir və öz yaradıcılıq xəttinə malikdir. Bəzən modelyerlər öz stilini kəskin surətdə dəyişdirirlər, amma çoxları bunu bacarmır. Təbii ki, yeni ideyanı, böyük əməklə tapılmış yeni obrazı bir modeldə əks etdirmək olmur.

Geyim moda sənayesində güclü bir marka yaratmaq müəyyən bir istehlak qrupun bir sıra ehtiyaclarını qarşılamaq və bu strategiyanı səbrlə davam etdirməklə mümkün olur, bu halda modadakı dəyişiklikləri yaxşı şərh etmək və dəyişikliyin miqyasını saxlamaq lazımdır. Ancaq bu dəyişikliklər markaya zərər verəcək dərəcədə olmamalıdır. "Moda" və "Stil" anlayışları eyni izaha malikdirlər, amma mövzuya belə yanaşmaq səhvdir. Moda hansısa bir müəyyən sferada zövqün və stilin hökmranlığı, aktual nümunələrin məcmusudur. Stil moda deyil, o müəyyən aksentdir, obrazdır hansı ki, insanın zövqünə uyğundur. Stil fərdi xarakteristikalar yığımıdır. Stil moda sənayesində geyimin formalaşmasında, istehlak göstəricisi halına gəlməsində, gözəllik baxımından modanın estetik qaydalarından asılı olaraq tərtib edilir. Genişlənən moda sənayesində fərqli bir çox geyim stili var artıq. Stil ictimai həyatın daimi yenilənməsinin universal mexanizmi kimi yerləşdirilmişdir, hansı ki, yeni ideya əsasında hərəkət edir. Yeni tətbiq olunmuş texnologiyanın geyindiyimiz geyimlərdə istifadə edilməyə başlaması, geyim və moda sahəsində də köklü dəyişikliklərə və təmayüllər olmasına yol açdı.

ƏDƏBİYYAT

1. Горина Г.С. Народные традиции и моделирование одежды. Москва. Изд. Легпромиздат, 1994
2. Paşayev B.S. Parça və geyim məmulatlarının bədii layihələndirilməsi. Bakı, 2004
3. Гофман А.В. Новая теория моды и модного наведения. Москва. Изд. Питер. 2004.
4. Мамедова Л.Г. Цветовая гармония и создании костюма. Баку. Изд. Аз. ГЭУ 2004.
5. Ермилова В.В., Ермилова Д.Ю. «Моделирование и художественное оформление одежды» Москва. Изд. Академия, 2001.
6. Кулибакен Г.И. Рисунок и основы композиции. Москва. Изд. Высшая школа 1983

**Ramin ƏMRAHOV**
*Azərbaycan Texnologiya Universitetinin*
*Yüngül sənaye mühəndisliyi və dizayn*
*kafedrasının maqistrantı*
**E-mail: r.asgerova@uteca.edu.az**

**Elmi rəhbərlər: Şakir ƏLİYEV**
*texnika elmləri namizədi,*
*Azərbaycan Texnologiya Universitetinin*
*Yüngül sənaye mühəndisliyi və dizayn*
*kafedrasının dosenti*
**Gülnarə ƏLİYEVA**
*Azərbaycan Texnologiya Universitetinin*
*Yüngül sənaye mühəndisliyi və dizayn*
*kafedrasının baş müəllimi*
**E-mail: shakir.eliyev@uteca.edu.az**

# KİŞİ KOSTYUMLARININ DİZAYNINDA ÜSLUB VƏ ÜSULLARIN TƏTBİQİ (SOSİAL-PSİXOLOJİ ASPEKT)

*Açar sözlər:* geyim, üslub, üsul, siluet, kombinator, stil, metod, kostyum, dizayn

Müasir şərtlər daxilində geyim dizayneri təliminin əsas məqsədi öz qarşısına mədəniyyət və sosiumun vacib problemləri ilə bağlı olan çətin layihə məsələləri qoyan və onları layihələndirmənin müxtəlif üsulları vasitəsi ilə həll edən mütəxəssisin hazırlanmasıdır. Beləliklə geyim dizaynı onun rahatlığı, insanın ətraf mühitlə harmonik bütövləşməsi və yeni geyim növlərinin yaradılması ilə bağlı olan problemləri həll etməyə çalışır. Kombinator, modul, destruksiya və ya digər layihələndirmə üsullarından istifadə etməklə, geyim dizaynı geyimin gələcək inkişaf yollarını təqdim edir.

Kostyum ilk dəfə XVII əsrdə Fransada istifadə olunmuşdur. Bu sözün mənasını o zamanlar dövrün xarakterini, üslub tərzini göstərən adət və vərdişlərlə bağlayırdılar. Həm də bu söz önündə paltar geyinməyin üsulunu və qaydasını göstərir. Bu gün dəbdə olan kostyum, formasının tez – tez dəyişməsinə görə hətta qısa zaman dövrü ərzində belə adətə çevrilə bilmir.

İndi “kostyum” termini dedikdə geyimin elementləri və aksessuarları başa düşülür, hansı ki, onlar hər hansı bir fərd və ya insanların bir sosial qrupu haqqında məlumat daşıyır.

Deməli aşkar nəticə belədir, kostyum anlayışı paltar anlayışına nisbətən daha geniş bir anlayışıdır, belə ki, kostyum mahiyyət etibarı ilə həmişə geyimdir, amma geyim isə hər zaman kostyum deyil.

Beləliklə, əgər geyim termini ilə paltarın hər hansı faydalı mənada material xüsusiyyətləri adlandırılırsa onda kostyum termini də xarici görüntü ilə ifadə olunan üslub funksiyası adlanır.

Cəmiyyətin həyat tərzi onun tarixi təkamülünün hər bir mərhələsində geyimdən istifadənin xarakteri ilə əks olunurdu. Buna görə də demək olar ki, geyimin müxtəlif funksiyaları tarixən düzlənmişdir.

Sosial inkişaf prosesində geyimin təyinat sahəsi tədricən mürəkkəbləşmiş və təkmilləşdirilmişdir. Müəyyən formalı geyim quruluşu cəmiyyətdə seçilmək üçün bir nümunəyə çevrilməyə başlamışdı. İctimai təsəvvürü, davranış tərzini və şəxsiyyətin fərdi özəlliklərini əks etdirən kostyum anlayışı belə yaranmışdır.

Paltardan fərqli olaraq kostyum, özündə nəinki ayrıca bir insanın həm də millətlərin, xalqların hətta tam bir dövrün görünüşlü xüsusiyyətlərini daşıyırdı. O bir sənət əsəri kimi hər zaman mədəniyyətin inkişafının müəyyən bir mərhələsini əks etdirmiş rəssamlıq və teatr ilə sıx bağlı olmuşdur.

Kostyumun tarixi təkamülünü, incəsənətdə bədii üslubun dəyişməsi ilə izləmək olar.

XII – XIV əsrlərdə Qərbi Avropada yaranmış və kilsə ehkamlarına əsaslanan, o dövrün dini – idealist fəlsəfəsini əks etdirən Qotik üslub rəng ilə səciyyələnən və kostyuma dinamiklik verən assimmetrik bir həll xarakterik idi.

İntibah dövrü teatrallıq xüsusiyyəti olan Barokko üslubu ilə əvəz edilmişdir. Barokko üslubu üçün əzəmət, ibarəlilik və konkret bir formanın olmaması xarakterikdir.

“Rokoko” fransız dilində olan rocall-dən əmələ gəlmişdir və çanaq deməkdir. Onu çox vaxt gözəl və səliqəli üslub adlandırırlar. Kostyum getdikcə öz faydalı funksiyasını itirir, getdikcə estetik funksiyaya təslim olur və teatr geyimləri xüsusiyyətini əldə edirdi.

Feodal quruluşdan burjua sisteminə keçid dövründə klassik üslub yaranır. Bu üslubun formalaşması ideal nümunə kimi qədim və antik sənətə yeni bir dönüşə gətirib çıxardı.

Kostyum dizaynında üslub zaman etibarı ilə vaxt və insan cəmiyyətində təkamülü ilə bağlı əsasn anlayışlardan biridir. Burada dövrün stilini, tarixi kostyumun stilini, modalı stili, modelyerin stilini, firma stilini seçib ayırd etmək olar.

Stil öz inkişafının müəyyən mərhələsini xarakterizə edən bədii təfəkkürün ən ümumi kateqoriyası: müəyyən bir dövrdə və ya ayrıca bir incəsənət əsərində təsviri üsulların ideoloji və bədii ümumiləşməsidir.

Müəyyən şərtlər daxilində geyim dizayneri təliminin əsas məqsədi öz qarşısına mədəniyyət və sosiumun vacib problemləri ilə bağlı olan çətin layihə məsələləri qoyan və onları layihələndirmənin müxtəlif üsulları vasitəsi ilə həll edən mütəxəssisin hazırlanmasıdır. Beləliklə geyim dizaynı onun rahatlığı, insanın ətraf mühitlə harmonik bütövləşməsi və yeni geyim növlərinin yaradılması ilə bağlı olan problemləri həll etməyə çalışır.Kombinator, modul, destruksiya və digər layihələndirməüsullarından istifadə etməklə, geyim dizaynı

geyimin gələcək inkişaf yollarını təqdim edir. Geyim dizaynında kombinator metodlar – kombinasiyalardan istifadə etməyin əsas metodlarıdır. Bu üsullarla kombinatorika, transformasiya, kinetizm, ölçüsüz geyimlərin yaradılması, bütöv parça hissəsindən geyimin hazırlanması aiddir.

Özlərini moda tələblərinə uymayanlardan hesab edənlər əslində sadəcə olaraq köhnə dəbdə qalan insanlardır, başqa sözlə onların geyimləri keçmiş illərin geyim dəblərinə uyğun gəlir.

Müasir dövrdə yaşayan insanların zövqü çox müxtəlifdir, çünki dövrümüzdə dəb sürətlə dəyişilir, müxtəlif üslublar öz aralarında birləşir və moda, eləcə də geyim sahəsinə bir – birini əvəz edən yeniliklər gətirir.

Kombinatorika – dizaynda fəza, konstruktiv, funksional və qrafik strukturaların variant dəyişikliklərinin axtarışı, tədqiqi və tətbiqinə, həmçinin tipləşdirilmiş elementlərdən dizayn obyektlərinin layihələndirilməsi üsullarına əsaslanan forma yaradılışı metodudur.

Kombinatorika kombinasiya etməyin müəyyən üsulları ilə "işləyir", yerdəyişmə, qoşma, qruplaşdırma, çevirmə, ritmlərin təşkili. Məsələn, yerdəyişmə üsulu elementlərin dəyişməsini, onların əvəz edilməsini, qoşma üsulu isə sadə elementdən mürəkkəb formanın yaradılmasının nəzərdə tutur.

Çevrilmə - geyim dizaynında tez – tez işlədilən formanın başqa formaya çevrilməsini və ya dəyişməsiniüsuludur.

Çevrilmə prosesi çevrilmə dinamikası, onun hərəkətliliyi və ya kiçik dəyişikliklərlə təyin edilir.

Kinetizm - əsasında formanın hərəkət, onun istənilən dəyişməsi ideyası duran kombinator dizayn üslubudur. Kinetizm üsulu parçanın naxışlarının, dekorun, formaların dinamikasının yaradılmasından ibarətdir. Geyim dizaynında kinetizm üsulu getdikcə daha çox özünü peşəkar təqdimatlarda: kostyumun detallarının çevrilməsi dinamikasında, işıqsaçan obyektlərin istifadəsində, svetovodlarda, avtomat işıqlanmadan, kostyumun fırlanan və hərəkət edən hissələrində göstərir.

Ölçüsüz geyimlərin yaradılması – müxtəlif kompleksasiyalara malik olan çoxlu sayda alıcılara uyğun gələn nadir orta ölçülü geyimin hazırlamaq üçün layihələndirilməsinin kombinator üsuludur. Ölçüsüz geyim həm artıq, həm də kök insanların geydiyi müxtəlif həcmli trikotaj məmulatları şəklində artıq mövcuddur. Bütöv parça hissəsindən geyimin hazırlanması, kəsilmiş parça hissələrinin tikilməsinə əsaslanan ənənəvi üsullardan istifadə etməyən kombinatorika üsuludur. Qeyri adi və paradoksal qrafika effektləri yaratmağa imkan verdiyindən kinetik rəsm ideyası tekstil rəssamları üçün həddən artıq maraqlı oldu. Kinetizm statik forma daxilində güclü – dinamika yaratmağa imkan verir.

Modul layihələndirmə üsulu – dizayn məmulatlarının istehsalında modul layihələndirmənin tətbiqi standartlaşdırmada ən yüksək fəaliyyət sahəsidir.

Modul – tam formada təkrarlanan və istifadə olunan ilkin ölçülü vahididir. Modulun formaları daha mürəkkəb ola bilər, çiçəklər, yarpaqlar, kəpənəklər,

müxtəlif heyvanlar və quşlar şəklində. Belə modulları düyməməmək və açmaq çətin olduğundan onları "brid" vasitəsi ilə birdəfəlik bir – birinə tikmək olar. Gözəl naxışlı kompozisiyalar yaradılır və onlar kağız üzərinə qoyularaq bütün fraqmentləri tərsinə tikilir. Alınan ajur parçadan müxtəlif elementlər kimi istifadə etmək və ya bütün məmulatı tikmək olar.

Dekonstruksiya üsulu geyimin forması və fiqura oturması sahəsində sərbəst manipulyasiyaya əsaslanan geyim dizaynıdır.

Hərdən inversiyadan, yəni absurd dərəcəyə çatan yerdəyişmə əks layihələndirmədə, dönmə üsulundan istifadə xüsusi maraq kəsb edir.

Beləliklə, məlum olur ki, kostyumun layihələndirməsinin, kolleksiyanın yaradılmasının müxtəlif üsulları və mərhələləri mövcuddur. Bu prosesdə aşağıdakı vacib tərkib hissələri nəzərə alınır: kostyumun kompozisiyası, stili, rəngi, parça seçimi. Müasir dövrümüzdə kifayət qədər geniş çeşidə malik aksesuar seçimi də ciddi əhəmiyyətə malikdir. İndi dəbli kostyum formasının tez – tez dəyişməsi səbəbindən hətta qısa zaman kəsimi üçün də adətə çevrilə bilmir. Müasir mərhələdə kostyum sabit deyil və uzun dövr üçün onun inkişaf tendensiyalarını müəyyən etmək çətindir.

Qədim zamanlardan bəri kostyum çoxlu inkişaf mərhələləri keçmişdir. Hər bir dövrdə moda üçün öz stili səciyyəvi idi ki, bu da əsrlər boyu dəyişməmişdir. Barokko və ya ampir stilindən fərqli olaraq müasir kostyum daha surətlə dəyişir. Kostyum inkişafı cəmiyyətin bütün sahələrində baş verən dəyişiklikləri əks etdirir. Lakin, hər bir yenilik bu gün bir moda və aktual olmur. Çox tez – tez müasir kostyumda keçmiş dövrlərin izlərinə rast gəlinir.

Yeni əsr həyatın, davranışın, ünsiyyətin, düşüncənin öz qaydaları diktə edir. Həyat kaleydoskopik surətlə dəyişir. Dəyişkən və modul olan müasir insana onu ümumi fonda seçilməyə və onun şəxsi və professional uğuruna yardım etməyə imkan verən müvafiq imicinin olması vacibdir. Yeni düşüncə stilin əlaməti hər bir insanın şəxsi orijinallığı və təkrarsızlığıdır. Yalnız əşya – paltar, ayaqqabı, əlavələr – onların harmonik vəhdəti olmadan cəmiyyət üçün daha maraqlı deyil.

Burada bütün müasir kostyum xüsusiyyətləri müəyyən edilir. Araşdırmanın gedişində müasir dövr də daxil olmaqla hər bir dövrün kostyumun dəyişikliyi izlənmişdir: xüsusi halda "kostyum" anlayışının mahiyyəti açılmış bədii mədəniyyət sistemində kostyumun rolu müəyyən edilmişdir.

Beləliklə, aparılan araşdırmanın nəticəsində aydın oldu ki, müasir kostyum öz sələfləri ilə müqayisədə daha çevik, dəyişkən və gözlənilməz olmuşdur. Müasir kostyumun əsas xüsusiyyəti – zərif sadəliyi və rahatlığı, gözəlliyi və faydalılığıdır.

ƏDƏBİYYAT

1. Yunisov N.R. "Müasir modanın inkişaf tendensiyaları" Bakı, 2006.
2. Qasımova E., Məmmədova L. "Kostyumun kompozisiyası". Bakı, 2013.

3. Paşayev B.S. Ağamalıyeva Y.C. Məmmədova H. "Moda və kostyumun tarixi" Bakı, 2009
4. Чернышев О.В. «Формальная композиция». Минск, 1999.
5. Мода и стиль. Современная энциклопедия. Москва, 1994.
6. Горина Г.С. Народные традиции и моделирование одежды. Москва. Изд. Легпромиздат, 1994
7. Козлова Т.В., Тимашева З.Н. Основы моделирования и художественного оформления одежды. Издат. Москва, 1989.

**Bəxtiyar XOSUZADƏ**
***Bakı Slavyan Universitetinin***
***Xarici dil (rus dili) müəllimliyi ixtisası üzrə***
***bakalavr pilləsinin 4-cü kurs tələbəsi***
**E-mail: bextiyar.xosuzade@gmail.com**

**Elmi rəhbər: Yaşar ALXASOV**
***pedaqogika üzrə fəlsəfə doktoru,***
***Bakı Slavyan Universitetinin***
***Praktik rus dili və onun tədrisi***
***metodikası kafedrasının dosenti***
**E-mail: a-yashar@rambler.ru**

## NİHİLİZM: FƏLSƏFİ VƏ PSİXOLOJİ ƏSASLARI

*Açar sözlər*: nihilizm, fəlsəfi və psixoloji əsasları, rus ədəbiyyatı, Fridrix Nitsşe, Albert Kamus.

Nihilzm həyatın mənasını və bu həyata daxil olan bütün əxlaqi-mədəni davranışları mənasız hesab edərək inkar edir. Nihilzmi termin kimi ilk dəfə F. Yakobi işlətmişdir, əsasən XlX əsrdə yayılan nihilzm bu dövrdə rus ədəbiyyatına da çox böyük təsirlər göstərməyi bacarmışdır.

Rus ədəbiyyatında ilk nihlist obraz İvan Turgenyev "Atalar və oğullar" əsərində Bazarovdur, bununla yanaşı Fyodor Dostoyevskinin məşhur" Cinayət və cəza" romanında Raskolnikovu da nümunə göstərmək olar. Nihilzm ideoloji platforma kimi zaman-zaman rus mədəniyyətinə və cəmiyyətinə də böyük təsir göstərmişdir.

Nihilzm yarandığı gündən indiyə qədər fəlsəfədə ən böyük mübahisələrə və yeni fikirlərə səbəb olmuşdur.

Nihilzmin inkişafının əsas səbəbi zamanla fəlsəfədə dini inancların və idealistik yanaşmaların çökməyini nümunə gətirmək olar. Bu anlayış özündə iki məqamı ehtiva edir: 1. Aktiv nihilzm. 2. Passiv nihilzm

Aktiv nihilzmdə dəyərlərin mənasız olduğu qəbul edilsə də, burada subyektiv olaraq məna yaratmaq , sabit dəyər rədd edilmir. Passiv nihilzmdə isə həyatı tətmin etməyici, heçlik kimi qələmə alınır, burada psixoloji istəmsizlik də önəmli məqamlardan birini təşkil edir. Nihilzm yarandığı gündən insanların həyata baxışında çox böyük ziddiyətlər və problemlər təşkil etmişdir. Zamanla bu problemlərə qarşı yeni düşüncələr də formalaşmışdır, məsələn Fridrix Nitsşeni buna nümunə göstərmək mümkündür.F. Nitsşe əslində zamanının ən böyük nihlistlərindən biri adlansa da müasir dövrə doğru əslində onun nihlist olmadığı fikirləri , tənqidləri ortaya atılmışdır. Nitşse nihilzmi insanların ən böyük problərimlərindən biri hesab etmiş və onunla mübarizədə fəlsəfi fikirlər ortaya qoya bilmişdir.

Bu fikirlərdən ən məşhur "üst insan" fikridir. Nitsşe görə, üst insan bütün çətinliklərlə üzləşməli və həyata baxışını sadəcə öz tərəfindən formalaşdırmalıdır. Nihilzmə qarşı demək olar ki bütün fikirlər inanclara və idealizmə xas olsa da Nitsşe tam əksinə bunu materialist formada tənqid edirdi [1, s.5]. Albert Kamuya görə isə əgər hər şey mənasız və absurd olsa əslində nihilzm və bütün ideoloji – fəlsəfi fikirlər də absurd olaraq ziddiyətli olmalıdır.

Nihilzm özü bütün inancları rədd etdiyi üçün buna bağlı olaraq həyatda bir məqsədin və ya dəyərlərin olmasının vacibliyini tamamilə rədd edir.

Nihilzmin dayanağı Erkən dövr yunan filosofu Gorgiasa qədər gedib çıxır, o, bu düşüncə tərzinin təmsilçilərindən biri sayılır

Georgiasa görə, varlıq yoxdan ibarətdir çünki o var olsa belə insan onun gerçəkliyini dərk edə və ya əmin ola bilməz. O hər kəsin ortaq olaraq var deyəcəyi bir fikrin rasional şəkildə izah oluna bilməyəcəyini deyərək varlığı rədd etmişdir. Nihilzmin ən böyük tənqidlərindən biri əxlaq anlayışıdır. Nihilzmə görə həyat da heç bir dəyər vacib deyilsə əxlaqın icrası ümumi şəkildə vaciblik təşkil etmir və əxlaqi davranışlar real olaraq dəyərləndirilmir.

Ədəbiyyatda nihilzmin əxlaq anlayışı haqqında tənqidinə Raskolnikov obrazını nümunə göstərmək olar.

Raskolnikova görə, Tanrı yoxdursa, bütün dəyərlər insanın mənfəətlərindən ibarətdir və bu dəyərləri güclü insanlar özünə uyğun şəkildə idarə etməlidir fikri də nihilzmə xas olan fikirlərdən biridir.

Nihilzm bənzərliyinə görə ən çox varoluşçuluq ideologiyasına bənzəyir, bunun əsas səbəbi iki anlayışda da mövcud həyatdaki bəzi (əxlaq, kütlə psixologiyası, etika ) rasional adlandırıla biləcək hadisələrə nisbi yanaşma, yəni onların tam reallığını rədd etməkdə olan oxşarlıqıdır. Eynilə iki anlayışda da həyatın konkret bir mənasının olmadığı deyilir. Bu anlayışlar çox oxşar olsa da əslində ciddi fərqlər də mövcuddur, nihilzm həyatı ümumiliklə dəyərsiz saysa da varoluşçular həyatı obyektiv olaraq dəyərsiz lakin şəxsi olaraq önəmli hesab edirlər. Məsələn şəxs ümumi dəyərləri heç sayıb öz dəyərlərini inşa edə bilər. Varoluşçuluq ümumilikdə təkçə həyatın mənası üzərində deyil, azad iradə, insanın dünyada rasional məqsədi kimi şeyləri də sorğulayır.

Nihilzmin pessimist (bədbin) və optimist (nikbin)tipləri mövcuddur.

Pessimistlərə görə, heç bir şeyim anlamı yoxdursa həyatda konkret məqsəd də mövcud deyil və etdiyimiz hər şey sadəcə sistemin manipulyasiyası ola bilər, onlara görə mövcud dəyərlər də insanı aldadan sistemin bir parçasıdır və mövcud həyat və sistemdən qaçmaq mümkün deyil. Onlara görə insanı həyatda tutan tək şey sadəcə yaşama dirəncidir.

Optimistlər isə tam əksinə həyatın konkret bir dəyəri yoxdursa, mənfi düşüncələr də mənasızdır və insan hər halda bu həyatdan zövq ala bilirsə həyat tam olaraq dəyərsiz deyil,çünki əsaslı mənanın  rasional və ya irasional olması da önəmsizdir, əsas insanın uyğunlaşmasıdır, insan varlığındaki dəyərlər şəxsin əlindədirsə bu şəxsə pis yox tamamilə müsbət şeylər bəxş etməlidir.

Psixoanalitikanın banisi Ziqmund Freydin təbirincə, nihilzm kimi anlayışlar əslində insanın mənəvi xəstəliyi hesab olunur. O, bu ideologiyanı mənimsəyən insanlarda travma kimi pozğunluqlar olduğunu iddia edirdi. Freydə görə, ümumiyyətlə həyatdaki varlığımızı sorğulamaq insan təbiətinə zərərli və arzu olunmaz hesab olunur [2].

Nihilzm bir çox yanları ilə həyatı pessimistcə izah etsə də pozitiv yanları da mövcuddur, bunlardan ən önəmlisi həyatdaki insanları mənəvi cəhətdən zədələyə biləcək hadisələrə baxışdadır. Bit çox nihlistlərə görə bədbəxt hadisələrə neqativ reaksiya vermək düzgün deyil, çünki həyat özü dəyərsizdisə həyatdakı hadisələrə neqativ baxış da dəyərsiz olmalıdır.

Pessimist nihilzm fəlsəfəsinə baxışda ən önəmli ziddiyət  isə var olmağı anlamsız hesab edərək bundan əzab görməkdir, burda ziddiyət odur ki mənasız, dəyərsiz olan bir şey üçün acı çəkmək absurddur, pessimist nihlistlər də həyatın anlamsız olmasından əzab çəkib əslində bu əzabla onu anlamlı edirlər. Nihilzmdə ən böyük ziddiyyətlərdən biri də mənasızlığın da əslində bir duyğu olduğu və bu duyğu ilə ona anlam qatıldığıdır. Albert Kamusa görə, isə insanın mənasız olan bir şeydə məna axtarması və ya onu sorğulaması əslində özü də mənasızdır. Albert Kamus bunu absurd adlandırmışdır.

## ƏDƏBİYYAT

1.Ницше Ф. Человеческое, слишком человеческое. Книга для свободных умов // https://nietzsche.ru/works/main-works/human/var-human/?curPos=4

2.Ульянов В.А. Развитие нигилизма в Новое и Новейшее время: теоретический аспект // Омский научный вестник. – Омск, 2009. № 2 (76). – С.46-53.

## III BÖLMƏ
## Pedaqoji və inkişaf psixologiyası

**Mətanət ƏLİYEVA**
***Doktorant,***
***Psixologiya Elmi -Tədqiqat İnistutunun şöbə müdiri***
**E-mail: alievametanet89@gmail.com**

# YENİYETMƏLƏRDƏ BÖHRANIN TƏDQİQİ

*Açar sözlər:* yeniyetmə, böhran, keçid dövrü, böhrana müdaxilə, böhranın tədqiqi
*Ключевые слова:* подростковый возраст, кризис, переходный период, исследование кризиса.
*Keywords:* adolescence, crisis, transition, crisis research

Xülasə

Məqalədə böhran yaş dövrünün ümumi xarakteristikasından söhbət açılır. Eyni zamanda yeniyetməlik böhranı haqqında ayrı-ayrı xarici mütəxəssislərin fikirləri öz əksini tapır. Məqalə çəriçəvəsində 100 nfər yeniyetmə üzərində aparılmış tədqiqat haqqında da qısa məlumat verilmişdir. Məlum olmuşdur ki bu yaş dövründə böhran yeniyetmələrin böyük qismində özünü müxtəlif aspektən göstərir. Mövzu psixologiya sahəsində hər zaman aktualdır və yeni araşdırmalar tələb edir.

Yeniyetməlik dövrü fərdin inkişaf pillələri içərisində önəmli bir dönüş nöqtəsidir. Şəxsiyyət inkişafının tamamlanması gözlənilən bu dövr bəzi fərdlər üçün olduqca fırtınalı keçir, bəzən də müəyyən bir həyat hadisəsinə bağlı olaraq böhrana səbəb ola bilər. Yeniyetməlik, şəxsin nə uşaq, nə də yetkin olduğu, hələ ictimai vəzifələrinə sahib olmadığı, amma rolları kəşf edəbiləcəyi, sınaya biləcəyi, cəhd edəbiləcəyi, bir aralıq mərhələ olaraq qəbul edilir. Bununla birlikdə zehni inkişafdan başlayaraq, cinsi yetkinləşmə və cinsi identifikasiyadan keçərək, sosial şəxsiyətə çevrilənə qədər, yeniyetmələrin üzləşdikləri inkişaf dəyişikliyi nəzərə alındığı zaman, aralıq mərhələ anlayışı "xaotik dövr" anlayışı ilə rahatlıqla əvəz edilə bilər.

Yeniyetməlik dövrünü "fırtına və stresslər dövrü" kimi qiymətləndirən Xoll, bu dövrdə müşahidə olunan ziddiyətlərin gözlənti deyil, qanun olduğunu vurğulamışdır. Xolla görə, bütün insanlar içində inkişaf etdikləri sosial-mədəni kontekstən asılı olmayaraq eyni mərhələlərdən keçirlər. Bu mərhələlərdən biri olan yeniyetməlik gələcək həyatın gedişatını dəyişdirə biləcək çox vacib bir dövrdür (1, səh. 256)

Xollun biogenetik yanaşmasından təsirlənən Gessell, 1950-ci illərin əvvəllərində normativ inkişaf nəzəriyyəsini, yəni həyatın bir ilindən digərinə keçiddə ümumi olaraq rast gəlinən inkişaf hadisələrinin müşahidəsinə əsaslanan normal bir təkamül modeli təklif etmişdir. Gessell, hər bir fərdin böyümə quruluşu baxımından unikal olduğunu, lakin xronoloji yaşlarla əlaqəli müəyyən inkişaf normaları olduğu fikrini irəli sürmüşdür. Gesselə görə, yeniyetmə üçün mütəqillik axtarmaq, yeni fiziki, cinsi,

idrak və sosial bacarıqlarından yaralanmasını təmin edən rolları sınamaq tamamilə normaldır (2, s.180).

Blos və A.Freyd bu nəzəriyyəyə paralel olaraq yeniyetməliyin emosional bir fırtına olduğunu və bu fırtınanın olmamasının onların ana və atadan ayrılmasının qarşısını ala biləcəyini irəli surmuşlər. Bunun müqabilində bəzi müəlliflər (Offer və Bandura) bu dövrün emosional dalğalanmaların olduğu bir dövr olmadığını və yeniyetmələrin böyük bir qismi üçün bu vəziyyətin etibarlı olmadığı fikrini irəli sürmüşlər. Berzonsky bu fikirləri də əhatə edən şəkildə bəzi yeniyetmələrin bu dövrü gərgin bir stress dövrü olaraq keçirdiyini,, bəzilərinin isə bu stressi çox az yaşadığını vurğulamışdır. Xüsusi olaraq bu iki qrup arasında qalan yeniyetmələrin də olduğunu qeyd etmişdir. Berzonsky klassik və empirik bu iki fikir arasındakı fərqliliyin iş həcmini əhatə edən fərqli yeniyetmə qrupları ilə əlaqəli olduğunu düşünür. Berzonskya görə klassik nəzəriyyəni müdafiə edən şəxslə adətən çoxlu problemləri və pozuntuları olan yeniyetmələr ilə qarşılaşdıqları üçün yeniyetməlikdə yaşanan stressi şişirdilmiş olaraq dəyərləndirmiş ola bilərlər. Digər tərəfdən dəlil əsaslı nəzəriyyənin tərəfdarları da stress önəmsizləşdirmiş ola bilərlər.

Offer etdiyi eksperiment iki orta məktəbdən 326 oğlan şagirdə self-image anketini  tətbiq etmişdir. Bu şagirdlər arasından ortalama (normal) özünü tanımasını göstərən və hər hansı bir diqqətə çarpan pozuntu müşahidə olunmayan 106 oğlan şagird seçilmişdir. Son olaraq bu 106 şagirdin 3% -də məktəbdə ciddi davranış problemi olduğu müşahidə edilmiş və bu şagirdlərdə ekspremelentdən kənarlaşdırılmışlar.Bu qrup, Berzonskyin irəli sürdüyü fərziyyədəki alt qrupu yəni orta və yüngül səviyyədə stress yaşayan yeniyetmələri təmsil etməkdədir.

Offer 10 ölkədə keçirtdiyi eksperimentdə, yeniyetmələrdə ortaq xüsusiyyətlər olaraq ümumi olaraq həyatlarından məmnun olduğu, sosial olaraq insanlarla ünsiyyətdə olmağı üstünlük təşkil etməsi, başqalarının özləri haqqında düşüncələrini əhəmiyyət verdikləri, məktəbə və çalışmağa önəm verdikləri, cinsi yöndən özlərindən məmnun olduqları, ailələri üçün müsbət duyğular yaşadıqları, çətinlikləri dəf etmə mövzusunda özlərinə güvəndikləri bildirir. Bu yaş dövrünü "fırtına və stress" olaraq bir başqa deyimlə böhran olaraq yaşayan yeniyetmələr nisbətən daha az bir hissəni təşkil edir. Yeniyetmə bu çətin dövrü müəyyən müddətlərdə qayğılı şəkildə yaşasa da ümumilikdə gələcək yaşamı üçün təhlükə yaratmayacaq şəkildə keçirir.

Bir çox müəlliflər (Erikson, Offer, Galantin) böhran və qarşıdurmaların yeniyetmə inkişafın normal bir müddəti olduğu fikrini irəli sürür və bunu normativ böhran olaraq adlandırır. Bu normativ böhranlar bilindiyi kimi cinsi yetişmə, buna müşayiət edən fiziki dəyişmələr, müstəqillik və ana-atadan ayrılma müddəti ibtidai təhsildən sonra təhsil müddətində yenidən quruluş gözləməsi kimi ümumiləşdirmək olar. Yeniyetmənin içində yaşadığı dünya ilə hazır olmadığını fərq etməsinin gətirdiyi müdaxilə də bir normativ böhran ola bilər. Bir başqa deyimlə fərd, inkişaf pillələri üzərində irəliləyərkən yeni dövr özündən əvvəl olan nizamı ya da tarazlığı təhdid edə bilər. Bu vəziyyətdə yeniyetmə inkişaf problemlərinin həlli ilə mübarizə aparmağa çalışarkən stress, təşviş, həyəcan pozuntusu və  tarazlığında pozulmanın olduğu bir həyata girə bilər(3, s.89).

Blossun fikrinə əsasən, zidiyyətlərin səbəb olduğu gərginlik və mübahisələr, böyümənin enerji mənbəyi olaraq görülür. Bu mübahisənin məmnuniyyətlə həll olunmaması halında inkişafın ləngiyə biləcəyi hətta bir psixopatologiyaya səbəb ola biləcəyi göstərilmişdir. İnkişaf dəyişiminin ən gərgin, ətraflı və qarma-qarışıq şəkildə yaşandığı yeniyetməlik dövründə stressli həyat hadisələrinə bağlı inkişaf edən böhran vəziyyətlərinin də eyni riski yaratdığını söyləmək şişirdilmiş olmayacaq. Stressli həyat hadisələri ilə əlaqəli olan böhranlar kəskin və müddəti məhdud olan fərdin davam edən tarazlıq (homeostazis) halının pozulmasına səbəb olur. Əslində böhran hadisənin ya da vəziyyətin özü deyil, fərdin hadisəyə ya da vəziyyətə göstərdiyi reaksiya olaraq izah olunur.

Davisin fikrinə görə, yeniyetməlik rollarda meydana gələn dəyişmələr və mübahisələr səbəbi ilə stress yaradan dövrdür. Bu dövrdə rast gəlinən böhranlar sosial xüsusiyyətlər ilə əlaqəli olaraq fərqlilik göstərir. Məsələn, uğura ehtiyac duyma sosial sinifin gözləntilərinə görə bir şəxsdən digərinə çox dəyişə bilər (4).

Dövrümüzdə yeniyetmələrdə psixoloji böhranı araşdırmaq məqsədi ilə 2022ci il sentyabr ayında orta məktəbdə təhsil alan 13-14 yaşlı yeniyetmələr üzərində apardıq. Tədqiqat metodunun əsas xüsusiyyətləri- Tədqiqada "Böhran İdentikliyi testi" və "Lüşer" testindən istifadə olunmuşdur. Böhran İdentikliyi testi 136 sualdan ibarətdir. Testin sualları tədqiq olunanların yaşları nəzərə alınaraq uyğunlaşdırılmışdır. 136 sual özündə 9 şkalanı ehtiva edir:

1) "Uşaq-valideyn, ailə münasibətləri" (UVM)
2) "Məna dəyərləri aspekti" (MDA)
3) "Emosional aspekt" (EA)
4) "Davranış aspekti" (DA)
5) "Şəxsiyyətlərarası və peşəyə münasibətlər " (ŞPM)
6) "Cinsi aspekt" (CA)
7) "Stress faktorları" (SF)
8) "Sosial arzuolunanlıq" (SA)
9) "Şəxsiyyət böhranının ümumi göstəricisi" (ÜBG)

Bütün şkalalar üç komponentə bölünür və şəxsiyyət böhranının konstruksiyasını təşkil edir. Hər bir şkalada alınan nəticələr aşağıdakı dəyərlər diapazonuna görə şərh olunur:

- 39 bal və aşağı- aşağı dəyərlər
- 40-59 bal- orta dəyərlər
- 60 bal və daha yüksək- yüksək dəyərlər

Əldə edilmiş nəticələrin əhəmiyyət səviyyələrini göstərməklə qısa təsviri nə nəzər salaq.

1) "Uşaq-valideyn, ailə münasibətləri" (UVM)- 72 nəfər aşağı dəyərlər, 21 nəfər orta dəyərlər, 7 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
2) "Məna dəyərləri aspekti" (MDA)- 70 nəfər aşağı dəyərlər, 25 nəfər orta dəyərlər, 5 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
3) "Emosional aspekt" (EA)- 44 nəfər aşağı dəyərlər, 35 nəfər orta dəyərlər, 21 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.

4) "Davranış aspekti" (DA)- 29 nəfər aşağı dəyərlər, 35 nəfər orta dəyərlər, 36 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
5) "Şəxsiyyətlərarası və peşəyə münasibətlər " (ŞPM)- 38 nəfər aşağı dəyərlər, 49 nəfər orta dəyərlər, 13 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
6) "Cinsi aspekt" (CA)- 50 nəfər aşağı dəyərlər, 47 nəfər orta dəyərlər, 3 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
7) "Stress faktorları" (SF)- 45 nəfər aşağı dəyərlər, 42 nəfər orta dəyərlər, 13 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
8) "Sosial arzuolunanlıq" (SA)- 66 nəfər aşağı dəyərlər, 33 nəfər orta dəyərlər, 1 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.
9) "Şəxsiyyət böhranının ümumi göstəricisi" (ÜBG)- 81 nəfər aşağı dəyərlər, 18 nəfər orta dəyərlər, 1 nəfər yüksək dəyərlər diapazonunda özünü göstərmişdir.

   Yanaşı olaraq şagirdler üzərində apardığımız Lüşer metodikasının nəticələrinə görə 45 nəfərdə böhran əlamətləri var. Bu da onu göstərir ki ortalam 100 şagirdin 45 % də böhran halları müxtəlif aspektdə özünü göstərmişdir.

Yeniyetməlik dönəmində ali mıktəbə hazırlıq, yeniyetmənin gələcəyini müəyyən etməsi və gələcək ilə bağlı qaygılar bu dövrdə böhranların artmasına səbəb olur. Böyük yeniyetməlik dövründə gənclər, imtahanda uğursuz olma qayğısından ailənin və sosial mühitin gözləntilərini yerinə yetirməmə, özü üçun edilən xərc və investisiyalara layiq olmadığı və hətta imtahandan keçə bilməzsə həyatda olmasının bir mənası olmayacağı fikrinə də gələ bilər. Yeniyetməlik dövründə böhrana səbəb olan və dövrə xas olan xüsusiyyətlər bir başqa vəziyyət kimi qarşı cinslə münasibətlərdə yaşanan problemlər, tərk edilmə, rədd edilmə və ayrılıq olaraq qiymətləndirilə bilər. Bununla yanaşı olaraq ailələrin yeniyetmələrin sosial həyatlarını məhdudlaşdıran, maneə olan, müdaxilə edən münasibətləri şəxsiyyət inkişafına yönəlməsi lazım olan diqqəti ailə ilə mübahisəyə yönəltməkdə və bir çox problemlərə səbəb olmaqdadır. Həmçinin, hər fərd üçün böhran potensialını özündə ehtiva edən bəzi həyat hadisələri yeniyetməlik dövründə daha çox çətin olur(5). Məsələn, sevilən birinin ölümü hər yaşda fərd üçün çətin bir vəziyyətdir. Ancaq yeniyetməlik dövrundəki bir fərd üçün daha çox çətin bir vəziyyətdir. Ailə üzvlərindən birinin xüsusilə ana ya da atanın ölümü itkinin verdiyi əzabın yanında bir çox həyati çətinlikləri də birlikdə gətirdiyindən onsuzda fırtınalar dövrü olaraq məlum olan yeniyetməlik dövrünün daha çox ağrılı keçməsinə, bəzən də ilişib qalmasına səbəb olur. Göründüyü kimi həyat boyu olacaq böhran vəziyyətləri arasında özünə məxsus yer alan bəzi həyat hadisələri xüsusilə yeniyetməlik dövründə daha çox çətin ola bilər. Bu dövrdə ailənin yeniyetməyə qarşı münasibətində çətinliklərin olması isə böhran vəziyyəti ilə öhdəsindən gəlməyə əngəl olan hətta başqa bir böhran vəziyyətinin də əmələ gəlməsinə səbəb olacaqdır.

Yeniyetməlik dövründə edilən böhrana müdaxilə gələcək dövrlərdən fərqli olarq sadəcə mövcud olan böhran vəziyyətini həllə çatmaqla əldə etmək olmaz. Eyni zamanda sağlıqlı bir şəxsiyyətin meydana gəlməsi və güclü bir şəxsin meydana gəlməsinə kömək edər(6). Beləliklə, yeniyetmə həyat boyu ola biləcək problemlərin öhdəsindən gəlmə mövzusunda daha bilikli hala gəlir. Bundan başqa yeniyetmənin

böhranı ilə aşkar olunan ailə içi sağlam olmayan münasibətlərin dayandırılması yolu ilə sadəcə yeniyetmə deyil, ailə üçün ruhi sağlamlığını yaxşılaşdıran bir təsir yaradır.

ƏDƏBİYYAT

1. Qədirov, Ə.Yaş psixologiyası. Bakı: Maarif, - 2003.
2. Реан, А. А.. Психология подростка. Москва: - 2014.
3. Выготский, Л.С. Психология развития человека. М.: Изд-во Смысл; Эксмо, - 2005.
4. http://www.psychologos.ru/articles/view/psihologicheskiy-krizis
5. https://mayavakfi.org/13-18-yas-arasi-ergenlerde-kriz-donemi-tepkileri-ve-yapilmasi-gerekenler/
6. https://www.turkiyeklinikleri.com/article/tr-ergenlerde-travma-ve-krize-mudahale-82646.html

**Matanat ALIYEVA**

**Crisis research in adolescents**

**Summary**

The article discusses the general characteristics of the crisis age. At the same time, the views of some foreign experts on the crisis of adolescence are reflected. The article also provides brief information about a study of 100 adolescents. It has been found that at this age, the crisis manifests itself in various aspects in the majority of adolescents. The topic is always relevant in the field of psychology and requires new research.

**Матанат Алиева**

**Исследования кризиса у подростков**

**Резюме**

В статье рассматриваются общие характеристики кризисного возраста. В то же время отражены взгляды некоторых зарубежных специалистов на кризис подросткового возраста. В статье также приводится краткая информация об исследовании 100 подростков. Установлено, что в этом возрасте кризис проявляется в различных аспектах у большинства подростков. Тема всегда актуальна в области психологии и требует новых исследований.

**Simnarə HEYDƏROVA**
*Psixologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Xüsusi təhsil kafedrasının dosenti*
**E-mail: simnarah@gmail.com**

# GƏNC MÜƏLLİMİN ŞAGİRDLƏRLƏ ÜNSİYYƏTİNDƏKİ ƏSAS ÇƏTİINLİKLƏR VƏ ONLARI ARADAN QALDIRMAĞIN BƏZİ SƏMƏRƏLİ YOLLARI

*Açar sözlər:* müəllim, şagird, çətinlik, pedaqoji, psixoloji

Müəllimlik universal bir işdir. Hamı bir-birinə nəsə öyrədir. Tədris-təlim prosesinin effektiv olması üçün müəllimlə şagird arasında çox xüsusi əlaqə qurulmalıdır. Müəllim bu əlaqələri təmin etməyə imkan verəcək ünsiyyət bacarıqlarına malik olmalıdır.

Məqsəd şagirdlərin böyüməsi və inkişafıdır, lakin bir çox müəllimlər tərəfindən istifadə edilən və məktəb rəhbərliyi tərəfindən tövsiyə olunan tədris metodları şagirdlərin asılı, yetkinləşməmiş və uşaq kimi qalmasını təmin etməkdən irəli getmir. Müəllim və rəhbərlik onları dəyişmək, yeniləmək üçün daima yeniliklərə açıq olsalar, həm müəllimin, həm rəhbərliyin, həm də tələbələrin gələcəyi üçün məhsuldar olar.

Gənc müəllimlər şagirdlərlə ünsiyyət yaratmaqda bir sıra çətinliklər müəllimi ruhdan sala bilir və onun özünəinamını zəiflədir. Şübhəsiz bu cür çətinliklər hamıda tam mənasında eyni baş vermir. Bununla belə hamı üçün nisbətən yaxın olan elə çətinliklər vardır ki, onlar haqqında söhbət açmaq mümkündür. Bu sahədə aparılmış tədqiqatlara, mövcud ədəbiyyata və məktəb təcrübəsinə istinad etmiş olsaq həmin çətinlikləri təxmini olaraq aşağıdakı şəkildə qruplaşdıra bilərik.

1. Şagirdlərlə təmas yarada bilməmək.
2. Qarşılıqlı münasibəti yaratmağı və pedaqoji məqsəddən asılı olaraq onu dəyişdirməyi bacarmamaq.
3. Nitq ünsiyyətindəki və özünün emosional münasibətlərini materiala köçürə bilməməklə bağlı çətinliklər.
4. Ünsiyyət prosesində öz psixi vəziyyətini idarə etməyin mürəkkəbliyi.

Gənc müəllimin pedaqoji ünsiyyətindəki bu cür çətinliklər müxtəlif amillərlə bağlı ola bilər. Bu cür amilləri «psixoloji maneələr» adlandırırlar. Pedaqoji ünsiyyət sahəsində geniş tədqiqat aparmış V.A.Kan- Kalik bu cür «psixoloji maneələri» aşağıdakı şəkildə xarakterizə edir:

– Ustanovkaya malik olmamaq «maneəsi» – müəllim sinfə maraqlı dərs demək niyyəti ilə gəlir, sinif isə laqeyddir, diqqətsizlik və pərakəndəlik göstərir, nəticədə təcrübəsiz müəllim hirslənir, əsəbiləşir və i.a.;

– təmasın olmaması «maneəsi» – müəllim sinfə daxil olur, bu zaman

şagirdlərlə dərhal və əməli şəkildə qarşılıqlı əlaqə yaratmaq əvəzinə, bir növ «avtonom» hərəkət etməyə başlayır (məsələn, yazı taxtasında izahat yazır);

– ünsiyyət funksiyasının məhdudlaşdırılması «maneəsi»-müəllim yalnız ünsiyyətin məlumatvermə funksiyasını nəzərə alır, onun qarşılıqlı təsir, sosial-perseptiv funksiyalarına əhəmiyyət vermir;

– sinif haqqında neqativ ustanovkanın yaranması «maneəsi» – bu cür ustanovka həmin kollektivdə işləyən başqa müəllimlərin fikrinə və ya özünün uğursuzluğuna müvafiq olaraq yarana bilir;

– təlqin «maneəsi» – gənc müəllim başqa müəllimin fəaliyyətini, ünsiyyət tərzini yamsılamağa başlayır, lakin başqasının ünsiyyət üslubunu mexaniki şəkildə öz fərdi pedaqoji fəaliyyətinə keçirməyin mümkün olmadığını başa düşmür.

Ünsiyyət zamanı bu cür maneələrin olmaması üçün müəllim müvəffəqiyyətli qarşılıqlı əlaqəyə açıq - aşkar mane olan stereotip davranışdan uzaqlaşmağa çalışmalıdır. Müəllim daima belə bir suala cavab verməyə çalışmalıdır: «Şagirdlər məni necə görürlər?» Bu cür təhlilin həqiqi vəziyyətə daha uyğun olmasına cəhd göstərmək lazımdır.

Nəhayət, müəllim çalışmalıdır ki, şagirdlərlə özünün münasibətini bir növ aydınlaşdırmağa meylli olmasın, əksinə, onların inkişafının necə getdiyini təhlil etsin. Müəllim maneənin yaranmasına səbəb olacaq arzuolunmaz cəhətləri aradan qaldırmağa çalışmalıdır.

Bütün bunlarla yanaşı şagirdlərlə ünsiyyət prosesinin daha səmərəli getməsi və bu ünsiyyətin uşaqların psixi vəziyyətində baş verən daimi inkişafa uyğun olması üçün aşağıdakılara ciddi əməl edilməsi lazım gəlir:

– Hər şeydən əvvəl, müəllim ünsiyyətdə olduğu şəxsə qarşı həddindən artıq diqqətli olmağa çalışmalıdır. Bu zaman nəzərdən qaçırılan hər bir cəhət, ünsiyyətdə olan şəxsə qarşı düzgün olmayan hərəkət ünsiyyət prosesinin normal getməsinə mane olur;

– ünsiyyəti düzgün təşkil etmək üçün müəllim həmin prosesin səmərəli təşkili ilə bağlı məlumatları yadda saxlayıb, yada salmağı bacarmalı, başqa sözlə özünün «kommunikativ hafizəsini inkişaf etdirməlidir» (məsələn, sinfin və ya ayrı-ayrı şagirdlərin səmərəli ünsiyyət tonunu yada salmağı bacarmalıdır);

– nəhayət, ünsiyyətin səmərəli olması üçün müəllim ünsiyyət prosesində olduğu adam haqqında düşünməlidir. Bu zaman ünsiyyət qarşılıqlı xarakter daşıyır və əsas məqsəddən yayınma halları aradan qalxır.

Bütün yuxarıda deyilənlərdən belə bir ümumi nəticəyə gəlmək olar ki, pedaqoji ünsiyyət pedaqoji fəaliyyətin müvəffəqiyyətli icrası üçün zəruri yollardan biridir. Səmərəli pedaqoji ünsiyyət qaydalarına yiyələnməyən, onun sosial-psixoloji mexanizmləri ilə tanış olmayan müəllim öz fəaliyyətini müvəffəqiyyətlə yerinə yetirə bilməyəcək və ciddi çətinliklə qarşılaşacaqdır.

ƏDƏBİYYAT

1.Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, - 1998.
2.Əlizadə, Ə., Əlizadə, H. Pedaqoji psixologiya. Bakı: 2010.
3.İlyasov, M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, - 2013.

**Qəribə RƏHİMOVA**
***Psixologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Pedaqoji psixologiya kafedrasının dosenti***
**E-mail: qariba648@mail.ru**

## YENİYETMƏLƏRDƏ ÖZÜNÜDƏRKİN FORMALAŞMASINA TƏSİR EDƏN SOSİAL-PSİXOLOJİ AMİLLƏR

*Açar sözlər:* yeniyetmə, özünüdərk, sosial-psixoloji amillər

Yeniyetməlik dövrü 11-12 yaşdan 14-15 yaşadək müddəti, orta məktəbin beşinci-səkkizinci sinif şagirdlərini əhatə edir. Lakin yeniyetməlik dövrünün başlanmasına və qurtarmasına dəqiq sərhəd qoymaq mümkün deyildir. Müxtəlif amillarin təsiri altında həmin yaş dövrü bir il tez və ya gec başlaya, bir il tez və ya gec başa çatı bilər. Bu dövr özünün praktik əhəmiyyəti, pedaqoji çətinlikləri və uşaq şəxsiyyətinin dinamikasında baş verən psixoloji təbəddülatları ilə nəzər-diqqəti cəlb edir.

Yeniyetməlik yaş dövrü şəxsiyyətin formalaşmasının ilkin mərhələsi hesab olunur. Bu formalaşmada ailə, məktəb və sosial mühitin rolu danılmazdır. Təbii ki, yeniyetməlik dövrünə qədər bir çox şeylərin təməl daşları qoyulmalıdır. Özünüdərkin formalaşması və daha da inkişaf etdirilməsi yeniyetmənin həyatının bütün sahələrində iz buraxır. Özünüdərketmə ən çox şüurlu idrak olaraq təyin olunur. Hər bir fərdin özü haqqında düşüncələri, fikirləri və qiymətləndirməsi hesab olunur.

Yeniyetmələr üçün dərin dəyişikliklər xarakterik xüsusiyyət daşıyır, ilk növbədə fərdin inkişafına təsir bu müddətdən əsasən qaynaqlandığını demək olar. Bütövlükdə “mən” obrazı bu dövrün əsas roludur. Yetkinlikdə şəxsiyyət quruluşunun bütün komponentlərinin inkişafı, özünüdərk daxil olmaqla müəyyən sosial-mədəni ehtiyaclar var. Ən əhəmiyyətlisi bir yeniyetmənin sosial mühiti onun ailəsidir, buna görə də ən çox ailədə valideynlər tərəfindən özünüdərkin inkişafı üçün əhəmiyyətli şərtlər yaradılır. Özünüdərk və təşəbbüsün məhsuldar formalaşması üçün valideyn diqqətindən kənarda qalan

uşaqların sosial normaları və dəyərləri, həyat tərzlərini, münasibətlərini təşkil etmək vacibdir .

Özünə hörmətlə şəxsiyyət xüsusiyyətlərinin obyektiv qiymətləndirilməsi arasındakı uyğunsuzluğa təsir edən sosial-psixoloji amillərin tapılmasının vacibliyi günümüzdə aktualdır. Çünki, uyğunsuzluq öz-özlüyündə dəyərlər sahəsində təsirli istiqamətləndirmə imkanına səbəb olur. Uyğunsuzluğun xüsusiyyətləri də fərdin davranışının tənzimlənməsi və nəzarəti üçün vacibdir. Bu məsələdə hal-hazırda ən vacib olan aşağıdakı təhlil sahələridir:

- Şəxsiyyətin əsas sferasının təhlili, şəxsiyyət xüsusiyyətlərində əks olunan real potensial dəyərləri və keyfiyyətin reallaşma ehtimalı;
- Şəxsiyyət meyllərinin təhlili, öz keyfiyyətlərini təqdim etmək, bəzilərini nümayiş etdirmək və digər şəxsiyyət xüsusiyyətlərini gizlətmək istəyi ilə şərtlənən fərdin davranışıdır.

İnsanın şüuru, təbii təzahürlərdən- dünyagörüşününə qədər , insan varlığının geniş bir sahəsini əhatə edir. Bu özünüdərkin çoxsəviyyəli xarakteri həm əmələ gəlməsinə təsir edən müxtəlif amilləri, həm də tədqiqat zamanı inkişafının ən vacib detallarını müəyyənləşdirmə ehtiyacını əvvəlcədən müəyyənləşdirir. Yeniyetməlik dövrü ilə əlaqəli problemlərin həllinə çox sayda müxtəlif yanaşma mövcuddur. Bir-biri ilə çox çətin uyğunlaşma, bu inkişaf dövrünün psixoloji məzmunu haqqında fikirlər, müəyyən bir yaşda yeni bir forma kimi özünüdərkin öyrənilməsini çox çətinləşdirir. Tədqiqatçılar özünüdərkin formalaşmasına təsir göstərən müxtəlif amilləri, habelə aparıcı fəaliyyətlər kontekstində inkişaf səviyyəsini xarakterizə edən müxtəlif meyarları vurğulayırlar. Digər tərəfdən də, tədqiqatçılar bu yaşda insanın özünüdərk etməsinin məzmunu və strukturu, dinamik xüsusiyyətlərindəki fərqi müəyyənləşdirən və ümumiləşdirən müxtəlif sosial və mədəni inkişaf vəziyyətlərində bir yeniyetmənin formalaşmasının aspektini müəyyən etmişlər. Özünüdərketmənin davranış, emosional, normativ, dəyər-motivasiya xüsusiyyətləri şəxsiyyət tərəfindən təyin olunmuş mədəniyyət elementlərinə əsaslandığından, bu məsələnin təhlili kontekstində özünəməxsusluğun öyrənilməsində bir addım atmağın məntiqi və zəruri olduğu görünür. Bu baxış ümumiləşdirilmiş mənzərə yaratmağa imkan verəcək və bir yeniyetmənin inkişaf etməkdə olan özünüdərkinin müxtəlif xüsusiyyətlərini birləşdirərək inkişaf psixologiyası və şəxsiyyətini tamamlayan kontekstdə vahid bir araşdırmaya cəhd göstərəcəkdir. Beləliklə, yeniyetmələrin özünüdərk etməsinin psixoloji xüsusiyyətlərinin öyrənilməsində həm inkişaf psixologiyası, həm də şəxsiyyət psixologiyasının maraqları birləşir .

Yeniyetmənin öz şüurunun formalaşması ənənəvi olaraq ümumi qəbul edilmiş standartların mənimsənilməsi prosesində fərdi və yaradıcı rolu nəzərə alınır. Özünüdərkin məzmun tərəfinə çox vaxt yalnız formalaşdırıcı sosial-mədəni təsirlər nöqteyi-nəzərindən baxılır. Eyni zamanda, müstəqil bir şəxsiyyətin aktiv bir mövqeyi onsuz da inkişaf etmiş bir özünüdərkin meyarlarından biri olaraq elan edilir. Prosesin gedişi ilə nəticəsi arasında

ziddiyyət yaranır. Bir insanın davranışının, özünə münasibətinin daxili mənalar və şərhlərlə əlaqəli olaraq ortaya çıxdığını nəzərə alaraq, bu işdə yuxarıdakı ziddiyyəti həll etmək vacibdir. Cəmiyyət standartlarına uyğun olaraq yeniyetmənin tipik davranış standartları formalaşır. Fərdi psixoloji xüsusiyyətləri ilə, şəxsiyyətin özünü göstərməsini təyin edir. Üstəlik, dönüş fəaliyyətinin dərəcəsi fərdidir və hər bir insan "sosial olaraq verilmiş - fərdi olaraq dəyişdirilmiş" miqyasda mövqeyini tutur. Özünüdərkin formalaşması dövründə yeniyetmənin psixoloji xüsusiyyətləri haqqında mövcud fikirlər əsasən təsviri, müəyyənləşdirmə xarakteri daşıyır. Buna görə də, yetkinlik dövrünə xas olan özünüdərkin psixoloji xüsusiyyətlərini və onların arxasında hansı funksional zərurətin gizləndiyini müəyyənləşdirmək mütləqdir. Özünüdərkin psixoloji xüsusiyyətləri yeniyetmənin təmsilçi identifikasiyası növü, seçilmiş təmsilçinin sosial-mədəni xüsusiyyətləri və spesifikliyi, həmçinin fəaliyyət dərəcəsi və yeniyetmənin müəyyənləşdirdiyi model ilə qarşılıqlı əlaqəsinin xarakteri ilə müəyyən edilir. Hər yaş insan inkişafı üçün vacibdir. Yeniyetməlik, şəxsiyyətin formalaşma dövrü olan bütün yaş mərhələlərindən ən çətinidir. Yeniyetməlik yaş dövrünün əsas məzmunu uşaqlıqdan yetkinliyə keçiddir. İnkişafın bütün aspektləri keyfiyyətcə yenidən qurulur, yeni psixoloji formasiyalar yaranır, şüurlu davranışın əsasları qoyulur və sosial-mədəni münasibətlər formalaşır. Bu çevrilmə prosesi yeniyetmələrin şəxsiyyətinin bütün əsas xüsusiyyətlərini təyin edir .

Yeniyetmə öz-özünə baxmağa başlayır, sanki özü üçün "mən"ini kəşf edir. Şəxsiyyətinin güclü və zəif tərəflərini bilməyə çalışır. Özünə, öz şəxsiyyətinin keyfiyyətlərinə, özünü digər insanlarla müqayisə etmə ehtiyacına, özünə hörmət etmə ehtiyacına maraq göstərir. Yeniyetmələrin özünü qiymətləndirmə meyarlarının formalaşdığı fikirlər, xüsusi bir fəaliyyət - özünüdərk bilikləri zamanı əldə edilir. Bu yaşda təşkilati bacarıqların, səmərəliliyin, təşəbbüskarlığın və insan münasibətləri ilə əlaqəli digər faydalı şəxsi keyfiyyətlərin, o cümlədən işgüzar əlaqələr qurma, ortaq işlərdə razılaşma, öz aralarında vəzifələr bölüşdürmə və s. bacarıqların formalaşması üçün yaxşı şərait yaradılır. Bu cür fərdi keyfiyyətlər bir yeniyetmənin cəlb olunduğu və qrup şəklində təşkil edilə bilən fəaliyyətin demək olar ki, bütün sahələrində inkişaf edə bilər: öyrənmə, iş, oyun. Bir qayda olaraq, sinif kollektivinin ictimai fikri yeniyetmə üçün müəllimlərin və ya valideynlərin fikrindən daha çox məna daşıyır. Ümumiyyətlə dost qrupunun təsirinə, fikirlərinə çox həssasdır. Əldə edilmiş kollektiv münasibətlər təcrübəsi onun şəxsiyyətinin inkişafına birbaşa təsir göstərir, yəni tələblərin komanda vasitəsilə təqdim olunması bir yeniyetmənin şəxsiyyətini formalaşdırır.

## ƏDƏBİYYAT

1.Həmzəyev, M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: 2003. - 412 s.
2.Bayramov, Ə. S. , Əlizadə Ə. Ə. Sosial psixologiya. Bakı, 2003. - 354 s.

3.Реан, А. А.. Психология подростка. Москва: 2004. - 354 с.
4.Кочетиов, А. И. Перевоспитание подростка. Москва: 1972. - 412 с.

**Yeganə ƏSKƏROVA**
***Psixologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: y.askerova@inbox.ru**

# GƏNCLİK DÖVRÜNÜN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

*Açar sözlər:* gənclik dövrü, yeniyetməlik, kişi və qadın rolu, cinsi yetişmə, mənlik şüuru, cəmiyyət, ailə, milli dəyərlər

Müasir psixologiyada uşaqlıq mərhələsindən yaşlılıq mərhələsinə keçid prosesi özündə iki dövrü - yeniyetməlik və ilk gənclik yaş dövrlərini fərqləndirir. Yeniyeməlik yaşı uşaqlıqdan yaşlılığa keçid prosesinin birinci, ilk gənclik yaşı ikinci dövrünü təşkil edir. Gənclik insan həyatında uşaqlıq dövrünün başa çatması, insanın fiziki cəhətdən yetkinləşməsi psixoloji cəhətdən özünəməxsus yüksək keyfiyyətlərin formalaşması dövrüdür. İnsanın yaşlılıq hayatı məhz bu dövrdən başlanır. Bu dövr özünüdərketmə, mənlik şüuru və dünyagörüşünün tam formalaşmasının başa çatdığı, məsul qərarların qəbul edildiyi, dostluğun, məhəbbətin, intim yaxınlığın yüksək qiymətləndirildiyi mərhələ kimi qiymətləndirilir. Gənclər bioloji, psixoloji, psixoseksual va sosioloji amillərin təsiri altında inkişaf edib formalaşır. Bioloji baxımdan gəncin orqanizmi təkamül sayəsində fiziki cəhətdən əsaslı surətdə dəyişir, bədən möhkəmlənir, hərəkət, iş qabiliyyəti xeyli inkişaf edir. Psixoloji baxımdan gənclər artıq öz "mən" ini, şəxsiyyətini, qüvvəsini, xarici gözəlliyini dərk edir, gümrah, cəsarətli, inamlı olub həyata nikbincəsinə yanaşır. Onlarda həyat sevinci, yaşamaq-yaratmaq eşqi, peşə seçmə imkanları özünü daha qabarıq surətdə büruzə verir; idrak fəaliyyəti öz əhatəliliyi, dünyagörüşü isə bir qədər genişliyilə fərqlənir (1, s.134). Psixoseksual aspektdə inkişafına gəldikdə, burada cinsi yetişmənin əsasən tamamlanması, ikinci və üçüncü cinsi əlamətlərə keçid mərkəzi problem olub mürəkkəb biososial hadisə kimi özünü göstərir. Bu, əlbəttə, heç də bioloji-fizioloji dəyişmələrin nəticəsi olmayıb, həm də bioloji və sosial qüvvələrin qarşılıqlı təsirinin məhsuludur. Kişi və qadın olmaq həmin rolu mənimsəmək, ailə həyatı qurmaq, məhəbbət, qadın şərəfini, kişi ləyaqətini qorumaq gənclik yaşında özünü biruzə verən yeni keyfiyyətlərdəndir. Sosioloji aspektdə isə gənclik öz mahiyyəti etibarilə sosiolojilaşib mustəqil va məsuliyyətli fəaliyyətə keçir, gəncin şəxsiyyətinin fərdi-psixoloji mahiyyəti ictimai münasibətlərdən nəşət edir, başqa sözlə desək, o, ictimai münasibətlərin

məcmuyu kimi, sosioloji varlıq kimi yetişir, həyat hadisələrinə fəal mövqedən yanaşır, pasport alır. Erkən gənclik dövründə məktəblilər cəmiyyətdə, ailədə, kollektivdə özünəməxsus yer tutur, onların əsas fəaliyyət növü əmək və təlim olur. Aparici fəaliyyət növündən də məlum olur ki, məhz gənclik dövrü sosiallaşma dövrü hesab olunur. Gənclər əmək fəaliyyətinə yiyələnərək cəmiyyətin bir üzvünə çevrilir, sosialaşır və şəxsiyyətlərarası münasibətlər daha da mürəkkəbləşir.

Ümumiyyətlə, gənclik dövründə şəxsiyyət biososial-psixoloji varlıq kimi formalaşır, onlarda təşəbbüskar, prinsipial, məsuliyyətli davranış formaları təşəkkül tapır; gənc mürəkkəb intellektual əməliyyatlar aparmağa hazır olur, onun xüsusi qabiliyyətləri sürətlə inkişaf edir. Beləliklə, gənclik dövrü yaşlılıq mərhələsinə keçidin bitməsi, özünüdərketmənin təşəkkülü, sosial-psixoloji varlıq kimi formalaşma-yetişməkdə olan nəslin mühüm təbəqəsini təşkil edir.

Gənclik yaşında uşaqların mənlik şüuru inkişaf dövrünü yekunlaşdırır, ikinci cinsi əlamətlərin yaranması ilə qadın və kişi etalonlarını daha yaxşı mənimsəyir, yetkin qadın və kişi xarakterini özünküləşdirir, həyatda öz yerini necə tapmalı, həyat yolunu necə seçməli kimi fəlsəfi suallara cavab tapmağa çalışır. Eyni zamanda gənc özünü etnik mənşəyə görə qiymətləndirərkən milli mənsubiyyətini, milli dəyərlərini. adət-ənənələrini, milli düşüncə tərzini nəzər alır. Aid olduğu milli dəyərlər gəncin məhz ona uyğun davranmasını tələb edir. Bu da özünüqiymətləndirmənin etnoloji formasıdır. Məsələn, Avropada gənc avtobusda oturarkən minən yaşlı sərnişinə əyləşmək üçün yer vermir. Avropada gəncin yaşlıya yer verməsi kimi sosial gözləmə yoxdu. Lakin, Azərbaycanda bu cür hərəkət yaşlıya hörmətsizlik, ədəbsizlik kimi qeyd olunur və digər insanlar tərəfdən yaxşı qiymətləndirilmir. Bu sosial gözləmə sayəsində gənc özünü və davranışını qiymətləndirir. İkinci qiymətləndirmə ailə və ya sosial qrupa görə qiymətləndirmə hesab olnur. Belə ki, kiçik qrup olan ailə ənənələri, dəyərləri gəncin özünüqiymətləndirməsində önəmli rol oynayır. Əlbəttə ki, etnoloji dəyərlər cinsi inkişafa təsirsiz ötüşmür. Seula Benetin qeyd edirdi ki, Azərbaycan xalqında diqqətini cəlb edən məhz yaşlılara hörmət, qayğı və ehtiramdır (2, s.185).

Ailələrin müxtəlifliyinə uyğun olaraq qiymətləndirmə prosesi də müxtəlifdir. Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, natamam tipli ailələrdə və ya uşaq evlərində böyümüş gənclərin özünüqiymətləndirmə prosesi normal inkişaf etməmişdir. Onlarda özünüqiymətləndirmə aşağı səviyyədə formalaşır, bu da onların gələcək peşə və fəaliyyət baxımından maneələr yaradacaq. Həmin mühitdə böyüyən gənclər həm cinsi, həm də sosial rollarını tam dərk edə bilmirlər. Cinsi və real mənin tam qavranılmaması özünüqiymətləndirmə prosesinə mənfi təsir göstərir ( 3, s.23)

Bu dövrdə gəncin özünün şəxsi keyfiyyətlərini dərk etmək va qiymətləndirmək tələbatı yeni məna kəsb edir. Bu cəhətdən böyük məktəblilərin psixoloji çertiyojunu çəkək. Böyük məktəbli oğlan və qızlar özlərinin zahiri görkəminə çox önəm verirlər, artıq gənc olduqlarını hiss etdikləri üçün xarici

görkəmlərinə xüsusi diqqət yetirirlər. Ətrafdakıların xüsusi diqqətini çəkməyə çalışırlar. Bu dövrdə gənc öz psixoloji keyfiyyətlərini dərk etməklə, qiymətləndirməklə yanaşı, onun mənlik şüurunun məzmunu, özü haqqında təsəvvürü dəyişir: oğlan və qızlar özlərinə həddən artıq aludə olur, zahiri gözəlliyini qiymətləndirir, fiziki cəhətdən kiçik bir çatışmazlıq onları depressiyaya salır, özlərinə qarşı inamsızlıq yaradır. Onlar belə fikirləşirlər ki, hal-hazırda sevib-sevilən bir dövrü yaşadıqları halda bu cür qüsurlar onların həyatına böyük maneə törədir.

Gənclər öz şəxsi mənəvi keyfiyyətlərini, həmçinin davranış, əda və rəftarını, zahiri gözəlliklərini, ağlını sosial-ictimai baxımdan izah edib, bütövlükdə qiymətləndirməklə bərabər, kənar adamların qiymətlərini də başa düşürlər. Lakin böyük məktəblilər özlərini qiymətləndirmədikdə onlarda eqosentrizm təhlükəsi yaranır. Özünü aşağı qiymətləndirən gənc bütün yaxınlarının həyatında önəmli yer tutmağa çalışır, özünü mərkəzdə hiss etmək istəyir. Lakin buna baxmayaraq araşdırmalar göstərir ki, yeniyetmədən fərqli olaraq, gənclər öz şəxsiyyətlərini bütövlükdə qiymətləndirməyi bacarırlar (4, s. 114-115).

Bundan əlavə psixoloji ədəbiyyatlarda göstərilmişdir ki, bu dövrdə özünüqiymətləndirmə zamanı gənclər çox vaxt özləri haqqında mühakimələr yürüdürlər. Məhz buna görə də yuxarı sinif şagirdləri və tələbələr çox vaxt gənclik gündəlikləri tərtib edir və burada bir növ öz-özləri ilə mübahisəyə girişirlər. Bu gündəliklər gəncin psixoloji xasiyyət pasportu olur və sanki bunun sayəsində gənc özünü müqayisə və mühakimə edir. Hətta xatirə va gündəlik dəftərlərinin tutulmasında da cinsi fərq özünü göstərir. Belə ki, gənc oğlanlar gənc qızlara nisbətən daha gec gündəlik tərtib edirlər. Və ya xatirə dəftəri tərtib edir, bu işə onlardan daha az vaxt sərf edirlər.

Müşahidələr göstərir ki, erkən gənclik dövründə bir çox hallarda yüksək özünə hörmət hissi müşahidə olunur. Bunu əsasən belə izah edirlər ki, gənc artıq yetkin insanlar təbəqəsinə qoşulduğunu anlayır, cəmiyyətin fəal üzvünə çevrilir, yaşlılar sinfinə daxil olur. Bundan başqa qazanılmış müstəqillik və azadlıq da onların özün güvən və hörmət hissini birə min artırır. Şagirdlər və ya tələbələr bu dövrdə öz imkan və qabiliyyətlərini, kollektivdəki mövqelərini və statuslarını həddən artıq yüksək qiymətləndirir, bu, sahədə iddia səviyələri yüksək olur. Gənclərin özünüdərk etməsi və qiymətləndirməsi ictimai mənşəyindən, təhsil səviyyəsindən, fərdi xüsusiyyətlərindən, onu əhatə edən adamlardan, oxuduqları əsərlərin özləri üçün nümunə seçdiyi obrazlardan da çox şey aslıdır.

Həyat planlarını müəyyənləşdirmək, əmək və ictimai fəaliyyətə müstəqil başlamaq gənclərin mühüm xüsusiyyəti olub, onların şəxsiyyət kimi kamilləşməsində, formalaşmasında və cəmiyyətə layiqli vətəndaş olmasında rolu danılmazdır.

ƏDƏBİYYAT

1.Əlizadə, Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi”. Bakı: 1986.

2.Əliyev, R.İ. Mentalitet. Bakı: 2009.
3.Ковалев, А.Г.Психология семейного воспитания. М: 1980.
4.Кон, И.С.Психология старшеклассинка. М.: Просвещение, - 1982. – 190 с.

**Müjkan MƏMMƏDZADƏ**
***Pedaqogika üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Bədən Tərbiyə və İdman Akademiyası***
**E-mail: mujkan@mail.ru**

## TƏLƏBƏLƏR ARASINDA İDARƏETMƏ BACARIQLARININ FORMALAŞMASINA TƏSİR EDƏN PSİXOLOJİ ASPEKTLƏR

*Açar sözlər:* tələbə, müəllim, pedaqogika, psixologiya

Təhsil psixologiyası idarəetmə işində tətbiq ediləcək bir çox çərçivə işini təklif edir, motivasiya, möhkəmləndirmə və müəllim tələbə münasibətləri kimi auditoriyada istifadə olunan bəzi psixoloji üsullara diqqət yetirir. Tələbələrdə idarəetmə vərdişlərinin psixoloji təsirlərini təhlil edərkən aşağıdakı tədqiqat suallarını araşdırmaq lazımdır.

– Psixoloji üsullar tələbələrdə nəticələrə diqqət yetirmək üçün necə kömək edir?

– Tələbələrin davranışının pozulmasının arxasında hansı əsas psixoloji problemlər durur?

Tələbələrin idarəetmə bacarıqlarının inkişaf etdirilməsi üzrə aparılan yeni mülahizələr, psixoloji aspektləri araşdıran nəzəriyyələrin müqayisəli təhlilləri zəruri xarakter daşıyır. Araşdırılan yeni nəzəri-psixoloji biliklərin müəllimlər üçün effektiv olması proaktiv və reaktiv elementləri birləşdirən idarəetmə tərzi qurmasına imkan verəcəkdir.

B.F.Skinnerin Davranışı formalaşdırma Modeli amerikalı psixoloq, tədqiqatçı alim tələbələrin özünüidarəsini davranış nəticələrinə görə formalaşdığını iddia edir.

Burada istənilən möhkəmləndirici mexanizmin sistematik istifadəsi tələb olunur və tələbələrin davranışlarını istənilən istiqamətdə formalaşdırır. Müəllimlər əvvəlcə arzu olunan davranışları təyin edir və tələbələri bu arzu olunan davranışları təkrarlamağa təşviq etmək üçün uyğun möhkəmləndirici üsullar seçərək onların davranışlarını formalaşdırır və təlim idarəolunmasının təkamülünü göstərir:

• metakoqnisiya və kritik düşüncə;
• vaxtın səmərəli idarə olunması;
• fəal təlim mühiti [5, s.183].

Skiner idarəetmənin təlimdə komanda işinin təşkilini bir funksiya olduğunu və davranışlarda dəyişikliklərin baş verməsi kimi əsaslandırır:

– Skinnerə görə davranışdakı dəyişikliklər tələbələrin ətraf mühitində baş verən hadisələrə və ya stimullara reaksiyalarını təsvir edir;

– Komanda işində stimul - reaksiya (S-R) nümunəsi üzrə mükafatlandırılır;

– Skinner nəzəriyyəsi möhkəmləndirmə və ya istənilən cavabı gücləndirən bir yanaşmadır.

Bəzən təlimdə tələbələrin öz davranışlarına nəzarət etməsi və özlərinə uyğun yeni davranışlar qazanması lazım gəlir. V.Qlesser bu nəzəriyyədə tələbələrin özünüidarəsinə dəstək verərək, əsas ehtiyaclarını qarşılayan, uyğun olmayan davranışların azaldılmasını təklif edir və aşağıdakı nəzarət mexanizmlərini dəyərləndirir [4, s.83]:

– Tələbələrə özünüidarə üzrə şəxsi uğur qazanmaq üçün nəticə etibarilə uyğun davranış seçimləri etməyə kömək etmək;

– Tələbələrə yaxşı davranış seçimləri etməyi öyrənməyə kömək etmək;

– Davranış seçimlərinə uyğun real dünyada ehtiyacları ödəyə bilən məsuliyyətli şəxslər yetişdirmək;

– Tələbələri rasional seçimlər etməyə və öz davranışlarına nəzarətə istiqamətləndirmək;

– Tələbələrin yaxşı seçim etməsini təmin etmək üçün öz seçimlərinin nəticələrini görmək.

Seçim Nəzəriyyəsindən irəli gələn əsas ideya odur ki, tələbələrin özünə nəzarət və bununla da auditoriyanı idarə etməsi üçün müəllimlərin tətbiq etdiyi nizam-intizam ehtiyacı aradan qaldırılmalıdır. Auditoriya üçün qaydaların yaradılmasında tələbələr fəal iştirak etməli, onları təlimə motivasiya edən və özləri üçün maraqlı olan anlayışları araşdırmalı, öz seçimlərini başa düşmək üçün müəllimin bələdçiliyini qəbul etməlidirlər [4, s. 95].

Təlimin gözləntilərə əsaslanması, yəni tələbə maraqları və məmnunluğuna xidmət etməsi çox vacib faktordur. Tələbələrdə özünüidarə və bunun əsasında metakoqnitiv idarəetmə bacarıqları ilk öncə, təlim nəticələrində əks olunmalıdır.

Təqdim olunan nəzəri psixoloji modellərin öyrənilməsi tədqiqat işinin perspektivliyində belə bir nəticəyə gəlməyə imkan verir ki, təlimdə davranış modellərinin dəyişkənliyi və yeni bir təlim forması sonda tələbə mərkəzli təlimin idarə olunmasında müxtəlif psixoloji yanaşmaların olmasını zəruri hesab edir.

Bütün bunlarla yanaşı tələbələrin bir fərd kimi daxili özünüidarəsində müxtəlif psixoloji aspektlərin araşdırılması təlimin idarəolunmasında əhəmiyyətli elementlərin öyrənilməsini vacib hesab edir.

Təlimdə iştirak edən hər bir fərd daxili streslərin növünə, patologiyasına və disfunksiyalarına görə fərqlənir və yaranan bu vəziyyət olduğu dərəcədə dəyişir. Bəzən təlimdə hər bir öyrənənlərin özündə mənşəyinə uyğun şəxsi streslərini idarə etmələri lazımdır. Bir çox hallarda təlimdə fərdi stresin idarə

edilməməsi məqsəd və hədəflərə çatmaq üçün maneə törədir. Müşahidələr göstərir ki, hər bir öyrənən stresini idarə edərkən, öz yanaşma tərzindən istifadə etdikdə, onun təsirli olduğu təsbit edilə bilər. Tələbələrdə qarşılıqlı ünsiyyətin və ya fərdi fəaliyyət zamanı yaranan stresi idarə etməyin ən yaxşı yolunu fəaliyyətlər əsasında minimuma endirəcək və ya aradan qaldıracaq strategiyalardan istifadə etmək lazımdir. Effektiv strategiyalar, stresləri idarə etmək üçün yeni bir pozitiv təlim mühitini yaradan və ya tətbiq edən strategiyalardır. Tələbələrin idarəetmə bacarıqlarının kökündə streslə mübarizə qabiliyyəti əsas yer tutur.

Təlimin kritik bir hissəsi kimi sosial və emosional özünü tənzimləmə, tələbələr arasında müstəqil bacarıqlar haqqında onları məlumatlandırmaq öz hərəkətlərinin təsirlərinə güvənməli olmalarına təminat verir. Özünütənzimləmə təlimdə tələbələr üçün ən vacib gözləntidir. Burada özünütənzimləmə diqqət, düşüncə və duyğuları izləmək qabiliyyətidir. Duyğularını və davranışlarını tənzimləmək qabiliyyətinə sahib olan tələbələr, digər tələbələrlə daha yaxşı əlaqədə ola və günün müxtəlif fəaliyyətlərinə cavab verə bilirlər.

## ƏDƏBİYYAT

1.Əhmədov, H.M. Azərbaycan məktəbi və pedaqoji fikir tarixi / H.M.Əhmədov. –Bakı: Elm və təhsil, – 2014. – 432 s.
2.Əhmədov, H.M. İdarəetmənin pedaqogika və psixologiyası. Dərs vəsaiti. / H.M.Əhmədov, A.V. Həsənov, H.B. Bayramov. – Bakı: Maarif, – 2004. – 324 s.
3.Əhmədov, N. İdarəetmənin pedaqogikası və psixologiyası / N.Əhmədov. – Bakı: –2000. – 384 s.
4.Glasser, W. Choice theory in the classroom / W.Glasser. – New York, Harper, – 2001. – p.25-34.
5.Skinner, B.F. The operant side of behavior therapy // Journal of Behavior Therapy and Experimental Psychiatry, – 1988. No 19(3), – p.171 – 179. URL: https://psycnet.apa.org/doi/10.1016/0005-7916(88)90038-9

**Günəş ƏFƏNDİYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: gunes.efendiyeva1953@gmail.com**

# TƏLİM FƏALİYYƏTİ ZAMANI UŞAQLARDA PEDAQOJİ QABİLİYYƏTLƏRİN İNKİŞAFINA DAİR MƏSƏLƏLƏR

*Açar sözlər:* müəllim, pedaqoji qabiliyyət, şagirdlər

XX yüzilliyin axırlarında - XXI yüzilliyin əvvəllərində yeni pedaqoji təfəkkürün formalaşması,yeni təhsil strateqiyası və texnikasının əmələ gəlməsi kontekstində uşaqlarda qabiliyyətlərin inkişafı önəmli əhəmiyyət kəsb etməyə başlamışdır. Müasir şəraitdə insan anlamı köklü sürətdə dəyişməyə başlayıb: vaxtilə qeyri-adi ağıl fenomeni kəşf olunanda homo-sapienc – ağıllı insan anlamı əmələ gəldi.İllərin əsrlərin axırında homo habilis – bacarıqlı insan anlamı geniş yayılmağa başlanıldı. Elmi-texniki inqilab şəraitində homo livens,homo piktor – yaradıcı insan anlamının yaranması isə XX əsr mədəniyyətinin böyük uğuru idi. Müasir təhsil konsepsiyası məhz uşağın yaradıcılıq imkanlarının üzə cı- xarılmasını və inkişaf etdirilməsini dövrün başlıca pedaqoji-psixoloji problemi kimi mənalandırdı.

İnsan idrakının üfüqləri genişləndikcə ,elm və texnikanın üfüqləri artdıqca, bəşəriyyət insanın yaradıcılıq imkanlarını daha üzvü ölçülərlə qiy- mətləndirir. Yaradıcı insan - əsrin köklü anlamlarından biridir.

Müasir təhsil konsepsiyası didaktik və təşkilatşılıq qabiliyyətlərinin, kommunikativ və perseptiv, ekspressiv və konstruktiv qabiliyyətlərin əhəmiyyətini xüsusi vurğu ilə dəyərləndirir. Kiçik yaşlarından özlərinin yüksək qabiliyyətləri ilə fərqlənən uşaqların, o cümlədən vunderkindlərin tərbiyə- yəsi valideyn və müəllimdərdən xüsusi psixoloji səriştə tələb edir.Məktə müşa- hidələri də şagird-müəllim münasibətlərinin əmələ gəlməsində və inkişafında,ilk növbədə , kommunikativ qabiliyyətlərin xüsusi yer tutduğunu göstərir.Müəllim məhz bu keyfiyyətləri ilə həyatın dibinə enib uşaqları və gəncləri cəmiyyətin fövqünə qaldırmaq zəhmətinə qatlaşır. Müəllim bir şəxsiyyət kimi şagirdlərin ona münasibətlərində yaşayır. Onun şəxsiyyətinin fərdi – psixoloji xassələri- nin əhəmiyyət haqqında təntənəli sözlər deyilmişdir?! Bu sözlərin hamısı da inkar edilməz pedaqoji həqiqətlərə söykənir.Müəllimin ekspressiv qabiliyyətləri qeyri-verbal ünsiyyət sahəsi ilə bilavasitə bağlıdır. Müəllim mimika mədəniyyəti nə qədər əhəmiyyətlidirir. İntonasiya da pedaqoji fəaliyyətdə önəmlidir. Bu kontekstə kinesika problemləri də diqqəti cəlb edir. Müəllim-şagird ünsiyyəti sahəsində proksemikanın effektləri diqqəti xüsusilə cəlb. Bu psixoloji məsafə problemle- midir. Alan Pizin araşdırmalarında müəllimlə şagirdlər arasında məsafə sosial məsafə kimi açıqlanır. A.Pizə görə, sosial unsiyyət zonası 1,2 m-dən 3,6 m-ə

qədərki məsafəni əhatə edir. Ancaq nəzərə almaq lazımdır ki, bu coğrafi məsafə deyil, psixoloji məsafədir. Coğrafi məsafənin isə hələ yazılmamış sosial-pedaqoji olçüləri var.

Müasir tətbiqi pedaqoji psixologiyada tədris prosesi dixotomik ölçülərlə həm elm kimi, həm də incəsənət kimi araştırılır, bu özəmli kreativ sahə özünəməxsus yaradıcılıq sahəsi kimi təhlil olunur və bu məsələlər pedaqoji qabiliyyətlər konsepsiyasında açıqlanır. İki əsrin - XX və XXI əsrin qovşağında pedaqoji qabiliyyətlərin sistemli tipoloji təsnifatı yaradılmışdır. Bu təsnifatın meyarları ilə xüsusilə aşağıdakı pedaqoji qabiliyyətlər ayırd edilir: didaktik, perseptiv, konstruktiv, kommunikativ, ekspressiv, təşkilatçılıq qabiliyyətləri və s.

Müəyyən edilmişdir, pedaqoji qabiliyyətlər sistemi xarakter daşıyır, "zəncirvari reaksiya" kimi bir-biri ilə bilavasitə bağlıdır.

Pedaqoji qabiliyyətlərin hər birinin özünəməxsus fenomenologiya var və onlar Azərbaycan psixologiyasında bu ölçülərlə öyrənilir. Takseonomik ölçülərlə " biliklərin landşafının" açıqlanması, dərsdə informasiyanın psixoloji meyarlarla təhlili - didaktik qabiliyyətlərin ana xətti belədir. Pedaqoji psixologi- yada didaktik qabiliyyətlərin təsfirində onların bəzi məziyyətlərinə - şagirdlərdə fənnə marağın oyadılmasında müstəqil fikrin yaradılmasına önəmli məna verilir.

Məktəb təcrübəsində, müəllimlərin şagirdlərlə münasibət sahəsində az təsədüf edilməyən bu hadisələr psixologiyada Rozental effekti ikimi məşhurdur. Müəllilər qabiliyyətli hesab etdikləri şagirdlərdən çox şey gözləyirlər," qabiliyyət- sizlərdən" isə əllərini üzürlər. Dərstə də onlara bu ölçülərlə yanaşırlar.

Müasir məktəb öz inkişafında mahiyyətcə yeni mərhələyə daxil olur. Gələcəyin məktəbi öz humanist amallarına,hər şeydən öncə,məhz uşaq qabiliyyət- lərinin çiçəklənməsi yölu ilə həyata keçiriləcəkdir.

ƏDƏBİYYAT

1.Əlizadə, Ə.Ə., Əlizadə, H.Ə. Yeni pedaqoji təfəkkür: Psixopedaqogikaya giriş. – Bakı: ADPU-nun mətbəəsi, - 2008. – 480 s.
2.Əlizadə, Ə.Ə. Seçilmiş əsərləri. I cild: - Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. – Bakı: "Füyuzat", - 2022. – 524 s.
3.Əlizadə Ə.Ə. İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər: esselər və etüdlər. – Bakı: . ADPU-nun mətbəəsi, - 2005. – 352 s.

**Günəş ƏFƏNDİYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: gunes.efendiyeva1953@gmail.com**

# TƏLİM FƏALİYYƏTİ ZAMANI PEDAQOJİ ÜNSİYYƏTİN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

*Açar sözlər:* pedaqoji ünsiyyət, müəllim,şagirdlər, fəaliyyət

Pedaqoji ünsiyyət müəllimin şagirdlərlə təlim və tərbiyə prosesində həyata keçirdiyi peşə ünsiyyətidir. Bu cür ünsiyyət hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün şərait yaradılmasına yönəlmiş sosial-psixoloji prosesləri idarə etməyə və səmərəli psixoloji iqlim yaratmağa imkan verir. Ona görə də hər bir müəllimin pedaqoji ünsiyyətinin mahiyyəti onun sosial-psixoloji mexanizmləri ilə dərindən tanış olmalı və şagirdlərlə birgə fəaliyyəti zamanı ondan lazımı şəkildə istifadə etməsi zəruridir. Pedaqoji ünsiyyət problemlərinin öyrənilməsi göstərdi ki, "Müəllim- şagird" münasibətləri köklü təlim- tərbiyə məsələsidir. Pedaqoji fəaliyyətin psixoloji məzmununu təhlil edəndə onun ana xətti kimi "Müəllim–şagird" münasibətlərini ayird edirlər.

Müəllim bu münasibətlərin sadəcə olaraq iştirakçısı deyil , özünün statusuna, peşə səriştəsinə və həyat təcrübəsinə görə onların təşkilatçısıdır.

Humanistik psixologiya anlamında müəllim şagirdin özünə və "ideal- Mən"ə nail olmaq imkanına inamını möhkəmləndirməli, onun "Mən konsepsiyası ilə real təcrübəsi arasındakı dissonası aradan qaldırmalı, sinifdə şagirdin özünüaktuallaşdırılmasına imkan verən qarşılıqlı etimad və canlı ünsiyyət mühiti yaratmalıdır. Məktəbin hemanistləşdirilməsi təlim prosesində yeni tipli müəllim-şagird münasibətlərinin bərqərar olmasını nəzərdə tutur.Şagirdin insan ləyaqətinə hürmət etmək,ona etibar və inamla yanaşmaq, bir şəxsiyyət kimi onun məqsədləri, tələbatları və mənafeyi ilə hesablaşmaq – məhz bu keyfiyyətlər müəllimlərin şagirdlərlə münasibətlərinə nurlu insani çalarlar bəxş edir.

Müəllim bir şəxsiyyət kimi şagirdlərin ona münasibətlərində yaşayir. Onun şəxsiyyət kimi,fərdi psixoloji xassələrinin əhəmiyyəti haqqında nə qədər təntənəli sözlər deyilmişdir? Bu sözlərin hamısı da inkaredilməz pedaqoji həqiqətlərə söykənir. Müəllimin kommunikativ fəaliyyətinin öyrənilməsi göstərir ki, pedaqoji ünsiyyətin xarakteri və məzmunu müxtəlif amillərlə şərtlənir ki, bunlardan müəllimin fərdi ünsiyyət üslubu, mövqeyi, ustanovkasını xüsüsi qeyd etmək lazımdır. Bunlar bir növ ünsiyyətin vasitəsi rolunu oynayırlar.

Qeyd eyləmək lazımdır ki, müəllimlərin hamısında ünsiyyət üslubu eyni olmur. Konkret bir şəxsiyyət kimi hər bir müəllimdə ünsiyyətin təşkili şəkildə priyom və metodları nisbətən sabit cəmlənir.

Pedaqoji ünsiyyətin uşaqların gözündə ,qəlbində yaşayan özgün sirrləri var. Bu sirrləri araşdıranda müxtəlif suallarla rastlaşırsan: şagirdlər müəllimi necə qavrayırlar? Necə anlayırlar? Hansı mənada onunla fəxr edirlər? Müəllim kimi,insan kimi, kişi və ya qadın kimi hissləri ilə nücə yaşayırlar? Görəsən müəllimin hansı keyfiyyəti daha əhəmiyyətlidir? Şagirdlərin gözündə müəllim özünün hansı məziyyətləri ilə seçilir?

Şagirdin müəllimi,hər şeydən öncə.insan kimi qymətləndirilməsi pedaqiji ünsiyyətin özünün mahiyyəti ilə bağlıdır. Bu özünəməxsus ünsiyyət insan-insan münasibətlərinə söykənir; şagirdlər də müəllimi elə bu baxımda qav-rayıb anladıqları üçün məhz onun bir insan kimi xarakteristikasını daha aydın ayırd edirlər. Müəllim təkçə şagirdlərə müraciət edəndə, kiminləsə söhbət və ya zarafat edəndə,kimisə danlayanda deyil, həm də dərsdə şərh etdiyi hadisələrə münasibətini bildirəndə-güləndə, bulud kimi tutulanda, mimikası, nitqinin paralinqvistik və estralinqvistik çalarları ilə özünü məhz insan kimi təstiq üdir. Şagirdlər bu çalarları bütün incəliyi ilə sezirlər; müəllimi ya rəğbətləndirirlər, ya da rəğbətləndirmirlər.

Müəllimlərin özləri isə ideal müəllim üçün zəruri saydıqları küyfiyyətləri qeyd edəndə,ilk növbədə, onun işgüzar və peşə keyfiyyətlərinə diqqət yetirirlər.

Pedaqoji fəaliyyət zamanı müəllimin pedaqoji ünsiyyəti həmişə rəvan maneəsiz ketmir. Müəllim bu posesdə bir sıra psixoloji çətinliklərə rast gəlir ki, onları nəzərə almadan və aradan qaldırmadan pedaqoji fəaliyyətin müvəffəqiyyətindən danışmaq olmaz. Çətinlii doğuran səbəbin obyektivlik dərəcəsindən asılı obyektiv və subyektiv çətinlik, dərk olunma dərəcəsinə görə dərk olunan və olun mayan çətinlik özünü göstərir.

Ümumiyyətlə göturdukdə müəllimin psixoloji çətinlikləri,onun müəyyən pedaqoji şəraitdə həyata keçirdiyi fəaliyyət zamanı təzahür edən gərginlik vəziyyəti ilə müəyyən edilir.

ƏDƏBİYYAT

1.Əlizadə, Ə.Ə. , Əlizadə, H.Ə. Pedaqoji psixologiya. Dərslik. – Bakı: ADPU-nun mətbəəsi, - 2010. – 602 s.
2.Həmzəyev, M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. – Bakı: “Adiloğlu” nəşriyyatı, - 2003. – 282 s.
3.Əlizadə, Ə.Ə., Əlizadə, H.Ə. Yeni pedaqoji təfəkkür: Psixopedaqogikaya giriş. – Bakı: ADPU-nun mətbəəsi, - 2008. – 480 s.

**Sona ƏLİYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: sonasi83@mail.ru**

# AQRESSİV DAVRANIŞIN YAŞ XÜSUSİYYƏTLƏRİ

*Açar sözlər:* aqressiya, verbal aqressiya, davranış, xüsusiyyət, neqativizm

Longityudal (uzunmüddətli) tədqiqatlar göstərir ki, uşaqlıqda formalaşan aqressivlik sabit xüsusiyyət olaraq qalır və insanın sonrakı həyatı boyu davam edir (Olweus, 1977; Huesmann, 1984). Habelə, A. Bass və A. Darki qeyd edirdilər ki, yeniyetmələr böyüdükcə aqressiyanın müəyyən növlərinin artması tendensiyası müşahidə olunur: fiziki, verbal aqressiya, neqativizm və s. Yalnız oğlan və qızlarda aqressiv reaksiyaların təzahürünün yaş dinamikası fərqlidir. Məsələn, oğlanlarda fiziki aqressiya yaş artdıqca azalır, qızlarda isə artma müşahidə olunur. Eyni dəyişikliklər verbal aqressiya ilə də baş verir.

G. R. Xuzeeva və E. O. Smirnova (1996) müasir məktəbəqədər uşaqların aqressiv davranışının fenomenologiyasını təsvir etmişdilər. 5-6 yaşlı 115 məktəbəqədər uşağın sərbəst qarşılıqlı fəaliyyətinin müşahidəsi nəticəsində aqressiv davranışın çoxsaylı və müxtəlif formaları müəyyən edilmişdir. Uşaqların böyük əksəriyyətində birbaşa və dolayı verbal aqressiya müşahidə edilirdi. Məsələn, şikayət və aqressiv fantaziyalar (zəng edəcəm polis gəlib səni türməyə salacaq) və ya bir başa təhqir ("dəli", "yalançı", "gombul"). Bəzi uşaqlarda fiziki aqressiya halları dolayı (başqalarının oyuncaqlarını sındırmaq, qurduğu evi dağıtmaq və s.) və birbaşa (yoldaşlarını yumruqla vurmaq, taxta ilə başına vurmaq, dişləmək və s.) müşahidə olunurdu.

Uşaqları aqressivliyə təhrik edən vəziyyətlər arasında G. R. Xuzeeva və E. O. Smirnova aşağıdakıları müəyyən etdilər:

- həmyaşıdlarının diqqətini cəlb etmək (oğlan kitabı qızın əlindən alır, oyuncaqları səpələyir və qəzəbli iti təqlid edərək ucadan hürməyə başlayır, bu da təbii olaraq diqqəti cəlb edir);
- öz üstünlüyünü vurğulamaq üçün başqasının ləyaqətinə toxunma (oyuncaq detalı çatmadığı üçün üzülən dostuna: "Ha ha ha, sənə əcəb oldu, bacarmayacaqsan, sən ağlağan və mızmızasan" qışqırır);
- müdafiə və intiqam ("Hücuma" məruz qalan və ya oyuncağı zorla əlindən alınan uşaq cavab olaraq aqressiv davranış ilə cavab verir);
- lider olmağa çalışma (məsələn, cərgədə birinci yeri tutmaq üçün uğursuz cəhddən sonra oğlan qabaqda duran dostunu itələyir, onun saçından tutur və başını divara çırpmağa çalışır);
- istədiyi obyekti əldə etmək istəyi (istədiyi oyuncağa sahib olmaq üçün bəzi uşaqlar həmyaşıdlarına qarşı birbaşa zorakılığa əl atdılar).

Bu sadaladığımız bəndlər göstərir ki, aqressiv davranış təzahürləri ən çox öz mənafeyini müdafiə etmək və öz üstünlüyünü təsdiq etmək situasiyalarında müşahidə olunur. Aqressiv hərəkətlərdən məqsədə çatmaq üçün vasitə kimi istifadə edilir. İstənilən hədəf əldə edildikdə - istər həmyaşıdlarının diqqəti, istərsə də cəlbedici oyuncaq olsun - aqressiv hərəkətlər dayandırılır və bu da uşaqların əksəriyyətinin göstərdiyi aqressiyanın instrumental və ya reaktiv xarakterini göstərir.

Lakin bəzi uşaqlarda heç bir məqsədi olmayan və yalnız başqasına zərər vurmaq məqsədi daşıyan aqressiv hərəkətlər müşahidə olunurdu. Həmyaşıdının fiziki ağrısı və ya alçaldılması bu uşaqları məmnun edir, aqressiya isə özü bir məqsəd kimi çıxış edirdi. Bu cür davranış uşağın düşmənçilik və qəddarlığa meylini göstərə bilər.

Aqressivliyə açıq bir meyl aşağıdakılarda özünü göstərdi:

- aqressiv hərəkətlərin yüksək tezliyi - müşahidə olunan 1 saat ərzində uşaqlar həmyaşıdlarına zərər vurmağa yönəlmiş ən azı 4 hərəkət nümayiş etdirirdilər. Digər uşaqlarda bu göstərici 1 idi;
- birbaşa fiziki aqressiyanın üstünlük təşkil etməsi - digər uşaqların əksəriyyətində ən çox şifahi aqressiya müşahidə edilirdisə, bu uşaqlar isə tez-tez birbaşa fiziki aqressiyadan istifadə edirdilər;
- hər hansı bir məqsədə çatmağa deyil, həmyaşıdlarına fiziki ağrı və ya əziyyət verməyə yönəlmiş aqressiv hərəkətlərin olması

Uşaqların real qarşılıqlı əlaqəsi prosesində ("Şəkli rəngləyin" tapşırığında iki uşaq mümkün qədər çox rəngdən istifadə etməli idi, bu da qələm mübadiləsini nəzərdə tuturdu)aqressiv uşaqlar yoldaşının işi ilə az maraqlanırdılar. Həmyaşıdlarının uğurlarına açıq şəkildə mənfi, bəzən isə aqressiv münasibət göstərdilər (onun rəsmini əlindən alır, vurmağa çalışırdılar). Aqressiv olmayan uşaqlardan fərqli olaraq, çox nadir hallarda qələmlərini bölüşürdülər. Aqressiv uşaqların yalnız 10% -i flomasterlərini verirdi və bu proses həmişə ekvivalent mübadilə tələbləri ilə müşayiət olundu. Aqressiv olmayan uşaqların 49%-i həmyaşıdlarına asanlıqla və təmənnasız kömək edirdilər.

## ƏDƏBİYYAT

1.Huesmann, L. R., Eron, L. D., Lefkowitz, M. M., & Walder, L. O. (1984). Stability of aggression over time and generations. Developmental Psychology, 20(6), 1120–1134.
2.Olweus, D. (1977). Aggression and peer acceptance in adolescent boys: Two short-term longitudinal studies of ratings. Child Development, 48(4), 1301–1313.
3.Ильин, Е. П. Психология агрессивного поведения. — СПб.: Питер, 2014. —368 с.:

4.Смирнова, Е.О., Хузеева Г.Р. Агрессивные дети (Психологический Очерк). Журнал Вопросы психического здоровья детей и подростков, № 1, с. 4-13
5.http://nekrasovspb.ru/doc/18bassdarki%D0%B8.pdf

**Rəna CƏBRAYILOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Pedaqoji psixologiya kafedrasının baş müəllimi***
**E.mail: rena.cebrayilova1234@gmail.com**

## TƏLƏBƏ GƏNCLƏRİN ÖZÜNÜREALLAŞDIRMASI SOSİAL-PSİXOLOJİ FENOMEN KİMİ

*Açar sözlər:* özünüreallaşdırma, qabiliyyət, təşəbbüskarlıq,meyllər, stereotip

Özünüreallaşdırma gənclərin əsas qüvvələrinin aşkarlanması və müəyyən edilməsi, imkan və qabiliyyətlərinin həyata keçirilməsi üçün şüurlu, məqsədyönlü bir prosesdir. Özünüreallaşdırma insanın şəxsiyyətə çevrilməsi, ömür boyu fəaliyyət göstərməsi və həyat yolunu müəyyən edən mexanizm kimi qəbul edilir. Bu mexanizmin intensiv fəaliyyəti gənclik dövründə, tələbəlik illərində baş verir. Universitetdə təhsil sistemi gənclərin özünüreallaşdırmasının effektiv prosesini təmin etməli, tələbələrin əsas qüvvələrinin artmasına töhfə verməlidir.

Universitetdə təhsil mədəniyyət və peşəni dərk etmək üçün fərdin özünü inkişaf etdirməsinin mürəkkəb prosesini nəzərdə tutur, bu prosesə tələbələrin fərdi və şəxsi xüsusiyyətləri ilə vasitəçilik edir. Müasir universitet səmərəli intellektual və şəxsi inkişaf mühiti yaratmalıdır ki, gənclər nəinki peşəkar, həm də əqli və şəxsi cəhətdən tam inkişaf imkanına malik olsunlar [4].

Gənclik yaşı özünüreallaşdırmanın inkişafında mühüm bir dövrdür. Bu dövrdə sosial, emosional, şəxsi, sosial yönümlü çoxölçülü şəxsiyyət dəyişiklikləri baş verir. Özünüreallaşdırmaya qadir olan gənc tələbə öz həyatına müstəqil şəkildə nəzarət etməklə onun həm ayrı-ayrı hadisələrə olan münasibətini, həm də bütövlükdə həyatın gedişini müəyyən edir. Bu fəaliyyətdə gənc başqaları tərəfindən dəyərləndirilir, öz məqsəd və planlarını həyata keçirir.

Özünüreallaşdırmada tələbə cari və uzunmüddətli nəticələrini nəzərə alaraq nailiyyətlərini qiymətləndirmək qabiliyyəti təzahür etdirir.Tələbənin özünüreallaşdırması istənilən profilli ali təhsil müəssisələrində tədris prosesinin əsas məqsədlərindən biridir ki, bu da onun mövcud qabiliyyətlərinin həyata keçirilməsinə hər cür köməklik göstərməkdən və təzahür etməmiş meyllərinin aşkar edilməsindən ibarətdir. Bu halda deyə bilərik ki, özünüreallaşdırma insanın təhsil prosesinin nəticəsidir. İ.V. Kostakova belə hesab edir ki,

tələbələrin özünüreallaşdırması bir tərəfdən onların təcəssüm olunmuş şəxsi ambisiyaları, yaxın keçmişdə təcəssüm olunmuş arzularıdı, digər tərəfdən mövcud taleyin ictimai etirafıdır.

üəllif tələbənin özünüreallaşdırmasının əsas şərtlərini belə müəyyən edir:

1) tələbənin arzuları və ya ambisiyaları olmalıdır. Onlar tələbat və arzular əsasında formalaşır;

2) sağlam ambisiyalar və inkişaf etmiş liderlik hissi tələbənin özündən, onun həyat mövqeyindən, fəaliyyətindən asılıdır;

3) tələbələrin əsaslı və zəruri ehtiyaclarını ödəməkdə universitetin marağı və imkanları - rahat təhsil mühitinin yaradılması;

4) ictimai birliklərin və təşkilatların, potensial işə götürənlərin gənclərin ehtiyaclarının reallaşdırılması üçün şərait yaradılmasında maraqlı olması [3].

Özünüreallaşdıran gənc tələbənin yaradıcı şəxsiyyətinin bir sıra keyfiyyətləri müəyyən edilmişdir:

- tələbənin öz güclü qabiliyyətlərinin, imkanlarının daima artmasına yönəldilmiş, fərdin ən yüksək ehtiyaclarından biri kimi özünüreallaşdımaya cəhd;

- fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi;

- tələbənin məşğul olduğu işə marağı, özünü yaxşı işçi kimi tanıdan, ondan dərin məmnunluq hissi keçirən və onu təkmilləşdirməyə daim hazır olmaq hissi;

- özünə və başqalarına qarşı səmimi və açıq davranış, şərti maskalar arxasında gizlənərək başqaları ilə danışmamaq, öz istəklərini, bacarıqlarını, inanclarını, fərdi xüsusiyyətlərini gizlətmək;

- təcrübəyə, tələbənin yüksək keyfiyyət səviyyəsində həll edə bildiyi məqsəd və vəzifələrin seçilməsinə əsaslanaraq onların imkanlarının adekvat qiymətləndiril- məsi, məqsəd qoyub onu həyata keçirərkən əsassız narahatçılığın olmaması özünə inam kimi özünü göstərir;

- müstəqil olaraq öz məqsədlərini müəyyənıəşdirib başqalarına rəhbərlik etmək, yaranan problemlərin həllində orijinal və qərəzsiz olmaq, təşəbbüskarlıq və çeviklik kimi qəbul edilir.

ƏDƏBİYYAT

1. Əzimli, Q. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Dərs vəsaiti. B.: ADPU, 2006, - 516s.

2. Əliyev, R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı.: Araz, 2000, - 196s.

3. Костакова, И.В. Развитие общительности как фактор самореализации студентов – будущих психологов [Текст] / И.В. Костакова // Дисс. кандидата психол. наук. – Самара, 2008. – 27с.

4. Слободчиков, В.И. Психология развития человека: Развитие субъективной реальности в онтогенезе: учеб. пособие для вузов [Текст] / В.И. 5.

Слободчиков, Е.И. Исаев; под общ. ред. В.Г. Щур. - М.: Православный Свято-Тихоновский гуманитарный университет, 2013. - 540 с.
5. Самореализация - основание акмеологического развития: А.А. Деркач, Э.В. Сайко - Спб., 2010. - 224 с.

**Münəvvər MƏMMƏDOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Pedaqoji psixologiya kafedrasının baş müəllimi***
**E.mail: sehran61@mail.ru**

## TƏLƏBƏLƏRDƏ ÖZÜNÜINKIŞAFIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

*Açar sözlər:* özünüinkişaf, özünütəyinetmə, özünüreallaşdırma, özünüdərketmə, özünütəkmilləşdirmə

Tələbələrin özünüinkişafına özünüdərketmə, öz müqəddəratını təyinetmə; özünütənzimetmə komponentləri aiddir.Məhz bu komponentlər təhsil fəaliyyətində uğurla inkişaf etdirilməlidir. Gənclik yaş dövründə özünüinkişaf prosesini üç səviyyəyə əsaslanaraq müəyyən edirik:
- şüurlu surətdə özünüinkişafa yönəldilmiş səviyyə tələbəni düşünməyə, özünü tanımağa, öz müqəddəratını təyin etməyə stimullaşdırır;
- özünüreallaşdırma səviyyəsində təlim fəaliyyətində tələbənin özünü-tənzimləməsi həyata keçirilir;
- özünüreallaşdırma səviyyəsində fərdi bacarıqların aktiv şəkildə həyata keçirilməsi baş verir.

Tələbələrin özünüinkişaf prosesini təlim fəaliyyətində subyektin mövqe-yində şəxsiyyətin özünü keyfiyyətcə dəyişməsi kimi nəzərdən keçirə bilərik.

Ali təhsil məkanında müstəqil, sərbəst hərəkət etmək qabiliyyətinin inkişafına yönəlmiş təhsil fəaliyyəti şəraitində özünüinkişaf tələbatını ödəmək mümkündür.

Təlim fəaliyyətində onun müxtəlif səviyyələrinin birləşməsi kimi növbəti mərhələləri təqdim edirik:
1. Tələbələrin özünütanıma və özünütəyinetmə mexanizmlərinə uyğun təhsil fəaliyyətinin təbii şəkildə həyata keçirilmə səviyyəsi.
2. Proqnostik-diaqnostik səviyyə, burada tələbələr özlərinin təhsil fəaliyyətində özünütəşkil və özünütənzimləmə təcrübəsi qazanırlar.
3. Təhsil fəaliyyətinin fəal inkişaf səviyyəsi. Bu səviyyəyə çatan tələbələr məhsuldar şəkildə özlərini reallaşdımağa göstərdikləri cəhdlə seçilirlər.

Tələbələrin təhsil fəaliyyəti şəraitində özünüinkişaf prosesini nəzərə alaraq pedaqoji şərait kompleksinə diqqət yetiririk:

- tələbələrin özünütəkmilləşdirməsinə kömək edən özünüdərketmə, özünütəyinetmə, özünütənzimləmə proseslərinə cəlb edilməsi;
- tələbələrə ideya və təkliflərini ifadə etməyə imkan verən açıq və ya gizli şəkildə təqdim olunan şəxsi mənaları olan tapşırıqların verilməsi;
- təqdim olunan problemin şəxsi kontekstini araşdırmağa kömək etmək;
- öyrənilən materialın şəxsi idrak məqsədlərini və mənalarını əks etdirən, təlim fəaliyyətinə reflektiv münasibətin formalaşmasına xidmət edən məntiqi və semantik modellərdən istifadə və s.

Müəllimin təqdim etdiyi pedaqoji biliklərin məzmununun problemləşdirilməsi fərdi intellektual resursların zənginləşməsinə kömək edir. Tələbələrin özünüinkişaf səviyyələri aşağıdakı müsbət dəyişikliklərə səbəb olur:
- motivlərin və məqsədlərin seçilməsini əhatə edən iradi məqsədyönlülüyün inkişafı;
- məqsədə çatmaqda maneələri dəf etmək şəraitində fiziki və əqli imkan- ların səfərbər edilməsi;
- vacib olan və təkcə real təhsil fəaliyyətində deyil, həm də gələcək pedaqoji fəaliyyətdə həyata keçirilməsi üçün real imkanlara malik olan məqsədlərin şüurlu şəkildə seçilməsi;
- pedaqoji keyfiyyətlərin, o cümlədən çalışqanlığın və operativliyin inkişafı, qəbul edilmiş qərarlara görə məsuliyyət hissi, pedaqoji səriştənin inkişafı; təşkilatçılıq, yaradıcılıq, emosional və dəyər bacarıqlarının təkmilləşdirilməsi vəs.

Tələbələrin özünüinkişaf etdirməsi trayektoriya boyunca baş verir, hər yeni dövrə çıxış özünü daha da inkişaf etdirmə tələbatı ilə əlaqədardır. Deməli:
1/ müsbət yönümdə özünü dəyişdirmək və özünü məhsuldar şəkildə uyğunlaşdırmaq istəyi yalnız insana xasdır. Özünü inkişaf etdirmək qabiliyyəti xarici şəraitdən asılı olaraq şəxsiyyətin irsi formalaşmasıdır. Əlverişli ətraf mühitlə özünüinkişaf etdirmək qabiliyyəti öz ifadəsini tapa bilər, əlverişsiz olanlarla isə heç vaxt özünü göstərə bilməz.
2/ Tələbənin özünüinkişafının səmərəliliyi bir tərəfdən, onların özünü- inkişaf etməyə daxili hazırlığından, digər tərəfdən isə təhsil fəaliyyətinə cəlb edilmələrindən çox asılıdır.
3/ Gənclik yaş dövrü tələbənin şəxsi özünüinkişafı üçün həssas dövrdür, çünki bu yaşda baş verən dəyişikliklər onun özünüinkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymasına kömək edir.

ƏDƏBİYYAT

1. Qədirov, Ə.Ə.Yaş psixologiyası. - Bakı.: Maarif, - 2002. -386 s.
2. Блинова, В.Л., Блинова, Ю.Л. Психологические основы самопознания и саморазвития: учебно-методическое пособие. - Казань: ТГГПУ, 2009. – 222 с.

3. Валеева, Н.Ш. Готовность будущего специалиста к профессионально-личностному саморазвитию как цель 331 профессионального образования /Н.Ш. Валеева [и др.]//Вестник Казан. технол. ун-та. 2008, №5. – С. С. 195-197.
4. Власова, Е. А. Профессиональное саморазвитие будущих социальных педагогов: монография / Е. А. Власова. — Балашов: Николаев, 2008. — 116 с.

**Leyla Dadaş-zadə**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının müəllimi***
**E-mail: leyla_azizova81@mail.ru**

# TƏLİM PROSESİNDƏ TƏLƏBƏLƏRİN ÜNSİYYƏT MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI

*Açar sözlər:* ünsiyyət mədəniyyəti, konstruktiv ünsiyyət, davranış, etik dəyərlər, özünüidarə

Ünsiyyət mədəniyyəti əsrlər boyu ziyalı insanları müşayiət edən dəyişməz atributdur. Konstruktiv ünsiyyət və fikir mübadiləsi peşəkarın zəruri komponentləridir. Məhz buna görə də ali təhsil almaq arzusunda olan gənclər arasında ünsiyyət mədəniyyətinin rolu böyükdür. Ünsiyyət mədəniyyətinin formalaşması problemi ümumbəşəri, humanist, etik dəyərlərin tələbələr tərəfindən mənimsənilməsi və tətbiqi, eləcə də onların bilavasitə ünsiyyətdə tətbiqi ilə əlaqədar mütəxəssislərin hazırlanmasının keyfiyyətinin yüksəldilməsi zərurətindən irəli gəlir.

Mədəniyyət anlayışı mürəkkəb fenomen kimi birmənalı şərhə malik deyil və o maddi və mənəvi dəyərlərin, insan fəaliyyətinin nəticəsi, habelə cəmiyyətin sistemli keyfiyyətinin məcmusu kimi anlaşılır. Mədəniyyət anlayışının digər bölgülərində onun ikili xarakteri göstərilir. Bir tərəfdən mədəniyyət insanın cəmiyyətdə sosial təcrübəsidir, topladığı davamlı maddi və mənəvi dəyərləridir, digər tərəfdən insan fəaliyyətinin keyfiyyət xarakteristikasıdır.

Ünsiyyət mədəniyyəti insan münasibətləri sahəsində cəmiyyətin mənəvi sərvətinin inkişaf dərəcəsidir ki, buraya humanist prinsiplər, dəyərlər, etiket normalar, ünsiyyət sahəsində biliklər sistemi, onların mənimsənilməsi və istifadəsi aid edilir. O, insan davranışının motivləri kimi özünü- qiymətləndirmə, özünüidarə formasında sosial tələblərin və insan davranışının vəhdətini təmin edir.

Gənclərin şəxsiyyətlərarası ünsiyyətdə tolerant şüur və davranış münasibətlərinin formalaşdırılması prioritet vəzifə kimi pedaqoji tələblərə uyğun problemlərin uğurlu həllinə kömək edəcəkdir:

- ünsiyyət mədəniyyətinin strukturunu və məzmununu, təhsil prosesinin imkanlarını nəzərə alaraq pedaqoji fəaliyyətin layihələndirilməsi;

- humanizm prinsipləri əsasında ünsiyyət mədəniyyətinin tərbiyə edilməsinin reallaşdırılması ünsiyyət dialoqu, təhsil prosesinin qarşılıqlı əlaqə subyektlərinin birgə yaradıcılığı prosesində həyata keçirilməsi;

Ünsiyyət mədəniyyətinin idrak komponentini formalaşdırarkən aşağıdakı forma və üsullardan istifadə olunur:

- ***mühazirə - mətbuat konfransında*** müəllim tələbələri mövzu ilə bağlı onları maraqlandıran suallar verməyə dəvət edir. Mühazirə suallara cavab kimi deyil, ardıcıl mətn kimi təqdim olunur, təqdimat zamanı cavablar formalaşır. Mühazirənin sonunda müəllim tələbələrin maraq və biliklərini əks etdirən sualları təhlil edir;

- ***idrak oyunlarından istifadə*** ("Mədəniyyət dialoqu", "Agent") reallığı modelləşdirən tələbələrin həyatda özlərini tapa biləcəyi xüsusi vəziyyətlərin yaradılmasını nəzərdə tutur.

Şəxsi əhəmiyyətli komponentin formalaşmasına aşağıdakılar təsir edir:

- ***diskussiyalı seminarda*** aktual problemli məsələlər müzakirəyə çıxarılır. Əvvəlcə tələbələr fərdi olaraq onlar haqqında düşünür, sonra bu məsələlərin müzakirə olunduğu cütlər və ya kiçik qrupları təşkil edirlər. Həmin məsələlər cütlüklərdə müzakirə olunduqdan sonra müəyyən stabil fikirlər formalaşır. Dərsin sonunda qrup müzakirəsi üçün vaxt ayrılır.

- ***rollu oyunlarda*** "Qrup şəkli") müəyyən bir vəziyyət və həmin şəraitdə insanın davranışı oynanılır. Oyunun əsas vəzifəsi tələbəyə həyatın müxtəlif vəziyyətlərində davranışına obyektiv qiymət verməyi, əlaqələr qurmağı, başqasının mövqeyini tutmağı öyrətməkdir.

Təlim prosesində tələbələrin davranış komponentinin formalaşması aşağıdakı forma və üsullarla həyata keçirilir:

- ***seminar - problemli vəziyyətlər*** sosial qruplarda ünsiyyət zamanı yarana biləcək problemli vəziyyətlərə baxılmasını nəzərdə tutur. Tələbənin vəzifəsi özünün davranış modelini qurmaq, mövcud vəziyyətdən çıxmaq üçün ən optimal və düzgün həlli yolunu tapmaqdır;

- **kommunikasiya** eyni vaxtda meydana çıxan üç aspekti: *kommunikasiya, interaktiv və persepsiyanı* inkişaf etdirməyə yönəlir.

Bu forma və metodların tətbiqi nəticəsində təhsil prosesinin iştirakçılarının müsbət qarşılıqlı əlaqəsi sıx əməkdaşlıqda, bir-birinə güzəştə getməkdə və uyğunlaşmada təzahür edir.

ƏDƏBİYYAT

1. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı, 2008

2. Həmzəyev M.Ə., Əmiraslanova S.F. Ünsiyyətin psixologiyası. Bakı, 2007
3. Ильин, Е.П. Психология общения и межличностных отношений / Е.П. Ильин.. - СПб.: Питер, 2013. - 576 с
4. Смирнова, Н. М. Повышение уровня культуры общения в студенческой среде // Вестник Российской академии образования. Вып. 1. 2007. – С. 36-42.
5. Шиляева, И.Ф. Культура общения современной личности: детерминанты и факторы развития [Текст] / И.Ф.Шиляева // Вектор науки Тольяттинского государственного университета. Серия «Педагогика, психология». 2011. №3(6). С. 337-340.

**Teybə ƏFƏNDİYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Şamaxı filialının müəllimi***
**E-mail: efendiyevateybe1962@gmail.com**

## ÖZÜNÜAKTUALLAŞDIRMA VƏ ŞƏXSİYYƏTİN İNKİŞAF PSİXOLOGİYASI

*Acar sözlər:* özünüaktuallaşdırma, şəxsiyyət, inkişaf, psixologiya, istedad, məqsəd, terapiya, formalaşma, reallaşdırma, qiymətləndirmə.

Psixologiyada şəxsiyyətin özünü aktuallaşdırılması insanın potensialının üzə çıxarılması, onun qabiliyyət və istedadlarının inkişaf etdirilməsi, onun "mən"inə çevrilməsi prosesidir. Özünü aktuallaşdırma ehtiyacı A.Maslovun piramidasında ən yüksək səviyyədə yerləşir. Bu, hər bir insana xasdır, lakin inkişaf şərtlərinə görə, bütün insanlar bu səviyyəyə çatmır. Cəmiyyət insanın özünü həyata keçirməsinə təsir edir, lakin onun şəxsi inkişafını müəyyən etmir [1, s. 65-66].

Özünü aktuallaşdırma nədir, psixologiyada onun tərifi nədir? Özünü aktuallaşdırma şəxsiyyətin formalaşması, onun psixoloji inkişafı prosesidir. Hər bir insanın öz qabiliyyətlərini, meyllərini, imkanlarını maksimum dərəcədə reallaşdırmaq arzusu var.

Özünü aktuallaşdırma insanın daxili motivlərinə əsaslanır. "Özünü aktuallaşdırma" anlayışına passivlik daxil deyil. Özünü reallaşdıran bir insan özü yeni fəaliyyətlərə yiyələnməyə çalışır, həmişə çoxlu planları və məqsədləri var. Dünyanın ona nəsə təklif etməsini gözləmir, özü fürsət axtarır [4, s. 54-55].

Özünü aktuallaşdırma anlayışı özünü reallaşdırma anlayışı ilə sıx bağlıdır. Birincisi, "Mən kiməm, nə olmalıyam?" sualına cavab axtarışıdır. İkincisi, "Olmalı olduğum şəxs olmaq üçün nə edirəm?" sualına cavab axtarışıdır. Elmdə insanın özünü aktuallaşdırması və özünü həyata keçirməsi nəzəriyyəsi humanist psixologiya ilə sıx bağlıdır. Bunda özünü aktuallaşdırma konsepsiyası əsasdır.

Termini nəzəriyyənin müəllifi olan K.Qoldşteyn təqdim etmişdir. Lakin ondan başqa problemi K.Rocers və A.Maslovu da öyrənmişlər. Və onlar psixologiyada daha tez-tez məsələyə baxışları haqqında danışırlar [1; 2; 3].

Niyə bütün insanlar özünü aktuallaşdırma səviyyəsinə çatmır

Bütün bunlar Maslouvun müəyyən etdiyi ehtiyaclar piramidasından gedir. Əvvəlki səviyyənin ehtiyaclarını ödəmədən yeni səviyyəyə keçid mümkün deyil. Maslova görə özünü aktuallaşdırma prinsiplərini qısaca nəzərdən keçirək.

1. Həyat burada və indidir. Hər insan onun ətrafında və daxilində baş verənləri başa düşmür. Hər dəqiqə yaşamağı və dərk etməyi öyrənməlidir.
2. Həmişə böyüməyi, yəni təcrübə və yeni bir şey öyrənməyi seçməli. Bu prosesdə bilinməyən qorxusu ilə sıx bağlıdır.
3. İnsan hər zaman sevdiyi işlə məşğul olmalıdır, sevmədiyini etməməlidir. Başqalarının naminə öz maraqlarını qurban vermək lazım deyil.
4. Özünü və başqalarına qarşı dürüst olmalı, məsuliyyət götürməyi bacarmalıdır.
5. Özünə, impulslarına və hisslərinə güvənib, cəmiyyətdə qəbul edilənləri nəzər alaraq, lakin yenədə istəklərinə, arzularına doğru hərəkət etmək lazımdır.
6. Qabiliyyətlərini daim inkişaf etdirmək, onları istedada çevirmək insanın əlindədir.
7. Hər bir problemlə rastlaşanda insan təkrarən yenidən doğulmalıdır. Lazım olduqda insan özünə və digər insanlara münasibətini dəyişdirərək təcrübələrin zirvəsinə catmağa calışmalıdır.

Həyatın növbəti səviyyəsinə kecmək, yeni ehtiyacları ödəmək – bunun üçün özünüqiymətləndirmə prosesinin inkişafına ehtiyac var. Birincisi, səriştəlilik və fərdi nailiyyət arzunun, iddia səviyyənin böyük rolu var. İkincisi, başqalarının təqdirinə və tanınmasına ehtiyac var. Bu ehtiyaclar ödənildikdə özümüzü inamlı, ustad və layiq hiss edirik [4, s. 21-22].

Maslov, yuxarıdakıları ehtiyacları aşağıdakı kimi təsvir edir. Ancaq bu ehtiyaclar ödənildikdə, insanlar özünü həyata keçirmək olan növbəti səviyyəyə keçirlər. Bu proses, aşağıdakı kimi müxtəlif xüsusiyyətlərə aiddir:

- Reallığı necə qəbul etdiyimizdə və inkişaf üşün səmərəli yollar axtarmaqda
- Özümüzü və digər insanları qəbul etmək
- Dərin əlaqələr qurmağı bacarır
- Həyatı qiymətləndirir
- Öz daxili məqsəd və dəyərlərimizi rəhbər tuturuq duyğuları sərbəst və aydın ifadə edə bilir

Özünü aktuallaşdırmaq insanların ən yaxşı səviyyədə olduqları bir vəziyyətdir.

Psixoterapiyada özünü aktuallaşdırma

Psixoterapiyanın insan potensial hərəkəti ilə əlaqəsi, insan təbiətinin mahiyyət etibarilə yaxşı olduğunu təyin etməyə kömək edir və potensialını tam qazanmaq üçün bir sürücünün insan davranışını motivasiya etdiyinə işarə edir.

Bu, insanların cinsi istəklər və təcavüzdən qaynaqlandığını iddia edən Ziqmund Freyd kimi insanların fikirlərində dəyişiklik olduğunu nümayiş edir [5, s. 34-35].

Psixoterapiyada psixoterapevt və müştəri bərabər bir şəkildə fərdi münasibət qurur və psixoterapiya iştirakçısı psixoterapiya seanslarının açılma istiqamətini seçir. Özləri haqqında mənfi hiss edənlər və ya həyatla əlaqəli gözləntiləri olmayan insanlar öz-özlərini reallaşdırmağı çətin hesab edə bilər, lakin bu öz-özünə konsepsiya və terapiyadakı digər mənfi düşüncələrin həlli tez-tez fərdlərin fərdi üstünlüklərinə yönəlmiş öz-özünü reallaşdırma istiqamətində hərəkət etmələrinə kömək edə bilər. fərdi uğursuzluqlardan daha çox.

Özünütəsdiqləməyə necə nail olmaq olar

Özünü aktuallaşdırmağın bir necə yolu var. Maslovun ehtiyaclar hiyerarşisi, özünü reallaşdırma vəziyyətinə çatmaq üçün bir insanın özünü reallaşdırması üçün bir çox digər əsas ehtiyacların ödənilməsini təklif edir. Mövcud tədqiqatlar göstərir ki, özünü aktuallaşdırma bundan daha mürəkkəb ola bilər və hətta Maslov "hiyerarşisini" indiki dövrdə etmək üçün populyar olduğu kimi yuxarıdan aşağıya, piramida qaydasında konseptləşdirməmiş ola bilər.

Həyatlarında daha çox özünü həyata keçirmək istəyən şəxslər aşağıdakı strategiyalardan birini və ya bir neçəsini tapa bilərlər:

Bu günə diqqət yetirin. Keçmişdə və ya gələcəkdə qalmaqdansa, mövcud ətrafınızı, düşüncələrinizi və duyğularınızı almaq üçün şüurlu bir səy göstərmək, spontanlığa və daha çox barış hissinə kömək edə bilər.

- Özünüzü hər gün yenidən kəşf et və ətrafına diqqət et. Özünüzü bilmək özünü aktuallaşdırmağın bir açarı olsa da, diqqətinizi özünüzdən kənarda tutma qabiliyyətiniz də vacibdir. Başqalarına qarşı şəfqət və qayğı üzərində dayanmaq və hər gün üçün minnətdar olmaq üçün bir şey tapmaq başlamaq üçün bir neçə yoldur.
- Şiddətli şəkildə orijinal olun. Öz ehtiyaclarınız, bacarıqlarınız və maraqlarınızla uyğunlaşdığınız zaman onları əhatə edin. Niyə müəyyən bir qərar verdiyinizi soruşmaq, özünüz və ya başqası üçün həyat yaşadığınızı anlamağa kömək edə bilər.
- Sizə sevinc gətirən şeylərin ardınca gedin. Güclü tərəflərinizi, xəyallarınızı və həvəsli olduğunuz hər şeyi müəyyənləşdirin. Özünüzü yerinə yetirdiyini hiss edən şeyləri həyatınıza daxil etmək üçün daha çox yol tapın.

Özünü həyata keçirən və bu sahədə əhəmiyyətli uğurlar qazanmış bir şəxs aşağıdakı kimi xarakterizə edilə bilər:

- onun sevimli şey edir;
- digər insanların təsirinə məruz qalmayacaq;
- oxumaq və inkişaf etdirməyi sevir;
- yaradıcı bir şəxsdir;
- müsbət düşüncə tərzi tətbiq ;
- emosional olaraq açıq;
- özünə inamlı;

- özünü hər kəsə məxsus olan periyodik qıcıqlandırıcılığı bağışlayır.

Bu insanlar özləri ilə tamamilə razıdırlar ki, bu da şəxsi inkişafın insanların xoşbəxtliyini təmin edəcəyinə inandırıcı şəkildə söyləmək imkanı verir.

ƏDƏBİYYAT

1. Əliyev, R.İ., Humast psixologiya, Bakı: Nurlan, - 2023. - 164 s.
2. Леонтьев, Д. А. Развитие идеи самоактуализации в работах А.Маслоу // Вопросы психологии, 1987, N 3, с.150-158.
3. Марцинковская, Т.Д. История детской психологии: Учебник для студ. пед. вузов. - М.: Гуманит. изд. центр ВЛАДОС, 1998. - 272 с.
4. Маслоу, А. Мотивация и личность. - СПб.: Евразия, - 1999.
5. Роджерс, К. Взгляд на психотерапию и о становлении личностью - М.: Mass Media, - 1999.

**Elnarə İSAZADƏ**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının müəllimi***
**E-mail: elnare.zade93@gmail.com**

## GƏNCLİK YAŞI DÖVRÜNDƏ TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞININ XÜSUSİYYƏTLƏRİ

*Açar sözlər:* idrak fəallığı, özünüreallaşdırma, kollektiv iş, idrak maraqları, təlim diskussiyası

İdrak fəallığı təlim prosesinə intellektual və emosional reaksiya, öyrənməyə, şəxsi və birgə tapşırıqları yerinə yetirməyə meyllilik, müəllim və digər tələbələrlə birlikdə işləməyə maraq, habelə praktiki və intellektual fəaliyyətlərə həvəs kimi başa düşülür, biliyin dinamikasını müəyyən edir. Odur ki, idrak fəallığı yeni biliklərə təbii ehtiyac üzərində qurulmuş daxili motiv kimi nəzərdən keçirilməlidir. Öyrənənlər arasında onun ciddiliyi təhsilin keyfiyyətinin təmin edilməsi və tədris prosesinin düzgün təşkilinin sübutu üçün əsas şərtdir, olmaması isə təhsilin təşkilinin səmərəsizliyinin göstəricisini əks etdirir. İdrak fəallığı ikitərəfli prosesdir: Birincisi tələbələrin özünüreallaşdırma, ikincisi özünütəşkil formasıdır, tələbənin təlim fəaliyyətinin təşkilində müəllimin səyinin nəticəsidir.

İdrak fəaliyyətinə aşağıdakı motivlər səbəb olur: maraq; idrak prosesindən və ya onun nəticələrindən alınan həzz, insanların əməli fəaliyyəti, problem və

ehtiyacları onları inkişaf və təkmilləşmə zamanı yaranan aktual problemlərin həlli yollarını axtarmağa məcbur edir. İdrak fəallığı yaradılır və o idrak fəaliyyətinin keyfiyyətinə təsir göstərir. Şagirdlər idrakda müxtəlif fəallıq intensivliyi ilə xarakterizə olunurlar. Nəzəri biliklərin mənimsənilməsi yalnız fəallıq prosesində məna kəsb edən idrak fəaliyyətinin nəticəsi olur.

Kollektiv təlimdə idrak fəaliyyəti tələbələrin idrak maraqlarında mühüm əhəmiyyət kəsb edir. Məhz idrak fəaliyyəti prosesində idrak maraqları, müstəqillik, təlim əməyinin bacarıq və vərdişləri formalaşır. *Kollektiv iş* tələbələrdə sosial təlim motivlərini, məsuliyyət hissini, işə yaradıcı münasibəti formalaşdırır.

*Təlim diskussiyası* müəyyən problemlərin müzakirəsində tələbələrin diqqətini cəlb etmək üçün onun düzgün həlli yolunu tapmaqdır. Bu metod mühakimə, qiymət, inandırma və s. formalarda təşkil oluna bilər.

*Müzakirələr*- idrak fəaliyyətini aktivləşdirməyin ən mühüm üsulu, tələbələrə maraq və həvəsin formalaşmasıdır ki, onların öz fikir və mülahizələrini bildirməyə, öz nöqteyi-nəzərlərini müdafiə etməyə, başqalarını inandırmağa yönəlir.

İdrak fəallığının yüksəlməsi üçün müəllim tələbələrin idrak maraqlarını stimullaşdıran şəxsi üsullar müəyyən etməlidir. Təlim prosesində tələbələrin idrak fəallığının yüksəlməsi üçün ilk növbədə onların idrak maraqlarını stimullaşdıran üsulları nəzərdən keçirək:

**1/** materialın məzmununda dəyişikliklərin aparılması və müasir uğurları nümayiş etdirməkdən istifadə etmək;

**2/** tələbələrin idrak fəallığının təşkilinə kömək etmək məqsədi ilə bir çox üsullardan istifadə oluna bilər: a/ müstəqil işlərin çoxobrazlı formalarından istifadə; b/ problemli tapşırıqların qoyuluşu, axtarıcılıq tələb edən məsələləri həlli; c/ tələbələrin emosional-iradi sferasını və onun intellektual-idraki fəaliyyətini aktivləşdirən yaradıcı işlərin yerinə yetirilməsi və s.

İdrak fəallığının inkişafı yeni təəssüratlara tələbatdan irəli gəlir ki, bu da hər bir insana anadan olan günündən məxsusdur. Gənclik yaşı dövründə sistematik iş şəraitində tələbələrin idrak fəallığının əsasında idrak maraqları yaranır və formalaşır ki, nəticədə fasiləsiz təhsil prosesinin əsası qoyulur.

S.L.Rubinşteynə görə, insanın idrak fəaliyyəti əmək, dərketmə, təlim və oyun kimi fəaliyyətin əsas növlərində təzahür edir [5, s. 435].

Tələbə fəaliyyətinin motivasiya əsasının strukturu tədris və idrak fəaliyyətinin sadalanan komponentlərini əks etdirir, onları öyrənmə mərhələləri kimi təqdim edir. ***Birinci mərhələ*** öyrənmə vəziyyətinin qavranılmasıdır (tələbədə tədqiq olunan mövzunun aktuallığı və praktiki əhəmiyyəti haqqında məlumat alması; maraq oyatmaq, bu problem üzrə bilik əldə etmək istəyini formalaşdırmaq və inkişaf etdirmək). ***İkinci mərhələ*** rasional təhsil fəaliyyətinin metodlarının mənimsənilməsinə, nəzəri təfəkkürün inkişafına kömək edən sualların konkretləşdirilməsidir. ***Üçüncü mərhələ*** həll yolunun seçilməsi (bu fəaliyyət üçün fərdi şəraitin yaradılması) və onun həyata keçirilməsidir.

***Dördüncü mərhələ*** hərəkətlərin qiymətləndirilməsi və tənzimlənməsi, həmçinin fəaliyyətlərin həyata keçirilməsinəköməklikdir.

ƏDƏBİYYAT

1.Əmrahlı, L.Ş., Rzayeva N.T. Uşaq psixologiyası. - Bakı: 2010
2.Qədirov, Ə.Ə.Yaş psixologiyası. - Bakı.: Maarif, - 2002. -386s.
3.Rzayev, B. Məktəblilərdə idrak proseslərinin fəallaşdırılması. - Bakı.: ADPU-nun mətbəəsi, - 2000. -70 s.
4.Дейкина, А.Ю. Познавательный интерес: сущность и проблемы изучения. – М.: Просвещение, 2012. – 258с.
5.Рубинштейн, С.Л. Основы общей психологии [Текст]: / С.Л. Рубинштейн. - Спб.: Издательство «Питер», 2015. – 705 с.
6.Щукина, Г.И. Активизация познавательной деятельности учащихся в учеб- ном процессе. М.: Просвещение, - 2009. – 34 с.

**Sabina MAHARRAMOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Xüsusi təhsil kafedrasının müəllimi***
**E-mail: sabinamaharram1@gmail.com**

## TƏLİM MOTİVLƏRİNİN FORMALAŞMASININ PSİXOLOJİ ƏSASLARI

*Açar sözlər:* təlim, pedaqoji, psixoloji, motiv

Məktəb təcrübəsində, təlim fəaliyyətini həyata keçirərkən çox vaxt belə bir sual diqqəti cəlb edir: şagirdi yaxşı oxumağa və ümumiyyətlə oxumağa yönəldən, təhrik edən nədir? Başqa sözlə, şagirdlərin təlim fəaliyyəti necə motivləşir, onlar hansı motivlərin təhriki altında hərəkət edirlər? Şübhəsiz bu cür suallara düzgün cavab tapılması müəllimin həmin sahədə şagirdlərlə iş aparmasını, təlim fəaliyyətini idarə etməsini asanlaşdıra bilər.

Birinci növbədə, ümumiyyətlə, motivin və motivasiyanın nədən ibarət olduğunu nəzərdən keçirək. Motiv insanı hər hansı bir məqsədəyönəlmiş işə, fəaliyyətə təhrik edən səbəbdir. İnsan beynində əks olunaraq onu fəaliyyətə təhrik edən və həmin fəaliyyəti müvafiq tələbatların ödənilməsinə yönəldən şeyləri A.N.Leontyev həmin fəaliyyətin motivi adlandırmışdır.

Motivlər hər bir fəaliyyət sahəsində özünəməxsus xüsusiyyətlərlə təzahür edirlər. Bu cəhəti nəzərə alsaq, biz onları fəaliyyətin növlərinə görə: oyun, təlim, əmək və yaradıcılıq motivləri kimi xarakterizə edə bilərik.

Təlim motivləri idrak motivləri və sosial motivlər olaraq iki böyük qrupa

bölünürlər. Əgər şagirdin fəallığı ayrı-ayrı fənlərin tədrisi prosesində öyrənilən obyektlərə yöməlmişdirsə, bu zaman idrak motivlərindən danışılır.

*Əgər təlim prosesində şagirdin fəallığı başqa adamlarla münasibət sahəsinə yönəlirsə, bu zaman sosial motivlər fərqləndirilir.*

İnsan fəaliyyətinin motivləri özünün çoxcəhətliliyi ilə xarakterizə olunur. Onlar hər şeydən əvvəl bir-birlərindən tələbatların növlərinə görə fərqlənirlər. Ona görə də tələbatlarda olduğu kimi, motivlər təbii və ali (maddi və mənəvi) ola bilir. Bundan başqa, A.N.Leontyevə görə motiv obraz, anlayış, fikir, ideal şəklində də çıxış edə bilər.

Motivasiyaya gəldikdə bu elə motivlər birliyidir ki, şəxsiyyətin yönəlişliyini müəyyən etməklə onun fəaliyyətinin səmərəliliyini də şərtləndirir. Motivasiya təhriklə fəaliyyətin məqsədi arasındakı əlaqə və münasibətlərin açılmasında ifadə olunur. Məlum olduğu kimi, onun həyata keçirilməsi prosesində motivlərin məqsədə keçməsi və məqsədin motivə çevrilməsi baş verə bilər.

Psixoloqlar belə bir qənaətə gəlmişlər ki, təlim uğurları təkcə şagirdin təlimə, öyrənməyə qabilliyi, bütövlükdə qabiliyyətləri və s. ilə deyil, həm də təlim motivasiyası ilə şərtlənir. Başqa sözlə, onun "yaxşı oxuması" üçün bütün digər şərtlərlə yanaşı həm də təlim motivasiyasının formalaşması zəruridir (Ə.Ə.Əlizadə).

İnsan fəaliyyətinin başqa sahələrində olduğu kimi, təlim fəaliyyətində də özünün xarakteri və fəaliyyət prosesində oynadığı rola görə motivlərin, o cümlədən təlim motivlərinin aşağıdakı növlərini qeyd etmək olar:

1) sitüativ və geniş motivlər;
2) fəaliyyətin nəticəsinə yönələn və onun özünə doğru yönələn motivlər;
3) eqoistik və ictimai əhəmiyyətli motivlər.

Motivləri təzahür xüsusiyyətlərinə görə psixoloji ədəbiyyatda geniş istifadə olunan iki qrupa ayırmaq mümkündür:

1) geniş sosial motivlər;
2) idrak motivləri.

Bununla yanaşı olaraq motivlərin xarici və daxili tipləri də qeyd olunur.

Təlim fəaliyyətində bu cür motivlərin formalaşması şagirdlərin tələbat sahəsinin formalaşması ilə sıx bağlıdır.Müəyyən şeylər, hadisələr, şərait insanın müvafiq fəallığının mənbəyi kimi insan fəaliyyətinin motivinə çevrilir. Həmin mənbələri üç əsas kateqoriyaya ayırmaq mümkündür: daxili, xarici və şəxsi mənbələr. Birinci, daxili mənbələr insanın tələbat sahəsi ilə bağlı olur.İnsanda bu cür tələbatlar anadangəlmə və həyatda qazanılan xarakter daşıya bilər.Birinci halda orqanizmin üzvü tələbatları, ikinci halda cəmiyyətdə formalaşan sosial tələbatlar özünü göstərir. Təlim fəaliyyətinin stimullaşmasına təsir edən, həyatda formalaşan tələbatlara qnostik və müsbət sosial tələbatları aid etmək olar. Bunlardan bilik əldə etməyə olan tələbatları, cəmiyyətə xeyir verməklə bağlı tələbatları və s. göstərə bilərik.

İnsanın öyrənməyə, təlim fəaliyyətinə təhrik olunmasında xarici və şəxsi

mənbələrin rolu da az deyildir. Xarici mənbələr insanın həyat və fəaliyyətinin sosial şəraiti ilə müəyyən edilir.

Əhəmiyyətli məsələlərdən biri təlim motivlərinin öyrənilməsi və formalaşdırılmasıdır.Motivlərin öyrənilməsi onun formalaşdırılması ilə qırılmaz surətdə bağlı olduğundan bu çox vacibdir. Motivlərin öyrənilməsi prosesinə aşağıdakılar daxildir**:**

**1.** Təlim məqsədlərinin müəyyənləşdirilməsi**.**
**2.** Motivlərin yaş xüsusiyyətləri ilə uyğunluq səviyəsi.
**3**. Motivlərin şagirdlərin fərdi xüsusiyyətləri ilə uyğunluq səviyyəsi**.**
**4.** Motivlərin başlanğıc səbəblərinin öyrənilməsi.

Motivlərin formalaşdırılması üçün müxtəlif üsul və vasitələrdən və treninqlərdən (xüsusi məşqlərdən) istifadə edilməsi mühümdür. Müəllim təkcə özü şagirdlərdə təlim motivləri formalaşdırmaqla kifayətlənməməli, həmçinin şagirdlərin özünümotivləşdirməyə cəhd etmələrinə çalışmalıdır.

ƏDƏBİYYAT


1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2003.
2. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: 1991.
3. Məmmədov A. Təlimin psixoloji əsasları. Bakı:1993.
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: 1998.
5. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiya məsələləri. Bakı: 2003.


**Günel MƏMMƏDOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Pedaqoji psixologiya kafedrasının müəllimi***
**E-mail: gunel1505 @gmail.com**

## KİÇİK MƏKTƏB YAŞI DÖVRÜNDƏ ŞƏXSİYYƏTİN İNKİŞAFI

*Açar sözlər:* şəxsiyyət, status, özünütəsdiq, davranış, özünüqiymətləndirmə

Kiçik məktəb yaşı (6-10 yaş) şəxsiyyətin inkişafında həlledici dəyişikliklər dövrü deyil. Lakin buna baxmayaraq şəxsiyyətin formalaşması bu dövrdə olduqca nəzərə çarpacaq dərəcədə baş verir. Məktəbə daxil olmaq uşağın həyatında dönüş nöqtəsidir, çünki aparıcı fəaliyyət dəyişir. Müəllimlərlə və həmyaşıdları (sinif yoldaşları) ilə yeni münasibətlər qurulur, şagird bütöv bir kollektiv sisteminə daxil edilir. Yeni fəaliyyət növünə daxil olan şagird qarşısında təlim bir sıra ciddi tələblər qoyur.

Kiçik məktəb yaşında rast gəlinən şıltaqlıq və inadkarlıq kimi xarakter qüsurları ailə tərbiyəsindəki çatışmazlıqlarla izah olunur. Uşaq bütün istək və tələblərinin ödənilməsinə öyrəşmişdir. Şıltaqlıq və inadkarlıq onun məktəbin qoyduğu qəti tələblərə bir növ etirazdır. Şagirdin yaş xüsusiyyətlərinə həm də həssaslıq, operativlik, inandırıcılıq kimi müsbət xüsusiyyətlər daxildir. Yaş xüsusiyyətlərindən biri də təqliddir. Kiçik məktəblilər böyükləri və həmyaşıdlarını, sevimli kitabların və filmlərin qəhrəmanlarını təqlid etməyə meyllidirlər. Bu bir tərəfdən şəxsi təcrübə vasitəsilə sosial dəyərli şəxsiyyət xüsusiyyətlərini tərbiyə etməyə imkan verir, digər tərəfdən isə o müəyyən təhlükələrlə doludur.

Kiçik yaşlı məktəbli təkcə müsbət cəhətləri qəbul etmir.Əgər I sinif şagirdi böyüklərin voleybol oynamasını xoşlayırsa, o zaman o hər şeyi təqlid edir. Birincisi, kiçik məktəblilər çox emosionaldırlar. Bu emosionallıq ilk növbədə onların qavrayışının, müşahidəsinin, təxəyyülünün və zehni fəaliyyətinin adətən emosiyalarla zəngin olmasında əks olunur. İkincisi, kiçik məktəblilər (xüsusilə I-II siniflərdə) hisslərinə sahib olmağı bacarmır, həzz və ya narazılığın xarici təzahürlərinə nəzarət edə bilmirlər. Üçüncüsü, kiçik yaşlı məktəblilər emosional qeyri-sabitliklə, tez-tez əhval dəyişikliyi, təsirlənmə meyli, sevinc, kədər, qorxu və qəzəbin qısamüddətli və şiddətli təzahürləri ilə xarakterizə olunurlar. İllər keçdikcə şagirdlərin hisslərini tənzimləmək, arzuolunmaz təzahürlərə sahib olmaq bacarığı da inkişaf edir. Kiçik yaşlı məktəblinin yaşıdları olan sinifdə şəxsiyyətinin yerini müəyyənləşdirmək üçün status anlayışından istifadə edilir. Mahiyyət etibari ilə şəxsiyyətin statusu, birinci növbədə onun mənsub olduğu sinfin statusu ilə şərtlənir. Şagirdin özünütəsdiqə cəhdi əxlaqi hisslə bağlı olur. Əxlaqi hissin formalaşması uşağın onu əhatə edən adamların davranış adətlərini mənimsəməklə, uğurla əlaqədardır. Kiçik məktəb yaşı dövründə uşaq qaydaları icra etdikcə ona qarşı hörmət hissi formalaşır və eyni zamanda o qaydaların az da olsa pozulmasına razı olmur. Utancaqlıq hissi bəzən şagirdin müəyyən qaydaları səhv yerinə yetirdikdə böyüklərin onlara tutduğu iradla birbaşa qarşılaşması ilə əmələ gəlir. O, başa düşür ki, müəyyən qaydanı pozmuşdur, ona əməl etməmişdir. Bununla əlaqədar olaraq şagird özündə qorxaqlıq hiss edir. Kiçik məktəbli emosional cəhətdən başqa həmyaşıdlarından asılı olur.

Tədricən şagirdin sinifdəki mövqeyinə görə diferensiasiyası baş verir. Bir qrup uşaqlara yaşıdlarının əksəriyyəti tərəfindən üstünlük verilir, başqaları isə yaşıdları arasında xüsusi populyarlığı ilə seçilmir, ya kənarlaşdırılır, ya da diqqətdən kənarda qalırlar. Yaşlıların davranışı daima məktəblini formalaşmağa yönəldilir. Əgər böyüklərin davranışı uşağın uğurlu hərəkətinə səbəb olursa müsbət emosional hal yaradır, onda çətinliyə qarşı getmək hissi əmələ gəlir, bu zaman uşaq onu əhatə edənlərlə asanlıqla təmasa girir. Kiçik yaşlı məktəblilərin uğursuzluğa reaksiyası aqressivliklə müşayiət olunur. Heç bir halda onlar öz zəifliklərinin, iddia etdiklərinin onlar üçün dözülməz olduğunu qəbul etmirlər. Ən əsası isə zəifliklərini təkcə başqalarından deyil, özlərindən də gizlədirlər.

Yüksək özünüqiymətləndirməni qorumaq ehtiyacı şagirdin uğursuzluğunu aşkar etməyə hər kəsə kəskin reaksiya göstərməsinə səbəb olur. Müəllimlər, yoldaşları və valideynlər belə bir şagirdin zəifliyini göstərməyə çalışsalar da o ümidsiz şəkildə müqavimət göstərir, onlarla münaqişəyə girir. Məsələn, müəllim səhv tapır, yoldaşları pisdir, valideynləri onu başa düşmürlər. Bu vəziyyət qeyri-adekvatlıq affektidir. Bu xoşagəlməz, çətin emosional vəziyyət imkanlarla üst-üstə düşməyən artan iddiaların nəticəsidir, yəni sabit hissiyyatın real nailiyyətlərdən, uşağın başqalarından aldığı qiymətdən yüksək olmasının nəticəsidir. Qeyri-adekvat təsir müəyyən qoruyucu funksiyanı yerinə yetirir. Şagirdi travmatik təsirlərdən qoruyur.

Beləliklə, qeyri-adekvat affekti özünüqiymətləndirməni, özünə olan münasibəti qorumağa kömək edir ki, bu da özünəhörməti təmin edir.Affektiv vəziyyətlərə tez-tez kiçik yaşlı məktəblilərdə rast gəlinir. Ancaq bu yaşda belə şərtlər hələ də qeyri-sabitdir və tez keçir.

ƏDƏBİYYAT

1.Abdullayeva, Ş.Y. Kiçik yaşlı məktəblilərin həmyaşıdları ilə qarşılıqlı münasibətlərinin emosional xüsusiyyətləri. Psixol.elm.nam.dis.avtoref. – Bakı: 2004, - 17 s.
2.Bağırlı, L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. - Bakı.: Nərgiz, - 2003. -116s.
3.Алферов, А.Д. Психология развития школьников: Учебное пособие для вузов. - Ростов-на-Дону, -2010. - 384 с.
4.Гарькавая, Т.С. Как научить младших школьников учиться самостоятельно / Т.С. Гарькавая. - М.: Дикта, - 2012. -160 с.

**Kubra MEHTİYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Pedaqoji psixologiya kafedrasının müəllimi***
**E-mail: kubramehdiyeva6@gmail.com**

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA ROLLU OYUNLAR VƏ ONLARIN UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA MÖVQEYİ

*Açar sözlər:* uşaq, oyun, şəxsiyyət, psixologiya

Rollu oyunun əmələ gəlməsinin konkret dövrünü və ya ilini müəyyənləş-dirmək qeyri-mümkündür.Müxtəlif xalqlarda rollu oyunların əmələ gəlməsi müxtəlif dövrlərə təsadüf edə bilər.Burada ayrı-ayrı xalqların yaşayış şəraiti və bir cəmiyyət formasından digərinə, daha yüksək olan keçid mühüm əhəmiyyətə malikdir.

Oyun böyüklər tərəfindən məktəbəqədər uşaqlara təhsil vermək, onlara obyektlər, üsullar və ünsiyyət vasitələri ilə müxtəlif hərəkətləri öyrətmək üçün istifadə olunan uşaq fəaliyyət növlərindən biridir. Oyunda uşaq bir şəxsiyyət kimi inkişaf edir, psixikanın təhsil və iş fəaliyyətinin uğurunun, insanlarla münasibətlərinin sonradan asılı olacağı aspektlərini formalaşdırır.

Uşaqlar əylənərək və oynayaraq öz şəxsiyyətlərini qazanırlar. Müxtəlif rollu oyunlar uşaqların və bütövlükdə cəmiyyətin, hətta ağır inkişaf qüsurları olan uşaqların mühitində müxtəlif zövqlər və müxtəlif ünsiyyət vasitələrini formalaşdırır. Oynamaq həmişə qarşılıqlı ünsiyyəti yaradır, çünki oynamaq kimsə ilə əlaqə qurmaq deməkdir. Bu kontekstdə rollu oyun tərəfdaşlar arasında dialoqdur, onlardan biri oyun fəaliyyətinin öyrənilməsinin ilkin mərhələsində müəllim (tərbiyəçi), sonra həmyaşıdları və ya oynayan bir qrup uşaqdır.

Aparıcı psixoloqların fikrincə, rollu oyunlar məktəbəqədər yaşda aparıcı fəaliyyətdir. Genişlənmiş formada süjet-rol oyunu, uşaqlar böyüklərin rollarını öz üzərinə götürdükləri və xüsusi yaradılmış oyun şəraitində böyüklərin fəaliyyətini və onlar arasındakı münasibətləri ümumiləşdirilmiş formada təkrar istehsal etdikləri bir fəaliyyətdir. O, uşağın oriyentasiyasının ən ümumi insan fəaliyyəti mənasında baş verdiyi bir fəaliyyət kimi çıxış edir.

Kiçik bir uşaq bir az böyüdükdə, bütün böyüklər kimi müstəqil hərəkətlər edə biləcəyini başa düşməyə başlayır. O andan etibarən bütün böyükləri təqlid etməyə başlayır. 2-3 yaşlı uşaqlar üçün ilk rollu oyunları belə yaranır.

Körpənin güclü təsəvvürü varsa, o, öz oyununu icad edərək və özünü başqaları kimi təsəvvür edərək onu təkrarlamağa çalışır. Onu zooparka aparsanız, özünü xüsusilə yaddaqalan heyvan kimi təsəvvür edərək oynayacaq, özünü başqa bir yaşlı kimi aparacaq və.s

Məktəbəqədər yaş dövründə rollu oyunların süjetini 3 böyük qrupa ayırmaq olar.
a) Məişət mövzuları ilə əlaqədar olan süjetli-rollu oyunlar .
b) İstehsalat süjetləri ilə əlaqədar olan süjetli-rollu oyunlar.
c) İctimai-rollu həyat hadisələri ilə əlaqədar olan süjetli-rollu oyunlar.

Uşaq rollu oyunlarda bilavasitə insani münasibətləri mənimsəyir və tədricən cəmiyyətin gələcək üzvü kimi formalaşır. Beləliklə, məktəbəqədər yaşlı uşaqlarda rollu oyunlar əsas yer tutmaqla şəxsiyyətlərarası münasibətlər mənimsənilir. Mənimsəmə prosesində uşaq özünəməxsus istiqaməti, xüsusiyyəti, düşüncə tərzi olan şəxsiyyət kimi təzahür edir. Bu zaman uşaqda təxəyyül və simvolik funksiyalar formalaşır, insani münasibətlərə və işlərə ümumi fikir, bələdləşmə əmələ gəlir, tabeçilik və idarəetməyə şüurlu münasibət təşəkkül tapır. Həmin dövrdə ictimai baxımdan əhəmiyyətli və qiymətləndirilən fəaliyyət uşağın artıq məktəb həyatına hazır olmasına dəlalət edir.

ƏDƏBİYYAT

1.Çələbiyev, N.Z. Uşaq psixologiyası. - Bakı: 2005.
2.Əmrahlı, L.Ş., Rzayeva, N.T. Uşaq psixologiyası. Dərs vəsaiti. – Bakı: 2015.
3.Qədirov, Ə.Ə. Yaş psixologiyası. - Bakı: 2002.
4.Həmzəyev, M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. - Bakı: 2003.
5.Əliyev, R.İ. Psixologiya. - Bakı: 2008

**Mədinə HƏZİYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Pedaqoji psixologiya kafedrasının müəllimi***
**E-mail: hez9595@mail.ru**

## TƏLİM FƏALİYYƏTİNDƏ KİÇİK MƏKTƏBLİLƏRİN MÜSTƏQİLLİYİNİN İNKİŞAFI

*Açar sözlər:* müstəqillik, motivləşmə, təlim fəaliyyəti,qabiliyyət, təfəkkür

Müstəqillik şagirdin öz şəxsiyyətini, məktəbdə və cəmiyyətdə şəxsi davranışını müsbət mənada dəyişdirmək, təkmilləşdirmək, formalaşdırmaq üçün öz üzərində məqsədyönlü və müstəqil surətdə işləməsidir. Müstəqillik mənəvi, fiziki və estetik keyfiyyətləri, adət, rəftar və davranışını təkmilləşdirməyə yönəldilmiş şüurlu və müntəzəm olub məktəblinin şəxsi keyfiyyətidir.

Təlim fəaliyyətində müstəqillik şagirdin aparıcı keyfiyyətlərindən biri olmaqla müəyyən bacarıq və vərdişləri də nəzərdə tutur. Kiçik məktəblilərin müstəqilliyinin inkişafı tapşırıqları seçmək və iş qaydasını qurmaq məqsədlərinə

uyğun olaraq həyata keçirilir. Bunlar təlim fəaliyyətində müstəqil iş təcrübəsini şərtləndirir:

- təlim situasiyalarında təhlil və oriyentasiyanın həyata keçirilməsi;
- təhsil fəaliyyəti üçün məqsədlərin müstəqil müəyyən edilməsi;
- qarşıdan gələn fəaliyyətlərin mərhələli proqramının tərtib edilməsi;
- planlaşdırılan tədbirlərin həyata keçirilməsi;
- təhsil fəaliyyətinin müvəffəqiyyət dərəcəsinin qiymətləndirilməsi.

Müstəqillik dedikdə, asılı olmamaq, avtonom şəkildə mövcud olmaq, öz gücünə inanıb şəxsi təşəbbüskarlığa malik olmaq başa düşülür.

Əsas prinsipial cəhətindən biri təqdim etdiyimiz şəraitdə qeyri-standart qərarlar qəbul etməklə hərəkətləri məsuliyyətlə icra etməkdir:

* müstəqillik istənilən formada təzahür etməklə növbəti xüsusiyyətlərə malik olmalıdır.

* hərəkətlərə şüurlu cəhd göstərmək.

Müstəqilliklə bağlı fikirlərin inkişafı tədqiqatçılardan: L.V.Zankov, A.E. Dmitriyev, D.B.Elkonin, V.V.Davıdov və başqaları mühüm qaydaların təsdiqi və müstəqilliyin təlim fəaliyyətində formalaşması probleminin praktik həlli üçün tədqiqatın zəruriliyini müəyyən etmişlər:

* yeni təlim fəaliyyətində hər bir şagirdin özünün azad, yaradıcı əməyinin ayrılmaz cəhətlərini təzahür etdirməyə cəhd göstərilməsi;

* qavramanın motivləşməsi əsasında bacarıq və ya vərdişlərin nəzəri əsaslarının şüurlu olaraq formulə edilməsinə uyğun şagirdin müstəqil hərəkəti və həmin yeni təlim situasiyalarında onların tələblərinin təmini və tətbiqinin təşkili.

* nəzəri və praktiki xarakterli yaradıcı işlərdə, axtarışlarda şagirdin iştirak etməsi onun idraki aktivliyini, idrak qabiliyyətlərini, nəzəri biliklərə tələbatını şərtləndirir.

Şagird müstəqil şəkildə kitabla işləmək bacarığına yiyələnməklə ədəbiyyatdakı məlumatdan istifadə edir. Məktəbin vəzifəsi hər bir şagirdə təkcə biliklərin sayı qədər məlumatlar vermək deyil, həm də elmi və ya digər informasiyalarla müstəqil şəkildə məlumatlanmağa yönəltməkdir. Öyrənmə zamanı müstəqil axtarışda uşağın fərdiyyəti formalaşır.

Təlim prosesinin bərabərhüquqlu iştirakçısı olmaqla şagird müstəqil işin gedişində şəxsi fikir və ideyalarını reallaşdırır. Nəticədə o, real olaraq fəaliyyətin motivlərini mənimsəyir, özünün dərketmə prosesini yaradır. Müstəqillik hadisə olaraq təlim prosesində şagirdin fəaliyyətinin subyekti kimi qabiliyyətlərini formalaşdırır. Müstəqillik təlim fəaliyyətində köməkçi deyil, əsas xarakteristika kimi nəzərdən keçirilir.

Müstəqillik hərəkətlərin dərk edilməsini və motivləşməsini, həmçinin şagirdin öz iradəsini heç bir təsir olmadan həyata keçirən keyfiyyət kimi nəzərdən keçirilir. Bu iradi keyfiyyətin əsas səciyyəvi xüsusiyyətlərindən biri də qəbul edilən hərəkətlərin nəticələrinə məsuliyyətlilik hissi daşımaqdır.

Müstəqilliyin obyektiv xarakteristikası zəruridir, lakin müstəqil inkişaf üçün kifayət deyil. Subyektiv keyfiyyətlər sırasına şagirdin müstəqil fəaliyyətində növbəti cəhətləri aid edə bilərik:

- aktiv fəaliyyəti təzahür etdirmək arzusu, daxili motivasiyanın mövcudluğu;
- başqalarının mühakimələrindən asılı olmadan öz şəxsi nöqteyi-nəzərindən fikirlərini ifadə etmək arzusu;
- adekvat özünüqiymətləndirmə və özünənəzarətin həyata keçirilməsinə hazırlıq və cəhd göstərmə;
- müstəqil şəkildə öz hərəkətlərini etalonla birgə müqayisə etmək imkanı və qabiliyyəti, təlim tapşırıqlarının nəticələrini və prosesi qiymətləndirmək.

Hər bir şagirdin müstəqilliyini inkişaf etdirmək üçün dərs elə təşkil olunmalıdır ki, şagird fəaliyyətin aktiv iştirakçısına çevrilsin və nəticədə şagirdin şəxsiyyətinin fərdi psixoloji xüsusiyyətləri nəzərə alınsın. Təlim fəaliyyətində şagird müstəqil təfəkkürə ehtiyac duyur, rastlaşdığı problemi özü həll etmək istəyir, həllin gedişində fərziyyəsini irəli sürür, özünün və başqalarının cavablarını təhlil edir.

Şagirdin dərsdə müstəqilliyi o dərəcədə olmalıdır ki, müəllim ona hazırlıqda bir o qədər müstəqil olsun. Məktəbdə uşaqların müstəqilliyini formalaşdırmaq üçün ilk növbədə aşağıdakılara əməl etmək lazım gəlir:

- uşağın məktəbə daxil olduğu ilk vaxtlarda kiçik yaşlı məktəblidə öz mövqeyinə, müstəqilliyinə müsbət münasibəti inkişaf etdirmək və həmin münasibəti kiçik məktəb yaşının sonuna qədər qoruyub saxlamağa nail olmaq;
- kiçk yaşlı məktəblilərdə biliklərə maraq, intellektual çətinliklərin aradan qaldırılmasını formalaşdırmaq;
- şəxsiyyətdə elə keyfiyyətlər formalaşdırmaq lazımdır ki, onlar məsuliyyətlilik, müstəqillik üçün zəruri şərtlər təşkil etsin.
- kiçik məktəblilərin müstəqilliyinin formalaşması üzrə xüsusi təlim məşğələləri keçirirlməlidir. I sinfə daxil olan uşaqlar elə ilk günlərdən diqqətli olmaq kimi böyüklərin tələbləri ilə qarşılaşırlar. Onların əksəriyyəti zəruri bacarıqlara yiyələnmədiklərindən həmin tələbləri necə yerinə yetirmələri barədə sına bir nözlərini təsəvvür edə bilmirlər.
- kiçik məktəbli müstəqillik yolu ilə özündə olan yaxşı və ya pis cəhətləri müəyyənləşdirməklə birinciləri daha da inkişaf etdirib zənginləşdirmək, sonuncu- ları isə aradan qaldırmaq üçün müvafiq fəaliyyət göstərər, lazımi üsul və yollardan istifadə edər. Bu zaman şagird müstəqilliyi ilə müvəffəqiyyət qazanmış olar.
- kiçik yaşlı məktəblilərə başa salınmalıdır ki, müstəqillik nə üçün vacibdır. Müəllimlərin vəzifəsi şagirdlərdə müstəqqilliyin müsbət tərəflərinin izahını verməkdir.
- müstəqillik istiqamətində iş apararkən kiçik yaşlı məktəblilərə öz ideallarını axtarıb tapmaqda, xarakterlərinin zəif tərəflərini aşkar etməkdə kömək etmək lazımdır.

- ibtidai siniflərdə şagirdlərin müstəqilliyinin formalaşmasına yönəldilmiş nəzəri, elmi-metodiki və praktiki fəaliyyətin planlaşdırılması;
- inkişafetdirici texnologiyaların reallaşması, əqli, mənəvi, estetik tərbiyə, müstəqilliyin nəzərdən keçirilməsi və s.

## ƏDƏBİYYAT

1. Bağırlı, L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. - Bakı.: Nərgiz, - 2003. - 116 s.
2. Əzimov, E.Q. Psixi inkişaf və tərbiyənin müasir problemləri. - Bakı.: ADPU, - 2004. - 338 s.
3. Гарькавая, Т. С. Как научить младших школьников учиться самостоятельно / Т. С. Гарькавая. — М.: Дикта, - 2012. - 160 с.
4. Кулагина, И.Ю. Психология детей младшего школьного возраста [Текст]: учебник и практикум для академического бакалавриата / И.Ю. Кулагина. – М.: Юрайт, - 2017. - 291 с.
5. Психология детей младшего школьного возраста [Текст]: учебник и практикум для бакалавров / А.С. Обухова. – М.: Юрайт, - 2016.- 583 с.
6. Психология детей младшего школьного возраста : учебник и практикум для академического бакалавриата / З. И. Айгумова [и др.] ; под общей редакцией А. С. Обухова. — Москва : Издательство Юрайт, - 2019. - 424 с.

**Günay KƏRİMİ**
***Azərbaycan Milli Konservatoriyasının müəllimi***
**E-mail: gunay.karimi@mail.ru**

# ŞƏXSİYYƏTİN SƏRVƏT MEYLİNİN FORMALAŞMASINA DAİR PSİXOLOJİ YANAŞMALAR

*Açar sözlər:* şəxsiyyət, psixologiya, hüquq, sərvət, sosiologiya
*Ключевые слова: личность, психология, право, богатство, социология*
*Keywords:* personality, psychology, law, wealth, sociology

Xülasə

Azadlıqda olan və məhkum gənclərin sərvət meyillərindəki oxşar və fərqli cəhətlər, eyni milli-mənəvi dəyərlərlə yaşayan şəxslərin sərvət meyillərindəki oxşarlıq məsələləri tədqiqatın məğzini təşkil edir. Hazırki, məqalə bu baxımdan gənc tədqiqatçılar, hüquq-mühafizə işçiləri, müvafiq sahənin psixoloqları üçün əhəmiyyətli mənbə olacaqdır. Həmçinin məqalədə mühüm elmi mənbələrin tədqiqatlarına istinad edilmişdir.

Bildiyimiz kimi, müasir dövrdə insanı tədqiq edən elm sahələri çoxdur. Bu da təsadüfi deyildir. Çünki insan canlıların ən mürəkkəbidir. Onun mürəkkəbliyi başqa canlılara müyəssər olmayan bir həyat tərzindən irəli gəlir. Bütün canlılardan fərqli olaraq insan sosial mühitdə təşəkkül tapır. Həmin mühit onu bioloji mövcudatdan sosial varlığa çevirir. Bununla da o, tamamilə yeni keyfiyyətlər kəsb edir. Həmin keyfiyyətlər içərisində əmək və fəaliyyət, ünsiyyət qabiliyyəti və şüurla yanaşı mühüm yerlərdən birini insanın özünü idrak prosesinə çevirməsi, onu dərk etməyə, bələd olmağa, məqsədəuyğun surətdə dəyişdirməyə can atması tutur. Bu keyfiyyətlərin yaranması və təşəkkülü ilə insan öz inkişafında, tərəqqisində yeni bir mərhələyə qədəm qoyur. Yəni, o, mahiyyət etibarilə sosial əxlaqın və münasibətlərin məcmusu olan şəxsiyyətə çevrilir. Belə mürəkkəb varlığın ən əsrarəngiz aləmini – mənəvi-ruhi dünyasını araşdırmaq isə psixologiya elminə nəsib olmuşdur. Bir məsələni unutmaq olmaz ki, insanın şəxsiyyət kimi təşəkkülü adi proses deyildir. Burada bəzən çox qəribə təzadlara təsadüf edilir. Bəsit şəkildə deyilərsə, bəzən "eyni proqramla" ye-tişdirilən şəxsiyyətlər tamamilə başqa-başqa təbiətə malik olur, bəzən də əksinə, "proqram müxtəlif olsa da, məzmun yaxınlaşır, müəyyən cəhətlərdə bir-birini tamamlayan xarakterlər təşəkkül edirlər. Belə bir "bəsit" həqiqət elm tarixində bir-birindən fərqi olan çoxlu sayda nəzəri fikir və mülahizələr doğurmuşdur.

Şəxsin həyat mövqeyini, onun cəmiyyətdəki yerini şərtləndirən amillərdən biri kimi sərvət meyilləri hesab olunur. "Sərvət dəyərləri nədir?", "Necə formalaşır?" və s. bu kimi suallar psixoloqları və əlaqəli elm sahələrinin mütəxəssislərinin diqətini çəkmişdir. Bu baxımdan sərvət meyilləri problemi xarici psixoloqlar tərəfindən müxtəlif aspektlərdən tədqiq olunmuşdur. Bir sıra

tədqiqatçılar: Q.Ollport, T.Parsons, M.Şeller, M.Rokiç, R.İngelhart, J.Devi, B.P.Perri, F.Şarp, M.Şərif, E.Güngör, A.Topçuoğlu, Ü.Günay, Azərbaycan pisxoloqlarından, Ə.S.Bayramov, C.Təhmasib, R.Cavadov, M.Vəliyev, T.Musa-yeva, G.Hüseynova, C.Tağıyeva, R.Qədirova, Q.Əzimov, M.Həmzəyev, Ə.Əlizadə, Ə.Qədirov və başqaları sərvət meyillərinin psixoloji mahiyyətinin nəzəri-metodoloji məsələlərini öyrənmişlər.

Sosial elmləri əhatə edən elmlərin ədəbiyyatlarına nəzər salsaq, görərik ki, hər bir elm sahəsi sərvət meyillərini fərqli yönümlərdən təhlil etmişdir. Sərvət meyilləri arzuedilən, şəxslərin həyatına bələdçilik edən, önəm dərəcəsi bir-birindən fərqli dəyərlərdir. Belə demək olar ki, sərvət meyli bir-biri ilə sıx su-rətdə əlaqələnmiş dəyərlər sistemindən təşkil olunmuşdur. Bu baxımdan sərvət meyillərin mahiyyətini aydınlaşdırmaq üçün dəyərlərin araşdırılması vacib məsələdir. Dəyər və sərvət meyilləri həm fəlsəfədə, həm də başda sosiologiya, psixologiya, antropologiya olmaqla digər sosial elmlər çərçivəsində tez-tez müzakirə olunan mövzudur. Dəyərlər haqqında bir çox tədqiqatlar aparılmasına baxmayaraq həllini gözləyən problemlər hələ də vardır.

İlk olaraq qeyd edək ki, dəyərlər nəyin doğru, nəyin səhv, nəyin yaxşı, nəyin pis, nəyin gözəl, nəyin çirkin olması haqqında ümümi hökmlər çıxarmağa xidmət edir. Əsas sosial dəyərlər modern və adət-ənənə xarakteri daşımasına görə iki qrupa bölünür. Bu təsnifata görə adət-ənənələrlə bağlı dəyərlər dəyişikliyə uğrayaraq modern dəyərlərə keçir. Dəyərlər ilə insanlar arasında əlaqə qarşılıqlıdır. Dəyərlər insanları, insanlar dəyərləri yaşadır. Dəyərlərlə insan davranışları arasında əlaqə təkistiqamətli və mütləq deyildir. Dəyərlərin sosial həyatda gerçəkləşməsi mürəkkəb zaman qismini əhatə edir. Dəyərlərin aşağıdakı xüsusiyyətləri və funksiyaları vardır.

**Cədvəl 1**

**Dəyərlərin xüsusiyyətləri və funksiyaları**

| Dəyərlərin xüsusiyyətləri | Dəyərlərin funksiyaları |
|---|---|
| Dəyərlər paylaşılır. | Dəyərlər mühakimə vasitəsidir. |
| Dəyərlərə ciddi məsələ kimi yanaşılır. | İctimaiyyətə ideal düşünmə və davranma yollarını göstərir. |
| Dəyərlər ictimai xarakter daşıyır. | Sosial rolların sevilməsinə və gerçəkləşməsinə rəhbərlik edir. |
| Dəyərlər sürəklidir. | İnsanların diqqətini faydalı və vacib olan mədəni obyektlərə yönəldir. |
| Dəyərlər dil və simvollarla ötürülür. | Sosial nəzarəti həyata keçirir. |
| Dəyərlər dəyişməyə meyillidir. | Həmrəylik yaratmaq üçün vasitə kimi istifadə olunur. |

| | |
|---|---|
| Dəyərlər müəyyən məna daşıyan standartlar, inanclar, əxlaqi kateqoriyalardır. | Dəyərlər sərvət meyillərini formalaşdırır. |

Dəyərlərin möhkəmlənərək davranışda özünü göstərməsinə sərvət meyli deyilir. Sərvət meyli yaşanmış təcrübə nəticəsində yaranan, onun maraqlarını əhatə edən vəziyyətlərə qarşı fərdin davranışlarını istiqamətləndirmə təsirinə malik psixi hazırlıq vəziyyətidir. Başqa bir ifadəylə desək, sərvət meyli davranışda özünü göstərən bilik, inanc və düşüncənin bütünlüydür və sürəkli xarakter daşıyır. Türkiyədə sərvət meyli haqqında tədqiqatlar aparmış M.Şerifin fikrincə, dəyər sərvət meylinin tərkib hissəsidir. Ancaq sərvət meylini tək bir dəyər yaratmır, arxa planda dəyərlər kombinasiyası olur. Bu da o deməkdir ki, sərvət meyli bir çox dəyərlərin birləşməsindən meydana çıxır. Hər sosial bölümün dəyərləri bir-birindən fərqlidir. Məsələn, bir idmançı ilə bir elm adamının dəyərləri arasında nəzərəçarpan fərqlər özünü göstərir. Lakin dini dəyərlər ayrı-ayrı qrup üzvlərinin davranış səviyyəsinə görə fərqlənsə də, geniş və kütləvi xarakter daşıyan ümumi dəyərlərdir. Bundan əlavə dini dəyərlər uzunmüddətli təsirə malikdir. Onlar dünyaya necə baxmaq, necə yaşamaq və necə ölməyi təyin edir. Dəyərlərin praktika ilə əlaqəsi bizi əxlaq bağlantısına aparır. Çünki əxlaq bir şeyin pis və ya yaxşı olması ilə bağlı mühakimədə özünü göstərir. Əxlaq yalnız dəyər deyil, mühakimə olunmuş dəyərlər sistemidir ki, bu da sərvət meylində ifadə olunur. Sosial elmlər sahəsində XX əsrin II yarısına qədər sərvət meyli, dəyərlər haqqında ciddi empirik tədqiqatlar aparılmışdır. Bu mövzuda ilk ciddi iş F.E.Şarpa aiddir. Şarp işlərində dəyərləri həyəcan və sərvət meyli ilə əlaqəli ancaq ictimai anlayışlar olaraq ön plana çəkir. J.Devi 1930-1960-cı illərdə apardığı təcrübələrdə belə qənaətə gəlmişdir ki, sərvət meyli uzun sürən təcrübənin məhsuludur. R.B.Perri sərvət meyillərinin formalaşmasını insanın maraq və can atdığı mühit amilinin təsiri ilə əlaqələndirmişdir.

Əxlaqi dəyərlərlə bağlı tədqiqatlara diqqət çəkən J.Piaje dəyərlərin fərqli yaş dövrlərinə müvafiq olaraq inkişaf etdiyini və bu inkişafın dəyər və düşüncə ilə paralel getdiyi fikrini irəli sürmüşdür (6, s. 216). Sərvət meyli və dəyərlərlə bağlı tədqiqatlarında təhsil və digər mədəni vasitələrə diqqət çəkən S.H.Şvarts apardığı tədiqatlarda dəyərlərin mahiyyətini açmaq üçün indi də istifadə olunan dəyərlər kateqoriyasını yaratmışdır. Müasir dövrdə sərvət meyillərinin tədqiqi ilə bağlı aparılan tədqiqatlar müəyyənedici, təsviredici xarakter daşıyır ki, bu üslubda olan tədqiqat nümunəsi kimi R.F.İnqlehartın işlərini göstərmək olar. O, 1976-1982-ci illərdə UNESCO-nun dəstəyi ilə dünyanın 43 ölkəsində yaşayan insanların sərvət meylinin xüsusiyyətlərini araşdırmışdır. O, sərvət meylinin əsası olan dəyərlərin iki kateqoriya əsasında formalaşdığını göstərmişdi:

- ✓ adət-ənənlərə söykənən dəyərlər;
- ✓ rasional-leqal xarakterli dəyərlər.

B.A.Vasiliyevanın fikrincə, intellektual və emosional əlaqələrin şərhi və qiymətləndirilməsi mənəvi keyfiyyətlərin qavranılmasına və bu keyfiyyətlərin formalaşmasına böyükköməklik göstərir. Qeyd edək ki, dəyərlərin dərk

edilməsi və onlara müvafiq emosiyaların yaranması sərvət meyillərinə münasibəti şərtləndirir. Bu zaman, hər şeydən əvvəl, qiymətləndirmə özündə idraki və emosional komponentləri əks etdirməklə müəyyən dəyərlərə münasibətdə idraki fəallıq kimi çıxış edir (2, s. 115).

Məsələni bu yöndə araşdıran V.P.Tüqarianov göstərir ki, dəyərlərə münasibət subyektin fəaliyyətinin idraki qiymətləndirmə aspekti ilə bağlıdır. Onun fikrincə, mənəvi dəyərlərə münasibətin əsasında mənəvi qiymətləndirməni özündə əks etdirən qiymətləndirmə durur. Əlbəttə, bu fikirlərlə razılaşmamaq olmaz. Çünki mənəvi inkişafın təzahüründə mənəviyyatın başlıca komponenti qiymətləndirmədir. Yəni, hər hansı bir keyfiyyəti, hadisəni mövcud etalona uyğun qiymətləndirərək şəxsiyyət ona öz münasibətini bildirir. Bununla da mənəvi inkişafın komponentləri yaranmağa başlayır. Doğrudur, bu prosesdə qiymətləndirmə ontogenetik inkişafın sonrakı mərhələsində meydana çıxa bilər. Lakin burada bir məsələni qeyd etmək lazımdır ki, onun ontogenezdə necə formalaşması və ilkin komponent kimi nəyin əsas götürülməsi hər iki tədqiqatçının əsərində toxunulmamış qalır. Fikrimizcə, mənəvi inkişafın mərhələlərində uşağın özü haqqında və cəmiyyətdə mövcud olan təsəvvürlərin müqayisəsinin meydana çıxması, yaxşı və pis anlayışlarının formal deyil, məzmun baxımından dərk edilməsi mənəvi inkişafın genezisi kimi götürülə bilər. Bu məsələləri geniş şəkildə təhlil etməyə çalışan L.İ.Ruvinski qeyd edir ki, hər hansı mənəvi hadisənin qiymətləndirilməsi mənəvi münasibətlərdə müvafiq dəyərlər sisteminin yaranmasını təmin edir. Müəllifin fikrincə, obyektiv mənəvi dəyərlər prosesinin şəxsiyyətə transformasiyası birxətli istiqamət üzrə baş vermir. Müəllifin fikirlərinə münasibət bildirərkən qeyd etmək lazımdır ki, doğrudan da, hər hansı bir hadisənin mənfi qiymətləndirilməsi, onda çatışmayan cəhətlərin dərk edilməsi şəxsiyyətin mənəvi inkişaf prosesinə daxil ola bilməz (3, s.96).

Doğrudur, bəzi hallarda belə neqativ cəhətlər subyekt tərəfindən əsaslandırılır. Lakin həmin əsaslandırma cəmiyyətdə mövcud olan dəyərlər sisteminin çox az hissəsini özündə əks etdirir. Burada Z.Freydin bir fikri yada düşür. O yazır ki, özünə bəraət qazandırmaqda biz həmişə dühayıq. Göründüyü kimi, yuxarıda söylədiyimiz bu cəhətlər Ruvinskinin diqqətindən yayınmışdır. Bu da təbiidir. Çünki keçmiş sovet psixologiyasında mənəvi dəyərlər sistemi və mənəvi ideal həmin ideologiyaya tabe edilmişdir və ondan kənardakı ali mənəvi dəyərlər şəxsiyyət üçün lazımsız hesab edilirdi. Şəxsiyyətin mənəvi təşəkkülünə təsir göstərən bütün elementləri hərtərəfli şəkildə səciyyələndirmək üçün daha "dar" mənəvi anlayışlardan istifadə etmək zəruridir. "Əhəmiyyət" anlayışı mühümlük anlayışlardandır. Yəni, şəxsiyyət üçün mühüm olan keyfiyyətlər onun dəyərlər sisteminə daxil olur. Doğrudur, ayrı-ayrı tədqiqatlarda əhəmiyyət və mənəviyyat anlayışları çox vaxt identik anlayışlar kimi işlədilir. Bir qrup tədqiqatçılar dəyərlər və əhəmiyyət anlayışlarını bir-birinə differensiya edərək onun məzmununu açmağa çalışırlar. Məsələ ilə bağlı B.Q.Tüqarianov hesab edir ki, əhəmiyyət anlayışı yalnız müsbət dəyərləri deyil, həm də mənfi dəyərləri özündə əks etdirir. Müharibələr, cinayətlər, xəstəliklər cəmiyyət və şəxsiyyət üçün

böyük əhəmiyyət kəsb edir. Lakin heç kəs onu mənəvi dəyər kimi xarakterizə etmir. Dəyər anlayışı isə ancaq müsbət məzmunlu əhəmiyyətlilik dərəcəsinə malikdir. Keçmiş sovet psixologiyasında yaranmış bu iki nöqteyi-nəzər, hər şeydən əvvəl, mənəvi təşəkküldə müsbət və mənfi hadisələrin rolunu qiymətləndirməyi və şəxsiyyətin mənəvi təşəkkülündə mənəvi normaların, dəyərlərin mexanizmini müəyyənləşdirməyə kömək edir. Cisim və hadisələrin mahiyyəti ilə onların şəxsi mənası bir sıra mühüm xüsusiyyətlərə görə fərqlənir. Birincisi, şəxsi məna nəinki dərk olunmuş formada, həm də çox vaxt dərk edilməmiş formada mövcud olur. İkincisi, şəxsi mənanın əmələ gəlməsinə bilavasitə nəzarət etmək və ancaq söz vasitəsilə təsir etmək mümkün deyildir (Şəxsiyyəti öyrətmirlər, tərbiyə edirlər). Üçüncüsü, şeylərin əhəmiyyətindən fərqli olaraq şəxsi məna öz-özünə, obyektiv surətdə mövcud deyildir. Onlar müəyyən bir fəaliyyət daxilində əmələ gəlir və öz-özlüyündə fəaliyyətdən kənarda, özlərinin konteksindən kənarda öyrənilə bilməz. Bununla da şeylərin əhəmiyyəti fərdi şüur sistemində psixolojiləşir, yəni, şəxsi məna kəsb edir. Şəxsi mənanın formalaşması mürəkkəb və çoxcəhətli prosesdir. Bir sıra hallarda şeylərin əhəmiyyəti ilə onların subyekt üçün şəxsi mənası nəinki uyğun gəlmir, hətta bir-biri ilə zidiyyət kəsb edir. Şəxsi məna əhəmiyyəti kəsb edən motivlər fəaliyyət prosesində dərk olunduqca şüurlu məqsədə çevrilir və fəaliyyətin obyektiv məntiqinə tabe olur. Mənəvi inkişafda müsbət və mənfi qimətləndirmənin qarışılıqlı əlaqəsinin dialektikasının açılması bizə mənəvi inkişafın ayrı-ayrı aspektlərini izah etməyə, şəxsiyyətin özünün təkmilləşdirməsində rolunu və mövqeyini müəyyənləşdirməyə imkan vermiş olur. Belə ki, öz şəxsi keyfiyyətinin müsbət qiymətləndirilməsi mənəvi dəyərlərə münasibətə, eyni vaxtda onun dərk edilməsinə və onun xeyirli olmasının başa düşülməsinə gətirib çıxardır. Subyekt anlayır ki, bu və ya digər keyfiyyətlərin öz idealı ilə müqayisədə tənqidi və ya müsbət keyfiyyətlərin inkişafında çatışmazlıqların təhlili onun özünügerçəkləşdirməsinə, özünütərbiyəsinə təhrik edir. Burada bir cəhət də qeyd edilməlidir ki, subyektin öz fəaliyyətinin şəxsi məzmununun qiymətləndirməsi, öz çatışmazlıqlarını görməsi və onlara ardıcıl münasibət bəsləməsi onu fərddən yaradıcı şəxsiyyətə çevirir.

İ.Kantın fikrincə, sərvət meyilləri fərdi xarakterə malikdir, amma onlar kollektiv şüurun, ictimai fikrin təsirinə məruz qalır və ətraf mühitin təsiri altında formalaşma xüsusiyyətinə malikdir. Demək olar ki, sərvət meyilləri həm onun daşıyıcısının şəxsiyyəti ilə, həm də onun yaşadığı ərazinin, dövrün əxlaqi baxış və normaları ilə müəyyən olunur (5, s. 45).

L.P.Fomina cəmiyyətin sinfi strukturundan asılı olaraq sərvət meyillərinin aşağıdakı tiplərini ayırmışdır:

a) iqtisadi münasibətlər sistemində fəaliyyətin xarakterindən, gəlirin mənbəyi və səviyyəsindən, həcmindən, başqa sözlə, insanın həyat fəaliyyətinin maddi şəraitindən asılı olan sərvət meyilləri. Bu halda sərvət meyillərinin tipinin cəmiyyətin sosial-sinfi strukturu ilə identikliyindən danışmaq olar (işçilərin, ziyalıların sərvət meyilləri və s.);

b) sosializasiya agentlərinin təsiri nəticəsində yaranan sərvət meyilləri (ailə, məktəb, həmyaşıdlar qrupu, kütləvi informasiya vasitələri), belə hallarda insanlarda davranış qaydaları, ənənələr haqqında təsəvvürlər, eləcə də adətlər, cəhdlər, həyati məqsədlər, mənəvi dəyərlər haqqında təsəvvürlər formalaşır;
c) dövlətin, siyasi sferanın təsirini xarakterizə edən sərvət meyilləri (4, s.113).

V.B.Olşanski sərvət meyilləri dedikdə qrup şüurunda qəbul edilmiş müəyyən normalar sistemi kimi nəzərdən keçirilən məqsəd, cəhd və həyati idealları başa düşürdü. Alimin fikrincə, şəxsiyyətin həyati cəhdləri həmişə "qrup şüuru" ilə, yəni, insanın işlədiyi, oxuduğu, başqa sözlə, içində yer aldığı qrup tərəfindən tənzimlənir.Türkiyədə də gənclərin sərvət meyilləri, dəyərlərini tədqiq etmək məqsədi ilə bir çox tədqiqatlar aparılmışdır. Onlardan bəzilərinə nəzər salaq.

Erol Güngörün "dəyərlər psixologiyası haqqında tədqiqatlar" adlı işində göstərilmişdir ki, əxlaqi dəyər mühakiməsi ilə davranışın təməl dəyişiklikləri arasında əlaqə var (1, s.46). Akademik səviyyədə aparılan digər tədqiqat A.Topçuoğlunun dosentlik dissertasiyası olan "Universitet gənclərinin dəyərləri" adlı işidir. Prof. B.H.Əliyev sərvət meyillərinin şəxsiyyətin özünügerçəkləşdirməsində rolu, prof. Ə.Ə.Əlizadənin cinsi demorfizm məsələlərinin araşdırılmasın çərçivəsində qeyd edilən problemə toxunmuşlar. Sərvət meyilləri probleminin tədqiqində prof. Ə.S.Bayramovun tələbələrin sərvət meyilləri və ideallarının onların şəxsiyyətinin inkişafında roluna dair apardığı tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir. O qeyd edir ki, "Ayrı-ayrı adamların rəftar və davranışında rast gəlinən qeyri-əxlaqi hərəkətlər daha çox onların yaşadıqları mikromühitdən asılıdır". Yəni, ayrıca bir şəxs necə adamlarla əhatə olunub, ona nəyi təlqin edirlər. Məlumdur ki, şəxsiyyətə edilən bu və ya digər təsir izsiz qalmır. Burada kimdən nümunə götürmək çox böyük əhəmiyyət kəsb edir. Onun özünün, onu əhatə edən adamların sərvət meyli necədir, onlar öz həyatlarının mənasını nədə görür və nəyə can atırlar məsələsi diqqətdən qaçırıla bilməz. Hər bir adam bu və ya digər şəxsə və ya qrupa öz sərvət meyli nöqteyi-nəzərdən yanaşır. Hər bir fəaliyyət adamına öz təcrübəsindən bəllidir ki, kollektiv üzvlərindən birinin iş yeri dəyişdikdə onun şəxsiyyətlərarası münasibətlərindəki mövqeyi də dəyişir. Bir kollektivlə passiv olan şəxs qeyri kollektivin fəal üzvünə çevrilir və ya əksinə.

Deyək ki, birinci qrup intellektual keyfiyyətləri, məsələn insan ağlını, düşüncəsini, bilikləri və s. ikinci qrup isə fiziki keyfiyyətləri yüksək qiymətləndirir. Aydın məsələdir ki, ağıllı bir şəxsin ikinci qrupa nisbətən məhz birinci qrupda, fiziki keyfiyyətləri ilə seçilən şəxsin isə birinci qrupa nisbətən məhz ikinci qrupda özünə yaxşı mövqe qazanmasına daha çox imkan vardır. Başqa sözlə, yüksək intellektual keyfiyyətlərə malik olan bir şəxs ancaq fiziki keyfiyyətləri yüksək qiymətləndirə bilən bir qrupa düşəndə onun intellektual keyfiyyətləri nəinki kölgədə qalır, hətta müvafiq qrup üzvlərinin ya diqqətini cəlb etmir, ya da ona əhəmiyyət verilmir.

Ə.S.Bayramovun fikrincə, hər bir işçinin yüksək qiymətləndirdiyi keyfiyyətlər müvafiq stereotip, etalon və ideallarla bağlı olub onların sərvət meyillərinin formalaşması prosesinin mühüm tərkib hissəsini təşkil edir. Buna görə də, adamlarda "ümumxalq sərvəti", "milli sərvət" təsəvvürünü genişləndirmək, onların meyillərini məzmunla dolğunlaşdırmaq zəruridir. İnsanın sərvət təsəvvürü onun real həyatı ilə, ictimai və əxlaqi tələbatları, maraqları, məqsədləri ilə əlaqədardır. İnsanın sərvət meylini nəzərdən keçirərkən iki cəhətlə rastlaşırıq. Birincisi, hər bir şəxsin sərvət təsəvvürü, yaxud özünün sərvətə meyli haqqında fikri həmin şəxsin real davranışı, əməli, ciddi-cəhdidir. Bir sıra adamlarda bu iki cəhd arasında ziddiyyət özünü büruzə verir. Başqa sözlə, dildə əsas götürdüyü sərvət ilə real hərəkətində, davranışında can atdığı sərvət arasında uyğunsuzluq olur. Bir sıra hallarda insanların sözü və əməli arasındakı çox böyük ziddiyyət buradan irəli gəlir.

Professor M.Həmzəyevin pedoqoji yönümdə apardığı tədqiqat işlərini xüsusi qeyd etmək lazımdır. Müəllif yazır: "Özünütərbiyə bir növ özünü idarə etməkdir. Həm də özünütərbiyə özünüidarənin ən ali forması kimi özünü göstərir. İnsan hər bir yaş dövründə özünü təkmilləşdirməyi, özündə yüksək hislər aşılamağı bacarmalıdır. Özünütərbiyə insanın kamilləşməsi ilə, özünü istər mənəvi, istərsə də fiziki cəhətdən cəmiyyətdəki mövqeyi ilə və yaxud cəmiyyətdə tutmaq istədiyi mövqeyə uyğunlaşdırmaq meyli ilə əlaqədardır. İnsanda özünütərbiyə tələbatının yaranması göstərir ki, o, özünün qarşısında duran vəzifəyə kor-koranə deyil, şüurlu şəkildə yanaşır, fəaliyyətində müvəffəqiyyət qazanmaq üçün özündə müəyyən mənəvi keyfiyyətlər tərbiyə etmək zərurətini dərk edir. Buradan isə aydın olur ki, özünütərbiyə, hər şeydən əvvəl insanın özündə müəyyən müsbət mənəvi keyfiyyətləri inkişaf etdirmək, mənfi mənəvi keyfiyyətlərin isə qarşısını almaq meylinin yaranması ilə bağlıdır. Beləliklə, şəxsiyyət inkişaf etdikcə onun mənəvi təşəkkülündə, formalaşmasında özünütərbiyə daha aydın rol oynamağa və qabarıq şəkildə özünü büruzə verməyə başlayır. Göründüyü kimi Azərbaycan psixoloqlarının əsərlərində mənəvi təkmilləşmə şəxsiyyətdə inteqrativ keyfiyyətlərin formalaşması ilə izah edilir.

Bu amili G.Hüseynova etnopsixoloji xüsusiyyətlərlə, Z.Veysova özünüqiymətləndirmənin adekvatlıq dərəcəsi ilə, G.Tağıyeva özünüqiymətləndirmənin səviyyələri ilə, R.Cabbarov isə özünüdərketmənin təşəkkülü ilə bağlamışlar. Azərbaycan psixoloqu M.Vəliyev qeyd edir ki, sərvət meyillərinin və mənəvi idealın yaranması özünəməxsus spesifik cəhətlərə və ifadə xüsusiyyətlərinə malikdir. Tələbələrdə bu prosesi hərtərəfli şəkildə öyrənməyə çalışan müəllif göstərir ki, bu prosesin formalaşmasını şərtləndirən amillər – mövcud peşənin cəmiyyətdəki prestiji, öz məninin sosial elementlərinin dərk edilməsi imkanları, müəyyən peşə sahəsinə tələbatın çox olmasıdır. Müəllifin fikrincə, təlim prosesində müxtəlif amillərin təsiri altında sərvət meyillərinin və mənəvi idealın diferensiasiyası baş verir. Bu, müəllim fəaliyyətinə peşə hazırlığı ilə bağlıdır. Müəllifin bu sahədəki tədqiqatlarını yüksək qiymətləndirmək lazımdır. O, mənəvi inkişafın etnopsixoloji xüsusiyyətlərini araşdırır. Ümumiyyətlə,

Azərbaycan psixoloqlarının bu sahədəki tədqiqatları yüksək qiymətləndi-rilməlidir. Bu tədqiqatlarda, hər şeydən əvvəl, psixologiyanın inkişafı və əxlaqi davranışın təzahür xüsusiyyətləri bu və ya digər şəkildə keçmiş sovet psixoloqlarının əsərlərində də geniş şəkildə öz əksini tapmışdır.

Bununla yanaşı, azadlıqdan məhrum olunanların dəyər istiqamətlərinə həsr olunmuş çoxsaylı araşdırmalara baxmayaraq qeyd etmək lazımdır ki, onların əksəriyyəti sovet (A.C.Mixlin, V.F.Pirojkov, A.R.Ratinov) və erkən postsovet *(V.G.Morogin, V.V.Yakovlev, M.S.Yanitskiy)* dövrünün cinayətkarlarının son dəyərlərini və həyatının mənalılığının göstəricilərini təsvir edir. Son onilliklər ərzində dünyada baş verən ictimai-siyasi və iqtisadi dəyişikliklər kontekstində məhkum olunanların dəyər istiqamətləri kifayət qədər öyrənilməmişdir. Həbs cəzasına məhkum edilmiş şəxslərin dəyər istiqamətlərinin öyrənilməsinə sistemli yanaşma nümayiş edən əsərlərin sayı çox azdır. "Dəyər istiqamələr sistemi" terminindən istifadə edərək psixoloqlar, bir qayda olaraq, şəxsiyyətin dəyər-məna sahəsinin vacib tərkib hissələri olan həyatın mənası və həyatın dərkedilmə göstəricilərinə diqqət yetirmədən yalnız son dəyərlər sistemini nəzərdə tuturlar (N.I.Lapin, 1975, 1996; I.S.Kon, 1980; F.E.Vasilyuk, 1984, V.V.Luneev, 1986; A.G.Zdravomıslov, 1994; A.B.Serıy,). Şəxsiyyətin dəyər-məna sahəsinin tərkib hissələrinin məcmusu kimi məhkum olunanların dəyərlər istiqamətlərinin sistemi əsərlərində yalnız M.S. Yanitski (2000) nəzərdən keçirilib. Müasir elmi ədəbiyyatda azadlıqdan məhrum olunma şəklində həbs cəzasının müxtəlif mərhələrində şəxsiyyətin dəyər istiqamətlərinin deformasiyasının xüsusiyyətlərini meydana çıxaran tədqiqatlar praktiki olaraq mövcud deyil. Azadlıqdan məhrumolma şəraitində məhkum olunanların dəyərlər istiqamətlərinin dinamikasını analiz etmək cəhdləri yalnız V.V.Yakovlevanın (1998) və V.G.Moroginanın (1999) əsərlərində əksini tapıb.

Bu baxımdan, dəyər istiqamətlərinə həsr olunmuş əsərlərin mötəbər siyahısına baxmayaraq azadlıqdan məhrum olunma şəklində həbs cəzasını çəkənlərdə qeyd olunan fenomenin kifayət qədər öyrənilməməsinə diqqət yetirilməlidir.

ƏDƏBİYYAT

1. Güngör Erol, Değerler Psikolojisi Üzerinde Araştırmalar, Ötüken Yay., İstanbul, 2011, s.123
2. Güvenç, Bozkurt, "Değerler, Tutumlar ve Davranışlar", Ruşen Keleş, Toplum Bilimlerde Araştırma ve Yöntem, Türkiye ve Orta Doğu Amme İdaresi Enstitüsü Yayınları, Ankara, 1998, s.336
3. Kuçuradi, İonna, İnsan ve Değerler, Yankı Yayınları, İstanbul, 2011, s.125
4. Бодрийяр Ж. Общество потребления// Перевод с франц. и сопроводительная статья С.Зенкина – Издательство «Рудомино». М., 2006. - С.2133
5. Парсонс Т. Социальные системы. -М: «Академический проект», 2002. С. 832.

6. Саморегуляция и прогнозирование социального поведения личности / под. ред. В.А. Ядова. Л.: Наука, 1979. С.264

***Гюнай КАРИМИ***

### ***ПСИХОЛОГИЧЕСКИЕ ПОДХОДЫ К ФОРМИРОВАНИЮ БОГАТСТВЕННЫХ ТЕНДЕНЦИЙ ЛИЧНОСТИ***

***Резюме***

*Сходства и различия в богатстве свободных и осужденных юношей, сходство в богатстве людей, живущих с одинаковыми национальными и нравственными ценностями, составляют основу исследования. В связи с этим статья будет важным ресурсом для молодых исследователей, сотрудников правоохранительных органов и психологов в соответствующей области. В статье также упоминаются исследования важных научных источников.*

***Gunay KARIMI***

### ***PSYCHOLOGICAL APPROACHES TO THE FORMATION OF THE WEALTH TENDENCIES OF THE PERSONALITY***

***Summary***

*Similarities and differences in the wealth tendencies of free and convicted youths, similarities in the wealth tendencies of people living with the same national and moral values constitute the core of the research. In this regard, the article will be an important resource for young researchers, law enforcement officers, and psychologists in the relevant field. The article also refers to researches of important scientific sources.*

**Fatma İSLAMLI**
***Naxçıvan Müəllimlər İnstitutunun***
***Pedaqogika və psixologiya kafedrasının müəllimi***
**E-mail: f.islamlii93@gmail.com**

# ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞININ FORMALAŞMASINDA YENİ TƏLİM METODLARINDAN İSTİFADƏNİN ROLU

*Açar sözlər:* şagird, texnologiya, təlim, idrak

Tezis müasir dövrdə şagirdlərin idrak fəaliyyətlərini düzgün istiqamətləndirməkdə, formalaşdırmaqda müasir təlim metodlarının və onlardan düzgün istifadənin nə dərəcədə əhəmiyyətli olmasını araşdırır.

Günümüzdə uşaqların, xüsusilə də məktəbyaşlı şagirdlərin idrak qabiliyyətlərini üzə çıxarmaq, idrak fəallığını düzgün formalaşdırmaq ən aktual məsələlərdən və problemlərdən biri kimi qəbul olunur.

Məlumdur ki, artıq müasir məktəblərin və müasir təhsil sisteminin şagirdlərə yanaşma tərzi olduqca dəyişilmişdir. Artıq neçə ildir ki, kurikulumun tətbiqi ilə təlim nəticəyönümlü və interaktiv formada təşkil olunmağa başlamışdır. Günümüzdə təhsil sistemi şagirdlərdən sadəcə bilik deyil, onlarda xüsusi bacarıq və vərdişlərin formalaşmasını qarşıya məqsəd kimi qoyur. Bütün bu dəyişikliklər yalnız təhsil sistemini, onun formasını dəyişdirməyi deyil, həm də şagirdlərin idraki fəaliyyətini bacardığımız qədər inkişaf etdirməyi, bu yolda düzgün forma və metodlardan səmərəli şəkildə istifadə etməyi vacib bir məsələ kimi qarşıya qoyur. Müasir təhsil sisteminin quruluşu təlim-tərbiyənin məzmunun, forma və metodlarının elə qurulmasını nəzərdə tutur ki, burda hər bir şagirdin idraki fəaliyyəti, şəxsi keyfiyyətlərinin düzgün inkişaf etdirilməsi təmin edilsin.

Məktəb təhsili dövrü şagirdlərin öz idraki qabiliyyətlərini formalaşdırmaq və inkişaf etdirmək üçün geniş imkanlara sahibdir. Şagirdlərin bu dövrdə qazanmış olduğu hər bir bilik, yenilik, anlayış özündə müəyyən məna, məzmun ehtiva edir. Təlim prosesində məktəblilərin idrak fəallığını artırmaq məqsədilə onları problemli situasiyalarla, hadisələr arasında səbəb-nəticə əlaqələrinin axtarışı istiqamətində düşündürücü məsələlərlə qarşılaşdırmaq faydalı nəticələr verir. Məhz bu yolda yalnız keçmiş təcrübə və biliklərə müraciət etmək yetərsiz qalmaqdadır. Təhsil sistemi yenilənməyə doğru getdikcə bu yolda istifadə etdiyimiz forma və metodlar da bizi yeniliyə doğru araşdırmalar aparmağa sövq edir. Bu baxımdan lazım gəlir ki, şagirdlərin idraki fəallığını düzgün artırmaq, yönləndirmək məqsədilə müasir texnologiyalardan və təlim metodlarından istifadə edilsin. Bu yöndə bir sıra təhsil proqram və layihələri həyata keçirilmişdir. Məsələn, "Azərbaycanda 1999-cu ilin noyabrından "Tənqidi təfəkkürün inkişafı üçün mütaliə və yazı" proqramı fəaliyyətə başlamışdır. Bu proqram əməkdaşlığının əsas məqsədi elə tədris metodları tətbiq etməkdir ki,

onlar öyrənilən fəndən asılı olmayaraq, şagirdlərdə tənqidi təfəkkürün inkişafına kömək etmiş olsun. Həmin proqram üç mərhələdə təşkil edilir: düşünməyə yönəltmə, dərk etmə, düşünmə". Bu proqramın tətbiqi özündə pedaqoji və psixoloji biliklərin vəhdətini təşkil etməyə yönəlmişdir.

Bunu da unutmaq olmaz ki, istənilən metod və üsulların tətbiqinin uğurlu alınması əsas etibarilə müəllimdən başlayır. Çünki müəllim-şagird münasibəti hər bir şagirdə hörmət və fərdi yanaşma, xeyirxahlıq, etibarlılıq yeni təlim metodlarının uğurlu tətbiqinin əsas şərtidir. Şagirdin idraki fəallığından müsbət nəticə almaq istəyən müəllim bu kimi bacarıq və vərdişlərə yiyələnmiş olmalıdır:

- şagirdlərdə yeni biliklərin öyrənilməsinə həvəsin yaradılması; bu eyni zamanda müəllim tərəfindən şagirdlərdə yüksək emosional qavrama və idrak bacarığının formalaşmasına təsir edə biləcək amillərdəndir.
- müəllim dərsdə öyrədiləcək yeni mövzunun daha asan və yaddaqalan olmasını təmin etmək, şagirdin ixtiyari diqqətini möhkəmləndirmək məqsədilə dərs mövzusunu və təlim fəaliyyətlərini sistemləşdirilmiş və qruplaşmış şəkildə təqdim etmək bacarığına malik olmalıdır.
- sualların verilməsi; müəllimdə müəyyən təlim məqsədləri, şagirdlərdə səbəb-nəticə əlaqəsinin düzgün formalaşdırılması üçün sorğu-sual metodlarından istifadə bacarığı formalaşdırmaq lazımdır.
- nəticə; müəllim fəslin yekununda dərslərin ümumi məqsədlərini birləşdirmək və mövzular arasında idraki əlaqə yaratmaq bacarığı formalaşdırmalıdır.

Bütün bu sadalananlardan əlavə təlimdə yeni forma və metodların uğurlu nəticə verməsi üçün müəllimdə didaktik, elmi-pedaqoji, kommunikativ, qnostik, təşkilati və s. kimi əsas pedaqoji qabiliyyətlər formalaşmalıdır.

Hər bir müəllim şagirddə olan qabiliyyət və bacarığı axtarıb üzə çıxarmalıdır. Lakin peşəkar müəllim eyni zamanda bu bacarıq və qabiliyyətləri inkişaf etdirib formalaşdırmaqda şagirdə kömək etməlidir. Çünki respublikamızda yeni təhsil sisteminin əsas məqsəd və vəzifələrindən biri müasir təlim üsul və metodlarına yaxşı bələd olan və ondan yerində istifadə etməyi bacaran kadrlar yetişdirməkdən ibarətdir.

Müasir təlim metodları həm şagirdlərin, həm də müəllimin idraki fəallığına əsaslanır desək yerinə düşər. Çünki bu metodların tətbiqi dərsdə şagirdlərdən idrak fəallığı, dərsəqədərki hazırlıq dövründə isə müəllimdən eynisini tələb edir. Müasir təlim metodları dərsdə şagirdlərə öz təfəkkürlərini, psixi xüsusiyyətlərini - duyğu, qavrayış, xarakter, meyl və maraqlarını düzgün yönəltməyə, inkişaf etdirməyə və formalaşdırmağa kömək edən interaktiv və nəticəyönümlü metodlardır.

Şagirdi təlimə həvəsləndirmək, onda olan gizli və aşkar qabiliyyətləri üzə çıxarmaq, yenilikləri öyrənməyə maraq yaratmaq üçün müəllimlər bu kimi fəal təlim üsul və texnikalarından istifadə edirlər: əqli hücum, rollu oyunlar, diskussiya, ziqzaq, bibo, kublaşdırma və s. İnteraktiv təlim metodlarının təhsil

sisteminə daxil edilməsi şagirdlərin dərsdə passivliyinin aradan qaldırılmasına, onlarda lazımi idraki proseslərin formalaşması və təlim keyfiyyətlərinin yüksəldilməsinə şərait yaradır.

Bütün bu deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, təlim prosesində şagirdlərin fikri fəallığını artırmaq, onların bütün idraki proseslərini möhkəmləndirmək və inkişaf etdirmək adına müasir təlim forma və metodları günümüzün müəllimləri tərəfindən mükəmməl mənimsənilməli, sonra da öyrənməyə, yeniliklərə meyilli yeni nəsil şagirdlərə düzgün şəkildə mənimsədilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında ümumi təhsilin milli kurikulumu: Layihə. Bakı: 2006.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: 2004
3. Nuriyev, S., İbrahimova, D. Təhsildə sosial-psixoloji xidmət (dərs vəsaiti).

**Nicat ƏLİYEV**
***Azərbaycan Respublikasının Təhsil İnstitutunun dissertantı***
**E-mail: nicat.aliyev@ socar.az**

## YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA AİLƏNİN ROLU

*Açar sözlər:* şəxsiyyət, valideynlər, konflikt, ailə

Hər bir insanı sosial varlıq kimi müntəzəm şəkildə ətraf mühitlə təmasda olan, qarşılıqlı ünsiyyət və münasibət quran, adekvat olaraq özünütənzimləyən mürəkkəb bir sistemin daşıyıcısı kimi xarakterizə etmək olar. Bütün bunlar isə fəaliyyət prosesində reallaşır. Düşüncə tərzi, ünsiyyət, qarşılıqlı münasibətlər cəmiyyətdə  qəbul olunmuş sosial normalara əsasən formalaşır. Sosial normalar isə adət-ənənə, milli xüsusiyyətlər, əxlaqi və hüquqi qaydalara əsasən tənzim edilir.

Şəxsiyyətin formalaşmasında tərbiyənin,xüsusən ailə tərbiyəsinin rolu əvəzsizdir. Yeniyetməlik yaş dövrünün xarakterik xüsusiyyəti, digər yaş dövrlərindən fərqi ondadır ki, burada özünütərbiyə vacib amil kimi şərtlənir. Tərbiyə və özünütərbiyə vəhdət şəklində yeniyetmənin sosiallaşmasında özünəməxsus rol oynayır. Yeniyetmənin sosiallaşması  fəal və təsiredici proses olmaqla onun cəmiyyət həyatına,onun normalarına uyğunlaşması deməkdir. Nəticədə yaranan vərdiş tədricən davranış stereotipinə çevrilir. O da məlumdur

ki,şəxsiyyətin formalaşmasının əsası ailədə qoyulur və tədricən möhkəmlənir. xarakter əlamətinə çevrilir. E.Stouns yazır: "İnsan yalnız cəmiyyətdə təbiətin ona bəxş etdiyi mövqeyi tuta bilər. Sivilizasiya olmasaydı o ən miskin, düşüncısiz heyvandan fərqlənməzdi" (4, s.24).

Yeniyetmə şəxsiyyətinin formalaşmasında məktəbin, yaşıdların, müəllimlərin rolunu azaltmadan qeyd etmək lazımdır ki, daha vacib olanı ailə,ailə mühiti, ailədə qarşılıqlı münasibıtlər mühüm rol oynayır. Bütün bunlar isə kompleks halda ailənin psixoloji mühitini formalaşdırır. Əgər ailədə psixoloji mühit pozularsa, münasibətlər pozitiv istiqamətdə qurulmazsa bu,yeniyetmənin sosial qaydaları pozmasına səbəb olur və bu da şəxsiyyətin formalaşmasında öz əksini tapır.

Ailədə neqativ psixoloji mühit hökm sürdükdə,münasibətlərdə yalançı mehribançılıq olduqda və ya neqativ emosiya yarandıqda ailə üzvlərində nifrət, qarşıdurma,laqeydlik yaranır.

Yeniyetməlik yaş dövründə şəxsiyyətin formalaş masında yeniyetmənin meyl və qabiliyyətlərinin, psixoloji xüsusiyyətlərinin nəzərə alınması vacib şərtlərdəndir. Bu deyilənlər valideynlər tərəfindən nəzərə alınmadıqda, istək və reallıq arasında fərq meydana çıxdıqda valideyn və yeniyetmə arasında anlaşılmazlıq baş verir, konfliktin yaranmasına şərait yaranır. Adətən yeniyetməlik yaş dövrü çətin tərbiyə olunan dövr kimi xarakterizə olunur. Çətin tərbiyə olunan yeniyetmənin şəxsiyyətinin formalaşmasında o zaman uğur qazanmaq olar ki, həm yeniyetmə, həm də valideyn və müəllimlər əlbir çalışsınlar,yenidəntərbiyə ilə sistemli şəkildə məşğul olsunlar.

İlk növbədə nəzərə almaq lazımdır ki, bu prosesdə yeniyetməyə təzyiq üsulu özünü doğrultmur. Onun müsbət xüsusiyyətlərini müəyyənləşdirmək, ona istinad etmək daha səmərəli nəticə verir.

Burada diqqət yetirilməli məsələlərdən biri də yeniyetmənin əhatə dairəsinin, dostlarının, yoldaşlarının müəyyənləşdirilməsi və onlarla söhbətlərin aparılmasıdır. Bir çox hallarda ailədə valideyn-övlad arasında anlaşılmazlıq olduqda yeniyetmə ünsiyyət tələbatını yaşıdları arasında ödəyir. Belədə yaşıdları yeniyetməni valideynlərdən daha yaxşı tanıyırlar. Başqa sözlə, valideyn yeniyetmə ilə münasibətlərini qarşıdurma yox,əməkdaşlıq üzərində qurmalıdır.

Bir qayda olaraq problem yaşanan ailələrdə psixoloji, emosional gərginliyin olduğuna daha çox rast gəlinir. Bu vəziyyət hətta konflikt həddinə çata bilər. Tədqiqatlar göstərir ki, bu vəziyyət adətən validenlərdən birinin,xüsusən atanın avtoritar ünsiyyət və münasibətə üstünlük verdiyi ailələrdə yaranır. Ailədə düzgün qurulmayan tərbiyə, nəzarətsizlik və ya ifrat dərəcədə sərt qaydaların tətbiqi ailə mühitini korlayır, nəticədə yeniyetmə şəxsiyyətində neqativ xüsusiyyətlər təzahür edir.

Yeniyetməlik yaş dövrünün xarakterik xüsusiyyətlərindən biri də psixi inkişafla fiziki inkişafın vəhdəti ilə bağlıdır. O da məlumdur ki, yeniyetmənin mühiti, ünsiyyət dairəsi onun sosiallaşmasında mühüm rol oynayır. Bu mühitin təsirinə adekvat olaraq yeniyetmədə özünə və ətrafdakılara şüurlu münasibət

formalaşır. Bu isə sonrakı yaş dövrlərində şəxsiyyətin istiqamətini müəyyənləşdirir. Deyilənlərin, eləcə də digər amillərin təsirindən irəli gələn xüsusiyyətlər tərbiyə işində, xüsusilə ailə tərbiyəsində nəzərə alınmalıdır.

Vaxtilə V.A.Suxomlinski yazırdı: "Yer üzündə insan şəxsiyyətindən mürəkkəb heç nə yoxdur. Onun hərtərəfli inkişafı,mənəvi kamilliyi tərbiyənin məqsədidir. Bu məqsədə çatmaq isə insanın özü kimi mürəkkəbdir" (5, s. 44). Yeniyetmələrin davranışını, tərbiyəlilik səviyyəsini, inkişafının istiqaqmətlərini müəyyənləşdirmək vacib şərtlərdəndir. Bunun üçün ilk növbədə onun daxili dünyasını öyrənmək lazımdır. Nəzərə almaq lazımdır ki, bugünkü yeniyetmə sabah cəmiyyətdə aparıcı qüvvə olacaqdır. Sabah ölkənin həyatında aktiv şəkildə iştirak edəcək yeniyetmənin vətəndaş kimi tərbiyə edilməsi vacibdir. Nəzərə alınmalı olan digər cəhət müasir dövrün tələbləri ilə bağlıdır. Dövr isə insanlardan yüksək intellektual səviyyə, hərtərəfli dünya görüşü, əxlaqi, mənəvi dəyərlərə sadiqlik tələb edir. Eyni zamanda vaxtilə bəyənilən, norma kimi qəbul olunan bir qism keyfiyyətlər indi yaramır. Mədəni, iqtisadi əlaqələrin qurulması indi yeni keyfiyyətlər tələb edir. Bu isə nəinki tərbiyə olunanın, eyni dərəcədə tərbiyə edənin özünün dəyişməsi zərurətini yaradır.

## ƏDƏBİYYAT

1. Çələbiyev, N.Z. Ailə psixologiyası / N.Z.Çələbiyev. - Bakı: Mütərcim, - 2015.
2. Mirzəyev, R.N. Münasibətlər, konfliktlər və yeniyetmələr / R.N.Mirzəyev.- Bakı: ADPU, - 2018.
3. Nəsrullayeva,Z.N. Uşaqların psixi inkişafında ailənin rolu // -Bakı: Psixologiya jurnalı, - 2013, № 2.
4. Стоунс, Э. Психопедагогика / Э.Стоунс. - М: Педагогика, - 1984.
5. Сухомлинский, В.А. Павлышская средняя школа / В.А.Сухомлинский. - М: Просвещение, - 1979.

## IV BÖLMƏ
## Klinik psixologiya

**Nigar MURADOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi,***
***Psixologiya Elmi- Tədqiqat İnstitutunun***
***klinik psixoloqu***
**E-mail: muradovanigar983@gmail.com**

# ŞƏXSİYYƏT POZUNTULARI

*Açar sözlər:* Şəxsiyyət, pozuntu, şəxsiyyət tipi, sabit düşüncələr, aparıcı davranışlar, empatiya

Şəxsiyyət şəxsin özünə görə fərqliliyinin, müəyyən xüsusiyyətlərinin olmasıdır. İnsanın gündəlik həyatda verdiyi spesifik davranış reaksiyaları formalaşmış bir modeldir. Əgər insanın davranışı və münasibətləri normadan kənara çıxırsa, şəxsiyyət xüsusiyyətləri kifayət qədər sərtdirsə, şəxsin sosial fəaliyyətinə xələl gətirirsə, subyektiv sıxıntı yaradırsa, şəxsiyyət pozuntusu diaqnozu qoyula bilər.

Şəxsiyyət pozuntularında özünü göstərən xüsusiyyətlər geniş sferanı əhatə edir və ardıcıllıq göstərir. Yəni davamlı olaraq özünü göstərir. Diaqnoz qoya bilmək üçün sosial və şəxsi həyatın fərqli sahələrində (iş yerində, şəxsi münasibətlərdə uzunmüddətli çətinliklərin, problemlərin olduğunu nəzərə almaq lazımdır. Bu xüsusiyyətlər eqosintonikdir (eqo tərəifndən qəbul edilir. Eyni zamanda alloplastikdir (yəni insan özünü dəyişməkdənsə, mühitini dəyişməyə çalışır) avtoplastik deyil və bu xüsusiyytələrə möhkəm riayət olunur.

Əsasən 10 şəxsiyyət tipi götürülür. Şəxsiyyət tipləri ümumilikdə 3 qrupda əsaslandırılıb. Hər bir insanda bir və ya bir neçə şəxsiyyət tipi ola bilər.

A qrupunda daha çox soyuq, şübhəli, məsafəli şəxsiyyət tipləri. Bura aiddir: Şizoid, sizotipal, paranoid. Şizoid tipinin yaranmasına əsas səbəb ailədaxili konfliktlər və avtoritar ailələrdə böyüyən uşaqlar. Uşaqlar atvomatik olaraq düşünürlər ki, əgər ünsiyyət qurub konflikt yaşayacağamsa ünsiyyət qurmasam daha yaxşıdır.

II. B. Qrupuna aid olan şəxsiyyət tipləri daha çox dramatik, teatral, diqqət çəkmək yönündə və emosional olurlar. Antisosial, narsist, isterik, sərhəddi (borderline) şəxsiyyət tipi bura aiddir.

III. C qrupu. Əsas xüsusiyyətləri təşvişli, gərgin, narahat obsessiv kompuliriv şəxsiyyət tipi, dependent, çəkingən, asılı şəxsiyyət tipi bura aiddir.

Bəzən obsessiv komplussiv şəxsiyyət tipi ilə obsessiv kompulisiv pozuntunu fərqləndirə bilmirlər. Obsessiv kompulisiv şəxsiyyət tipi mükəmməlliyyətçi perfeksionist olur. Daha çox evin böyük uşaqları, ailənin

gözləntisi çox olan uşaqlar, işqolik, bütün günü dərs oxuyan olurlar. Ailə özü də bilmədən obsessiv komplusiv şəxsiyyət tipini formalaşdırır.

Obsessiv kompulusiv pozuntusu simmetriya, təmizlik fonunda özünü göstərir. Obsessiv şəxsiyyət tipi bir istiqamətdə özünü göstərir. Məsələn, şagirddirsə dərslərini yaxşı oxumağa, çalışır və ya – işçidirsə işini mükəmməl yerinə yetirməyə çalışır.

Asılı şəxsiyyət tipi. Daha çox oğlanlarda Edip kompleksi tamamlanmayanda özünü göstərir. Ya ifrat sevgi verəndə ya da sevgi doyumsuzluğu yaşayanda. Bu tip insnalar heç vaxt məsuliyyəti öz üzərilərinə götürmürlər, həmişə başqalarına yönəltməyə çalışırlar. Təkbaşına bir iş görmürlər. Asılı olduğunu insanı itirəndə dərin depressiya yaşayırlar.

Çəkingən şəxsiyyət tipi. Bəzən bunu sosial fobiya ilə səhv salırlar. Hər ikisi göz kontaktı qurmaqdan çəkinirlər, hər ikisi utancaq olurlar.

Çəkingən şəxsiyyət tipi bütün mühitlərdə, öz yaxınlarının yanında belə çəkingən, narahat olurlar, sosial fobiya isə konkret mühitdə yad insanlarla olan yerdə özünü göstərir. Həddindən artıq məsuliyyət veriləndə uşaqlarda özünü göstərir.

Cədvəl 1. Şəxsiyyət pozuntularını müşayiət edən sabit düşüncələr və aparıcı davranışlar

| Şəxsiyyət pozuntusu | Düşüncəsi | Davranışları |
|---|---|---|
| Asılı | Mən çarəsizəm | Bağlanır |
| Çəkingən | Mən yaralana bilərəm | Qaçma |
| Passiv aqressiv | Üstümə gələrlər | Müqavimət |
| Paranoid | İnsanlar potensial düşməndir | Ehtiyatla olmaq |
| Narsist | Mən xüsusiyə | Xüsusi diqqət gözləmə |
| İsterik | Mənə heyran olmalıdırlar | Rol oynayır |
| Obsessiv – kompulisiv | Mən səhv etməməliyəm | Mükəmməllik |
| Antisosial | Aradan götürüləsi insanlar var | Hücum |
| Şizoid | Mənim şəxsi düşüncəm olmalı | Toplumdan uzaqlaşma |

Şəxsiyyət pozuntusu olan insanlar yetkinləşmirlər. Bu insnalar peşə və şəxsi işlərində çətinliklər yaşayırlar. Davranış və rəftarlarının başqalarına necə təsir etdiyini düşünmürlər. Şəxsiyyət pozuntusu olan insanlar anlayışdan məhrumdurlar, ona görə də kömək istəməzlər. Stresə dözümlülükləri aşağıdır.

Şəxsiyyət pozuntusu 6-9%-dən 15%-dək yayılıb əhali arasında yeniyetməliyin sonu və gəncliyin əvvəlində ortaya çıxır. Amma uşaqlıq dövründə də bəzi əlamətlər ortaya çıxa bilir. Qadınlarda və kişilərdə eyni sayda rast gəlinir.

Özünügörmə və özünü hörmətlə bağlı aşırı narahatlıq keçirir. Narsist şəxsiyyət pozuntusu olanlar özlərini çox əhəmiyyətli və əzəmətli görürlər. Onlar

xüsusi insan olduqlarına və xüsusi haqlara malik olduqlarına inanırlar. Tənqid və ya məğlubiyyətə böyük qəzəb və ya depressiya ilə müqavimət göstərirlər. Onların özünə hörməti kövrəkdir. Başqalarını öz mənfəətləri üçün istifadə etməyə meyillidirlər, başqaları ilə empatiya qura bilmirlər. Xarici görünüşləri ilə həddindən artıq maraqlanırlar və heyran olunmağı gözləyirlər.

Aşağıda sadalanan xüsusiyyətlərin 5-nin olması və gənclik dövründə başlaması, davamlı üstünlük hissləri (xəyallarda və davranışlarda) özünü təsdiq etmə ehtiyacı və empatiyanın olması əsas götürülür.

1. Özünü çox vacib hesab edir; 2. Hədsiz uğur, bacarıq, güc, zəka, gözəllik və qüsursuz olmaq üçün başını yorar; 3. Özünün xüsusi və bənzərsiz biri olduğuna və yalnız xüsusi insanların və toplumların onu anlaya biləcəyinə və ya onlarla dostluq etməli olduğuna inanır; 4. Çox bəyənilmək və təqdir olunmaq istər; 5. Haqlılıq hissi var. Sanki ona qarşı istənilən çevrədə üstünlük verilməlidir; 6. Şəxsiyyətlərarası münaisbətlərdən öz mənfəətləri üçün istifadə edirlər; 7. Empati qura bilməz; 8. Çox zaman başqalarını qısqanır və onu qısqandıqlarına inanır; 9. Təkəbbürlü, özünü bəyənmiş davranış və rəftar göstərir.

ƏDƏBİYYAT

1.Bayramov, Ə.S., Əlizadə, Ə.Ə. Psixologiya. Bakı: “Çinar-Çap”, - 2009. – 620 s.

2.Butcher, James N., Mineka, S., Hooley, Jiji M. Anormal Psikoloji / Çev. Okhan Gündüz. – İstanbul: Kaknüs Yayınları, - 2013. – 1200 s.

3.Koroğlu, E., Bayraktar, S. Kişilik bozuklukları. Ankara: Hekimler Yayın Birliği, - 2014.

**Allahverdi TAĞIYEV**
*Azərbaycan Tibb Universitetinin*
*“Psixiatriya” kafedrasının magistrantı*
**E-mail: allahverditagyev@gmail.com**

# ABİTURİYENTLƏRDƏ İMTAHAN STRESSİ VƏ ONUN İDARƏ OLUNMASINA DAİR TÖVSİYƏLƏR

## XÜLASƏ

Ali məktəbə qəbul olmaq demək olar ki, bir çox gəncin arzusu və əsas məqsədidir. İstədikləri peşəyə sahib olmaq ilk olaraq müvafiq ixtisasa qəbul olmaqdan keçir. Abituriyentlər qəbul imtahanına hazırlaşarkən gərgin stress vəziyyətində olurlar. Statistikaya görə abituriyentlərin 96%-də stress səviyyəsi çox yüksək olur [1]. Stress abitriyentləri rəqabətə təhrik edib, motivə etmiş olsa da, onun düzgün idarə olunmaması akademik uğurlara menə ola bilər. Abituriyentlər stress barədə ətraflı məlumata sahib olmalı, stressin müsbət və mənfi tərəflərini bilməli, onu idarə etmək üsullarını mənimsəməlidirlər. Belə olan halda onların günlük stress səviyyələri tarazlaşır, imtahan qabağı stress səviyyələri aşağı olur. Fərdi-psixoloji xüsusiyyətlərə əsasən stressə qarşı reaksiya və dayanıqlılıq fərqli ola bilir. Stressin idarə olunması üsullarını doğru mənimsəmək və bu bacarığı inkişaf etdirmək lazımdır.

*Açar sözlər:* abituriyentlərdə stress, qəbul imtahanı, imtahan stressi, imtahan stressinin əlamətləri, stressin idarə olunması

Gənclik yaş dövrü uşaqlığın başa çatması, fiziki və psixoloji yetkinliyə keçid dövrüdür. Gənclik yaşı adətən ümumi olaraq 15-25 yaş dövrünü (ədəbiyyatlarda fərqli təsnifatlarda ola bilər) əhatə edir. 15-17 yaş dövrü erkən gənclik, 17-25 yaş dövrü isə yetkin gənclik adlanır. Uşaq artıq gənclik yaşında yetkinləşir, müstəqil vətəndaş olaraq qərarlarını özü verə biləcək yaş həddinə çatır. Ən əsası isə gənc artıq yetkin şəxs olaraq şəxsiyyət vəsiqəsi alır, sürücülük vəsiqəsi ala bilir, nigaha daxil ola bilir və s.

Erkən gənclik yaş dövrü üçün əsas olan peşəseçimidir. Belə ki, gənclik dövrünün əsas aparıcı fəaliyyəti peşə fəaliyyətidir. Peşəseçimi hər bir insanın həyatında olduqca əhəmiyyətli qərardır. Peşəseçimi zamanı uşaqların fərdi-psixoloji xüsusiyyətlərinin diqqətə alınması olduqca vacibdir. Adətən valideynlər övladlarının potensialını nəzərə almadan onları peşə seçimində məcbur buraxırlar. Lakin peşə seçiminin doğru olmaması gənclərin gələcəkdə əmək fəaliyyətində çətinliklərin ortaya çıxmasına səbəb ola bilir.

Gənclik yaş dövründə ali təhsil müəssisəsinə qəbul imtahanlarına hazırlaşan abituriyentlər əsas iki peşə böhranını yaşayırlar [3, s. 95]:

-təhsil-peşə istiqaməti böhranı (15-16 yaş)

-peşəseçimi böhranı (17-18 yaş)

Təhsil-peşə istiqaməti böhranı abituriyentlərin hansı istiqaməti və buna müvafiq olaraq hansı qrupu (I, II, III, IV, IV) seçəcəkləri zaman yaşanır. Müəllimlər və xüsusilə də valideynlər abituriyentləri müvafiq istiqamətlərə yönləndirirlər. Bu mərhələdən sonra isə peşəseçimi böhranı yaşanır. Belə ki, istiqamət təyin ediləndən sonra konkret hansısa bir ixtisas hədəf qoyulur. Böhranlı vəziyyətdə abituriyentlər ciddi surətdə stress və narahatlıq yaşamış olurlar. Xüsusilə də seçmiş olduqları ixtisasın balı, rəqabəti yüksək, çətinlik səviyyəsi ağırdırsa abituriyentlərin stress səviyyəsi daha da yüksək olur. Abituriyentlərin stress faktoruna təsir edən digər əsas amil isə cins xüsusiyyətləridir. Cins xüsusiyyətlərini nəzərə alsaq, ali məktəbə qəbul imtahanından kəsilən oğlanlar hərbi xidmətə yollanırlar. Hərbi xidmət çəkib qayıdandan sonra isə yenidən ali məktəb üçün qəbula hazırlaşmaq çətinləşir. Motivasiya daha aşağı olur və əksər gənc oğlanlar artıq təkrar eyni hazırlıq dövründən keçmək istəmirlər. Ona görə də, gənc abituriyent oğlanlarda, stress səviyyəsi qızlara nisbətən daha yüksək olur.

Abituriyentlərin yaşamış olduqları stressi diqqətdən kənarda qoymaq olmaz. Belə ki, təcrübədə də görmüş oluruq ki, ali təshil müəssisəsinə qəbul ola bilməyən, gözlənilən balı toplaya bilməyən və ya istədiyi ixtisası seçə bilməyən abituriyentlər hətta intihara da cəhd edirlər (həyata keçirirlər). Valideynlər bu dövrdə övladlarına dəstək olmalıdırlar. Çünki, abituriyentlərdə stress amilinin yüksək olması gərginliyə, həyəcana səbəb olur ki, kifayət qədər biliklərə sahib olsalar belə, imtahan zamanı həyəcandan öyrəndiklərini unuda bilirlər. İmtahan yaxınlaşdıqca stress daha da artmış olur. Stressin artması diqqəti cəmləməyə imkan vermir, abituriyentlərdə əsəbiliyə və depressiyaya səbəb olur.

İmtahan qabağı abituriyentlər ən çox baş ağrıları, ürəkbulanma, dəri xəstəlikləri, ümumi nasazlıq, panika və qorxu hissi kimi psixosomatik əlamətlər daha çox müşahidə edilir. Eyni zamanda, onlar həddən artıq özlərini tənqid edir, kabuslar görür və uğursuz sınaq imtahanları ilə bağlı xoşagəlməz xatirələrdən əzab çəkirlər. İmtahan stressi ümumən yaddaşın pisləşməsi, nitqdə çətinlik, materialın çətin qavranılması və emosional yorğunluğa səbəb ola bilir.

İmtahan stressinin xoşagəlməz nəticələrindən biri də beyin yarımkürələrinin ahəngdar işinin pozulmasıdır. İstirahət zamanı hər iki yarımkürə tarazlıqda olur, harmoniya ilə işləyir. Sol yarımkürə təhliletmə və məntiqə cavabdehdir. Sağ yarımkürə isə emosiyalar və yaradıcılıq üçündür. Xüsusilə də sağ yarımkürə dominant olan abituriyentlərdə, stress altında, məntiqi əməliyyatlar və problemləri həll etmək qabiliyyəti daha da zəifləmiş olur.

Abituriyentlərdə imtahan stressi fizioloji, psixoloji, emosional və davranış sferasında müşahidə olunur. Bu səviyyələrdə stressin əlamətləri aşağıda qeyd edilmişdir [5, s. 38]:

1. İmtahan stressinin fizioloji əlamətləri

-Titrəmə
-Ürək döyüntüsünün artması
-Həzm sisteminin problemləri (ürək bulanma, mədə ağrısı və s.)
-İştahsızlıq
-Yuxu problemləri
2. İmtahan stressinin psixoloji əlamətləri
-Öyrəndiyi materialları unutduğunu düşünmək
-Uğursuzluq qorxusu
-Özünə inamın aşağı olması
-Diqqətin yayınması
-Materialları qavramaqda çətinlik çəkmək
-Bulanıq təfəkkür
-Unutqanlıq
3. İmtahan stressinin emosional əlamətləri
-Əsəbilik
-Narahatlıq
-Yüksək həyəcan
-Qorxu
-Təşviş
4. İmtahan stressinin emosional əlamətləri
-Aqressiv davranış
-Dırnaq yemə
-Siqaret istifadəsi (rahatlamaq üçün)
-İmpulsivlik

Abituriyentlərdə stress səviyyəsinin artmasına təsir edən əsas düşüncə və qorxuları aşağıda qeyd edilmişdir:

1. "Mən imtahandan qorxuram!"

Əvvəlcə ən çox qorxduğunuz şeyin baş verdiyini təsəvvür etməlisiniz: fərz edək ki, imtahandan keçməmisiniz və ya az bal toplamısız. Nə etməlisiz? Bu uğursuzluğunuzu biliklərinizi artırmaq üçün əlavə fürsət kimi qəbul edin. Növbəti imtahana düzgün hazırlaşmaq üçün artıq “qəbul imtahanı təcrübəsi” qazandığınızı düşünün. Bəlkə bu dəfə arzuladığınız universitetə daxil olacaqsınız. Ola bilər ki, bu uğursuzluq sizin peşəseçimini təkrar gözdən keçirməyinizə kömək edəcək.

2. “İmtahanda aşağı bal alacağam”

Müəyyən bir proqram üçün müəyyən bir universitetə daxil olmaq üçün sınaq imtahanlarında kifayət qədər bal toplaya bilmirsizsə, ümidsiz olmayın. İstədiyiniz ixtisas olan başqa universitetləridə düşünün.

3. "İmtahanda həyəcanlansam?!"

Həyəcanınızı inkar etməyin, çox gərgin olduğunuzu özünüzə etiraf edin və emosional vəziyyətinizlə işləməyə başlayın. Bu vəziyyəti qəbul edin və narahat olmamağa çalışın. Stressin idarə edilməsinə dair kitablar oxuyun. Bir

sıra psixolofizioloji texnikalardan və relaksasiya üsullarından istifadə edin (imtahandan əvvəl diafraqma nəfəsi və s. kimi).

İmtahan zalında həyəcan olsa xəyalınız, gələcək kariyeranız haqqında düşünməyə çalışın. Əsas odur ki, həmin an özünüzü çox yaxşı və rahat hiss edəsiniz. Özünüzü zehni olaraq artıq peşə sahini olduğunuz vaxtlara daşımaqla, bir az sakitləşə və diqqətinizi stressdən yayındıra bilərsiz.

4. "Valideynlərimi pis vəziyyətdə qoymuş olacam"

Hər bir məzun çiyinlərində ailəsinin gözləntiləri və ümidlərini böyük bir yük kimi daşıyır. Valideynləriniz sizə çoxlu maddi və mənəvi yatırım etmişdir və indi siz onları məyus etməyə qorxursuz. Bu ağırlığın sizi aşağı çəkməsinə imkan verməyin. Əmin olun ki, valideynləriniz sizi nə qədər gərgin vəziyyətdə saxlasa da, əslində onlar üçün də sizin ilk olaraq fiziki və psixi sağlamlığınız önəmlidir. Valideyn sevgisi şərtsizdir bunu unutmayın.

İmtahanqabağı stressin öhdəsindən gəlmək üçün abituriyentlərə veriləcək ümumi tövsiyələr aşağıda təqdim edilmişdir [6, s. 70-71]:

- Yuxu rejimini qaydaya salın. Psixofizioloji baxımdan normal yuxu rejimi orqanizmin təbii ehtiyacıdır. Abituriyentlər adətən buna əhəmiyyət vermir, gecələr də oxuyur, gün ərzində 3-4saat yatırlar. Beyin ağır rejimdə dincəlmədən fəaliyyət göstərmiş olarsa, öyrənmənin keyfiyyəti də aşağı olur. Abituriyentlər “baxça rejimi” ilə yatmalı, dincəlməlidirlər. Gecə saat 23:00 da yatmalı, 06:00 da oyanmalıdırlar. Gün ərzində isə vaxt edib 1 saat da olsa günorta yatmalıdırlar. Normal yuxu rejimi həyəcan və stress səviyyəsini də aşağı salmış olur.
- Günlük plan tərtibi. Vaxtın doğru idarəedilməsi stressin idarə olunmasına da kömək edir. Gün ərzində görəcəyiniz işlər, gedəcəyiniz hazırlıqlar və imtahanları bir gün əvvəldən plan olaraq tərtib edin. İnsan beyni dağınıq və spontan məlumatlar ilə məşğul olan stress səviyyəsi artır. Planlı olmaq, gün rejimini sistemli bölmək vaxtı doğru istifadə etməyə kömək olur. Belə olan halda gün ərzində hər şeyi çatdırmaq olur. “Vaxt çatmır” vəziyyəti isə stressin yüksək olmasından irəli gəlir. Belə ki, stress vəziyyətində zaman qavraması qısalır. Abituriyent stress vəziyyətində olanda gün onun üçün tez bitir və heç nə çatdırmadığını müşahidə edir.
- Qısa fasilələr edin. Abituriyentlər adətən fasiləsiz olaraq saatlar ilə dərs oxusalar daha effektiv olacağını düşünürlər. Lakin 1 saat kitab oxuyandan sonra 10 dəqiqəlik ara fasilələr vermək mütləqdir. İstirahət deyəndə adətən abituriyentlər telefonla məşğul olur. Lakin bu vəziyyətdə əksinə beyin dincəlmir, həm də ixtiyari diqqətdən qeyri-ixtiyari diqqətə keçmək yenidən dərs materiallarına qayıdanda motivasiya aşağı olur.
- Erkən hazırlaşın. Heç bir işinizi son dəqiqəyə qədər saxlamayın. Çalışın ki, gün bitəndə növbəti gün edəcəyiniz işlərə ilkin vəziyyətdə hazır olasız (sabah gedəcəyiniz sınaq imtahanının biletini, qələmləri hazır papkada saxlayın, gedəcəyiniz hazırlıqların test blankları, kitab və dəftərlərini bir yerə toplayın və s.).

- Müsbət düşünməyə çalışın. Gün ərzində istirahət üçün ayırdığınız vaxtlarda və ya yuxudan öncə, özünüzü motivə etmək üçün imtahandan keçdiyinizi, istədiyiniz balı topladığınızı düşünün. Bu sizin motivasiyanızı, özünüzə və gələcəyinizə ümidinizi artıracaq, hazırləq və imtahanlara həvəslə getməyinizi təmin edəcək. Fəaliyyət üçün əsas qarşıya qoyulan məqsədin olması və motivasiyadır. Müsbət fikirlər, pozitiv düşüncə stress səviyyəsini aşağı salıb rahatlamanı təmin edəcək.
- Düzgün nəfəs alın. Nəfəs texnikaları stressi azaltmaq üçün olduqca effektiv üsullardır. Düzgün nəfəs alma qan dövranını və maddələr mübadiləsini balanslaşdırır, beynə qan axınını təmin edir. Gün ərzində 10-15 dəqiqə özünüzə nəfəs texnikaları etmək üçün vaxt ayırın. Xüsusilə də imtahandan əvvəl nəfəs texnikaları ilə rahatlamağınızı təmin edin.
- Bütün günü imtahan haqqında düşünməyin. Ali məktəbə qəbul olmaq fikri bütün gününüzü əhatə etməməlidir. Siz normal insan olaraq gün ərzində başqa qayğılarınız haqqında düşünə və başqa maraqlarınız ilə məşğul ola bilərsiniz. Əsas olaraq sizin vahid bir məqsədiniz, yüksək motivasiyanız və fəaliyyət planınızın olmasıdır. Gün ərzində yalnız qəbul imtahanını düşünmək sizi stress vəziyyətinə salacaq. İmtahanı düşünməklə bilik səviyyəsində nəsə artmır və ya hər hansısa müsbət bir irəliləyiş olmur. Əksinə daha da stressi və gərgin olursuz.
- Asudə vaxtlarınızı düzgün təmin edin. Adətən abituriyentlər bütün günlərini yalnız qəbul imtahanına hazırlıq üçün sərf edirlər. Mədəni tədbirlərə (teatr, tamaşa, konsert), əyləncələrə, dostlarınız ilə gəzintiyə vaxt ayırmalısınız. Abituriyentlər isə qəbul imtahanına hazırlıqdan əlavə nəyəs vaxt ayıranda günahkarlıq hissi yaşayırlar. Belə bir vəziyyət stress səviyyəsini daha da yüksəltmiş olur. Valideynlər xüsusilə buna diqqət etməli və övladlarına dəstək olmalıdırlar. Bəzən valideynlər bayramlarda və ya xüsusi günlərdə öz övladlarına dincəlməyə imkan vermirlər, sanki onlar abituriyent olduqları üçün istirahət etmək onların haqqı deyil. Bu kimi düşüncə isə psixoloji baxımdan gəncləri daha da stressə salmış olur.
- Özünüzü heç kimlə müqayisə etməyin. Heç vaxt özünüzü heç kimlə müqayisə etməyin, istər dost, istər qardaş, istərsə də bacı. Bu, məhsuldarlığı zəiflədir, motivasiyanızı aşağı salır. Çünki hər kəsin öz güclü və zəif tərəfləri, öz bacarıqları və fərdi xüsusiyyətləri var. Çox zaman valideynlər öz övladlarını digər uşaqlar ilə müqayisə edirlər (kiminsə övladı imtahandan daha yüksək nəticə göstərib, kimsə daha yaxşı ali məktəbə qəbul olub və s.). Abituriyentlər belə müqayisəli vəziyyətlərdə daha da çox stress yaşayır, gərgin və hətta aqressiv olurlar. Xüsusilə də sınaq imtahanlarında aşağı bal toplamaqla valideynlərini məyus etdikləri üçün əsas imtahana da ümidləri azalmış olur.
- İstirahət texnikalarını vərdiş rutininizə çevirin. İstirahət texnikaları psixofizioloji baxımdam rahatlamağa və stress səviyyəsini aşağı salmağa kömək edir. Meditasiya, autogen məşqlər və yoqa kimi metodlara gün

ərzində 30-40 dəqiqə vaxt ayırmağa çalışın. Müntəzəm şəkildə, gün ərzində istirahət texnikaları ilə məşğul olmaq psixikanı rahatlaşdırır, idrak proseslərinin fəaliyyətinə müsbət təsir edir (diqqətin mərkəzləşməsini və ixtiyariliyini artırır, hafizə proseslərini gücləndirir (yaddasaxlamanı xüsusilə), təfəkkürü sürətləndirir, iradəni artırır, emosional baxımdan rahatlaşdırır, motivasiyanı artırır).

Belə ki, abituriyentlərə imtahanqabağı stressi azaltmaq üçün yuxarıda vermiş olduğumuz tövsiyələr, uzun illər elmi təcrübədə sınanmış və müsbət təsiri olmuş, mütəxəssislər (psixoloqlar) tərəfindən stressin idarə edilməsində istifadəsi məsləhət görülən effektiv üsullardır.

Stress insan həyatında mövcud olan, müsbət və mənfi tərəfləri olan amildir. Stress səviyyəsinin yüksəl olması və ya tamamilə olmaması da problemdir. Belə ki, stressin insan fəaliyyətinə müsbət və mənfi təsirləri var. Belə ki, amerikalı psixoloqlar Beylok S., Rozek K., Fayn R. və Ramirez S. 1175 nəfər şagird ilə tədqiqat işi aparırlar (müşahidə və eksperiment üsulu ilə). Konkret olaraq bir fənn seçilir və şagirdləri sırf bu fənnə müvafiq dəyərləndirirlər. Belə ki, tədqiqatçılar şagirdlər ilə 1 il ərzində aparmış olduqları araşdırmada müəyyən etmiş oldular ki, stress imtahanlardan uğur qazanmağa müsbət təsir edir [2].

Stress uyğunlaşmanı təmin edən və insamı motivə edən amildir. Onun tamamilə aradan qaldırılması mümkün deyildir. Önəmli olan stressə dayanıqlı olmaq, onu balansda saxlamaqdır. Abituriyentlərin stressə qarşı dayanıqlı olması üçün məktəbdə müəllimlər və psixoloqlar lazımi tədbirlər görməlidirlər. 10 və 11-ci sinif şagirdlər ilə seminar və treninqlər keçirməli, peşə seçimində onlara tövsiyələr verməli, stress ilə əlaqədar psixoprofilaktik işlər görməli və stressi idarə etmək üçün müvafiq vərdişləri mənimsətməlidirlər.

Nəticə olaraq qəbul imtahanına hazırlıq yalnız elmi bilikləri artırmaqdan ibarət deyildir. Qəbula hazırlıq zamanı həm də psixoloji olaraq qəbul imtahanına hazır olmaq lazımdır. Əks halda öyrənilən biliklər, stressi idarəetmə bacarıqları olmadan dağınıq və sistemsiz olacaq, imtahan zaman isə həyəcandan öyrənilən materialları yada salmaq çətin olacaqdır. İmtahan stressi akademik nailiyyətlərə ciddi surətdə mənfi təsir etmiş olur. Stress kifayət qədər bilikli olan uşaqların belə yaxşı nəticə almasına mane ola bilir. Abituriyentlər, onların valideynləri, və müəllimləri bu sahədə kifayət qədər maariflənmiş olmalıdırlar [4, s. 68]. Təbii ki, valideynlər də övladlarının onların ümidlərini doğrultmayacağından çox vaxt narahat olurlar. Valideynlər öz xəyallarını"məcbursunuz" üslubunda övladlarına yükləməməlidirlər. Qəbul imtahanına hazırlaşan abituriyentlərə yaxın ətrafı mənəvi-psixoloji dəstək olmalı, onları stress vəziyyətinə salacaq ifadələr işlətməməli və stressli vəziyyətlərdən uzaq tutmalıdırlar. Xüsusilə də abituriyentlər mütəxəssis dəstəyi almaqdan çəkinməməlidirlər.

ƏDƏBİYYAT

1. Cəfərli A. İmtahan stressini necə azaltmalı? Bakı, 2013 / Elektron resurs URL: https://kaspi.az/az/imtahan-stressini-nece-azaltmali
2. Tağıyeva S. İmtahanqabağı stressi atmağın yolları. Bakı, 2020 / Elektron resurs URL: https://kafkazh.com/imtahan-qabagi-stressi-atmagin-yollari/
3. Vəliyev M. Mustafayev A. Peşəseçmə psixologiyası. Bakı, 2013, 132 s.
4. Чеченихина О.С., Синько В.Н. Актуальность психологической поддержки абитуриентов на этапе выбора направления профессиональной подготовки // Аграрное образование и наука №3. Екатеринбург, 2020, с. 56-64
5. Rocha D.A. Academic stress, coping, emotion regulation, affect and psychosomatic symptoms in higher education // Current psychology (Volume 41, №2). London 2021, p. 35-45
6. Smic N. Exam experience and some reactions to exam stress // Human psychology (Volume 38, №1). Croatia, 2012, p. 62-72

**Aydan ƏSGƏROVA**
***Azərbaycan Tibb Universitetinin***
***“Psixiatriya” kafedrasının magistrantı***
**E-mail: Aydan1asgerova@gmail.com**

## METANFETAMİN VƏ AMFETAMİN İSTİFADƏÇİLƏRİNDƏ DEPRESSİYA VƏ TƏŞVİŞ POZUNTULARININ PSİXOLOJİ TƏSVİRİ

### XÜLASƏ

Dünyamızın “ağ ölüm”ü adlandırılan narkomaniyadan əziyyət çəkən şəxslərdə maddə asılılığının yaratdığı fəsadlar real bir faktdır. Son beş ildə (2017-2021) olan statistik nəticələr Azərbaycanda narkomaniyadan əziyyət çəkən şəxslərin sayının artdığını bizə göstərir. Tibb müəssisələrində qeydiyyatda olan xəstələrin sayı 2017-ci ildə 30 min 131 olduğu təqdirdə, bu say 2021-ci ildə 34 min 602 idi. 2017-ci ildə narkomaniyadan əziyyət çəkən və qeydə alınmış xəstə sayı 2.115, 2021-ci ildə isə bu göstərici 5.603 olmuşdur.

İlk öncə psixoloji olaraq başlayan asılılıq daha sonra fizioloji olaraq davam edir. Maddə istifadəçiləri ilk öncə fiziki olaraq enerji yüksəlməsini gördükləri an təkrar istifadəyə cəhd edirlər. Bir neçə dəfə istifadə artıq fizioloji olaraq tələbat yaradır. Artıq davamlı olaraq qəbul edilən maddə bədənin enerji balansını pozur. Bu balans pozulduqda psixoloji asılılıq fizioloji asılılıq ilə əvəz olunur.

Maddə qəbulu daxili orqanları məhv edir. Bu təsir sadəcə fiziki olaraq kifayətlənmir və psixoloji (hallusinasinasiyalar, yorğunluq, depressiya, sayıqlamalar və s.) olaraq da şəxsə zərbə endirir.
Hal-hazırda Azərbaycanda narkomaniya ilə bağlı profilaktik tədbirlər görülür.

***Maddə ve Maddə Bağımlılığı***

A-maddə

Maddə deyildikdə, akademik olaraq "hiss orqanları ilə qavranılan və bölünə bilən obyekt" başa düşülür. Lakin, maddə dedikdə, hər birimizin anladığı, insanı sərxoş edən və zehni fəaliyyətini yerinə yetirməsinə mane olan məzmunlar, əldə edilənlər alkoqol, tütün, heroin, kokain, həşiş və mənəvi həyatın sağlamlığını pozan içkilər başa düşülür. [1]

***B-Maddə Bağımlılığı***

Maddə istifadəsi, istifadə edilən maddəyə uzun müddət məruz qalma və zərərli maddə istifadəsindən narahat olan şəxsin fərdi, sosial və ailə nikahına psixoloji zorakılıq göstərməsi kimi qeyd edilir. Həyatın pisləşməsi ilə bağlı əsas iş yükünü yerinə yetirməmək, məktəb və ya ev idarəçiliyi, mahiyyətlə bağlı problemlər, hüquqi və qruplararası açıqlamalarla bağlı problemlər və ya mövcud çətinliklərə baxmayaraq maddədən istifadə kimi amillər var. Ancaq bu diaqnozun qoyulması üçün uzun müddət ərzində maddə istifadəsinin tez-tez təkrarlanması zəruridir. Şəxsdə maddəyə qarşı dözümlülük azalır, narahatlıq, stress, yuxusuzluq və yorğunluqları azaltmaq üçün maddəyə ehtiyac duyur. [2]

***Narkotiklər və onların zərərləri***

Azərbaycanda hələ də təhlükəli olsa da, son illərdə narkotik istifadəsində artım müşahidə olunur. Lakin bütün dünyada olduğu kimi, ölkəmizdə də narkotiklər gənclər üçün böyük təhlükə yaradır. Az istifadə profilaktik tibb baxımından xüsusilə vacibdir. Çünki əsas olan, xəstəlik böyümədən və hətta ortaya çıxmadan lazımi tədbirləri görməkdir. Çünki bu gün profilaktik tibb ön plana çıxıb. Statistik araşdırmalar göstərir ki, ölkəmizdə orta məktəb şagirdlərinin 7-8%-i ən azı bir dəfə tiner və ya bal qoxusunu alır və sınaqdan keçirir. Bu o deməkdir ki, gənclər narkotikləri tanımaq və sınaqdan keçirmək istəyirlər. Son zamanlar açıqlanan rəqəmlərə görə, ailə üzvlərinin laqeydliyi, iqtisadi çətinliklər, şəhər həyatına uyğunlaşa bilməməsi, təhsilin olmaması kimi problemlərin uşaqları narkotik vasitələrə sövq etdiyi görünür. Hazırda ölkəmizdə qayğıya ehtiyacı olan uşaqlar var. Bu uşaqlar aclıq, xəstəlik, cinayət törətmək, tiner, bal, siqaret, tiryək kimi maddələrdən istifadə etməklə hər cür təhlükəyə məruz qalırlar. Sözügedən uşaqların oğurluq başda olmaqla hər cür cinayət törətdiyi məlumdur. Türkiyə statistikasına əsasən Ədliyyə Nazirliyinin mövzu ilə bağlı məlumatları göstərir ki, hər il 90 min uşaq məhkəmələrdə mühakimə olunur. Bu uşaqların 9,9%-nin narkotik aludəçisi olduğu müəyyən edilib. [3]

***Gənclər, Maddə bağımlılığı və müdafiə***

Nəticələr göstərir ki, sözügedən uşaqlar daha çox sosial-iqtisadi vəziyyəti aşağı olan ailələrə aiddir. Bu uşaqlar arasında tiner və baldan istifadə adi haldır. Sosial-iqtisadi vəziyyəti yüksək olan uşaqlar isə ekstazi və kokain kimi maddələrdən istifadə edirdilər. Narkotiklər arasında ən çox asılılıq yaradan və təhlükəli maddə heroindir. Bir neçə cəhddən sonra asılılıq yaradır. Hər zaman ölüm təhlükəsi var, xüsusən də təsirini artırmaq üçün venadaxili inyeksiya yolu ilə qəbul edildikdə. Gənclər arasında ən çox istifadə edilən maddələr sirr (13%), heroin və kokain (1%), ekstazi və amfetamin kimi narkotiklər (4%), istirahət həbləri (4%), tiner və baldır. Zərər baxımından dərmanlar əsasən bədən və beyin kimyasını pozur. Beynin fəaliyyəti və hüceyrələrarası əlaqələr pozulduğu üçün insan anormal davranışlar nümayiş etdirir. Yanlış təsəvvürlər və buna uyğun olaraq fərddə xoşbəxt, çaşqın, əsəbi və aldanmış bir şəxsiyyət ortaya çıxır. Digər zərərləri aşağıdakı kimi sıralamaq olar: [4]

- Gücdə müvəqqəti artım, xoşbəxtlik hissi
- Yuxusuzluq
- Narahatlıq
- Gərginlik
- Optik və akustik hallüsinasiyalar görmək
- Monoton davranışlar etmək
- Çaşqınlıq
- Konsentrasiya pozğunluğu
- Düşünmə və danışma çətinliyi
- Depressiya
- Yuxu görmə
- Həddindən artıq stress
- Aqressiya
- Sinir hüceyrələrində sağalmayan ölümlər
- Əzələ strukturlarının pisləşməsi
- Bədənin təbii ifrazatlarının qanla qarışması, böyrək və qaraciyərin işləməməsi
- Beyində pozulmalar, atrofiya, zəiflik. Diqqət və yaddaş
- Yüksək qan təzyiqi və beyin qanamasından asılı olaraq, aşağı qan təzyiqinə görə huşunu itirmə və ölümlər
- Yuxuda və xəyallarda yaşamaq, diqqətsiz və sönük həyat fəlsəfəsinin formalaşması
- Düşüncənin pozulması, zehni proseslərin, mühakimə qabiliyyətinin zəifləməsi
- Ürəkbulanma, koma, ağciyər ödəmi
- Mərkəzi sinir sisteminin pozulması, qan təzyiqi və tənəffüsün artması
- Zəifləmə, iştahsızlıq, mədə və bağırsaq pozğunluqları, cinsi gücün azalması və bədən depressiyası

- Polis tərəfindən təqib olunma şübhəsindən yaranan narahatlıq və qorxu, günah psixologiyası, hər ağ rəngli maddəni kokain kimi qəbul etmək, uzanıb burnunuza aparmaq kimi psixoloji pozğunluqlar
- Psixoloji asılılıq (maddəyə ehtiyac duymaq və onsuz yaşaya bilməmək psixologiyası)
- Ailədə problem yaşamaq
- Məktəbdə uğursuzluq
- Pul və vaxt itkisi, iş qabiliyyətinin olmaması, insan münasibətlərinin pozulması
- Fiziki asılılıq
- Maddə çatışmazlığını aradan qaldırmaq istəyi,
- Uzun müddətli istifadədə depressiya və şizofreniya kimi bəzi uzun psixi pozğunluqlar
- Beyin hüceyrələrinin ölümü
- Aqressiya, şiddətə meyillilik. Təbii ki, maddə asılılığı olan hər kəs cinayət potensialı deyil. Lakin istifadə etdikləri maddəni tapa bilməyəndə cinayət törətməyə meyilli olurlar. Ümumiyyətlə, narkotik istifadəsi cinayət törətməyi asanlaşdırır. Psixoloji və fizioloji cəhətdən zərərli dərmanlar oğurluq və xəsarətlərin artmasına səbəb olur. Narkotik istifadə edən hamilə qadınların körpələri spirt istifadə edən hamilə analara nisbətən 10 dəfə daha çox risk altındadır [5]

ƏDƏBİYYAT


1. Kasatura, İ. (1998). Gençlik ve Bağımlılık. İstanbul: Evrim Yayınları.
2. Ekşi, A. (1999). Çocuk Sağlığı ve Hastalıklarının Psikososyal Yönü. Ankara: Nobel Tıp Kitapları
3. Kalyoncu, A. (1996) Uyuşturucu Kullanımı ve Tedavi Sorunları. Bilim Teknik Dergisi, Nisan 1996: 24
4. Sabuncuoğlu, B. (1995). Uyuşturucu Bağımlılığı. Ankara: Milli Eğitim Yayınları.
5. Santrock, J. W. (2003). Adolescence. Amarica: McGraw-Hill.

**Fərid İSGƏNDƏRLİ**
***Azərbaycan Tibb Universitetinin***
***"Psixiatriya" kafedrasının magistrantı***
**E-mail: isfarid@mail.ru**

# PSİXİ SAĞLAMLIQ İŞÇİLƏRİNDƏ DEPRESSİYA, TƏŞVİŞ, STRESS VƏ HƏYAT MƏMNUNİYYƏTİ SƏVİYYƏLƏRİNİN ÖYRƏNİLMƏSİ

## XÜLASƏ

Yaşadığımız dövrdə elm və texnologiyanın inkişafı və mürəkkəbləşməsi bizim gündəlik həyatımızda fərqliliklərin yaranmasına səbəb olmaqdadır. Bunlara misal olaraq işlədiyimiz iş rejimində iş qrafiki müddətinin uzunluğunu və ya məsafədən idarə etmə sistemlərinin inkişafını göstərə bilərik. Rəqabət mühitinin inkişaf etdiyi bir dövrdə bu rəqabətə tab gətirə bilmək üçün işçilər zəmanə ilə ayaqlaşmalı və bu inkişaf mühitinə uyğunlaşmalıdır. Buna baxmayaraq bir sıra faktorlar gündəlik həyatımıza təsir edir ki , nəticədə həm iş keyfiyyəti zəifləyir həm də, həyat keyfiyyəti aşağı düşür. Psixi sağlamlıq işçiləri digər insanların psixi sağlamlıqlarının qeydinə qalan şəxslərdir. Həmən şəxslərdə depresiya , stress ,təşviş hallarının müşahidə edilməsi psixi problemi olan şəxslərin qiymətləndirilməsi və müalicəsi prosesinə də öz təsirini göstərməkdədir. Bu baxımdan bu məqalədə *Psixi Sağlamlıq İşçilərində* depresiya , stress , təşviş və həyat keyfiyyəti araşdırılacaq.
*Açar söz:* depresiya , stress , təşviş , həyat keyfiyyəti , psixi sağlamlıq

## ABSTRACT

In the era we live in, the development and complexity of science and technology are causing differences in our daily lives. Examples of these are the length of the working schedule or the development of remote control systems. In order to be able to withstand this competition in an era of developing competitive environment, employees must keep up with the times and adapt to this developing environment. Despite this, a number of factors affect our daily life, as a result of which both the quality of work weakens and the quality of life decreases. Mental health workers are people who take care of other people's mental health. At the same time, the observation of depression, stress, and anxiety in people has its effect on the process of evaluation and treatment of people with mental problems. In this regard, this article will examine depression, stress, anxiety and quality of life in Mental Health Workers.

*Key words:* depression , stress, anxiety , quality of life , mental health

## 1.GİRİŞ

Xidmət sektorunun vacib bir hissəsi olan sağlamlıq sektoru , təşkil etdiyi xidmətlərdən dolayı digər xidmət sektorlarından fərqlənir. Sağlamlıq xidmətləri xüsusilə təcili vəziyyətlərdə yardım göstərə bilmək qabiliyyətinə malik olmaq üçün xüsusi təlim keçmiş təcrübəli kadr heyyəti ilə digər xidmət sektorlarından ayrılır. Buna baxmayaraq hər bir xidmət sektorunda olduğu kimi sağlıq sektorunda da, müştəri konsepsiyası bu sektora öz təsirini göstərməkdədir. Sağlıq sektorunda keyfiyyətli xidmət göstərmək , xüsusilə özəl mərkəzlərin inkişaf etdiyi bir dövrdə artan rəqabət şəraitində vacib bir hala çevrilmişdir. Buna görə də, işçilər xüsusi təzyiqə məruz qalırlar. Həm iş yüklərinin artması, həm də yeni müştəri cəlb etmək üçün hər kəsi razı salmaq prinsipi ilə gərgin iş rejimi işçilərin psixi sağlamlığını təhlükə altına atmaqdadır . Ümumdünya Səhiyyə Təşkilatının belə bir şüaurı var ki, "Psixi sağlamlığı olmayan insan heç vaxt fiziki cəhətdən sağlam ola bilməz." Psixi sağlamlıq dedikdə fərdin ətraf mühitə adaptasiyası üçün lazım olan funksional qabiliyyətlərin, yönəliş və keyfiyyətlərin məcmusu nəzərdə tutulur. [1]

Tədqiqat mövzusu olan psixi sağlamlıq işçilərində depresiya , stress , təşviş və həyat məmnuniyyəti keyfiyyətinin ölçülməsi bizə cari vəziyyətlə bağlı məlumat verəcəkdir. Bu məlumat gələcək tədqiqatların aparılması üçün bir vasitəçilik edəcəkdir.

### 1.1 Depresiya

Depresiya hər kəsdə olduğu kimi psixi sağlamlıq işçilərində də , arzu olunmayan bir vəziyyətdir . Buna baxmayaraq müxtəlif səbəblərdən dolayı psixi sağlamlıq işçiləri də , zamanla depresiyaya məruz qala bilirlər . Edilən tədqiqatlar göstərir ki, sağlamlıq sektorunda fəalliyyət göstərən işçilərin depresiyaya düşmə səviyyəsi ictimayətdəki digər fərdlərlə müqayisədə daha yüksəkdir [2] .

" Depresiya dərin üzüntü ,bəzən isə həm üzüntü həm də, nərahatlıq , düşüncə, danışma və fizioloji funksiyalarda yavaşlama, şəxsin özünü dəyərsiz, zəif, pesssimist və kiçik görmə halıdır". Depresiya vəziyyətində fərdin dünyaya qarşı olan marağı ya azalır, ya da, tamamilə yox olur. Digər insanlara güvənmə və bağlanma azalır, özünü günahlandırma , qınama, özünə xəsarət yetirmə , özünü kiçik görmə halları meydana gəlir ki, nəticədə fərd özünə olan hörməti itirir. [3]

Depresiya zamanı özünü biruzə verən əsas əlamətlər aşağıdakılardır:

- Affevtik simptomlar – Əhval ruhiyənin enməsi , kədər , sıxıntı ilə özünü biruzə verir.
- Motivasiya simptomları – Motivasiyanın azalması ,hər hansı fəaliyyətlə məşğul olmağa qarşı istəksizlik və ya sosial əlaqələrə girməkdən imtina kimi özünü göstərir.
- Fiziki ( vegetativ ) simptomlar – Daimi halsızlıq , yuxusuzluq və ya həddən artıq yuxulu olma , bədəndə müxtəlif nahiyələrdə xoşagəlməz hissin yaranması , iştahın azalması və ya artması kimi hallar baş verir .

- Davranış simptomları – Hərəki aktivliyin ləngiməsi (adinamiya ) və ya hərəki aktivliyin artması ( ajita ) ilə müşahidə edilir .
- Koqnitiv simptomlar – Özünəinam və özünü qiymətləndirmənin azalması , özünə tənqid və günahkarlıq fikirlərinin artması baş verir . [4]

Aparılmış ən son tədqiqatlara əsasən müəyyən edilmişdir ki , qadınlar kişilərə nisbətən 2 dəfə daha çox depresiyadan əziyyət çəkirlər. Xəstələrin 80 % - ə qədəri sosial , iş ,gündəlik fəaliyyətlərin yerinə yetirilməsi ilə bağlı çətinliklə üzləşirlər . Depresiyanın yayılması ilə ailə gəliri arasında tərs mütənasib asılılıq vardır. [4 seh 71]

**1.2 Stress**

Son iyirmi il ərzində edilən araşdırmalar göstərir ki, stresi çox olan işlərdə işləyən işçilərin xəstəliklərə tutula bilmə ehtimalları yüksəkdir. [5]

Stres əlamətləri hər kəsdə fərqli cür özünü biruzə verir. Bu səbəblə hər insanın özünəməxsus stress əlamətləri vardır. Adətən stresə məruz qalmış şəxslərdə baş ağrısı, bel və boyun ağrısı kimi əlamətlər müşahidə edilir. Belə məqamlarda fərd həssaslaşır və bəzən heç bir səbəb olmadan əsəbləşir. Hətta bəzən yaxşı yata bildiyi bir yuxudan sonra da, tükənmişlik hiss edir.

Çambers və Vall bir qrup həkimlə apardıqları tədqiqat zamanı ailə və iş münaqişələrinin stresə səbəb olduğunu aşkar ediblər. Bundan əlavə, tibb tələbələrinin xəstələrlə ünsiyyətinin həmən tələbələrin işçilərlə ünsiyyətindən daha çox stress yaratdığı qənaətinə gəliblər. Həmən tədqiqatda qeyd olunur ki, qadın həkimlər və tələbələr kişilər ilə müqayisədə daha çox stressli olurlar. [6]

Streslə əlaqəli geniş yayılmış ortaq əlamətlər aşağıdakı cədvəllərdə qeyd edilmişdir. [7]

**Cədvəl 1**

*A. Qısa dövr – Erkən əlamətlər*

| 1. Fiziki əlamətlər | 2. Psixoloji əlamətlər |
|---|---|
| • Başağrısı | • Unutqanlıq |
| • Mədə problemləri | • Əsəbilik |
| • Çox və ya az yemək | • Həyəcan |
| • Yuxu problemləri | • Ailə üzvləri ilə problem |
| • Yüngül xroniki yorğunluq | • Alkoqol və siqaret istifadəsinin artması |
| • Əzələ ağrıları | • Dərman və ya yuxu dərmanlarının istifadəsinin artması |
| • Diş qıcama | • Depresiya |
| • Cinsi problemlər | • Zəiflik duyğusu |
| • İshal | • İşdə problemlər |
| • Qəbizlik | |

**Cədvəl 2**

*B. Uzun müddət əlamətləri*

| 1. Fiziki vəziyyət | 2. Psixoloji problemlər |
|---|---|
| • Hipertoniya | • Qəzalar |
| • Ürək xəstəlikləri | • Ağır depresiya |
| • İflic | • Ailə daxili şiddət |
| • Yoluxucu xəstəliklər | • Alkoqolizm |
| • Şəkər xəstəliyi | • İntihar davranışı |
| • Bağırsaq xəstəlikləri | • Digər psixoloji pozuntular |

**Cədvəl 3**

*C. İş stresi yaradan səbəblər*

| Fiziki stress yaradan səbəblər |
|---|
| • Kimyavi maddələr<br>• Fiziki maddələr ( gurultu ,isti, soyuq, radiasiya) |

**1.3 Təşviş**

Təşviş psixoloji, koqnitiv və davranış əlamətlərini özündə birləşdirən mürəkkəb bir prosesdir. İnsanın bioloji qruluşunun bir parçası olan təşviş, şiddəti və davam etmə müddəti uyğunsuzdursa və ya hər hansı bir səbəb olmadan meydana çıxırsa bu normal qəbul edilmir. Təşviş pozuntuları normadan kənara çıxmaları özündə əks etdirməkdədir. Hər hansı zərərdən və yaxud daxili mənəvi konfliktdən sonra meydana gələ bilər. Təşviş pozuntusu bədəndə xoşagəlməz hisslər yaradan bir duyğudur. [8]

Təşviş hər hansı təhlükəyə qarşı formalaşan reaksiyadır və gələcəyə istiqamətlənmiş olur. Bu təhlükə köməyin əlçatmaz olması və ya bilinməyən hər hansı bir şey ola bilər. Yüksək səviyyədə təşvişin olması həmən şəxsi zəiflədir və gündəlik həyat bacarıqlarını pozur. Təşviş pozuntuları iş qabilliyyətinə də, təsir edir. İşləmə qabiliyyəti pozulur nəticədə şəxsin özü və cəmiyyət bundan zərər görür. [8]

Təşviş pozuntusu digər psixoloji pozuntularla müqayisədə daha tez-tez rast gəlinir. Livanda 2857 nəfər arasında aparılmış tədqiqat zamanı təşviş pozuntusunun yayılması 11.2 % təşkil etmişdir. [9]

**1.4 Həyat məmnuniyyəti**

Həyat keyfiyyəti normanın altında və motivasiyası aşağı olan şəxslərin keyfiyyətli iş qabiliyyətinə malik olması biraz çətin olur. Belə vəziyyətlərdə müəssisəni idarə edən qurum rəhbərləri həmən müəssisədə işləyən işçilərin əhval ruhiyyə və motivasiyasını artıra biləcək faktorları aşkar etməlidir.

Həyat keyfiyyəti anlayışı social elmlərdə meydana gəlsə də psixologiyada da istifadə edilir. Belə ki, psixoloji problemlərin bəzən tibbi olmayan tərəfləri də

olur,məsələn həyat keyfiyyətinin insan həyatına təsiri kimi. Ümumdünya Səhiyyə Təşkilatının standartları ilə əlaqəli olaraq insanların yaşadıqları mədəniyyət və dəyər yarqılamanı özündə cəmləyən həyat keyfiyyətini ölçən bir sıra şkalalar var. Ümumdünya Səhiyyə Təşkilatı sağlamlığı " sadəcə xəstəliyin olmaması ilə deyil eyni zamanda, fiziki,zehni və social cəhətdən yaxşı olma" kimi adlandırmışdır. Bu yanaşmaya görə sağlam olmaq üçün şəxsin ancaq sağlamlıq probleminin olması kifayət etmir bunun üçün tamamilə fiziki ,zehni, psixoloji və sosioloji sağlamlığın ümumilikdə olması vacibdir. Bu vəziyyətdə isə çox az insan sağlamdır, çünki bu halların hamsının bir yerdə cəmlənməsi bəzən üst-üstə düşmür. İnsanın əsas təlabatlarını nəzərdən keçirsək birinci yerdə bioloji ehtiyaclar dayanacaq,yemək,içmək,cinsi istəklər, istirahət, təhlükəsizlik kimi təlabatlar. Bundan sonra isə Psixososial təlabatlar gəlir. Bunlara, yeni münasibətlərə ehtiyacın olması, xarici stimulun təsiri ilə şəxsin özünü inkaf etdirməsi, ünsiyyət qurma, təcrübələrini paylaşmaq kimi təlabatlar aiddir. Mənlik hörməti, və məqsədlərin olmasına,bacarıqlarından tam istifadə edə bilmək, uğur, hər kəs tərəfindən qəbul edilmə, təriflənmə istəyi, başqalarına kömək etmək aiddir. [10]

Ümumdünya Səhiyyə Təşkilatı " Həyat Keyfiyyəti"-ni insanların məqsədlərinə, gözləntilərinə, standartlarına, maraqlarına münasibətdə mədəniyyət və dəyər anlayışları kimi qəbul edir. [11] Həyat keyfiyyəti "həyat şərtləri altında əldə edilə biləcək şəxsi doyma səviyyəsinə təsir edən xəstəliklərə və günlük həyatın fiziki, psixoloji və social təsirlərə verilən reaksiyanı göstərən bir anlayışdır. [12]

Patrik və Eriksona görə həyat kəmiyyət və keyfiyyət olaraq iki yerə ayrılır. Həyat kəmiyyətinə,ölüm səviyyəsi və ya həyat gözləntisi kimi biomedical ifadə ilə əlaqədar olaraq işlədilmişdir. Həyat keyfiyyəti sadəcə ölçüləbilən indiqatorların istifadəsi ilə ifadə edilə bilməyən ,həyatın bütünlükdə istiqamətlərini, ümumilikdə subyektiv bir dəyərləndirməni ifadə edir. [13]

## 2. MƏLUMATLARIN TOPLANMASI METODIKALARI VƏ NƏTICƏLƏRIN IŞLƏNMƏSI

Tədqiqat Psixi Sağlamlıq Mərkəzində, 1 saylı Respublika Psixiatriya xəstəxanasında və 2 saylı Psixiatriya xəstəxanasında keçirilmişdir. Tədqiqat 1 mərhələdən ibarətdir. Tədqiqat 104 nəfər psixi sağlamlıq işçiləri üzərində keçirilmişdir.

Psixi sağlamlıq işçiləri ilə tədqiqat zamanı ilk öncə demoqrafik məlumatlar əldə edilmişdir. Tədqiq olunanın tədqiqatımızın meyyarlarına uyğun olub-olmadığı araşdırıldıqdan sonra, uyğun olan tədqiqat iştirakçılarına digər şkalalar təqdim edilmişdir. İlk öncə psixi sağlamlıq işçilərinə "DASS 21"-in sualları verilmişdir. Bu şkala psixi sağlamlıq işçilərinin depresiya, stress və təşviş səviyələrini öyrənmək üçün istifadə olunmuşdur. Daha sonra "SATISFACTION WITH LIFE SCALE" həyat məmnuniyyəti səviyyəsini ölçmək üçün istifadə olunmuşdur.

Lovibond tərəfindən 1995 ci ildə inkişaf etdirilən depresiya, stress və təşvişi ölçmək üçün istifadə edilən DASS 42 maddədən ibarətdir. Şkalada 0- “mənə heç uyğun deyil”,1 “mənə qismən uyğundu”,2 “mənə uyğundu” və 3 “mənə tamamailə uyğundu” kimi dərəcələndirilir. Şkalada istifadə olunan 42 maddənin 14-ü depresiyanı, 14-ü stressi və digər 14-ü isə təşvişi ölçür. [14]

Tədqiqatda istifadə edilən 21 suallıq DASS şkalası 2005-ci il Henri və Cravfordun [15] tədqiqatlarından,bundan sonra 2010-cu ildə Mahmudun tədqiqatlarından sonra əldə edilmişdir.[16]

Həyat məmnuniyyəti SWLS  fərdin həyatdan məmnuniyyətini ölçmək üçün hazırlanmış bir şkaladır. Həyatdan Məmnuniyyət Ölçüsü (SWLS) ilk dəfə Diener və başqaları (1985) tərəfindən insanın şəxsi məmnunluğunun qiymətləndirilməsi üsulu kimi işlənib hazırlanmışdır.[17]

DASS 21 şkalasından əldə edilən cavablara əsasən 65 nəfərdə (62,5%) normal, 10 nəfərdə (9,6 %) yüngül, 19 nəfərdə  (18.2 %) orta, 4 nəfərdə isə (3,9%) ağır, 6 nəfərdə (5,9 %) isə daha ağır depresiya səviyyəsi müşahidə olunmuşdur. (Cədvəl 4)

**Cədvəl 4**

*Psixi Sağlamlıq İşçilərinin Dass 21 Şkalasına  Əsasən Depresiya Səviyyəsi*

| Normal depressiya | Yüngül depressiya | Orta-ağır depressiya | Ağır depressiya | Kəskin ağır depressiya | Mean | Standart yayınma |
|---|---|---|---|---|---|---|
| 65 (62,5%) | 10 (9,6%) | 19 (18,2%) | 4 (3,9%) | 6 (5,9%) | 12,16 | 8,392 |

SPSS proqramı ilə hesablanmış stress səviyyəsinin nəticələrinə əsasən 76 nəfərdə (73,2 %) normal, 11 nəfərdə (10,6 %) yüngül, 9 nəfərdə ( 8,6 % ) orta, 5 nəfərdə (4,8 %) ağır, 3 nəfərdə (3 %) daha ağır stress səviyyəsi müəyyən edilmişdir. (Cədvəl 5)

**Cədvəl 5**

*Psixi Sağlamlıq İşçilərinin Dass 21 Şkalasına  Əsasən Stress Səviyyəsi*

| Normal stress | Yüngül stress | Orta stress | Ağır stress | Daha ağır stress | Mean | Standart yayınma |
|---|---|---|---|---|---|---|
| 76 (73,2%) | 11 (10,6%) | 9 (8,6%) | 5 (4,8%) | 3 (3%) | 12,16 | 8,392 |

Tədqiqat iştirakçılarının təşviş səviyyələrinin nəticələri isə belədir, 68 nəfərdə ( 65,4 %) normal, 15 nəfərdə ( 14,5 % ) yüngül, 9 nəfərdə (8,7 %) orta-ağır, 3 nəfərdə (2,9 %) ağır,  9 nəfərdə (8,9 %) kəskin ağır təşviş səviyyəsi aşkarlanmışdır. (Cədvəl 6)

**Cədvəl 6**

*Psixi Sağlamlıq İşçilərinin Dass 21 Şkalasına Əsasən Təşviş Səviyyəsi*

| Normal təşviş | Yüngül təşviş | Orta-ağır təşviş | Ağır təşviş | Kəskin ağır təşviş | Mean | Standart yayınma |
|---|---|---|---|---|---|---|
| 68 (65,4%) | 15 (14,5%) | 9 (8,7%) | 3 (2,9%) | 9 (8,9%) | 12,16 | 8,392 |

Tədqiqat zamanı SWLS şkalası ilə tədqiqat iştirakçılarından toplanmış məlumatlara əsasən 5 nəfərdə (4,8 %) həyatlarından son dərəcə narazı, 13 nəfərdə (12,4 %) həyatlarından narazı, 14 nəfərdə ( 13,4 % ) həyatlarından biraz narazı, 7 nəfərdə ( 6,7 %) neytral, 31 nəfərdə ( 29,8 %) həyatlarından biraz razı, 29 nəfərdə ( 27,8 %) həyatlarından razı, 5 nəfərdə ( 4,8 %) həyatlarından çox razı olduğu müəyyən edilmişdir.

## 3. NƏTİCƏ

Ölkəmizdə və dünyada psixi problemlər artım göstərməkdədir. Bir insanın fiziki, zehni və sosial həyatına mənfi təsir edən psixi problemləri yaxşı bir profilaktik sağlamlıq yanaşması ilə azaltmaq və qarşısını almaq mümkün ola bilər. Hər şeydən əvvəl, biz psixi sağlamlıq işçiləri olaraq bu insanların sağalacağına və bu problemlərdən xilas ola biləcəyinə inanmalıyıq. Psixiatrlar, psixoloqlar, sosial işçilər, ailələr, yaxın dostlar və qohumlar psixoloji problemlərin qarşısını almaq üçün birgə çalışmalıdırlar.

Aparılmış tədqiqatda əldə edilən nəticələr onu deməyə əsas verir ki, psixi sağlamlıq işçilərinin bəzilərində müəyyən dərəcədə təşviş, depressiya, stress var və həmçinin bəzi işçilərin həyat məmnuniyyəti aşağıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Republikası Səhiyyə Nazirliyi. Psixi sağlamlıq Sahəsində Milli strategiyası
2. Martin, F., Poyen, D., Bouderlique, E., Gouvernet, J., Rivet, B., Disdier, P.(1997). et al. Depression and burnout in hospital health care professionals, Int J Occup Environ Health (3): 204-209.
3. A Çevik, VD Volkan Depresyon Monografları Serisi, 1993; (3):109-122
4. F. İsmayılov , Koqnitiv – Davranış Terapiyası , Bakı , APOSTROF - A , 2022
5. Şahin, N. Stresle Başa Çıkma-Olumlu Bir Yaklaşım Türk Psikologlar Derneği Yayınları: 2 Ankara,1986
6. Chambers, R; VVaII D, Campbell, Stresses, Coping Mechanisms and Job Satisfaction in General Practitioner (Registrars. British Journal of General Practice), 1996, 46, 343-348).
7. Cahili, J; Landsbergis, P; Schnall, P; "Reducing Occupational Stress.

Presented at the Work Stress and Health 95 Conference. Washington D.C,1995
8. Anksiyete bozuklukları. Noyes R Jr., Hoehn-Saric R. The anxiety disorders. Cambridge University Pres.1998. Editör: Şar V. CSA Medikal ve Paramedikal Yayıncılık
9. Karam E.G., Mneimneh Z.N, Karam A.N, Fayyad J.A. Prevalance and treatment of mental disorders in Lebanon: A national epidemiological survey. Lancet 2006;367:1000-06
10. Ware JE Jr, Sherbourne CD: The MOS 36-Item Short-Form Health Survey (SF-36), 1:conceptual ramework and item selection. Med Care 30:473-483, 1992
11. Fidaner H, Elbi H, Fidaner C, : Həyat keyfiyyətinin ölçülməsi, WHOQ0L-100 ve WHOQOL-BREF. 3P Jurnalı (Ek 2):3-66, 1999
12. Akdeniz C, Aydemir Ö (eds): Sağlamlıq səviyyəsi ölçəninin Türkçəyə uyğunlaşdırılması və etibarlılığı. Klinik Psikofarmakologiya Bülteni 9(2):104-108, 1999.
13. Michelson D, Lydiard RB, Pollack MH, et al: Outcome assesment an clinical improement in panic disorder: evidence from a randomized controlled trial of fluoxetine and placebo. Am J Psychiatry 155:1570-1577, 1998
14. Lovibond, P. F. & Lovibond, S. H. (1995). The structure of negative emotional states: Comparison of the Depression Anxiety Stress Scales (DASS) with the Beck Depression and Anxiety Inventories. Behaviourresearch and therapy, 33(3), 335-343.
15.Henry, J. D., & Crawford, J. R. (2005). The short- form version of the Depression Anxiety Stress Scales (DASS- 21): Construct validity and normative data in a large non- clinical sample. British Journal of Clinical Psychology,44(2), 227-239.
16.Mahmoud, J. S. R., Staten, R. T., Hall, L. A., & Lennie, T. A. (2012). The relationship among young adult college students’ depression, anxiety, stress, demographics, life satisfaction, and coping styles. Issues in mental health nursing, 33(3), 149-156.
17. Diener, E., Emmons, R. A., Larsen, R. J., & Griffin, S. (1985). The Satisfaction with Life Scale.Journal of Personality Assessment, 49, 71-75.

**Günay ƏSƏDZADƏ**
***Azərbaycan Tibb Universitetinin***
***"Psixiatriya" kafedrasının magistrantı***
**E-mail: Zadehgunay@gmail.com**

# QAVRANILAN STRESS ŞKALASININ AZƏRBAYCAN DİLİNƏ ADAPTASİYASI: ETİBARLILIQ VƏ VALİDLİK ANALİZİ

## XÜLASƏ

**Məqsəd:** Qavranılan Stress Şkalasının (QSŞ10) qısa formasını Azərbaycan dilinə çevirərək etibarlılıq və validlik səviyyəsini analiz etməkdir.
**Metod:** Araştırmanın populyasiyası Bakı şəhərində yerləşən universitetlərdə bakalavr və magistr təhsili alan tələbələr arasından təsadüfi yolla seçilmişdir. Tədqiqatda 39 u (26.2%) kişi, 110 u (73.8%) isə qadın olmaqla toplamda 149 tələbə könüllü şəkildə iştirak etmişdir. Sorğu onlayn aparılmışdır. İştirakçılar ilk olaraq məlumatlı razılıq ilə tanış olmuş daha sonra isə onlara sosio-demoqrafik məlumatları əldə etmək üçün anket və şkala təqdim edilmişdir. Tədqiqatda məlumatları toplamaq üçün ilk öncə məlumatlı razılıq, tədqiqatçı tərəfindən hazırlanan demoqrafik anket, tələbələrin yaşadıqları stress səviyyəsini ölçmək üçün Qavranılan Stress şkalasından (Percieved Stres Scale) istifadə edilmişdir. Əldə edilən məlumatların statistik təhlilində minimum və maksimum dəyərlər, ortalama, standart sapma və Cronbach Alpha, McDonald's ω dəyərləri, faktor analizi hesablanmışdır.
**Müzakirə və Nəticə:** Nəticələr göstərdi ki, Qavranılan Stress Şkalasının qısa forması ədəbiyyata uyğun olaraq yüksək etibarlı və keçərlidir. Buna görə də QSŞ10, insanların subyektiv stress qavrayışlarını ölçmək üçün istifadə edilə biləcək etibarlı bir ölçmə vasitəsidir.

*Açar sözlər:* qavranılan stress, etibarlılıq, validlik, tələbələr, şkala

### Giriş

İlk dəfə 1930-cu illərdə kanadalı həkim və endokrinoloq Hans Selye tərəfindən ortaya atılan stress anlayışı müasir dövrün bir hissəsinə çevrilib. Selye, stresi, fərdi təhrik edən xarici stimul kimi qəbul edirdi. 1950-ci ildə apardığı bir araşdırmadan sonra stress terminini orqanizmin daxilində olan və ətrafa yönələn bir reaksiya kimi qəbul etmişdi. Bu yanaşmanın sonunda Selye stress və stressor anlayışlarını ön plana çıxarıb, fərddə reaksiyaya səbəb olan xarici qıcıqları stressor, fərdin bu tip qıcıqlara verdiyi reaksiyanı isə stress adlandırmışdır. Nəticə etibarilə, Selye stressi "fərdin fərqli xarici stimullara qarşı verdiyi reaksiya " kimi ifadə etmişdir. [1]

Müasir dövrdə cəmiyyətin inkişaf tempinin sürətlənməsi, psixoloji diskomfort, narahatlıq içərisində yaşayan insanların sayının kəskin şəkildə

artması, şəxsiyyətlərarası münasibətlərdə yaranan problemlər, istənilən yaşda insanın baş verən dəyişikliklərə uyğunlaşmasının çətinləşməsi müxtəlif psixoloji stress halları yaradır ki, bu da müəyyən fəaliyyət sahələrində uğursuzluqların ortaya çıxmasına, insanın psixoloji durumunda narahatlıqların yaranmasına şərait yaradır.[2] Gündəlik həyatın zərurəti həmçinin insanın sosial varlıq olması onun içində olduğu cəmiyyətlə ahəngdar və sağlam qarşılıqlı əlaqə qura bilməsini tələb edir. Xüsusilə gənclik dövründə, tələbəlik illərində şəxsiyyətin cəmiyyətlə ahəngdar birgə yaşayışının əsas şərtlərindən biri də onların şəxsiyyətlərarası münasibətlərində sərgilədiyi rəftar və davranışlardır. Gənclik dövrü dinamizm və dəyişikliyin ön planda olduğu dövr kimi diqqət çəkir. Bu dövrdə fərd bir çox sosial, fiziki qarşıdurmalarla üzləşir. Məlumdur ki, xüsusilə psixo-sosial və cinsi yetkinliklə birlikdə şəxsiyyət tapma səyləri də artaraq ziddiyyətli dövrlərdən keçir. [8]

Universitet tələbələrinin həyatında stress mühüm yer tutur. Xüsusilə universitetə yeni başlayan bakalavr tələbələri üçün universitet həyatı bir çox yeni akademik, şəxsi və sosial təcrübələri yaşadıqları mühüm bir inkişaf dövrüdür. [6] Bu prosesdə tələbələr universitetin yeni akademik və sosial mühitinə uyğunlaşmaq, akademik gözlənti və tələbləri qarşılamaq, əldə etdikləri sosial azadlıqlar çərçivəsində müstəqil olmaq, öz cins və əks cinslə qurduqları münasibətlərini sorğulama kimi bir çox problemin öhdəsindən gəlməli olurlar. [7] Yeni mühitə uyğunlaşmağa, yeni dostlar qazanmağa, ailələrindən ayrı yaşamağa alışmağa çalışırlar. Digər tərəfdən, məzuniyyət mərhələsinə çatan tələbələr karyera planlaşdırma işlərini edərkən müəyyən stress səviyyəsi ilə üzləşirlər. Universitet tələbələrinin yaşadığı stress bəzən tələbənin şəxsiyyət tipindən və həyata baxışından asılı olaraq bəzi neqativ halların yaranmasına səbəb olur. Bəzi hallarda stress insanı təhrik edir və həmin işin öhdəsindən layiqincə gələndə fərdin uğur qazanmasına səbəb olur. Stresin fərdin üzərindəki təsirə görə aşağıdakı növləri mövcuddur:

- Eustress - adətən qısamüddətli və idarə oluna bilən stress növüdür. İnsanı təhrik edən stress növüdür.
- Distress - mənfi stress hesab olunur və sağlıq problemlərinə, zəif performansa və həyat keyfiyyətinin azalmasına səbəb ola bilir. Adətən uzun müddət davam edən və idarə edilməsi çətin olan bir stress növüdür.[9]

Stress anlayışı ilə bağlı bir çox araşdırmalar var. İnsan həyatına bir çox fərqli aspektdən təsir edən stressin ölçülməsi və bu ölçmə üçün istifadə edilə bilən vasitələrin hazırlanması da olduqca vacib bir araşdırma mövzusudur. Stressi ölçən bir çox şkala mövcuddur. Cohen, Kamarc və Mermelstein (1983) tərəfindən hazırlanmış Qavranılan Stress Şkalası isə ən çox istifadə edilən alətlərdən biridir.[5] Stressin ölçülməsi ölkəmizdə həyata keçiriləcək elmi tədqiqat və tətbiqi fəaliyyətlər üçün də olduqca vacibdir. Bu tələbi nəzərə alaraq, Qavranılan Stress Şkalasının azərbaycan dilinə uyğunlaşdırılması ilə validlik və etibarlılıq kimi psixometrik xüsusiyyətlərinin araşdırılması məqsədəuyğundur.

## METODLAR

### İştirakçılar

Araştırmanın populyasiyası Bakı şəhərində yerləşən universitetlərdə bakalavr və magistr təhsili alan tələbələr arasından təsadüfi yolla seçilmişdir. Tədqiqatda könüllü şəkildə iştirak edənlər 39 (26.2%) kişi, 110 (73.8%) isə qadın olmaqla toplamda 149 tələbə olmuşdur. Tələbələrin yaşlarının ortalaması M=21 (2.93) dir.

### İstifadə edilən alətlər

Tədqiqatda məlumatları toplamaq üçün ilk öncə məlumatlı razılıq, tədqiqatçı tərəfindən hazırlanan demoqrafik anket, tələbələrin yaşadıqları stress səviyyəsini ölçmək üçün Qavranılan Stress şkalasından (Percieved Stres Scale) istifadə edilmişdir.

Demoqrafik anketdə tədqiqatda iştirak edən iştirakçıların cinsi, yaşı, ailə vəziyyəti, təhsil vəziyyəti, onların yaşadıqları yer (kənd - şəhər) kimi demoqrafik xüsusiyyətləri və psixoloji sağlamlıq vəziyyəti (məsələn, əvvəllər psixiatrik xəstəlik diaqnozu olub-olmamaları və hazırda davam edən psixoloji müalicənin olub-olmaması) ilə bağlı məlumatları toplamaq məqsədi ilə müxtəlif suallar təqdim olunmuşdur.

Qavranılan Stress Şkalası (QSŞ-10) ilk olaraq Cohen (1983) və digərləri tərəfindən hazırlanmış 12 və yuxarı yaşda olan gənclər və böyüklər arasında stress səviyyələrini qiymətləndirmək üçün geniş istifadə olunan bir alətdir. Bu şkaladakı maddələr 1 = “heç vaxt” - 5 = “çox tez-tez” arasında dəyişən 5 ballıq likert tipli şkala ilə qiymətləndirilir. QSŞ-dakı suallar son bir ay ərzində respondentin hiss və düşüncələrini təhlil etməyə yönəlmişdir. Bu alət bir insanın keçən bir ay ərzində həyatını nə dərəcədə gözlənilməz, idarəolunmaz və həddindən artıq yüklənmiş kimi qəbul etdiyini qiymətləndirir. Test 10 sualdan ibarətdir, tamamlanması 5-10 dəqiqə çəkir. Fərdi və ya qruplara tətbiq üçün uyğundur. QSŞ-nın balı bütün maddələr üzrə cəmlənərək əldə edilir. Minimum bal 10, maksimum bal isə 50 ola bilər. Əgər bal yüksək olarsa, qəbul edilən stressin yüksək səviyyədə olduğunu göstərir.

### Məlumatların analitik təhlili

Bu tədqiqatda əldə edilən məlumatların təhlili üçün IBM SPSS for Windows 24. Versiya və JAMOVİ proqramlarından istifadə edilmişdir. İlkin təhlil prosesində nümunə qrupunu əhatəli təsvir etmək üçün təsviri statistik təhlillər aparıldı. İstifadə edilən şkalaların ümumi və alt şkalalarının minimum və maksimum dəyərləri, ortalaması, standart sapma və Cronbach Alpha, McDonald's ω dəyərləri hesablandı. Daha sonra təsdiqedici faktor analizi də edildi. Əldə edilən nəticələr 95% güvən intervalında və 5% əhəmiyyətlilik səviyyəsində qiymətləndirilmişdir.

## Nəticələrin analizi

### Dəyişənlərlə bağlı edilən təsviri analizlər

İlk olaraq Qavranılan Stress Ölçüsü (QSŞ-10) şkalası 2 mərhələli tərcümə prosesini keçmiş, daha sonra şkalanın validizasiya prosesi edilmişdir. Şkalanı təşkil edən 10 sual və yekun olaraq əldə edilən nəticənin statistik təhlili aparılmışdır. Cədvəl 1 də göründüyü kimi ortalama, standart sapma, minimum və maksimum, basıqlıq və çarpıqlıq dəyərlərinə baxılmışdır. Normal paylanmanı yoxlamaq üçün əlavə olaraq Shapiro-Wilk dəyərinə də nəzər yetirilmişdir.

Normal paylanma üçün Shapiro-Wilk dəyəri $p<0.05$ səviyyədə əhəmiyyətlidirsə, fərziyyə rədd edilir və paylanmanın normal olmadığı aydın olur. Əldə edilən nəticələrin təhlilinə baxdıqda isə $p=0.001$ yəni $p<0.05$ olduğu üçün Basıqlıq  və çarpıqlıq dəyərlərinin -2 və +2 dən daha yüksək göstəriciyə sahib olması normal paylanmanın olmadığını bir daha sübut edir.

**Cədvəl 1.** Dəyişənlərin təsviri təhlili

| | **Mean** | **SD** | **Min** | **Max** | **Skewness** | **SE** | **Kurtosis** | **SE** | **W** | **p** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **PSS1** | 2.42 | 1.146 | 0 | 4 | -0.3516 | 0.199 | -0.4700 | 0.395 | 0.898 | < .001 |
| **PSS2** | 2.36 | 1.163 | 0 | 4 | -0.2582 | 0.199 | -0.6417 | 0.395 | 0.905 | < .001 |
| **PSS3** | 2.89 | 0.909 | 0 | 4 | -0.6057 | 0.199 | 0.4323 | 0.395 | 0.850 | < .001 |
| **PSS4** | 1.67 | 1.177 | 0 | 4 | 0.3130 | 0.199 | -0.5350 | 0.395 | 0.899 | < .001 |
| **PSS5** | 1.97 | 1.074 | 0 | 4 | 0.1999 | 0.199 | -0.2379 | 0.395 | 0.894 | < .001 |
| **PSS6** | 1.93 | 1.137 | 0 | 4 | 0.0213 | 0.199 | -0.5523 | 0.395 | 0.910 | < .001 |
| **PSS7** | 1.79 | 1.017 | 0 | 4 | 0.2091 | 0.199 | -0.0585 | 0.395 | 0.895 | < .001 |
| **PSS8** | 2.46 | 1.211 | 0 | 4 | -0.4523 | 0.199 | -0.6901 | 0.395 | 0.894 | < .001 |
| **PSS9** | 2.56 | 1.074 | 0 | 4 | -0.5161 | 0.199 | -0.1193 | 0.395 | 0.888 | < .001 |
| **PSS10** | 2.46 | 1.244 | 0 | 4 | -0.4970 | 0.199 | -0.6443 | 0.395 | 0.887 | < .001 |
| **PSS_Total** | 22.50 | 6.666 | 2.00 | 36.0 | -0.4418 | 0.199 | -0.1498 | 0.395 | 0.978 | 0.018 |

### Etibarlılıq və validlik analizi

Digər mərhələdə JAMOVİ programında istifadə edərək həm şkalanın həm də şkalanı təşkil edən sualların ayrı-ayrılıqda etibarlılıq analizi aparılmışdır. Analizdən də aydın olur ki, etibarlılıq analizini aparmaq üçün iki dəyərə baxılmışdır -  Cronbach's α və McDonald's ω (Cədvəl 2).

**Cədvəl 2.** PSS10 şkalasının etibarlılıq analizi

| | | |
|---|---|---|
| | **Cronbach's α** | **McDonald's ω** |
| **scale** | 0.798 | 0.807 |

| | If item dropped | | | |
|---|---|---|---|---|
| | **Mean** | **SD** | **Cronbach's α** | **McDonald's ω** |
| **PSS1** | 2.42 | 1.146 | 0.780 | 0.790 |
| **PSS2** | 2.36 | 1.163 | 0.769 | 0.781 |
| **PSS3** | 2.89 | 0.909 | 0.770 | 0.777 |
| **PSS4** | 1.67 | 1.177 | 0.796 | 0.805 |
| **PSS5** | 1.97 | 1.074 | 0.778 | 0.790 |
| **PSS6** | 1.93 | 1.137 | 0.812 | 0.818 |
| **PSS7** | 1.79 | 1.017 | 0.799 | 0.809 |
| **PSS8** | 2.46 | 1.211 | 0.753 | 0.766 |
| **PSS9** | 2.56 | 1.074 | 0.777 | 0.787 |
| **PSS10** | 2.46 | 1.244 | 0.762 | 0.774 |

Fərqli nəzəriyyələrin təhlilindən də məlumdur ki, Cronbach's α dəyəri ≥ 0.7, McDonald's ω dəyəri isə bütün ölçmələrdə ya α-a bərabər və ya ondan böyük olur. Bu halda biz şkalanın "struktur etibarlılığı" (construct reliability) da analiz etmiş oluruq. Nəticədə bütün göstəricilər ≥ 0.7 olduğu üçün şkalanın etibarlılığı təsdiqlənmiş qəbul edilir.

**Təsdiqləyici faktor analizi**

Doğrulayıcı faktor təhlilindən yaradılmış faktorların və onların maddələrlə əlaqəsinin nəzəri çərçivəni nə dərəcədə əks etdirdiyini aşkar etmək üçün istifadə olunur. Jamovi istifadəçiyə ədəbiyyatda ən çox bildirilən model uyğunluq (model fit) indeksləri olan Chisquare (Chi-square) testini, CFI, TLI və RMSEA dəyərlərini avtomatik təqdim edir. Alternativ olaraq, Ki-kvadrat dəyərinin sərbəstlik dərəcələrinə (df) bölünməsi ilə əldə edilən dəyərin 3-dən az olması gözlənilməlidir.

**Cədvəl 3.** PSS10 şkalasının etibarlılıq analizi

| | | | | RMSEA 90% CI | |
|---|---|---|---|---|---|
| **CFI** | **TLI** | **SRMR** | **RMSEA** | **Lower** | **Upper** |
| **0.852** | 0.810 | 0.0710 | 0.103 | 0.0766 | 0.129 |

| χ² | df | p |
|---|---|---|
| **89.8** | 35 | < .001 |

| Factor | Indicator | Estimate | SE | Z | p |
|---|---|---|---|---|---|
| **Factor 1** | PSS1 | 0.644 | 0.0937 | 6.87 | < .001 |
| | PSS2 | 0.733 | 0.0924 | 7.93 | < .001 |
| | PSS3 | 0.609 | 0.0713 | 8.54 | < .001 |
| | PSS4 | 0.425 | 0.1019 | 4.17 | < .001 |
| | PSS5 | 0.552 | 0.0890 | 6.20 | < .001 |
| | PSS6 | 0.289 | 0.0996 | 2.90 | 0.004 |
| | PSS7 | 0.334 | 0.0885 | 3.77 | < .001 |
| | PSS8 | 0.911 | 0.0913 | 9.98 | < .001 |
| | PSS9 | 0.644 | 0.0862 | 7.47 | < .001 |
| | PSS10 | 0.849 | 0.0965 | 8.80 | < .001 |

Mövcud məlumatlar üçün Ki-kvadrat/sd =89.8/35=2.5 kimi hesablanır. Bundan əlavə, CFI və TLI dəyərlərinin .90 ətrafında, RMSEA dəyərlərinin isə 0.1-ə yaxın olduğu müəyyən edilmişdir (cədvəl 3). Müxtəlif mənbələrdən götürülmüş istinad dəyərləri araşdırıldıqda müəyyən edilmiş uyğunluq indekslərinin məqbul səviyyədə olduğu müəyyən edilmişdir.

**Müzakirə**

Şkalanın dil etibarlılığı təmin edildikdən sonra şkalanın və şkalanı təşkil edən sualların ayrı-ayrılıqda etibarlılıq analizi aparılmışdır. Analizdə şkalanın "struktur etibarlılığı" (construct reliability) Cronbach's α və McDonald's ω dəyərlərinə baxılmışdır. Fərqli nəzəriyyələrin təhlilindən də məlumdur ki, Cronbach's α və McDonald's ω dəyəri ≥ 0.7 məqbul hesab olunur. Nəticədə α dəyəri 0.79, ω dəyəri 0.80 olduğu üçün şkalanın etibarlılığı təsdiqlənmiş qəbul edilir. Cohen və Willamson (1988) şkalanın alfa əmsalının 0,78 olduğunu müəyyən etmişdilər.

Şkalanın türk dilinə uyğunlaşdırılması Eskin, Harlak, Demirkıran və Dereboy (2013) tərəfindən həyata keçirilmişdir. Eskin və başqalarının (2013) araşdırmasında şkalanın Cronbach alfa daxili tutarlılıq əmsalı .84, test-təkrar test etibarlılığı isə .87 olaraq tapılmışdır. Ədəbiyyatda qeyd edilir ki, 0,80 etibarlılıq yaxşı işlənmiş ölçmə aləti üçün məqbul əmsal hesab olunur. Yeni hazırlanmış alət üçün 0,70 etibarlılıq göstəricisi məqbul hesab olunur (Burns and Grove 1993). [10]

Şkalanın təsdiqləyici faktor analizi zamanı əldə edilən göstəricilərdən Ki-kvadrat 2.5, CFI və TLI dəyərlərinin .90 ətrafında, RMSEA dəyərlərinin isə 0.1-

ə yaxın olduğu müəyyən edilmişdir. Müxtəlif mənbələrdən götürülmüş istinad dəyərləri araşdırıldıqda müəyyən edilmiş uyğunluq indekslərinin məqbul səviyyədə olduğu müəyyən edilmişdir.

**Nəticə**

Bu tədqiqatın nəticələri göstərir ki, Qavranılan Stress Şkalasının elementləri kifayət qədər daxili tutarlığa və struktur etibarlılığına malikdir. Tədqiqatın nəticələrini nəzərə alaraq, QSŞ-nin qısa formasının insanların həyatlarında qavranılan stresi ölçmək üçün etibarlı bir ölçmə vasitəsi kimi istifadə edilə bilər.

ƏDƏBİYYAT


1. Ardıç, a. (2009). Öğrencilerde Strese Neden Olan Etkenler Ve Başa Çıkma davranışları, T.C. Millî Eğitim Bakanlığı, Eğitimi Araştırma Ve Geliştirme Dairesi Başkanlığı, Ankara.
2. Bilimler, K. I.-a. B. U. H. S., & 2019, undefined. (2009). Stres, ruh sağliği ve stres yönetimi: güncel bir gözden geçirme. Dergipark.org.tr, 20–37. Https://dergipark.org.tr/en/pub/abuhsbd/issue/47888/761264
3. Brumariu, L. E. (2015). Parent-child attachment and emotion regulation. *New directions for child and adolescent development*, *2015*(148), 31–45. Https://doi.org/10.1002/cad.20098
4. Chiarelli, C. (2022). Leading difficult conversations series #4: communication styles under stress. Edıs, 2021(6). Https://doi.org/10.32473/edis-wc404-2021
5. Cohen, S., Kamarck, T. and Melmerstein, R. (1983). A global measure of perceived stress. Journal of health and social behavior, 24, 385-396.
6. Kaba,İ. (2019). Stres, ruh sağliği ve stres yönetimi: güncel bir gözden geçirme. *Akademik bakış uluslararası hakemli sosyal bilimler dergisi*, *73*, 63–81. Https://dergipark.org.tr/en/pub/abuhsbd/issue/47888/761264
7. Kheirkhah, M., Shayegan, F., Haghani, H., & Jafar Jalal, e. (2018). The relationship between job stress, personality traits and the emotional ıntelligence of midwives working in health centers of lorestan university of medical sciences in 2017. Journal of medicine and life, 11(4), 365–370. Https://doi.org/10.25122/jml-2018-0022
8. Nappo, N. (2020). Job stress and interpersonal relationships cross country evidence from the eu15: a correlation analysis. *Bmc public health*, *20*(1). Https://doi.org/10.1186/s12889-020-09253-9
9. Shafiyeva, E., Mustafayev, M., Kazimova, K., Valiyeva, Y., & Nasirova, N. (2020). The Factors Creating Stress In Students And The Ways Of Eradicating THEM.*Práxis.Educacional*,*16*(38),365.https://doi.org/10.22481/PRAXISEDU.V16I38.6014

10. Sağlık Bilimleri Ve Araştırmaları Dergisi Türkiye Sağlık Bilimleri Ve Araştırmaları Dergisi, T., Üniversitesi, K., Meslek Yüksekokulu, T., Yıldırım Beyazıt Üniversitesi, A., Bilimleri Fakültesi Sorumlu Yazar, S., Özel, Y., & Bay Karabulut, A. (2018). Günlük Yaşam Ve Stres Yönetimi. *Türkiye Sağlık Bilimleri Ve Araştırmaları Dergisi*, *1*(1), 48–56. Https://dergipark.org.tr/en/pub/tusbad/issue/38852/427943

**Leyla MƏMİŞOVA**
***Azərbaycan Tibb Universitetinin***
***"Psixiatriya" kafedrasının magistrantı***
**E-mail: leilamamishova@gmail.com**

## AUTİZM SPEKTR POZUNTUSU OLAN UŞAQLARIN VALİDEYNLƏRİNİN QARŞILAŞDIQLARI ÇƏTİNLİKLƏR

### XÜLASƏ

Autizm Spektr Pozuntusu (ASP) məhdud maraq və təkrarlanan davranışlarla müşayiət olunan, əlamətləri uşaqlıqdan özünü göstərən, təsiri həyat boyu davam edən və eyni zamanda insanların sosial qarşılıqlı əlaqə ilə ünsiyyət sferalarına təsir göstərdiyi bir pozuntudur. ASP-in statistikasına nəzər yetirdikdə bu statistik göstəricilərin hər il artdığını görürük. ASP diaqnozu qoyulan uşaqlar öz həyatlarında müxtəlif problemlərlə qarşılaşırlar. Biz bu məqalədə valideynlərin öz həyatlarında qarşılaşdığı problemlər və onlarda müşahidə olunan patologiyalar mövzusuna toxunacağıq.

Autizm Spektr Pozuntusu diaqnozu qoyulan uşaqların valideynlərinin yaşadığı problemlərə psixoloji problemlər, maddi problemlər və sosial problemləri aid edə bilərik. Belə vəziyyətin öhdəsindən gəlmək əksər ailələr üçün çətin olur.

*Açar sözlər:* autizm spektr pozuntusu, psixoloji problem, maddi çətinliklər, təşviş, depressiya, stress

Autizm spektri pozuntusu olan uşaqların valideynləri həm evdə, həm də cəmiyyətdə müxtəlif problemlərlə üzləşirlər.

Ailələr çox vaxt övladlarına necə yanaşmaq lazım olduğunu bilmədiklərindən stress yaşayırlar. Tədqiqatlar göstərir ki, sosial mühiti ilə müsbət münasibət quran ailələrin ailə möhkəmliyi yüksək səviyyədədir.

ASP olmayan uşaqların valideynləri ilə müqayisədə, onlar psixi sağlamlıq baxımından daha çox risk altındadırlar. Eyni zamanda daha çox fiziki

problemlər və maliyyə təzyiqi altındadırlar. Bu valideynlərin boşanma riski də daha yüksəkdir.

ASP olan uşaqlara qayğının normal uşaqlarla müqayisədə ağır və çətin olması, qayğı prosesində əlavə səy göstərməyin zəruriliyi ailələr üçün bir çox cəhətdən çətinliklər yarada bilər.

Uşağa autizm spektr pozuntusu diaqnozunun qoyulması həm özünün, həm də ailəsinin həyatına mənfi təsir göstərir. Ailələrin övladlarına diaqnoz qoyulduğu zaman qarşılaşdıqları problemlər övladlarının təhsilinə və müalicəsinə diqqət yetirməsinə mane ola bilər.

Valideynlər uşaqlarına ASP diaqnozu qoyulduqda, digər xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynlərinə nisbətən 2 dəfə daha çox narahat olurlar. Uşaqları ilə necə davranacaqlarını, nə edəcəklərini və ya uşağın ailə həyatına necə təsir edəcəyini bilməməkdən narahat olurlar. Ümumiyyətlə, autizmli uşaqların ailə həyatına uyğunlaşdırılmasında müəyyən çətinliklər olur. Bütün bu narahatlıqların kökündə ailələrin bilinməyənə qarşı qorxusu dayanır. [4, s.34]

Bilal və Dağın, Küçükərin sözlərinə görə, qorxu ilə yanaşı, ailələrin autizm haqqında məlumatsızlığı, xüsusi qayğıya ehtiyacı olan uşaqların iştirakı ilə maddi çətinliklərin artması, həyat yoldaşları arasında gərginlik, sosial fəaliyyətin məhdudlaşdırılması, cəmiyyətin autizmli uşaqlara qarşı münasibəti də ailələrin psixoloji problemlərinin artmasına səbəb olur. [2, s.72]

Diaqnozun qoyulması ilə ailə həyatında bəzi dəyişikliklər baş verir. Övladına qoyulan diaqnozdan psixoloji sarsıntı keçirən ailənin vəziyyəti qəbul etməsi xeyli vaxt alır. Uşaqlarının diaqnozu ilə ailələr ailə üçün iqtisadi cəhətdən çətin olan uzun bir səyahətə başlayırlar. Bu uşaqların həyatları boyu xüsusi ehtiyacları, özünə qulluq və təhsil alması ailənin maddi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Maddi çətinliklər ailə münasibətlərinin pisləşməsinə səbəb ola bilər. [10, s.5]

Uşağın vəziyyətindən irəli gələn davranış pozuntuları, ömür boyu gündəlik qayğıya ehtiyacı, təhsil problemləri, cəmiyyətin ASP olan fərdlərə qarşı mənfi münasibəti ailənin stress səviyyəsini artıran amillərdir. [11, s.190]

Ailənin övladlarına diaqnoz qoyulmasına baxmayaraq, vəziyyəti qəbul etməməsi ilə bu çətinliklər daha da artır. Ailələrin bu problemlərlə tək qalması onların həyatına yenicə qədəm qoyan bu xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsilinə və müalicəsinə diqqət yetirmələrinə mane olur. Bu, müalicə və təhsilin erkən başlaması ilə yaxşılaşa və ya yüngülləşə bilən bu uşaqların onsuz da əllərində olan bir neçə şansdan birini almasına səbəb olur. Bu səbəblə, uşaqlarına ASP diaqnozu qoyulduğu andan ailələrin həyatlarında qarşılaşdıqları problemləri müəyyən etmək vacibdir.

Ədəbiyyatda autizmli valideynlərin həyatlarında qarşılaşdıqları problemləri araşdıran çox az araşdırma var. Autizmli uşaqlı ailələrin problemlərini və gözləntilərini öz sözləri ilə ortaya qoymaq, autizmli uşaqlar üçün təşkil edilən təhsil proqramlarının və ailələrə göstərilən xidmətlərin keyfiyyət və kəmiyyətinin artırılması tədqiqatın əhəmiyyətini artırır.

Bu prosesdə ailələr bir sıra problem və çətinliklərlə üzləşirlər. [1, s.212]

Bu ailələrin üzləşdiyi problemləri 4 kateqoriyaya ayrılıb:

a. Ətraf mühitlə ailə münasibətlərinin azalması,

b. Ailə münasibətlərinin pisləşməsi,

c. Maddi problemlər

d. Psixoloji problemlər

Autizm, ailələrin müxtəlif yollarla maddi çətinliklərlə üzləşməsinə səbəb olan inkişaf pozuntusudur. Autizm diaqnozu ilə uşaq ailə üzvlərini həyatının sonuna qədər maddi cəhətdən məcbur edən uzun bir səyahətə başlayır.

Autizm spektri pozuntusu olan uşaqların valideynlərində müxtəlif psixoloji problemlər müşahidə oluna bilər. Bu psixi problemlərdən biri də şəxsiyyətlərarası həssaslıqdır.

Məlumdur ki, ASP olan uşaqların valideynləri normal inkişaf edən uşaqların valideynlərinə nisbətən daha çox stress, narahatlıq və depressiyaya məruz qalırlar. [6, s.151] Valideynlərin və ailə funksionallığının problemlərinin uşaqların idrak, davranış və sosial inkişafına müxtəlif yollarla təsir etdiyi müşahidə edilir. Autizmli uşaqları olan valideynlərin məruz qaldığı stress, narahatlıq və depressiya kimi psixoloji problemlərin bir çox səbəbi var.

Valideynlərin stressini artıran övladlarının intellektual qabiliyyətlərinin aşağı olması, sosial qarşılıqlı əlaqə problemlərinə görə övladlarından sevgi ala bilməmələri, problemli davranışlar sərgiləmələri, bu davranışların cəmiyyət tərəfindən zəiflik kimi qəbul edilməsi, sosial dəstəyin aşağı olması və s. kimi faktorlardır.

Autizmli uşaqların ailələrində valideyn stressi ilə əlaqəli digər vacib amillərə şəxsi nəzarətin itirilməsi hissi, həmyaşıd dəstəyi, qeyri-rəsmi və peşəkar dəstəyin olmaması daxildir. Autizmli uşaqların ailə üzvləri ümumiyyətlə depressiya, sosial təcrid və nikahda nifaq riski yüksək olan mənfi psixoloji təsirlərə malikdirlər. Bir çox valideynlər də çarəsizlik, qeyri-adekvatlıq, qəzəb, şok və günahkarlıq hissləri yaşayır, eyni zamanda onlar qəbuledilməzlik, dərin kədər və depressiya yaşayırlar. [12, s.67]

Araşdırmalara görə, analarda stress, narahatlıq və depressiya səviyyələri atalara nisbətən əhəmiyyətli dərəcədə yüksəkdir. Uşağın əlilliyi diaqnozu qoyulduqda depressiya tez-tez yüksəlir, lakin zaman keçdikcə əhəmiyyətli dərəcədə azala bilər.

Xroniki kədər və uğursuzluq hissləri autizmli uşaqların valideynləri tərəfindən tez-tez bildirilən emosional vəziyyətlərdir. [13, s.5]

Uşağın valideynlərində psixi sağlamlıq problemlərinin nisbəti həm uşağın doğulmasından əvvəl, həm də doğuşdan sonra artır.

Ümumi əhali arasında aparılan araşdırmalar göstərdi ki, valideynlik stressi və onların valideynlərində psixi sağlamlıq problemləri bir-biri ilə əlaqəli, lakin fərqləndirilə bilən hadisələrdir və hər biri digərinə qarşı həssaslığı artırır. Məsələn, pis psixi sağlamlığa meyllilik valideynlik tələblərinin öhdəsindən gəlmək qabiliyyətini poza bilər. Eyni şəkildə, güclü valideynlik çətinlikləri

psixopatologiyanın inkişafına səbəb ola bilər. Xüsusilə ASP olan uşaqların valideynlərində bu proseslərin hər ikisinin iş başında olması ağlabatandır. Həm ASP olan uşaqlarda, həm də onların valideynlərində psixopatologiyanın yüksək nisbətlərini və hər birinin digərini daha da gücləndirmə potensialını nəzərə alaraq, bu ailələrdə onların münasibətlərinin araşdırılması vacibdir.

Autizm spektr pozuntusu olan uşaqların valideynlərində stress, depressiya və narahatlıqda artım müşahidə edilmişdir ki, bu da ASP ilə əlaqəli uşaq davranış problemləri ilə əlaqələndirilir.

Həqiqətən, autizmli uşaqların valideynlərində əsas depressiv pozuntunun ömür boyu yayılması Daun sindromlu uşaqların valideynlərinə nisbətən daha yüksək ola bilər. ASP olan yeniyetmələrin anaları da həddindən artıq narahatlıq yaşadıqlarını bildirirlər.

Başqa bir araşdırma, ASP olan yeniyetmələrin valideynlərinin təxminən yarısının ciddi narahat olduğunu və təxminən üçdə ikisinin klinik depressiyaya düşdüyünü aşkar etdi.

İnkişaf qüsuru olan uşaqların valideynlərində stressin miqdarı onların depressiya əlamətlərinin artması və psixoloji rifahının azalması ilə güclü şəkildə əlaqələndirilir. Məlum olub ki, ananın depressiya əlamətləri pozuntunun şiddəti deyil, əsasən uşağın davranış problemləri ilə əlaqədardır; əlavə olaraq, uşağın prososial davranışının olmaması ananın stressinə səbəb olur. Digər tədqiqatlar göstərir ki, ASP olan gənclərdə davranış problemləri ananın narahatlığını və stressini, həmçinin ananın əhval-ruhiyyə pozuntularını və depressiyanı proqnozlaşdırır.

Xüsusilə uşağın autizmli olduğunu öyrənmək, valideynlərin sağlam görünən övladının ünsiyyətdə məhdudiyyətlər olduğunu başa düşmələri, introvert övladının sosial inkişafda qeyri-adekvat olduğunu müşahidə etmələri və qeyri-adekvat davranışlarına şahidlik etmələri valideynlər üçün ağır stress və depressiya mənbəyi ola bilər.

Normal inkişaf edən övladın olması belə ailələrdə müxtəlif səviyyələrdə stress yaratsa da, ailələrin uyğunlaşma prosesinə təsir etsə də, məhdudiyyətli övladın olması istər-istəməz ailələrin yaşadığı stress səviyyəsini artırır. Digər tərəfdən, xəyal qırıqlığının səbəb olduğu günahkarlıq və narahatlıq hissi ilə yanaşı, ailələrdə depressiyaya səbəb olan mənfi təsirlər də görülə bilər.

Autizm Spektr Pozuntusu diaqnozu qoyulmuş uşaqların valideynlərinin yaşadığı ən mühüm psixi problemlərdən biri depressiyadır. Valideynlər bu çətin vəziyyət qarşısında stress yaşasalar da, gündəlik həyatın tələblərini yerinə yetirməkdə çətinlik çəkirlər, şəxslərarası münasibətlərdə, xüsusilə evlilik və emosional münasibətlərdə gərgin ola bilirlər. Bu travmatik vəziyyətə uyğun olmayan reaksiyalar və ailədə günahkarlıq hissi valideynləri depressiyaya sürükləyir, eyni zamanda uşağın baxımı üçün əlavə vaxta, pula və enerjiyə ehtiyac valideynlərin stress yaşamasına səbəb olur.

Başqa bir sıx psixi problem təşvişdir. Autizm spektri pozuntusu olan uşağı olan valideynlərin təşviş səviyyəsi ilə bağlı aparılan araşdırmada, autizm spektr

pozuntusu olan uşağı olan valideynlər və autizm spektri pozuntusu olmayan valideynlər təşviş səviyyələri baxımından müqayisə edilib. Araşdırma nəticəsində autizm spektr pozuntusu olan uşağı olan valideynlərin təşviş səviyyələrinin autizmli uşağı olmayan valideynlərin təşviş səviyyələrindən daha yüksək olduğu qənaətinə gəlinib. Bundan əlavə, araşdırmada autizm spektri pozuntusu olan uşaqları olan anaların təşviş səviyyələrinin zamanla artdığı təklif edilmişdir.

Autizm spektr pozuntusu olan uşaqların valideynlərinin bu prosesdə bəzi iqtisadi, emosional və psixoloji problemlər yaşadığını da nəzərdən qaçırmaq olmaz. Valideynlərin bu mərhələdə ən böyük qorxularından biri də valideyn öldükdən və ya oxşar problemlə üzləşdikdən sonra onların himayəsində olan övladlarının həyatlarını necə davam etdirəcəyi ilə bağlı qorxudur. Uşağın gələcəyi ilə bağlı qorxu böyük bir emosional yük yaradır və valideynin psixiatrik problemlərlə üzləşməsinə yol açır. Uşağın yetkinlik yaşına çatdıqda hansı problemlərlə üzləşəcəyi, hansı xidmətlərdən yararlana biləcəyi, sonrakı illərdə uşaqların funksiyalarının səviyyəsi və uşaq yetkinlik yaşına çatdıqda uşağın taleyinin necə olacağı kimi suallar ən çox narahatlıq doğuran suallardır.

Yılmaz və Karaya (2017) görə, Autizm Spektr Pozuntusu olan uşaqları böyüdən ailələr, ümumiyyətlə, Autizm Spektr Pozuntusu olmayan uşaqları böyüdən ailələrdən daha pis fəaliyyət göstərirlər. ASP-dən təsirlənən uşaq davamlı olaraq problemli davranış nümayiş etdirdikdə, ailənin fəaliyyəti daha da mənfi təsirlənir. Problemli davranışın ailə funksiyasına təsiri və ASP-in genetik yükü, ASP diaqnozu qoyulmuş uşaqların bacı-qardaşlarının psixiatrik simptomatik olma riskini artırır. Məlumdur ki, analar bacı-qardaşlar qədər Autizm Spektr Pozuntusu olan fərdlərdən də təsirlənir. Autizm olan məktəbəqədər yaşlı uşaqların anaları arasında psixiatrik pozuntuları qiymətləndirən bir araşdırmada, anaların əsasən affektiv pozuntulara sahib olduğu aşkar edilmişdir. Müəyyən edilmişdir ki, Autizm Spektr Pozuntusu olan uşaqların valideynlərində şizofreniya spektri, affektiv pozuntular, təşviş pozuntuları, şəxsiyyət və uşaqlıq psixiatrik pozuntuları daha yüksəkdir. [5, s.26-35]

Bəzi hallarda valideynlər günahkarlıq hiss edə bilərlər. Ailədə valideynlər bütün uşaqlara vaxt və diqqət ayırmağa çalışırlar. Digər tərəfdən, Autizm Spektr pozuntusu olan uşağa daha çox diqqət və qayğı göstərmək üçün vaxt verilməlidir. Bu, digər uşaqlara daha az vaxt sərf etməyə səbəb olacaqdır. Bu vəziyyətdə valideynlər digər uşaqlarla kifayət qədər vaxt keçirmədiklərinə görə pis hiss edə bilərlər. Bu, valideynlərin depressiyaya düşməsi ilə nəticələnə bilər.

Autizm spektri pozuntusu övladı olan valideynlərin həm əmək, həm də psixologiyadan daha çox əziyyət çəkməsi təbii bir vəziyyət kimi qiymətləndirilə bilər. Buna görə də, emosional stresslə mübarizə bu valideynlər üçün asan proses deyil və dəstəyə ehtiyac ola bilər. Autizm spektri pozuntusu olan uşaqların valideynlərinin sıx yaşadığı duyğular arasında aşağı əhval-ruhiyyə və sıx kədər var. Bir araşdırmada, autizm spektri pozuntusu olan uşaqları olan

valideynlərin stress səviyyələrinin normal uşaqları olan valideynlərdən daha yüksək olduğu müəyyən edilmişdir. [3, s.34]

Aparılan müxtəlif tədqiqatlarda autizmli insanların qohumları arasında müxtəlif psixiatrik pozuntular aşkar edilmişdir.

DeLong və Dwyer (1988) apardığı tədqiqatda ailə tarixçəsindən istifadə edərək, ASP olan insanların valideynlərini və qardaş-bacılarını əhatə etdi. Nəticədə bipolyar pozuntu və major depressiyanın ASP olan insanların ailələrində nəzarət qrupuna nisbətən daha yüksək olduğu aşkar edildi. [8, s.593]

Piven və başqaları (1990) öz tədqiqatlarında emosional pozuntuların autizmli şəxslərin bacı-qardaşlarında nəzarət qrupuna nisbətən daha çox olduğunu göstərmişdirlər. [14, s.177]

Eyni zamanda autizmli uşaqların ailələrində ömür boyu narahatlıq və əhval pozuntularının nəzarət qrupuna nisbətən əhəmiyyətli dərəcədə yüksək olduğu müəyyən edilmişdir.

Başqa bir araşdırmada DeLong və Nohria (1994) yüksək funksiyalı autizmli insanların qohumlarının biopolyar pozuntu və birqütblü xəstəliklərə tutulma risklərinin yüksək olduğunu bildirdilər. [9, s.441]

Smalley, McCracken və Tanguay (1995) öz araşdırmalarında autizmli insanların birinci dərəcəli qohumları arasında major depressiya, təşviş pozuntuları və maddə istifadəsinin daha çox olduğunu bildirmişlər. [15, s.19]

Bolton, Pickles, Murphy və Rutter (1998) öz tədqiqatlarında autizmli və DS-li uşaqların ailələrindən istifadə etmişdirlər. Autizmli uşaqların 99 qohumu və DS olan uşaqların 36 qohumu ilə aparılan araşdırmada ailə tarixçəsi və birbaşa müsahibə ölçmələrindən istifadə edilmişdir. Nəticələr göstərdi ki, emosional pozuntular, motor tiklər və OKP-ə daha çox autizmli uşaqların ailələrində rast gəlinir. [7, s.385]

Psixiatrik pozuntular, xüsusilə depressiya və təşviş pozuntuları, autistik uşaqların ailələrində nəzarət qrupundakı valideynlərə nisbətən daha çox rast gəlinir, lakin bəzi araşdırmalar, az sayda da olsa, bu tapıntıları dəstəkləmir.

## ƏDƏBİYYAT

1. Çengelci, B. (2009). Otizm ve Down Sendromlu Çocuğa Sahip Annelerin Kaygı, Umutsuzluk ve Tükenmişlik Duygularının Karşılaştırılması. Ege Eğitim Dergisi 2009 (10) 2, s.212

2. Köksal, G., Kabasakal, Z. (2012). Zihinsel Engelli Çocuklari Olan Ebeveynlerin Yaşamlarinda Algiladiklari Stresi Yordayan Faktörlerin Incelenmesi. Buca Eğitim Fakültesi Dergisi, 32, s. 72.

3. Top, Ü. F. (2009). Otistik Çocuğa Sahip Ailelerin Yaşadıkları Sorunlar ile Ruhsal Durumlarının Değerlendirilmesi: Niteliksel Araştırma. Çocuk Dergisi , 34-42.

4. Üstüner Top, F. (2009). Otistik çocuğa sahip ailelerin yaşadıkları sorunlar ile ruhsal durumlarının değerlendirilmesi: Niteliksel araştırma. Çocuk dergisi 9 (1), 34- 42

5. Yılmaz, S., & Kara, T. (2018). Otizm Spektrum Pozuntusu Tanılı Çocukların Kardeşlerinde Şimdiki ve Yaşam Boyu Psikiyatrik Bozuklukların Değerlendirilmesi. Bakırköy Tıp Dergisi , 26-35

6. Bitsika. V. & Sharpley. C. F. (2004). Stress, Anxiety and Depression Among Parents of Children With Autism Spectrum Disorder. Australian Journal of Guidance&Counselling, 14(2).

7. Bolton, P.F., Pickles, A., Murhpy, M., Rutter, M.: 1998 "Autism, affective and other psychiatric disorders: patterns of familial aggregation", Psychological Medicine, 28, 385-395

8. DeLong, G.R., Dwyer, J.T.: 1988 "Correlation of family history with specific autistic subgroups: Asperger's Syndrome and bipolar affective disease", Journal of Autism and Developmental Disorders, 18/4, 593-600

9. DeLong, R., Nohria, C.: 1994 "Psychiatric family history and neurological disease in autistic spectrum disorders", Developmental Medicine and Child Neurology, 36/5, 441-448

10. Gallagher, J. J., Beckman, P. & Cross, A. H. (1983). Families of handicapped children. Sources of stress and its Amelioration. Exceptional children 50 (1): 10-19

11. Gona, J. K., Newton, C. R., Rimba, K. K., Mapenzi, R., Kihara, M., Vijver, F. V. & Abubakar, A. (2016). Challenges and coping strategies of parents of children with autism on the Kenyan coast. Rural Remote Health, 16(2), s 3517.

12. Gupta, A. & Singhal, N. (2005). Psychosocial support for families of Children with Autism. Asia Pacific Disability Rehabilitation Journal, 16(2).

13. Kourkoutas, E., Langher, V., Caldin, R. & Fountoulaki, E. (2012). Experiences of parents of children with autism:Parenting, schooling, and social inclusion of autistic children. Expanding Horizons. Current research on Interpersonal Acceptance, s.5.

14. Piven, J., Gayle, J., Chase, J., Fink, B., Landa, R., Wrozek, M., Folstein, S.: 1990 "A family history study of neuropsychiatric disorders in the adult siblings of autistic individuals", Journal of the American Academy of Child and Adolescent Psychiatry, 29, 177-183

15. Smalley, S. L., McCracken, J., Tanguay, P.: 1995 "Autism, affective disorders and social phobia", American Journal of Medical Genetics, 60, 19-26

**Elmira ALİCANOVA**
***Azərbaycan Tibb Universitetinin***
***"Psixiatriya" kafedrasının magistrantı***
**E-mail: emilyaalicanova@gmail.com**

## OPİOİD ASILILIĞININ MÜALİCƏSİNDƏ METADON VƏ BUPRENORFİNİN EFFEKTİVLİYİ: HANSINI İSTİFADƏ EDƏK?

**Abstrakt.** Opioid asılılığı bütün mədəniyyətlərə təsir edən, sosial problemlər yaradan, fərdin sağlamlıq vəziyyətinə təsir edən və ölümlə nəticələnən ən böyük sağlamlıq və sosial problemlərdən biridir. Opiat asılılığının müalicəsi üçün bir çox variant var. Buprenorfin və Metadon opioid asılılığının müalicəsində istifadə edilən iki əsas və ən təsirli agentdir. Hər iki agent strukturca bir-birinə bənzəsələr də, onların istifadəsində üstünlükləri ilə yanaşı, mənfi cəhətləri də var. Bu dərmanlardan düzgün istifadə edildikdə, psixoaktiv maddə istifadəçilərinin opiatlardan istifadə etmək istəyi azalır. Metadon və Buprenorfin, opiatlardan asılılığın müalicəsi üçün daha təhlükəsiz bir seçim olaraq görülür, çünki həddindən artıq dozanın olma ehtimalı azdır. Həm Metadon, həm də Buprenorfinin, xüsusilə psixososial müdaxilələrlə birlikdə istifadə edildikdə, opioid asılılığı üçün hər hansı digər müalicə növündən daha təsirli olduğu göstərilmişdir. Bu araşdırmanın məqsədi Buprenorfin və Metadonun oxşarlıqlarını, fərqlərini və üstünlüklərini müzakirə edərək, opioid asılılığının müalicəsində hər iki dərmanın rolunu elmi şəkildə müzakirə etməkdir. Beləliklə, ekspertlərə, tədqiqatçılara və siyasətçilərə opioid asılılığının müalicəsi haqqında ümumi məlumat verməklə psixoaktiv maddə istifadəçilərinin effektiv və çox variantlı müalicə üsullarına töhfə vermək məqsədi daşıyır.

*Açar sözlər:* Opioid Asılılığı, Buprenorfin, Metadon

### 1. Giriş

Xalq arasında heroin asılılığı kimi tanınan opioid asılılığı bütün mədəniyyətlərə təsir göstərmək, sosial problemlər yaratmaq, fərdin sağlamlıq vəziyyətinə təsir edərək ölümə səbəb olmaq və beynəlxalq qaçaqmalçılıq mühiti yaratmaq baxımından dünyada ən böyük sağlamlıq və sosial problemlərdən biridir [30, s.405]. Opioidlər cəmiyyətdə bir çox rol oynayır. Bunlar sui-istifadə, asılılıq və təxribatın təhlükəli nəticələri ilə əlaqəli birləşmələrdir [28]. Tarixən, asılılıq ilə bağlı ictimai narahatlıqlar xərçəng ağrısı və kəskin ağrı kimi opioid müalicəsi üçün uyğun olduğu düşünülən pozğunluqların aradan qaldırılmasına kömək etmişdir [30, s.405]. Opiatlar morfinə bənzər təsiri olan təbii və ya sintetik yolla əldə edilən psixoaktiv maddə kimi müəyyən edilən dərmanlar sinfidir. Bunlar kodein, oksikodon, heroin, metadon və buprenorfin kimi dərmanlardır [28]. Opiatlar həmçinin kəskin, xroniki və ya cərrahi ağrının

ağrılarının idarə edilməsi üçün xəstələrə qanuni olaraq təyin edilə bilər [42, s.99]. Opioidlər ağrıları müalicə etmək üçün istifadə edilən ən təsirli dərmanlardan biridir. Onların kəskin şiddətli ağrıların və qabaqcıl tibbi xəstəliklər nəticəsində yaranan xroniki ağrıların müalicəsində istifadəsi dünyanın bir çox yerində qayğı standartı kimi qəbul edilir [30, s.407]. Bu dərmanları uzun müddət qəbul edən xəstələrdə tez-tez tolerantlıq yaranır və ya analjeziyaya nail olmaq üçün artan dozaya ehtiyac var. Bu maddələrdən istifadə edən insanlar çəkilmə simptomlarının qarşısını almaq üçün dozanı tədricən artıraraq opioid asılılığına çevrilə bilərlər [28]. Bununla belə, bəzi insanlar tibbi, hüquqi və sosial nəticələrə baxmayaraq və təyin olunanlardan başqa məqsədlər üçün qeyri-qanuni psixoaktiv maddə istifadəsi kimi təyin olunan opiatlara aludəçilik yarada bilər. Opiat asılılığında tolerantlığın inkişafı daha çox fizioloji olsa da, asılılıq ümumiyyətlə psixoloji xüsusiyyətlərlə əlaqələndirilir. Asılılıq hər kəsdə baş verə bilər. Opioid istifadəsi nəticəsində yaranan algesik və eyforik təsirlər bir çox insanlar üçün yüksək asılılıq potensialı yaradır [30, s. 407]. Xüsusilə, bu asılılıq potensialı gənclərə daha çox diqqət yetirir [42, s.100].

Qlobal miqyasda 13 milyon inyeksion psixoaktiv maddə istifadəçisinin olduğu təxmin edilir ki, onlardan 9,2 milyonu heroin istifadəçisidir [38]. Birləşmiş Millətlər Təşkilatının Narkotiklərə Nəzarət Proqramı bildirir ki, 15 yaşdan yuxarı heroindən istifadənin yayılması Fransa, Almaniya, Hollandiya, İtaliya, İspaniya və İngiltərədə 0,11%, Hindistan və Banqladeş kimi Cənub-Şərqi Asiya ölkələrində isə 0,15% təşkil edir [35]. BMT-nin Maddə və Cinayət İdarəsinin Dünya Hesabatına əsasən, son bir ildə opioid istifadəsinin yayılması Qərbi Avropa və Şimali Amerikada 0,4-0,5%, Cənub-Şərqi Asiyada isə 0,2-0,4% arasındadır [35].

Opioid sui-istifadəsi ilə əlaqəli yüksək tibbi və psixiatrik komorbidləri nəzərə alaraq, həm ilkin tibbi yardım həkimləri, həm də psixi sağlamlıq mütəxəssisləri müntəzəm olaraq resept və qeyri-qanuni opioid asılılığının nəticələri ilə üzləşirlər [13, s. 346]. Heroinin artan və artan istifadəsi ilə əlaqədar olaraq, ABŞ, İngiltərə, Fransa, Avstraliya və Kanada kimi bir çox Qərb ölkələrində hem Metadon, həm də Buprenorfin ilə heroindən detoksifikasiya və opioid baxım terapiyası cari müalicə kimi istifadə olunur [36, s. 45]. İstifadə edildikdə həm metadon, həm də buprenorfin opioid asılılığının bütün digər müalicə növlərindən daha təsirli olduğu göstərilmişdir [2]. Heroin asılılığının müalicəsində bu dərmanların təhlükəsizlik xüsusiyyətləri və zərərlərə qarşı faydaları davamlı qeyri-qanuni psixoaktiv maddə istifadəsinin müzakirə edilməsi lazımdır. Burada nəzərdən keçirilən bütün opioid əvəzedici müalicələr potensial olaraq ölümə səbəb ola bilər, lakin heroinin davamlı istifadəsi yüksək xəstələnmə ilə əlaqələndirilir. Məsələn, Caplehorn və Drummer, metadonla müalicənin bir il ərzində itirilən hər bir insan üçün iki həyatını xilas etdiyini tapdılar [36, s. 46]. Buprenorfin icazəsi 2002-ci ildə KKTC-də, Türkiyədə isə 2010-cu ildə alınıb. Türkiyədə metadon icazəsi var, lakin KKTC-də metadon icazəsi yoxdur. Xüsusilə Türkiyə və KKTC-də buprenorfinin geniş yayılmasına

baxmayaraq, daha köhnə bir dərman olmasına baxmayaraq, metadon istifadə edilməyib. Bu icmalda, Buprenorfin və Metadonun oxşarlıqlarını, fərqlərini və üstünlüklərini müzakirə edərək, opioid asılılığının müalicəsində metadonun rolunu elmi şəkildə müzakirə etmək məqsədi daşıyır.

**2. Buprenorfin və metadon**

Buprenorfin və metadonepioid asılılığın müalicəsində istifadə edilən iki əsas və ən təsirli agentdir [4, s. 239]. Böyük Britaniyada və bir çox digər Qərb ölkələrində müvafiq qurumlar tərəfindən heroindən detoksifikasiya üçün opioid terapiyası üçün həm Metadon, həm də Buprenorfin tövsiyə olunur [36, s. 47]. 2000-ci illərin ortalarına qədər Böyük Britaniyada ən çox istifadə edilən agent kodein tabletləri idi [39]. Metadon müalicəsi xüsusilə ABŞ-da ən çox istifadə edilən agent idi. Asılılığın müalicəsində uğur qazanmasına baxmayaraq, metadona asılılıqlar illər keçdikcə artdıqca digər axtarışlar da ön plana çıxdı. Metadondan sui-istifadə və asılılığın artan təhlükəsinə cavab olaraq, İngilis əczaçılıq şirkəti Reckitt Benckiser 2002-ci ildə Suboxone (Buprenorfine/Nalokson) adlı dərmanı istifadəyə verdi [2]. Buprenorfin və naloksonun birləşməsi olan bu dərman metadonun mümkün əvəzedicisi kimi reklam edilmişdir. Qismən opioidaqonist olaraq (tam agonist metadonla müqayisədə) elm adamları, Suboxone-un fərdlərə yüksək sui-istifadə potensialı olmayan metadon kimi eyni faydaları təqdim edəcəyini iddia etdilər [36, s. 47]. risk olmadan. Bu gün Metadon və Buprenorfin, Böyük Britaniya, ABŞ, Avstraliya və bəzi Qərbi Avropa ölkələrində heroin çəkilməsinin müalicəsində əsas farmakoterapiya variantıdır, eləcə də baxım terapiyasıdır [36, s. 47]. Bundan əlavə, hər iki dərman Cənub-Şərqi Asiya ölkələrində, xüsusən də Hindistanda xəstələrin diaqnoz vəziyyətinə uyğun olaraq Qərb ölkələrində oxşar müalicə üsullarında istifadə olunur. Opioid agonistləri Buprenorfin və Metadon opioid reseptorlarını bloklayan əvəzedici terapiya agentləri kimi tanınır [30, s. 407]. Metadon tam opioid agonisti, Buprenorfin isə qismən opioid agonistidir. Həm Buprenorfin, həm də Metadon delta reseptor alt tipləri vasitəsilə adenil siklaz aktivliyinə vasitəçilik edir və endorfinlər və enkefalinlər kimi endogen opioidlərin sərbəst buraxılmasına səbəb olan daxili düzəldici kalium kanallarının aktivləşməsinə səbəb olaraq fəaliyyət göstərir [36, s. 47]. Hər iki agentin fərqləri onların öz üstünlükləri və mənfi cəhətləri olmasıdır. Metadon və ya Buprenorfin ümumiyyətlə reabilitasiya proqramlarında opioid əvəzediciləri kimi istifadə olunur [36, s. 47]. Hər iki opioid agonist heroin və ya oksikodon kimi təhlükəli opioidlərin beyinə bağlanmasının qarşısını alır [2]. Onlar həmçinin eyforiya hissi yarada bilərlər, lakin onların təsiri daha azdır. Bu dərmanlar düzgün istifadə edildikdə, psixoaktiv maddə istifadəçilərinin qeyri-qanuni psixoaktiv maddələrə olan istəklərini azaldırlar [36, s. 47]. Düzgün istifadə edildikdə, reçeteli dərmanlara nisbətən daha az dozada qəbul edildiyi üçün daha təhlükəsiz bir seçim olaraq görülür.

**3. Metadon:**

Təxminən əlli ildir ki, opiat asılılığının müalicəsinin əsas vasitəsi olmuşdur. 1947-ci ildə Amerika Birləşmiş Ştatları Qida və Dərman İdarəsi (FDA) tərəfindən analjezik və öskürək əleyhinə istifadə üçün təsdiq edilmiş metadon 1960-cı illərin ortalarında opiat asılılığının müalicəsində təsirli olduğu göstərildi və 1972-ci ilin sonunda FDA tərəfindən təsdiq edildi [29]. Metadon Böyük Britaniyada, ABŞ-da, Avstraliyada və Avropanın bir hissəsində heroin asılılığını müalicə etmək üçün istifadə edilən ən çox yayılmış dərmandır [36, s. 47] .

Metadon xəstələrdə tolerantlıq inkişaf etdirmədən maddələrə ehtiras və çəkilmə simptomlarını yüngülləşdirir. Beləliklə, bu, asılı xəstənin gündəlik qəbul edə biləcəyi istifadəyə imkan verir və davamlı nəticələr əldə etmək üçün dozanı artırmağa ehtiyac yoxdur. Metadon beynin opioid reseptorlarının 70%-ni buraxır və reseptorların təxminən 30%-nə bağlanır [30, s. 408]. Metadon opioid aludəçilərinin ehtirasını azaldır, onların heroinə və ya digər təhlükəli opioidlərə yenidən keçməsinin qarşısını alır. Aşırı dozada opioid istifadəsi ilə bağlı ölümlər adətən tənəffüs depressiyası şəklində olur və əhəmiyyətli problem yaradır [36, s. 48]. Tədqiqatlar göstərdi ki, metadon aludəçiləri həddindən artıq dozaya və ya ölümə səbəb ola biləcək təhlükəli küçə psixoaktiv maddələrində azad etmək üçün effektiv üsuldur. Nəticədə, tədqiqatlar metadonun asılılığın müalicəsində vacib və təsirli bir seçim olduğunu göstərdi.

4. **Buprenorfin:**

Buprenorfin 1960-cı illərdə opioid asılılığının müalicəsində istifadə olunmağa başladı. Buprenorfin yalnız qismən agonistdir. Buprenorfin həm təmizləyici, həm də baxım müalicəsində istifadə edilə bilər [18, s. 1290]. Avropada buprenorfin opioid asılılığının müalicəsində Metadona alternativ olaraq ilkin tibbi yardım müəssisələrində geniş istifadə edilmişdir [3, s. 17]. ABŞ-da Buprenorfin və Buprenorfin-Nalokson 2002-ci ildə ABŞ Qida və Dərman İdarəsi (FDA) tərəfindən təsdiqlənmiş və opioid asılılığı üçün ofis əsaslı baxım müalicəsi təklif etmişdir [11, s. 62]. Metadon kimi, Buprenorfin və Buprenorfin/Nalokson əvəzedici müalicəsinin də xəstəxanaya yerləşdirilmə hallarının və ölüm hallarının azaldılması göstərilmişdir [5, s. 1193]. Buprenorfinin opiat antaqonisti allokson ilə birləşməsi potensial sui-istifadənin azaldılması faydaları ilə tək buprenorfinlə eyni faydaları nümayiş etdirir [22, s. 587]. Nalokson eyforik təsir yaratmadan opioid reseptoruna möhkəm bağlanır və bununla da qismən və ya tam opioid agonistlərinin psixoaktiv təsirlərini bloklayır və ya geri qaytarır. Buna görə də, dərman təyin edildiyi kimi qəbul edildikdə Buprenorfinin xüsusiyyətlərini dəyişmir [7, s. 39]. Buprenorfin mu opioid reseptorunun qismən agonisti olduğundan, reseptorları qismən aktivləşdirir. Beləliklə, buprenorfin heroin istifadə edən bir şəxsə verilirsə, mu reseptorlarına qismən bağlanması səbəbindən geri çəkilməyə səbəb olur [23, s.321].

**5. Buprenorfin və metadon oxşarlıqları:**

Buprenorfin və Metadon mu reseptoruna bağlanan iki agonistdir. Metadon və buprenorfin kimi opioid agonistləri yüksəlmə hissi versələr də, onların təsiri digər süni opioidlərdən daha azdır. Psixoaktiv maddə istifadəçilərinin heroin kimi opiatlara olan həvəsini azaltmaq üçün onlar azaldılmış dozalarda istifadə edilə bilər. Tədqiqatlar göstərdi ki, hər iki agentin əlavə opioid istifadəsinin qarşısını almaqda öz yeri var [26, s. 484]. Hər ikisi bir psixoaktiv maddə istifadəçisinin heroin kimi zərərli opioidlərdən istifadə etməsinin qarşısını almaq üçün təhlükəsiz agent hesab edilmişdir. Hər iki dərmanın effektivliyi sübut olunduğundan, bunun həddindən artıq dozada ölüm hallarını azaltmaq üçün bir üsul olduğu düşünülür. Həm Buprenorfin (24-60 saat), həm də Metadon (8-59 saat) uzun müddət fəaliyyət göstərən dərmanlardır. Metadon və buprenorfinlə müqayisədə heroin qısamüddətli opioiddir. Beləliklə, hər iki dərmanın uzun yarım ömrü onları opioid asılılığının müalicəsində təsirli edir.

**6. Buprenorfin və metadon fərqləri:**

Buprenorfinm reseptorlarında aşağı daxili aktivliyə malikdir. Bildirilir ki, buprenorfin metadon kimi tam mμaqonist kimi güclü deyil və daha az analjeziya və eyforiyaya səbəb olsa da, çəkilmə müalicəsinə sürətlə təsir edir. Qismən agonist kimi Buprenorfin "tavan effektinə" malikdir, buna görə də bir nöqtədən sonra daha çox qəbul etmək dərmanın heç bir təsirini artırmır. Bundan əlavə, Buprenorfinμ reseptoruna yüksək yaxınlığa malikdir, yəni əlavə opioid istifadəsi onun təsirini azaldır. Güclü bir kappaantaqonist olaraq, Buprenorfin Metadondan daha az eyforiyaya malikdir [20, s. 513]. Çıxarma əlamətləri daha az olsa da, həkim nəzarəti altında deyilsə, inyeksiya sui-istifadəyə açıq ola bilər [33]. Buprenorfin potensial olaraq tənəffüs depressiyasına və eyforiyaya səbəb ola bilər, lakin onun təsiri Metadonun təsirindən çox azdır. Onun metadonla müqayisədə sui-istifadə, asılılıq və yan təsir riski daha azdır [16, s. 79].

Tam bir agonist olaraq, Metadonun tavan effekti yoxdur və Buprenorfindən daha sıx çəkilmə simptomları yaradır. Digər tərəfdən, metadon ağır psixoaktiv maddə istifadəçilərində Buprenorfindən daha təsirli olur. Həddindən artıq doza qəbuluna görə Buprenorfindən daha risklidir və ağızdan maye formada olduğu üçün inyeksiya ilə sui-istifadə edilmədiyi üçün Buprenorfindən daha üstündür [12]. Bundan əlavə, Metadonun dərman xərcləri Buprenorfindən daha ucuzdur [8, s. 3].

Tədqiqatlarda, Buprenorfinin çevik dozalarının müalicə olunan xəstələrin saxlanmasında metadondan statistik cəhətdən əhəmiyyətli dərəcədə daha az təsirli olduğu aşkar edilmişdir (nisbi risk = 0,8), lakin bəzi tədqiqatlarda heroin istifadəsinin qarşısını almaqda ekvivalent olduğu aşkar edilmişdir. Bununla belə, aşağı dozalı Metadonun aşağı və ya orta dozalı Buprenorfindən daha çox xəstəni saxladığı göstərilmişdir. Orta dozalı Buprenorfinin tutma baxımından orta dozalı Metadondan üstünlüyü yoxdur və qeyri-qanuni opioid istifadəsinin qarşısının alınmasında daha az təsirli olduğu aşkar edilmişdir.

Metadonun xəstələrdə Buprenorfinin çevik doza istifadəsindən daha üstün olduğu aşkar edilmişdir [21]. 24 həftəlik çoxmərkəzli randomizə edilmiş sınaqda metadon, Buprenorfinə qarşı 46% nisbətində 74% nisbətində çevik dozalarda müalicəni uğurla başa çatdırdı. Gündə 30-32 mq Buprenorfin Nalokson istifadə edən psixoaktiv maddə istifadəçilərində baxım müalicəsində 60%, 60 mq/gün və ya daha yüksək dozalarda metadonun saxlanma müalicəsində isə 80% müvəffəqiyyət əldə edilmişdir.

**7. Nəticə:**

Buprenorfinin farmakoterapiya baxımından aşkar fayda və üstünlüklərinə baxmayaraq (məsələn, həddindən artıq dozanın riskini əhəmiyyətli dərəcədə azaldır), buprenorfin opioid asılılığının müalicəsində metadonu ötməmişdir. Bəzi psixoaktiv maddə istifadəçilərinin buprenorfin, bəzilərinin isə metadondan faydalandığı görülür. Hər ikisi aktiv olan psixoaktiv maddə istifadəçiləri var. Bunun səbəbi müxtəlif xəstə tiplərinin və xəstələrin asılılıq dərəcəsinin müalicə seçimlərinə təsir edə bilməsidir. Burada əsas məqsəd variantları artıraraq xəstənin dəyişiklik motivasiyasına töhfə verməkdir. Bu səbəbdən, müxtəlif xəstə tiplərinə görə həm Buprenorfin, həm də Metadonun istifadəsi xəstələrin müalicəsində fərqli alternativlər yarada bilər. Yüngül və orta dərəcəli psixoaktiv maddə istifadəçilərində buprenorfin, ağır psixoaktiv maddə istifadəçilərində isə metadon variantı istifadə edilə bilər. Buprenorfin metadondan daha təhlükəsiz istifadə oluna bilsə də, ağır asılılıq və şiddətli çəkilmə böhranı olan xəstələrdə metadona üstünlük verilə bilər. Bu müalicə variantlarının artırılması psixoaktiv maddə istifadəçilərinin müraciətlərini də artırır. Hər iki dərmanın həyatı xilas etdiyi görünür. Əslində, bu agentlərin fərqli güclü və zəif tərəflərinə bir-birini əvəz edən agentlər kimi baxmaq olmaz. Əksinə, hər iki agent mütəxəssisin seçimindən və xəstənin vəziyyətindən asılı olaraq müxtəlif xəstə qruplarında müalicə zənginliyi baxımından qiymətləndirilməlidir. Bu, daha çox psixoaktiv maddə istifadəçiləri üçün daha geniş müalicə imkanları yaradır. KKTC və Türkiyə kimi bəzi ölkələrdə yeganə dərman variantı olaraq Buprenorfinin istifadəsi və Metadonun istifadə edilməməsi ciddi çatışmazlıqdır. Buna görə də, bu günün elmi reallığıdır ki, hər iki agent bütün dünyada həkimlər üçün mövcuddur.

ƏDƏBİYYAT


1. AAPM, APS ve diğ. (1997). Kronik ağrının tedavisi için opioid kullanımı. Amerikan Ağrı Tıbbı Akademisi ve Amerikan Ağrı Derneği'nden bir uzlaşma açıklaması. Klinik Ağrı Dergisi. 13:6–8.
2. Amato, L. , Minozzi, S. , Davoli, M. , Vecchi, S. ,(2011). Psychosocial and pharmacological treatments versus pharmacological treatments for opioid detoxification. Cochrane Database Syst Rev. 9:CD005031.

3. Auriacombe, M. ,Fatseas, M. , Dubernet, J. , Daulouede, JP. , Tignol J. (2004). French field experience with buprenorphine. Am J Addict. 13:S17–S28.
4. Bavelloni, A. , Piazzi, M. , Raffini, M. , Faenza I. , ve Blalock, W. L. (2015). Prohibitin 2: At a communications cross roads. IUBMB Life, 67(4), 239–254.
5. Bell, J. , Trinh, L. , Butler B. , Randall, D. , Rubin G. ,(2009). Comparing retention in treatment and mortality in people after initial entry to methadone and buprenorphine treatment. Addiction. 104:1193–1200.
6. Caplehorn, JR. ,Drummer O. H. (1999). Mortality associated with New South Wales methadone programs in 1994: lives lost and saved. Med J Aust. 170:104–9.
7. Chiang, C. N. , Hawks, RL. (2003). Pharmacokinetics of the combination tablet of buprenorphine and naloxone. Drug Alcohol Depend. 70(Suppl 2):S39–S47.
8. Connock, M. , Juarez-Garcia, A. , Jowet,t S. , Frew, E. , Liu, Z. , Taylor, R. , et al. (2007). Methadone and buprenorphine for the management of opioid dependence: a systematic review and economic evaluation. Health Technol Assess. 11:1–171
9. CSAT (Madde Bağımlılığı Tedavi Merkezi) Rockville, MD: Madde Bağımlılığı ve Ruh Sağlığı Hizmetleri Yönetimi; 2004. Opioid Bağımlılığının Tedavisinde Buprenorfin Kullanımı için Klinik Kılavuz. Tedavi
10. İyileştirme (Protokol (TIP) 40 Serisi. DHHS Yayın No. (SMA) 04–3939. De, S. , Jain, R. , Ray, R. , Dhawan, A. , Varghese, S. T. (2008). Assessment of differential doses of buprenorphine for longterm pharmacotherapy among opiate dependent subjects. Indian J Physiol Pharmacol. 52:53–63.
11. Fiellin, D. A. (2007). The first three years of buprenorphine in the United States: experience to date and future directions. J Addict Med. 1:62–67.
12. Gowing, L. , Ali, R. , White, J. (2006). Buprenorphine for the management of opioid with drawal. Cochrane Database Syst Rev. :CD002025.
13. GwinMitchell, S. , Kelly, SM. , Brown BS. , et al. (2009). Uses of diverted methadone and buprenorphine by opioid-addicted individuals in Baltimore, Maryland. Am J Addict. 18:346–355.
14. Hadland,SE. , Bagley, S. M. , Rodean, J. , Silverstein, M. , Levy, S. , Larochelle, M. R. , Samet, J. H. , Zima, B. T. (2018). Opioid Kullanım Bozukluğu Olan Gençlerin Bakımında Zamanında Bağımlılık Tedavisi ve Erken İlaç Tedavisi Derneği. 1; 172 (11): 1029-1037.
15. Hickman, M. , Yön, C. , Killing, K A. G. , Marsden, J. , Millar, T. , Strang, J. , Telfer, M. , Vickerman, P. , Macleod J. (2018). Buprenorfin

ve metadonun mortalite üzerindeki etkisi: Birleşik Krallık'taki birinci basamak kohort çalışması. 113 (8): 1461-1476.
16. Hser, YI. , Saxon, AJ. ,Huang D. , Hasson, A. , Thomas, C. , Hillhouse, M. , Jacobs, P. , Teruya, C. , McLaughlin, P. , Wiest, K. , Cohen, A. , Ling, W. (2014). Treatment retention among patients randomized to buprenorphine /naloxone compared to methadone in a multi-site trial. Addiction,109(1): 79-87.
17. Huxtable, C. A. , Roberts, L. J. , Somogyi, A. A. , MacIntyre,P. E. (2011). Opioide toleranslı hastalarda akut ağrı yönetimini : Büyüyen bir zorluk. Anestezi Yoğun Bakım. 39 (5): 804-23.
18. Johnson, R. E. , Chutuape, M. A. , Gerilim, E. C. , Walsh, SL. , Stitzer, ML. , Bigelow, G. E. (2000). Opioid bağımlılığı için LAAM, Buprenorfin ve Metadonun karşılaştırılması. New England Tıp Dergisi. 343:1290-1297.
19. Johnson, R. E. , Strain, E. C. , Amass L. (2003). Buprenorphine: how to use it right. Drug Alcohol Depend. 70:S59–S77. Johnson,R. E. , Jaff, . H. , Fudala, P. J. (1992). Opioid bağımlılığı için kontrollü bir buprenorfin tedavisi denemesi. Amerikan Tabipler Birliği Dergisi. 267:2750-2755.
20. Kintz, P. (2002). A new series of 13 buprenorphine-related deaths. Clinical Biochemistry, 35: 513- 516.
21. Mattick, R. P. ,Breen, C. , Kimber,J. , Davoli, M. (2014). Buprenorphine maintenance versus placebo or methadone maintenance for opioid dependence. Cochrane Database Syst Rev 2: CD002207.
22. Mauger, S.,Fraser, R., ve Gill, K., (2014). Utilizing buprenorphine-naloxone to treat illicit and prescription-opioid dependence. Neuro psychiatric disease and treatment, 10, 587–598.
23. McCance-Katz EF., (2004). Office based treatment of opioid dependence with buprenorphine. Harvard Review of Psychiatry, 12: 321-338.
24. Papadakis, M. A., McPhee, S. J. (2014). Current Medical Diagnosis and Treatment, Mc Graw Hill: New York.
25. Öğütçü Z.,Çelikay H., Ender A. (2019). Madde Kullanım Geçmişli Bireylerin Olumsuz Otomatik Düşünceleri ve Öğrenilmiş Çaresizlik Örüntülerinin İncelenmesi. Kıbrıs Türk Psikiyatri ve Psikoloji Dergisi, 1(1), 22-30.
26. Preston, K.L., Bigelow, G., Liebson, I. (1988).Buprenorphine and naloxone alone and in combination in opioid-dependent humans. Psychopharmacology. 94:484–490.
27. Ray, R., Pal, H., Kumar, R., Maulick, P., Mangla, R. (2004).Post-marketing surveillance of buprenorphine. Pharmaco epidemiol Drug Saf. 13:6,15–9.
28. Rassool, G., (2010). Addictionfornurses. Chichester, West Sussex, UK. Wiley-Blackwell.

29. Rettig, R.A.,Yarmolinsky, A. (1995).Institute of Medicine (US) Committee on Federal Regulation of Methadone Treatment; Federal Regulation of Methadone Treatment. Washington (DC): NationalAcademiesPress (US); ExecutiveSummary. Availablefrom: https://www.ncbi.nlm.nih.gov
30. Rosenblum, A., Marsch, L.A., Joseph, H., Portenoy, R.K. (2008), Opioids and the Treatment of Chronic Pain: Controversies, Current Status, and Future Directions. Exp Clin Psychopharmacol.16(5): 405–416.
31. NDIC Metadon saptırma, kötüye kullanma ve kötüye kullanma: endişe verici oranda artan ölümler. Yayın tarihi: 16 Kasım 2007; belge numarası: 2007-Q0317-001. Erişim tarihi: 23 Temmuz 2019.
32. Roche, A., McCabe, S., Smythe, BP. (2008). Yasadışı metadon kullanımı ve gençlerde afyon bağımlılığı için tedaviye erişim. Avrupa Bağımlılığı Araştırma. 14:219-225.
33. Rothman, R.B.,Gorelick, D.A., Heishman, S.J., Eichmiller, P.R., Hill, B.H., Norbeck J., et al. (2000). Opioid bağımlılığının tedavisinde fonksiyonel bir opioid kappaantagonistinin açıketiketli bir çalışması. J Alt Suistimal Tedavi.18:277–81.
34. Sohler, N.L., Li, X., Kunins, H.V., et al. (2010). Home- versus office-based buprenorphine induction for opioid-dependent patients. J Subst Abuse Treat. 38:153–159
35. United Nations Office on Drugsand Crime. (2009). World Drug Report. 152–6.
36. Whela, P.J ve Remski, K. (2012). Buprenorphine vs methadone treatment: A review of evidence in both developed and developing worlds. Journal of neurosciences in rural practice, 3(1), 45–50.
37. Wolff, K. (2005). Madde Bağımlılığı: Değiştirme ilaçları (metadon ve buprenorfin) Oxford: Elsevier.
38. World Health Organization, Department of mental health and substance misuse. Proposal for the inclusion of buprenorphine in the WHO model list of essential medicines. WHO. 2004. [Lastaccessed:2011].
39. Wright, N.M.C., Sheard, L., Adams, C.E., Rushforth, B.J., Harrison, W., Bound, N., Hart, R., Tompkins ,C.N.E. (2011).Comparison of methadone and buprenorphine for opiate detoxification (LEEDS trial): arandomised controlled trial. British Journal of General Practice.61 (593): e772-e780.
40. World Health Organization, Department of mental health and substance misuse. Proposal for the inclusion of buprenorphine in the WHO model list of essential medicines. WHO. 2004. [Lastaccessed:2011].
41. Wright, N.M.C., Sheard, L., Adams, C.E., Rushforth, B.J., Harrison, W., Bound, N., Hart, R., Tompkins ,C.N.E. (2011).Comparison of methadone and buprenorphine for opiate detoxification (LEEDS trial): arandomised controlled trial. British Journal of General Practice.61 (593): e772-e780.

42. Yule, A. M., Lyons, R. M., ve Wilens, T. E. (2018).Opioid Use Disorders in Adolescents-Updates in Assessment and Management. Current pediatrics reports, 6(2), 99–106.

**Эффективность метадона и бупренорфина при лечении опиоидной зависимости:**

**Какой из них мы должны использовать?**

**Абстрактный.** Опиоидная зависимость является одной из самых серьезных медицинских и социальных проблем, затрагивающих все культуры, создающих социальные проблемы, влияющих на состояние здоровья людей и приводящих к смерти. Существует множество вариантов лечения опиоидной зависимости. Бупренорфин и метадон являются двумя основными и наиболее эффективными препаратами, используемыми при лечении опиоидной зависимости. Хотя оба агента структурно схожи, они имеют как преимущества, так и недостатки при использовании. При правильном применении этих наркотиков снижается желание потребителей психоактивных веществ употреблять опиаты. Метадон и бупренорфин считаются более безопасными вариантами лечения опиоидной зависимости, поскольку вероятность передозировки меньше. Было показано, что и метадон, и бупренорфин более эффективны, чем любой другой вид лечения опиоидной зависимости, особенно при использовании в сочетании с психосоциальными вмешательствами. Целью данного обзора является обсуждение сходства, различий и преимуществ бупренорфина и метадона, а также научное обсуждение роли обоих препаратов в лечении опиоидной зависимости. Таким образом, он призван способствовать эффективному и многостороннему лечению потребителей психоактивных веществ, предоставляя экспертам, исследователям и политикам общую информацию о лечении опиоидной зависимости.

*Ключевые слова:* опиоидная зависимость, бупренорфин, метадон.

**Efficacy Of Methadone and Buprenorphine İn The Treatment Of Opioid Dependence:**

**Which Should We Use?**

**Abstratct:** Opioid addiction is one of the biggest health and social problems in the world, affecting all cultures, creating social problems, and affecting the individual's health. There are multiple choice of drugs for the treatment of opiate dependence. Buprenorphine and Methadone are the two main and most effective agents in the treatment of opioid dependence. Both agents are structurally similar, but have advantages and disadvantages in their use. When these drugs are used correctly, they reduce the desire of the addicts to use opiates. Methadone and Buprenorphine are considered to be a safer option in the treatment of opiate dependence because of the low probability of overdose.

Especially when used in conjunction with psychosocial interventions, both Methadone and Buprenorphine have been shown to be more effective than any other treatment for opioid dependence. The aim of this review is to discuss the similarities, differences and superiorities of Buprenorphine and Methadone and discuss the role of both drugs in the treatment of opioid dependence scientifically. Thus, it is aimed tocontribute to effective and multi-choice treatment methods for addicts by providing general information to experts, researchers and policy makers about opioid addiction treatment.

*Keywords:* Buprenorphine, Methadone, Opioid Addiction

**Püstə KƏRİMOVA**
***Azərbaycan Tibb Universitetinin***
***"Psixiatriya" kafedrasının magistrantı***
**E-mail: pusta.karim@mail.ru**

## Natamamlıq kompleksinin özünübiruzə verməsi və yaranma səbəbləri

## XÜLASƏ

Natamamlıq kompleksi özünü sosial, iqtisadi, fiziki, mədəni və ya mənəvi cəhətdən qeyri-kafi hiss edən, bu qeyri-adekvatlığı ümumiləşdirməsi nəticəsində bu mənfi xüsusiyyətlərin heç vaxt dəyişməyəcəyinə inanan və özünü hər cəhətdən dəyərsiz hesab edən fərd kimi müəyyən edilir. Hər bir psixoloji ifadənin kökündə çatışmazlıq vəziyyəti dayanır. Bu psixoloji vəziyyət anadangəlmə qüsurlu və ya əlil olan uşaqlarda vacibdir. Eyni psixoloji vəziyyət ərköyün və inadkar uşaqlar üçün vacibdir. Bu üç tip uşaq həyatın ehtiyaclarını yerinə yetirməkdə və həyatla bağlı çətinlikləri həll etməkdə faydalana biləcəkləri davranış çatışmazlığını hiss edirlər. Həmçinin məktəbdə dostlarından geri qalan, ünsiyyətə girməkdən çəkinən, dərslərində bu səbəbdən uğursuzluq yaşayan yeniyetmələri bu problemə nümunə kimi göstərə bilərik. Yeniyetmələrin hər cəhətdən böyüklərdən üstün olmaq, üstün kimi tanınmaq istəyindəvə bu istəklərini həyata keçirməyə çalışmasında natamamlıq hissi böyük rol oynayır.

*Açar sözlər:* natamamlıq kompleksi, sosial adaptasiya, özünüqiymətləndirmə, üstünlük kompleksi.

"İnsanda özünü müqayisə nəticəsində yaranan repressiya olunmuş duyğu və fikirlər toplusudur." Ancaq kompleksəpsixoloji mənbələrdə bu cür tərif verilir:"Kompleks insanın özünün psixoloji və fiziki çatışmazlıqları barədə səhv

təsəvvürləri, bunların həddindən artıq şişirdilməsi kimi təsnif olunur.” Anlayışımıza görə hər kompleksin öz başlanğıc nöqtəsi var.Müasir dövrümüzdə "kompleks" sözü getdikcə daha çox istifadə olunur. Psixoloji kompleks yeni bir davranış nümunəsinin və ona müşayiət edən duyğuların formalaşmasına səbəb olan düşüncələrin, hisslərin, xatirələrin, təcrübələrin, münasibətlərin (şüurlu və ya şüursuz) birləşməsidir. İnsan kompleksləri uşaqlıqda çox həssas olduğumuzda və şübhəsiz ki, böyüklərin dediklərinə inandığımızda meydana gəlir. Bu yaşda haqqımızda olan mənfi fikirlər birbaşa şüuraltına keçir və orada toplanır, çünki uşaqlar onlara gələn məlumatları süzə bilmirlər.Bu terminin mənasının ibtidailəşməsinin və sadələşdirilməsinin qarşısını almaq lazımdır.[7]

İnsanda “Kompleksin” yaranması müxtəlif cür hallarda yəni, bir insan özünü digər insanlarla müqayisə etməyə başladıqda və ya kimsə səni başqası ilə müqayisə etdikdəortaya çıxa bilər.Həmçinin, bu cür birliklər, üslub və ya yaşayış standartları ilə müqayisələr nəticəsində vəcəmiyyətdəki müəyyən davranış nümunələri ilə ortaya çıxa bilər.Kompleks yarandığı andan insan üçün baş verən mənfi dəyişikliklərin misli olduqca artır. Yəni müəyyən bir andan sonra insanın öz şüurunda mənfi qiymətləndirmə böyüyür. Bu hadisə başqaları üçün çox da əhəmiyyətli olmasa da şəxsin özü üçün olduqca gərgin vəziyyətə və emosiyalara səbəb ola biləcək qədər əhəmiyyətlidir. Bunun nəticəsində də “kompleks” insanda dərin çox vaxt ətrafdakı insanlardan gizlətdiyi narahatçılıqlara gətirib çıxarır. Kompleks güc və ya status kimi ortaq bir mövzu ətrafında təşkil olunmuş şəxsi şüursuzluqdakı duyğuların, xatirələrin,qavrayış vəistəklərin əsas nümunəsidir. Bəllidir ki, komplekslər şüur tərəfindən nəzarətdən məhrum olan zehni təşkilatlardır.Komplekslər şüurdan ayrılır və şüurun işinə daim mane ola biləcəkləri və ya qatqı təmin edəbiləcəkləri ruhun qaranlıq sferasında xüsusi bir növ kimi müstəqil fəaliyyət göstərirlər.” Komplekslər” müəyyən bir enerji yükü daşıyır və insanın şüurunda mənfi bir dəyişiklik meydana gətirir.Fərdi psixikanın ayrılmaz bir quruluşunu təşkil edən komplekslər öz həyatını yaşayan əksər hallarda insanın fikirləri ilə üst-üstə düşməyən, hətta bir insanın niyyətinə zidd olan müstəqil şəkildəyaşayan birliklər və ya qruplardır. Ümumiyyətlə komplekslər bir növ psixoloji narahatlıq kimi nəzərdən keçirilir. Bu faktı da qeyd etmək lazımdır ki, “kompleks” sözü elmə psixoanalizdən gətirilmişdir. İlk dəfə bu termin Z.Freydin və K.Q.Yunqun əsərlərində istifadəolunmuşdur. K.Q.Yunq “Sərbəst Assosiasiyalar” metodunu tətbiq edərkən ilk dəfə olaraq komplekslərin varlığını aşkar etmişdir. Bu alimlərdən əlavə olaraq həm də alman alimi A.Adler də komplekslər haqqında elməyeniliklər gətirmişdir. A.Adler “natamamlıq” və ya “aşağılıq” kompleksini də elmə gətirmişdir. Viyanada xəstə bir uşaqlıq keçirən və özünün aşağılıq hisslərini aşmaq üçün mübarizə aparan Adler, yanaşmasında antisosial mənada deyil, üstünlük üçün səy göstərmə konsepsiyasına əhəmiyyət verdi. Həqiqətən, insanların yaşadıqları cəmiyyətə çox yönlü bir bağlılıq göstərdiklərinə və bu səbəbdən də sosial

faydaların insanlar üçün və məmnuniyyət üçün yaxşı olduğuna inanırdı. K.Q.Yunq kimi, əldə edilmiş hədəflər üçün çalışmanın vacibliyini vurğulayırdı. Yenə də onun nəzəri yanaşmasında, gələcəyin humanitar müalicəsini hazırlayan elementlər böyük ölçüdə yer aldı.[1]

İndiki dövrdə ən çox rast gəldiyimiz hadisələrdən biri də çox insan içində və ya böyük kütlə içərisində insan özünü narahat, gərgin hiss etməsidir. Bu cür hallar çox insanın başına gəlir və müasir dövrdə də bu situasiyanı yaşıyan insanların sayı olduqca çoxdur. Bəzi zamanlarda cəmiyyət içərisində elə fikirləşirik ki, ətrafımızdakı hər kəs bizə baxır və bizim haqqımızda fikir bildirir və ya yanlışlarımızı, səhvlərimizi ortaya çıxarmağa çalışır. Psixoloji komplekslərin demək olar ki, əksəriyyətinin yaranma səbəbi birbaşa uşaqlıq dövründəki hadisələrləbağlıdır. İnsan uşaqlıq dövründə eşitdiyi və gördüyü informasiyaları ağlından silə bilmir buna görə də həmin informasiyalarla bağlı bütün mənfi fikirlər onun şüurunda qalmış olur. Həmçinin həyat təcrübəsi və ya həyat boyu qazanılan komplekslər də vardır. Hansı ki, bu cür komplekslər insanın ətrafındakı başqa insanların fikirlərinə qarşı olan reaksiyasından yaranır. Ümumi şəkildə qeyd etsək bir qayda olaraq bu yəni komplekslərin yaranması funksional olmayan bir uşaqlıq, başqalarının tənqid və mənfi təklifləri, işdəki və həyatdakı uğursuzluq, özünəinamlı davranış vərdişlərinin olmaması mənfi öz-özünə hipnozdur [3]. Komplekslərin mövcudluğu bir neçə fərqli əlamətlərlə qiymətləndirilə bilər. Bu əlamətlərə aşağıdakı əlamətləri aid etmək olar: 1) Münaqişə, yöndəmsizlik, uyğunsuzluq ya kompleksin bir səbəbi vəya nəticəsi ola bilər; 2) Şəxsin öz davranış və irrasional təcrübələri səbəbiylə digər insanların hərəkətlərinə təbii yersiz reaksiyalar verməsi; 3) Problemlərin başqaları tərəfindən qiymətləndirilir və problemlərini həll edərkən psixoloji və fiziki məhdudiyyət hissi yaranır; 4) Qorxu hissi, psixoemosional stress hissi, önəmli və ya vacib insanlarla görüşdükdə və ya söhbət etdikdə yüksək narahatlıq hissi yaranır. Qeyd etdiyimiz əlamətlərdən birinin və ya bir neçəsinin təzahürü insanda mövcud olduqda həmin insanda komplekslərin olduğu qənaətinəgəlməyə imkan verir. Diaqnostika zamanı müəyyən edilən əlamətlərin sayı nə qədər çox olarsa, müşahidə edilən bir o qədər çox və müxtəlif komplekslərə sahibdir. Kompleks dedikdə insanın psixoloji həmçinin emosional təcrübə və hisslərinin qarışığı nəzərdə tutulur. Bir insan başqalarına nisbətən özünü aşağı, qüsurlu hiss edir, ətrafdakı insanların hər şeydə özlərindən üstün olduğuna ürəkdən inanır. Və beləliklə də uşaqlığın zehni tramvası nəticəsində psixoloji kompleks meydana gəlir. Alimlər sübut etdilər ki, uşaqlıqda valideynlər valideynlər uşağı tənqid etsələr və kifayət qədər sevgi vəqayğı göstərməsələr, zaman keçdikcə bütün həyatını dəyişdirə biləcək bir natamamlıq kompleksi inkişaf etdirəcəkdir. Kompleksli insanlar bunu gizlətmək üçün olduqca fərqli üsullara əl atırlar. Əksəriyyət natamamlıq kompleksi olan insanlar bu həqiqəti təcavüzkarlıq, qəddarlıq və ya həddindən artıq içkinin arxasında gizlətməyə çalışırlar. [5]

Digər növ kompleksə yəni üstünlük kompleksinə sahib olan insanlar isə bu həqiqəti fərqli üsullarla gizlətməyə çalışırlar. Hansı ki, onlar digərlərinin əksinə komplekslərini təkəbbür, bahalı geyim və ya bahalı yaşayış tərzinin arxasında gizlədirlər. Və bununla da komplekslər özünü hər insandaki növünə görə özünü fərqli tərzdə biruzə verir. Psixoloq A.Adler kompleksin köklərinin erkən uşaqlıqdan gəldiyini qeyd edirdi. Həmçinin belə bir fikir də irəli sürürdü ki, bunun əsasında “İstəyirəm ancaq edə bilmərəm.” cümləsi dayanır. Yəni bu anlayışın mövcud olması artıq həmin insanın şüurunda bütün imkanlarının məhdud olduğu vəbütün istəklərinin həyata keçirilməsinin qeyri-mümkün olduğu fikri davamlı şəkildə onun şüurunda mövcud olur. Buna görə də fantaziyalarla dolu olan uşaq oyunları çox vacib əhəmiyyət kəsb edir. Hansı ki, bu müddətdərealda mövcud olmayan rollar oynanır. Lakin indi müasir uşaqların kompüter oyunları oynamağa nə qədər erkən yaşda başladığını və hətta sadəcə bir kompüterdən istifadə etdiyini xatırlatsaq anlayırıq ki, bir zəiflik, natamamlıq və ya aşağılıq kompleksi onların şüurunda uşaqlıqdan “kök salır”. Onlar "duman içində kirpi" kimidirlər və bu müddət kifayət qədər uzağa gedərək həmin uşaqlarda bağımlılığa çevrilir və dolayısı yolla bu da həmin uşaqda gələcəkdə kompleksin yaranmasına səbəb olur. Eynilə, bu hadisə yetkin insanların öz aşağılıq komplekslərini kompensasiya etməsində də özünü göstərir. Yəni gerçəklik vəziyyətini itirmədən əvvəl, kompüter oyunlarında əsl həqiqəti unudur, seriallara baxmağa və roman oxumağa qərq olur vəbununla başqasının həyatını yaşayır və bununlada öz kompleksini unutmağa və kompensasiya etməyəçalışır.Bu cür hadisələrin də mövcud olması artıq həmin insanın rahatlıq zonasının sərhədlərinin kəskin şəkildə daralmasına, gerçəklikdən ayrılmasına, cəmiyyətlə əlaqəsinin itirilməsinə və şəxsiyyətin tənəzzülünə gətirib çıxarır. [4]

Ancaq onun fərqli forma və növləri sonradan digər alimlər tərəfindən kəşf edilmişdir. Komplekslər insanlarda fərqli növdə mövcud olur və hər növü də özünəməxsus xüsusiyyətləri ilə özünü biruzə verir. Komplekslər insanların yaşına, təhsil səviyyəsinə, həyat tərzinə, qadın və kişi olmasından da asılı olaraq dəyişəbilir. Gündəlik həyatında özünü digərlərindən olduqca üstün hesab edən və ya tam tərsi, özünü lazımsız yerə müdafiə edən, cəmiyyəti özünə düşmənmiş kimi qəbul edən, özünü hər şeydə günahlandıran, cinsi münasibətlərində problemləri olan insanları kompleksli insanlar adlandırmaq olar. Qeyd olunan əlamətlərəəsasən də müxtəlif adlı komplekslər mövcuddur. Hansı ki, bunlar üstünlük, aşağılıq, natamamlıq və.s kimi fərqli formada özünü büruzə verir. Bu komplekslərin yaranmasının əsasında duran səbəb hər bir alimə görəfərqli olmuşdur. Üstünlük kompleksi dedikdə psixoloq A.Adler tərəfindən irəli sürülən fərdi psixologiyanın əsas prinsiplərindən biridir. Bir insanın doğuşdan var olan aşağılıq kompleksinə əsaslanaraq özünü digər insanlardan üstün görmək kompleksidir.[2]

Üstünlük kompleksinin əsasını da elə natamamlıq,aşağılıq kompleksi təşkil edir. Şəxsin natamamlıq kompleksindən asılı olaraq, özünü başqa

insanlardan daha üstün görmə və ya üstün olmaq istəyi onun özünü qəhrəman və ya çox önəmli bir insan kimi görməyinə səbəb olur. Aşağılıq kompleksi, emosional və psixoloji təcrübə və hisslərin qarışığıdır. Bir insan başqalarına nisbətən özünü aşağı, qüsurlu hiss edir, ətrafdakı insanların hər şeydə özlərindən üstün olduğuna ürəkdən inanır.

ƏDƏBİYYAT


1. Adler, A. (2015). The Individual Psychology of Alfred Adler. H. L. Ansbacher and R. R. Ansbacher (Eds.). New York: Harper Torchbooks.
2. Alfred Adler, İnsanı tanıma sanatı, İstanbul (2016).
3. Ferenczi, S. ( 2017). Yetişkinler ve çocuklar arasında dil karışıklığı: Tutkunun ve sevecenliğin dili. Yüzyılın Psikanalizi, (9), 109-117.
4. Young, J. E., Klosko, J. S., & Weishaar, M. E.
5. Асмолов А.С. Психология личности. М.: ЮНИТИ-ДАНА, 2013.-345с.
6. Запашный А.М. Комплексы в подростковом возрасте. Монография. Новосибирск, 2010.-267с.
7. Козлов В.И. Формула личности. СПб: Питер, 2010.-290с

**Səbinə ƏLİYEVA**
***Azərbaycan Tibb Universitetinin***
***“Psixiatriya” kafedrasının magistrantı***
**E-mail: abina_1995@mail.ru**

# AUTİZM SPEKTRİ POZUNTULU UŞAQLARIN VALİDEYNLƏRİNƏ QARŞI STİQMATİZASİYA

## XÜLASƏ

Autizm spektri pozuntusunun statistikasına nəzər saldıqda görmüş oluruq ki, hər il bu statistik göstəricilər artmaqda davam edir. Son zamanlarda xüsusilə autizm spektri pozuntusu olan uşaqların valideynlərinin emosional sferasının xüsusiyyətlərinin tədqiqi klinik psixoloji araşdırmaların əsas predmetini təşkil edir. Valideynin normal şəxsi inkişafı, eləcə də autizm spektri pozuntusu olan uşağın inkişafı üçün valideynlərin emosional tarazlığı vacib amildir. Uşaqda autizm spektri pozuntusunun aşkarlanması demək olar ki, həmişə valideynlərdə ciddi stress yaradır. Xüsusilə də bu uşaqların valideynlərində stiqmatizasiya onları “pis valideynlər” kimi qiymətləndirmələri barədə utanc və qorxu hisslərində özünü birüzə verirdi. Onlar özlərini digər valideynlərdən fərqlənən hiss edirlər və qorxurlar ki, ətrafdakı insanlar onları mühakimə edəcəklər və pis baxacaqlar. Bu narahatlıq və hisslərin əksəri ictimai yerlərdə- bağça, məktəb və mağazalarda meydana gəlmiş olur. Valideynlər ətrafdakı insanların çoxlu emosional “hücum”larından sonra özlərini və uşaqlarını ictimaiyyətin gözündən gizlətməyə və sosiumda mümkün qədər az görünməyə çalışırlar. Autizmin sürətlə artmış olduğu son dövrlərdə məqalədə təqdim edilən mövzu aktuallıq kəsb edir.

*Açar sözlər:* autizm spektri pozuntusu, stiqma, stiqmatizasiya, sosial tədric, günahkarlıq hissi

Uşaqlarda autizm spektri pozuntusu probleminə həsr edilmiş çoxlu fərqli tədqiqatlar vardır. Lakin, təəssüflər olsun ki, valideynlərdə hansı dəyişikliklərin baş verməsinə və bunların ASP-lu uşağın inkişafına necə təsir etməsinə çox az diqqət ayrılmış və az tədqiqat aparılmışdır. ASP-lu uşağın valideyni olmaq asan deyil. Valideynlər onlara təsirsiz ötüşməyən çoxlu problemlər və çətinliklər ilə qarşılaşırlar. Çox vaxt ailədə ən böyük çətinlik ananın üzərinə düşür. 2009-cu ildə aparılan araşdırmalar göstərir ki, uşağa əsas qayğı göstərən və qərar verən şəxs olan autizmli uşaqların anaları, sağlam uşaq analarına nisbətən daha çox stress və yorğunluq yaşayırlar, eləcə də autizmli yeniyetmə analarının stress hormonu, kortizol səviyyəsi daha yüksəkdir. Autizm spektri pozuntusu olan uşaq böyüdən analar, eləcə də disontogenezin digər variantları olan uşaq anaları kəskin emosional təcrübələrə səbəb olan

validеyn stressi yaşayırlar. Bu vəziyyət ananın əsas ehtiyaclarını pozur. Autizm spektri pozuntusu olan uşaqda ananın anormallıqlara ilk reaksiyası çox kəskin ola bilər. R.F.Mayram öz araşdırmalarında qeyd etmişdir ki, uşaqda pozuntusunun olmasına reaksiya anaların 65,7%-də ağır emosional təcrübələrə, isterik və affektiv-şok reaksiyalarına səbəb olur [6, s. 110]. Autizm spektri pozuntusu olan uşağın həyatının bir neçə ili ərzində bu stress azalmır, əksinə artır. Stressin artması əsasən uşağa qayğı göstərmək ehtiyacı və uşağınızın gələcəyi ilə bağlı bədbinliklə bağlıdır. Araşdırmalara görə, autizm spektri pozuntusu olan uşaqların analarında xəstəliyin şiddətindən asılı olmayaraq, şəxsiyyət problemləri var. Şəxsiyyət problemləri, əsasən, problemli uşağın doğulması səbəbindən günahkarlıq hissi ilə əlaqələndirilir. Valideynlərin emosional vəziyyətinə təsir edən başqa bir travmatik amil uşağın başqaları ilə və şəxsən onlarla əlaqə qurma qabiliyyətinin pozulmasıdır. Tədricən, uşağın bu xüsusiyyəti sosial və məişət bacarıqsızlığı şəklində və sosial uyğunlaşmanın pozulması şəklində özünü göstərir. Uşağın adekvat əlaqəyə ehtiyacının olmaması (toxunmaq, gözlərinə baxmaq, danışmaq) valideynləri narahat edir. Sosial təcrid, xəstə uşağın tərbiyəsinə hədsiz batmaq əsas ehtiyacların məyus olmasına gətirib çıxarır. Autizm spektr pozuntusu olan uşaqlar tənha olmağa can atırlar və onları tək saxlayanda özlərini daha yaxşı hiss edirlər.

Valideynlər öz karyeralarını qurban verirlər, öyrədici xidmətlər üçün mübarizə aparırlar, borcun içinə girirlər və sonda yeni əldə edilmiş nəticələr onları məyus edir. Frustrasiya həyəcan, stress, depressiya, emosional tükənmə və stiqmatizasiyaya gətirib çıxardır. Bu isə öz növbəsində həm valideynin, həm də uşağın, nəticədə isə ailənin bütün üzvlərinin vəziyyətinin pisləşməsinə gətirib çıxardır, çünki ailə hər bir üzvün digərlərinə təsir etdiyi sistemdir.

Autizm spektrinin pozuntusuna müxtəlif anomaliyalar, davranış, sosial qarşılıqlı əlaqə, ünsiyyət sahəsində pozğunluqlar daxildir. Bu patologiyası olan uşaqların sayı hər gün artdığı üçün bütün ölkələrdə autizm spektrinin pozulması problemi, diaqnostik üsullar, dərman müalicəsi, davranış korreksiyası və s. haqqında çoxlu nəşrlər öyrənilir. Autizm spektri pozuntusu diaqnozu qoyulmuş şəxsə yaxın olan insanlar, məsələn, ailə üzvlərindən birində mövcud pozuntunun stressli, travmatik təsirini hər gün yaşayan autizmli uşağın yaxınlarının təcrübələrini öyrənən çox az elmi araşdırmalar var.

Stiqmatizasiyanın səbəblərini açıqlayan müxtəlif nəzəriyyələr var. Məsələn, İ.Katç stiqmatizasiyanın üç əsas əsasını müəyyən etmişdir [4, s. 57]:

1. Görüntü
2. Təhdid
3. Dərk edilən məsuliyyət

Autizm spektri pozuntusu vəziyyətində "görüntü" çox bulanıqdır. Məsələn, açıq-aydın fiziki zədəsi olan, fiziki anomaliyaları olan bir insana baxanda onun problemi “görünür”, bizim üçün aydın olur, sonra onun vəziyyətinə, məhdudiyyətlərinə təəssüflənirik. Belə olan halda əlaqə saxlamadan da nədən məhrum olduğumuzu və bu insan üçün nə qədər çətin olduğunu

anlayırıq. Ancaq autizm spektri pozuntusu olan uşaq normal inkişaf edən uşaqla eyni görünür və ciddi davranış sapmaları göstərməyə başlayanda bu, qəzəb və etiraza çevrilərək çaşqınlığa səbəb olur. Cəmiyyət bu uşağa ərköyünlüyü, pis davranışı, "pis xasiyyəti" aid edir və buna görə valideynləri günahlandırır.

"Təhlükə"- stiqmanın digər mühüm atributudur. Sübut edilmişdir ki, insanlar üçün davranış kənaraçıxmaları fiziki xəstəliklə müqayisədə daha çox "təhlükə" yaradır, çünki gözlənilməz, qəfil davranış potensial təhlükə yaradır.

"Dərk edilən məsuliyyət" dərəcəsi də stiqmanın şiddətinə təsir göstərir, çünki bu amil qəza nəticəsində qançır və ya zədə alanlardan daha çox günahı genetik faktora, irsi sağlamlıq pozuntusu olan insanlara aid etmək üçün şüursuz bir meyldən ibarətdir. Məhz bu səbəbdən ASP-lu uşaqların valideynlərini əhatə edən insanlar çox vaxt autimizi valideynlərin həddindən artıq soyuqluğu, adekvat olmayan tərbiyə metodları, "düzgün olmayan" həyat tərzi və s. ilə əlaqləndirərək uşağın pozuntusunda "günahı" şüursuz surətdə onlara aid edirlər. Valideynlərin özləri də günah hissini çox ağrılı şəkildə keçirə bilərlər, bununla da gələcəkdə heç nəyi dəyişməyəcəyini düşünüb keçmişdə qala bilərlər.

2000-ci ildə M.Davidoviçin apardığı tədqiqat göstərmişdir ki, həyatının ilk vaxtında normal inkişaf edən daha sonra isə birdən-birə geriləyən uşaqların analarının günahkarlıq səviyyəsi, anadangəlmə nəzərəçarpan geriləmələri olan uşaqların analarının günahkarlıq səviyyəsindən daha çoxdur. Uşağın autizmi ilə bağlı olan və valideynin öz üzərində hiss etdiyi stiqmatizasiya mütləq şəkildə koqnitiv, emosional və davranış sferalarına toxunur. B.Meycerin sözlərinə görə, stiqmatizasiya nəticəsində insan "xroniki natamamlıq hissi" qazanır. Valideynlərin çoxu öz üzərində böyük ölçüdə autizm haqqında stereotiplər və miflərlə bağlı olan stiqmatizasiyanı hiss edirlər. Buraya həmçinin emosional vəziyyətə təsir edən yalan informasiya da aiddir [1, s. 198].

Baxter müəyyən etmişdir ki, ASP-lu uşaqlar ətrafdakıların diqqətini öz üzərinə xarici görünüşləri və ya hərəkətləri ilə deyil, məhz nitqləri ilə cəlb edirlər. Beləliklə, valideynlərin stessi həmçinin onların uşaqlarının nitq problemləri ilə də bağlı olur. Stiqmatizasiyanı əmələ gətirən vəziyyətlərdən qaçmağa can atarkən, valideynlər çox vaxt çalışırlar ki, ailə həyatını o şəkildə təşkil etsinlər ki, uşaqların onların pozuntularını hansısa şəkildə birüzə verən ictimai şəkildə danışmalarına və ya sosial rollarını ifa etməyə ehtiyac olmasın. Məsələn onlar, uşaqları özləri ilə uşaq bayramlarına aparmaya bilərlər və özləri ilə tanışlarına qonaq gedərkən özləri ilə götürməyə bilərlər. Aparılan tədqiqatlara əsasən Baxter qeyd edirdi ki, valideynlər doğmaları və yaxın dostları ilə görüşlərə ASP-lu uşaqlarını çox həvəslə aparırlar, amma uşaqları yad insanların görə biləyəcəyi yerlərə aparmaqdan həddindən artıq çəkinirlər. Nəticədə bütün ailənin normal həyatı əziyyət çəkir [2, s. 412].

Xüsusi təzahür olaraq "stiqmatizasiya" termini çoxdandır ki, fərqli alimlər və filosoflar tərəfindən tədqiq edilir. Stiqma problemini öz əsərlərində İ.Hoffman müzakirə etmişdir. O, insanın müxtəlif səbəblərdən birdən-birə cəmiyyətdən sosial tanınma (təsdiq edilmə) ala bilməməsi vəziyyətini ilk təsvir

edənlərdən biri olub. 1963-cü ildə İ.Hoffman tərəfindən sosial stiqma nəzəriyyəsi işlənib hazırlanmışdı. Bu nəzəriyyə daha sonra müxtəlif xəstəliklərə tətbiq edilmişdi. Sosial stiqma hər mədəniyyətdə, hər nəsildə, hər cəmiyyətdə müşahidə edilir [2, s. 413]. Müşahidəçi üçün stiqmanın funksiyalarından biri həyəcanın aşağı salınması, özünü digərləri ilə müqayisə edərək özünüqiymətləndirmənin qaldırılması, həmçinin vəziyyət üzərində nəzarət hissinin bərkidilməsidir. Alimlərin ədəbiyyatına nisbətən bu yaxınlarda həmçinin "assosiasiya olunmuş stiqma" və "ikinci stiqmatizasiya" kimi terminlər daxil olub. İnsanın stiqmatizaisya olunan digər insanla yaxınlığına (qohumluq, qonşuluq, dostlu) görə daimi olaraq neqativ təsirləri hiss etməsinə assosiasiya olunmuş stiqma deyilir. Devid Qrey qeyd edir ki, ikinci stiqmatizasiya zamanı valideynlərin, xüsusən də anaların psixoloji firəvanlığı əziyyət çəkir. Bu ASP-lu uşağın stiqmatizasiyası ilə bağlıdır. Müvafiq stiqmatizasiya uşaqdan destruktiv və antisosial davranışların gözlənilməsini ehtiva edir. Çox vaxt bu təhlükə, ASP-lu bir uşağın tamamilə zahiri normal görünüşü və cəmiyyətdə autizm haqqında məlumatın olmaması ilə üst-üstə düşür.

2002-ci ildə D.Qrey Avstraliyada apardığı araşdırmasında autizm diaqnozu qoyulmuş uşaqları olan 53 valideyndən (analar və atalar) sorğu götürmüşdür. Bu araşdırmanın nəticələri göstərmişdi ki, tədqiqatda iştirak edən valideynlər stiqmatizasiya olunublar. Özüdə ki, valideynlər təkcə özlərinə qarşı başqa insanlardan düşmənçilik və ayrı-seçkiliyin nümayiş edilməsini deyil, həmçinin ikinci stiqmatizasiya çərçivəsində günahkarlıq, xəcalət, ayıb hisslərini keçirərək özlərini günahlandırıb və məzəmmət etdiklərini qeyd edirdilər, çünki hesab edirdilər ki, onlar, öz uşaqlarının davranış pozuntularını dayandırmaq və qarşısını almaq iqtidarında deyillər. Valideynlər qeyd edirdilər ki, onlar məktəblərdə, maqazinlərdə, gəzintilərdə və çoxlu insanların olduqları yerlərdə digər yerlərə münasibətdə daha çox hiss edirlər [3, s. 120].

2009-cu ildə D.Farrucun ASP-lu uşağı olan 16 valideyndən sorğu alaraq keçirdiyi tədqiqata əsasən həmçinin müəyyən edilmişdir ki, onların hamısı öz üzərlərində assosiasiya olunmuş stiqmanın təsirlərini hiss edirlər. Bu valideynlər onları düzgün istiqamətləndirən digər insanlar ilə qarşılıqlı əlaqənin təcrübəsi nəticəsində özünü hər dəfə günahkarlıq hissi, həmçinin onlar çox "pis valideynlərdir", "uşağı düzgün tərbiyələndirmirlər" fikirləri ilə əks olunan stiqmanı "mənimsəmişdilər." Onlar başa düşürdülər ki, stiqmanın ölçüsü uşaqdakı problemin ağırlığıdan asılıdır və uşaq davranış pozuntularını nə qədər çox birüzə verirdisə, stiqma bir o qədər çox müşahidə edilirdi. Bununla belə, mütəxəssislərdən uşaqlarının dəqiq diaqnozunu alan və uşaqlarında autizm spektrli pozuntunun olduğunu başa düşən valideynlər, stiqmatizasiyanın öhdaəsindən daha asan gəlirdilər. ASP-lu uşaqları tərbiyə edən, bununla da yanaşı dəqiq diaqnozu bilməyən və ya bu diaqnozu qəbul etmək istəməyən valideynlər isə stiqmatizasiyadan daha çox əziyyət çəkirdilər.

Avstraliyalı alimlərin autizm spektri pozuntusu olan uşaqları tərbiyə edən valideynlərin gündəliklərindəki yazıları və anaların müsahibələri analiz edilən tədqiqatları göstərmişdir ki, belə uşaqların anaları digər insanlar tərəfindən qəddarlıq və acıma hissinin olmaması ilə daha çox rastlaşırlar. Onlar pis valideyn olmaları barədə təhqir və alçaldımalara qulaq asmaq məcburiyyətində qalmışdılar. Bəzi tədqiqatlar göstərmişdi ki, anaların arasında əks cavab reaksiya verənlər də olub. Belə ki, onlar, mühakimələrə, hətta ətrafdakıların qəribə baxışlarına aqressiv reaksiya vermişdilər. Tədqiqat zamanı həmçinin müəyyən edilmişdi ki, yüksək sosial-iqtisadi statusu olan ailələrdə stiqmatizasiya səviyyəsi çox aşağı olur. Bu onunla izah edilir ki, daha yaxşı təminatı olan ailələrin sosial dəstək, tibbi yardım və informasiya əldə etmək imkanları daha əlçatan olur.

Yeni Zellandiyada keçirilmiş tədqiqatın nəticəsində müəyyən edilmişdi ki, ASP-lu uşaqları olan valideynlər ətrafdakıların mənfi rəyləri, təhqirləri və soruşulmayan məsləhətləri yolu ilə stiqmatizasiya olunurlar. Valideynlər həmçinin onların bilik və əminliklərinin tibb işçiləri və pedaqoqlar ilə qarşılıqlı əlaqə zamanı qiymətsizləşdirilməsi, kobud şəkildə inkar edilməsi hallarında da stiqmatizasiya olunurlar. Valideynlərə elə gəlirdiki ki, sanki pedaqoq və həkimlər onları ailələrində ASP-lu uşağın meydana gəlməsində günahlandırırlar.

Bunun əksinə olaraq tibb və təhsil mütəxəssisləri tərəfindən dəstəyin olması faktı stiqmatizasiya səviyyəsini aşağı salır. Elə buna görə də öz işinin mütəxəssisi olmaq çox vacibdir. Bu təkcə savadlı, çox oxuyan olmaq demək deyil, bu həmçinin belə uşaqları olan valideynlərə empatiya qurmaq deməkdir. Valideynlərin subyektiv hisslərinə əsasən, stiqmatizasiyanı uzaqlaşdıran faktorlardan biri də etnik mənsubiyyətdir. Əgər valideynlər dominant etnos və millətin nümayəndələri deyildilərsə, onlara və ASP-lu uşaqlarına olan ayrı-seçkilik və stiqmatizasiya daha çox hiss edilən olur.

Nəticə etibarilə assosiasiya olunmuş stiqma valideynlərdə bu stiqmaya qarşı "mübarizə" metodlarının əmələ gətirməsinə səbəb olur. Valideyn onun stressini çoxaldan sosial izolyasiyaya sığınır. Cəmiyyətin uşağın probleminə bu cür münasibəti ailənin daxili ab-havasına, ən əsası isə valideynin ASP-lu uşağı qəbul edib ya da etməməsinə dair mövqeyinə neqativ təsir göstərir. Hər bir insanın individin davranışını müəyyən edən motivasiya-tələbat sferası olur. Stiqmatizasiya zamanı, o cümlədən, uşağın cəmiyyətin dəyərlərinə normativliyi və psixofiziki uyğunluğu ilə bağlı sosium tərəfindən güclü psixiloji təzyiq edilərkən, motivasiya-tələbat sferası inkişaf etmir [5, s. 68].

Həkimlərin və psixoloqların yanına konsultasiya üçün həm sosial-iqtisadi səviyyə, həm təhsil səviyyəsi, həm də şəxsi xüsusiyyətləri ilə fərqlənən autizmli uşaqları olan müxtəlif ailələr gəlirlər. Onlardan bəziləri uşağın diaqnozunu öyrəndikdə depressiyaya düşür, bəziləri oğlunun və ya qızının psixozunu birinci dəfə yaşayaraq özünü itirir və nəyin baş verdiyini sona qədər anlaya bilmir, digərləri isə artıq daha yaxşı yola və daha yaxşı korreksiya metodlarının axtarışına doğru yol qət etmiş olurlar. Bununla da belə, valideynin hiss etdiyi

böhranın kəskinliyi heç də həmişə diaqnozun qoyulması vaxtından nə qədər müddətin keçməsindən asılı olmur. Valideynlərini psixiatra müraciət etməyə vadar edən uşaqların davranışının xüsusiyyətləri (emosional xüsusiyyətlər, uşağın neqativizmi, stereotiplər, ünsiyyətdə çətinliklər, davranış pozuntuları) artıq "xüsusi" həyəcan fonu formalaşdırmış olur. Ətrafdakıların "pis tərbiyə" və uşağın xüsusiyyətlərini düzgün başa düşməmə barədə ittiham və məzəmmətləri, valideynlərdə özünüqiymətləndirmənin kəskin şəkildə aşağı düşməsinə, onlarda günah, utanc və köməksizlik hissinin yaranmasına gətirib çıxardır.

ASP-lu uşaq dünyaya gəldikdən sonra onun böyüdüyü ailənin üzvləri çoxsaylı çətinliklərdən dolayı daha az ünsiyyətcil olur və yeni tanışlıqları xüsusilə seçərək qurur. ASP-lu uşağın ictimai yerlərdə özünü aparması da adekvat olmur. Qadağalar zamanı uşaq yerə sərilə, qışqıra, özünü nəyəsə vura və özgə əşyalarını götürə bilər. Özünü qorumaq hissinin yoxluğu və ya azlığı uşağın sağlamlığına təhlükə yaradır. O, yola qaça, suda dərinə enə və hündürlükdən tullana bilər. Belə vəziyyət həyəcan, qorxu və emosional gərginlik meydana gətirir. Ailənin üzvləri tanışların və hətta qohumların da dairəsini daraldır. Bu uşağın inkişafı və xüsusiyyətləri, o cümlədən valideynlərin özlərinin şəxsi qərarları ilə bağlı olur [5, s. 83]. Əksər valideynlər ASP-lu uşağın tərbiyə edilməsi ilə bağlı olan problemləri dostları və həmkarları ilə bölüşməyə hazır olmurlar. Analar isə öz növbəsində, ASP-lu uşaqları tərbiyə edərkən çalışırlar ki, ətraflarına problemli uşaqları olan insanları yığsınlar. Bəzi analarda ayrı-seçkilik və stiqmatizasiya səbəbindən öz uşağına həmyaşıdları ilə birlikdə stabil sosial əlaqə qura bilmək imkanının təmin edilə bilməməsi ilə bağlı günahkarlıq hissi mövcud olur. Valideynlər uşaqlarını kütləvi məktəbə aparmaqdan qorxurlar, çünki onlar müəllim, şagird və digər uşaqların valideynləri tərəfindən qısnama və başa düşülməmədən ehtiyat edirlər. İstənilən ayrı-seçkilik özünüqiymətləndirmə və öz gücünə əminliyə təsir edir.

## ƏDƏBİYYAT


1. Major B. New perspectives on stigma and psychological well-being // Stigma and group inequality. London, 2006, p. 193-210
2. Антонов А.И., Сорокин С.А. Судьба семьи в России XXI века. Размышления о семейной политике, о возможности противодействия упадку семьи и депопуляции. Москва, 2000, с. 410-414
3. Барбера М.Л. Детский аутизм и вербально-поведенческий подход. Екатеринбург, 2014, с. 118-121
4. Богдашина О.Б. Аутизм. Определение и диагностика. Донецк, 1999, с. 55-59
5. Ремшмидт Х. Аутизм. Клинические проявления, причины и лечение. Москва, 2003, 118 с.

6. Рубинштейн, С.Л. Основы общей психологии: учеб. пособие. Питер, 2000, 234 с.

**Ülkər BAĞIRZADƏ**
***Azərbaycan Tibb Universitetinin***
***"Psixiatriya" kafedrasının magistrantı***
**E-mail: ulkerbagirzade14@gmail.com**

# EMOSİONAL YANMA SİNDROMUNUN YARANMA SƏBƏBLƏRİ VƏ TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

## XÜLASƏ

Hazırki dövrdə iş həyatında hər sektordan fərdlərə mənfi təsir edən və ciddi bir sosial problemə çevrilən emosional yanma sindromu ətraflı şəkildə ələ alınması gərəkən və həlli üçün funksional fikirlər işlənməsi lazım olan bir mövzu olaraq qarşıya çıxır.Emosional yanma sindromu, güclü stresə davamlı məruz qalma nəticəsində yaranan aşağı özünə hörmət və ya özeffektivlik hissləri ilə birləşən emosional, fiziki və zehni tükənmə olaraq təyin edilə bilər. Tükənmişliklə bağlı araşdırmalarda şəxsiyyətlərarası münasibətlərin, həddindən artıq iş yükünün və insanın streslə mübarizədə müvəffəqiyyətinin tükənmişliklə əlaqəli olduğu görülmüşdür. Başqa sözlə, tükənmişlik, şəxsi və iş həyatında görülən stressin öhdəsindən gələ bilməmək kimi də ifadə edilə bilər.Bu sindromun qarşısının alınması və hərtərəfli müalicəsi ilə bağlı konstrektiv tövsiyyələr vermək üçün bi sindroma səbəb olan amilləri və ətraflı araşdırmaq və anlamaq lazımdır.

*Açar sözlər:* emosional tükənmə, fiziki tükənmə, zehni tükənmə, fərdi və ətraf mühitlə əlaqəli səbəblər, simptomlar

Cəmiyyətin və fərdin həyatına dərindən təsir edən "tükənmişlik" anlayışı ilk dəfə 1969-cu ildə Bredli, daha sonra isə 1974-cü ildə daha ətraflı şəkildə amerikalı psixoloq Herbert Freudenberger tərəfindən izah edilmişdir. Daha sonra anlayışla bağlı müxtəlif təriflər verilsə də, bu gün istifadə edilən tükənmişlik sindromunu təyin edən ad Maslachdır. Maslach'a görə tükənmişlik sindromu; "Bu, fiziki tükənmə, emosional tükənmə və intellektual tükənmə ilə səciyyələnən, özünə hörmətin itirilməsi, xroniki yorğunluq, çarəsizlik və ümidsizlik hisslərinin inkişafı ilə səciyyələnən və insanın iş həyatında və başqaları ilə münasibətlərində mənfiliklərə səbəb olan sindromdur". Göründüyü kimi tükənmişlik sindromu təkcə fiziki depressiya vəziyyəti deyil; Bu, həm də

fərddə emosional və zehni tükənmə əlamətləri və simptomlarına səbəb olur.Boyko isə emosional tükənməyə belə tərif verir: Emosional tükənmə "psixi zədəyetirici vəziyyətlərə (şəraitə) cavab olaraq şəxsiyyət tərəfindən emosiyaları qismən, yaxud tam şəkildə istisna etməklə (energetikanın azalması) yaradılan psixoloji müdafiə mexanizmidir" [1]. Müxtəlif tərifləri olan tükənmişliyin fərdin həyatında gizli şəkildə irəlilədiyi və nəticədə ciddi zərər verə biləcəyi görülür. Maslach və Jackson emosional yanma (tükənmişlik) anlayışının emosional tükənmə, depersonallaşma və aşağı şəxsi nəaliyyət kimi üç alt ölçüsü olduğu ifadə etmişdirlər [2] . Emosional tükənmə anlayışı fərdin emosional ehtiyatlarının tükənməsini və enerjinin azalmasını təsvir edir. Depersonalizasiya işçinin xidmət etdiyi insanlara qarşı mənfi, qeyri-ciddi münasibət və hissləri ifadə edir. Şəxsi nailiyyətin olmaması insanın özünü mənfi qiymətləndirməyə meyli və peşəsində özünü yetərli hesab etməməsi kimi müəyyən edilir[3]. İnsanlar emosional olaraq işlərinə təslim ola bilmirlər, işlərində uğursuz olduqlarını düşünərək narazılıq edirlər və qeyri-iş fəaliyyətlərinə meyl edirlər. Araşdırmalar göstərir ki, kişilərarası münasibətlər, motivasiya, həddindən artıq iş yükü və stresin öhdəsindən gəlmək qabiliyyəti tükənmişliklə əlaqələndirilir [3]. Güclü tükənmə psixosomatik pozğunluqlara, evlilik və ailə həyatında problemlərə, yuxusuzluğa, spirt və maddə istifadəsinə səbəb ola bilər. Təşkilati baxımdan kadrların gec gəlməsi, tez getməsi, işdən çıxması, istirahət hesabatlarının alınması, yeniliklərin və konstruktiv tənqidlərin sonsuzluğu, işdə məhsuldarlıq və yaradıcı təşəbbüslər kimi problemlərlə özünü göstərir.

Bu sindromun qarşısının alınması və/və ya müalicəsi ilə bağlı hərtərəfli və konstruktiv tövsiyələr vermək üçün bu sindroma səbəb olan amilləri və simptomları ətraflı araşdırmaq və anlamaq lazımdır:

1) Fərdi səbəblər

Tükənmişlik sindromu birbaşa iş həyatı ilə əlaqəli olsa da, fərdlərin şəxsiyyət xüsusiyyətləri əksər hallarda xarakterik xüsusiyyət nümayiş etdirir.

Araşdırmalar, fərdi stressin ən əhəmiyyətli qaynağının şəxsiyyət olduğunu ortaya çıxarmışdır .A Tipi Şəxsiyyət Quruluşuna sahib olanların emosional yanma fenomeni ilə yanaşı, stresslə bağlı pozulmalara və infarktlara da çox açıq olduqları görülür. Bu şəxsiyyət quruluşu; Mükəmməlliyətçilik, özünü mərkəzləşdirmə, aqressivlik, tənqid, narazılıq, uğuryönlülük, dinamizm və yüksək məsuliyyət hissi kimi davranış nümunələri ilə xarakterizə olunur. Rəqabət qabiliyyətinin bütün xüsusiyyətlərini sərgiləyən bu şəxsiyyət quruluşu iş həyatına əsaslandığı və yüksək adrenalin səviyyəsində işgüzarlıq ölçülərinə çatdığı üçün fərd sosial həyatdan təcrid olunaraq sosial dəstək səviyyələrindən kənarda qalır və nəticədə streslə təkbaşına mübarizə apara bilmir və tükənmişliyə sürüklənir

Şəxsiyyət quruluşu ilə yanaşı, gözlənti səviyyələri də mühüm faktordur. Bu sahədə ilk araşdırmaya imza atan və konsepsiyanın atası olan Freudenbergere görə, ideallarla yaxından əlaqəli olan tükənmişlik fenomeni gözləntilərin yerinə yetirilməməsi səbəbindən özünü göstərən yorğunluq və xəyal qırıqlığına səbəb

olur. Bu prosesdə daxili aləmində sıx qarşıdurmalar yaşayan fərdlər qısa zamanda həyat enerjilərini və iş qabiliyyətini sərf edirlər. [4] Gözləntilərin yerinə yetirilməməsi bir çox fərqli səbəbə əsaslana bilər. İş həyatına yeni qədəm qoyan gənclərin mövcud infrastruktur, təcrübə və potensiala uyğun olaraq real hədəflər qoya bilməmələri və gözlənti səviyyələrini həmişəkindən qat-qat yüksək tutmaları və ya işçilərin performansının yüksək olması kimi amillər, rəhbərlər tərəfindən əzminə görə insanların obyektiv qiymətləndirilməməsi və.s kimi amillər emosional yanmaya gətirib çıxarır.

Tükənmişliyin digər müəyyənedici xüsusiyyəti kimi insanın özünün imici önə çıxır. Xüsusilə, şəxsi adekvatlıqda əskiklik hiss edən fərdlər, özlərinə olan güvənləri ilə yanaşı, xüsusiyyətlərini də əhəmiyyətsiz hesab etdikləri üçün, hadisələr və problemlər qarşısında dərhal ümidsizliyə düşə, çökə bilərlər. Yüksək səviyyəli özünü effektivliyə malik olanlar qarşılaşdıqları problem və gərginliyi hər şeydən əvvəl şəxsi inkişaf üçün bir fürsət və aradan qaldırıla bilən təcrübə kimi qəbul edirlər. [4] Bunlara əlavə olaraq demoqrafik dəyişənlərin də müəyyənedici faktor olduğu məlumdur. Gənc, subay və uşaqsız fərdlərdə yaşlı, evli və uşaqlı fərdlərə nəzərən; universitet məzunu olanlarda , olmayanlara nəzərən; iş staji 1 ildən az olanlarda, iş staji 5 ildən çox olanlara nəzərən tükənmişlik sindromunun daha aşağı səviyyədə müşahidə olunduğu da məlum olub. [5]

2) Ətraf mühitlə əlaqəli səbəblər

Fərdi amillər müəyyən dərəcədə müəyyənedici olsa da, tükənmişliyin əslində iş həyatında ortaya çıxması və inkişaf etməsi bütün nəzəriyyəçilər tərəfindən ümumi qəbul edilən bir reallıqdır.

Şiroma görə, səhiyyə, təhsil və təhlükəsizlik kimi sahələrdə çalışan tibb bacıları, həkimlər, sosial işçilər, müəllimlər, müəllimlər, zabitlər, polislər, mühafizəçilər və kitabxanaçılar kimi xidmət sektorunun üstünlük təşkil etdiyi peşə qrupları xüsusilə tükənmişlik sindromu ilə müşahidə olunur ; İş stresinin intensivliyi, həddindən artıq iş yükü, peşəkar məsuliyyət hissi, zaman təzyiqi, məkana qapanma hissi və status kimi iş həyatına xas faktorlar ön plana çıxır.

Ətraf mühit səbəblərinə ailə, sosial və iqtisadi amillər daxil edilərkən, fərdin gündəlik həyatının çox hissəsini keçirdiyi və sosial münasibətlər paketində ilk sırada yer alan təşkilati amillər əsas əhəmiyyət kəsb edir.Bu kontekstdə təşkilati səbəblər çoxşaxəli bir spektr daxilində bir çox amillərə əsaslanır: həddindən artıq iş yükü, vaxt təzyiqi, həftəlik iş saatlarının intensivliyi, işçilər üzərində sıx nəzarət, mükafatlandırılmayan iş şəraiti, motivasiya edən elementlər , rol qeyri-müəyyənlikləri və rol münaqişələri, təşkilati müvəffəqiyyət və karyera şəraitində aydınlığın olmaması, aşağı əmək haqqı, istirahət müddətləri və sosial fəaliyyət imkanları üçün qeyri-qənaətbəxş gözləntilər, həmkarlardan və menecerlərdən təcrid olunma və ya adekvat dəstəyin olmaması, tətbiq olunan liderlik tərzi, ciddi ierarxik quruluş, görülən işin keyfiyyəti və işlədiyi qurum, nəqliyyat vasitələrinin və personalın qeyri-kafi olması və.s... [6]

Ən əsas problem həddindən artıq iş yüküdür. Bu, işçilərin müəyyən bir müddətdə edə biləcəyindən daha çox məsuliyyət qoyulması və işçilərə həddindən artıq tələblərin qoyulmasıdır. Bu həm də işçinin performansı ilə görülən işin miqdarı və keyfiyyəti arasında ziddiyyətli mühitə gətirib çıxarır. Çox və ya çox az iş yükü də tükənmişlik sindromuna səbəb ola bilər. Potensialına uyğun qənaətbəxş bir işə sahib olmamaq və ya həddindən artıq iş yükünə məruz qalmaq zamanla tükənmişliyin ortaya çıxmasına səbəb ola bilər.
Yanlış peşə seçimi, sevdiyi işi görə bilməmək və ya yalnız maddi mənfəət üçün işləmək də tükənmişlik hissinə səbəb ola bilər. Uzun müddət eyni vəzifədə eyni işi görmək zamanla monotonluğa və iş korluğuna səbəb ola bilər, beləliklə iş məmnunluğunu azaldaraq tükənməyə səbəb ola bilər. Gec və ya erkən yüksəliş tükənmişlik sindromunun institusional amillərindən biridir. Qeyri-adekvat iş mühiti stress və tükənmişliyə səbəb ola bilər. Araşdırmada çox isti və ya soyuq iş mühiti, istilik və rütubət problemləri, qeyri-kafi və ya həddindən artıq işıqlandırma, çirklənmiş hava və toz, zəhərli maddələr və radiasiya, istehsalat qəzaları kimi faktorlar işçini stresə salan faktorlar olaraq ortaya qoyulmuşdur.İş vaxtından artıq, fasilələrin olmaması və növbəli iş sistemi zamanla işçilərin yorğunluğuna və hətta onların bioloji tarazlığını poza bilər. Şəxsi və ictimai həyatında, xüsusilə iş vaxtından artıq iş səbəbiylə bir çox pozulma yaşayan bir şəxsin tükənmişlik əlamətlərini göstərmə ehtimalı artır. Bir araşdırmada işçilər üçün ideal iş saatının gündə 7,5 saat, həftədə isə 45 saat olduğu bildirilmişdi.6 Bu saatlar aşıldığında işçidə ciddi fiziki və ruhi problemlər yarana bilər.
İnsanlar edətən vaxtlarının çoxunu işdə keçirirlər. Bu səbəbdən iş mühitində yaşanan stress insanın sağlamlığına əhəmiyyətli dərəcədə təsir edir. Araşdırmalar göstərir ki, həkim kimi insanlarla üzbəüz işləyən peşələrdə tükənmə riski digər peşələrə nisbətən daha yüksəkdir. Tibb təhsili daha çox usta-şagird münasibəti ilə verilir və iyerarxiya təhsildə mühüm yer tutur. Bu iyerarxik nizamın altındakı tədqiqat köməkçisi həkimlər, daha uzun iş saatları, tez-tez növbələr və aşağı maaşlar kimi səbəblərdən ötəri digər həkimlərə nisbətən daha çox stress keçirirlər.
Emosional yanma sindromunun fiziki, emosional və zehni simptomları ola bilər. Fiziki simptomlar: Həyat enerjilərinin və istəklərinin tükəndiyini hiss edən, həyatdan heç bir gözləntisi və hədəfi olmadığını düşünməyə başlayan insanlar, mövcud mənfilikləri və ya neqativlərlə dolu bir həyatı qəbul edərək, sonda immun sistemlərinin çökməsi ilə qarşı-qarşıya qalırlar. Bütün enerjilərini mövcud problemlərlə mübarizəyə sərf etmək və nəhayət, bu mübarizədən əl çəkmək halı immunitet sistemini zəiflədə, insanları ölümlə nəticələnə biləcək müxtəlif xəstəliklərin qucağına sövq edə bilər. Bu şərtlərin insana verdiyi fiziki narahatlıq və zərərlərdən bəziləri aşağıdakılardır; xroniki yorğunluq, halsızlıq, enerji itkisi, xəstəliklərə daha həssas olmaq, tez-tez baş ağrıları, ürəkbulanma, əzələ gərginliyi, bel ağrısı və yuxu pozuntuları kimi müxtəlif problem və şikayətlər , yuxu pozğunluğu, kilo itkisi və ya həddindən artıq çəki artımı, tez-tez hücumlarla başlayan və davam edən baş ağrıları, allergik sindromlar,

təkrarlanan qrip infeksiyaları, həzm və mədə problemləri, iktidarsızlıq və cinsi disfunksiya, yüksək qan təzyiqi, yüksək xolesterin , koronar ürək xəstəlikləri və.s [6].

Beləliklə, “emosional tükənmə” sindromu yalnız peşə ilə şərtlənmir və emosional, koqnitiv və fiziki enerjinin tədricən itirilməsinin ümumi prosesidir[1]. Emosional tükənmişlik əlamətlərinə depressiv təsir, dəstəksiz hiss, etibarsızlıq, ümidsizlik, evdə gərginlik və mübahisələrin artması, qəzəb, səbirsizlik və narahatçılıq kimi mənfi duyğuların artması, xeyirxahlıq, hörmət və dostluq kimi müsbət duyğuların azalması aid edilir.

Zehni tükənmişlik əlamətləri arasında narazılıq və özünə, işə və ümumiyyətlə həyata mənfi münasibət ola bilər. Nəticədə işi tərk etmək, ciddiyə almamaq, laqeyd yanaşmaq kimi davranışlar görülə bilər. Emosional yanma sindromunun uzunmüddətli təsirləri var. Tükənmişlik vəziyyəti psixoloji pozuntular üçün çox uyğun fon hazırlayır və/yaxud mövcud psixoloji pozuntuların xronikiləşməsinə səbəb ola bilər. Tükənmişliyin fiziki ölçüsü ümumiyyətlə yalnız fərdin özü tərəfindən təsirləndiyi halda, onun yaxın ətrafı və iş mühiti də nəticədə psixoloji ölçüdən təsirlənir.Tükənmişliyin ən xarakterik psixoloji göstəriciləri aşağıdakılardır; depressiya, daimi və ya qıcıqlanma və əsassız narahatlıq, qorxu və narahatlığın obsesif hissi, paranoyaya və skeptisizmə çevrilən məyusluq düşüncəsi, uğursuzluq hissi və nəticədə günahkarlıq hissi, özünə inamın olmaması və panik ataklar. [5]

Fərdlər psixoloji varlıq olmaqla yanaşı, həm də sosial varlıqdırlar. Bu səbəbdən tükənmişlik nəticəsində ortaya çıxan göstəricilər bir müddət sonra yaxın ətrafları, iş həyatı və cəmiyyətlə münasibətlərində müəyyənedici olmağa başlayacaq. Bu mərhələdə nümayiş etdirilən davranışlara uyğun olaraq, fərdin ətraf mühiti ya kömək etmək üçün ona yaxınlaşmağa, ya da ondan tamamilə uzaqlaşmağa meylli ola bilər. Bu reaksiyalarda tarazlıq tənzimlənməzsə, fərd yaxın diqqətdən boğula bilər və ya tənhalıq səbəbiylə daha çox özünə qapanar və özünə inamını tamamilə itirən vəziyyətlərlə qarşılaşa bilər.

Ən əsas davranişsal simptomlar: xroniki əsəbi və gərgin davranışlar, dərhal qəzəblənməyə meyl, qəfil əsəb hücumları və ağlamakrizləri, həddindən artıq emosional və kövrək şəxsiyyət tipinin üstünlük təşkil etməsi, özünə inamın və özünə hörmətin itirilməsi, özünə və ətraf mühitə qarşı kinli/inferensial münasibət, unutqanlıq və öyrənmə çətinliklərinin yaranması, narkomaniya, tütün və alkoqoldan istifadəyə meylin artması, ailədaxili mübahisələrin və zorakılığın ortaya çıxması və ya artması və.s kimi özünü göstərir.

ƏDƏBİYYAT

1. Бойко В.В. Энергия эмоций в общении: взгляд на себя и на других. – М.: Филин, 1996

2. Maslach C, Jackson S. Maslach burnout inventory manual. Palo Alto: CA: Consulting Psychologists *Press, 1986; 1-17.*

3. Wright TA, Bonett R. The contribution of burnout to work performance. Journal of Organizational *Behavior 1997; 18: 491-9.*
4. SÜRGEVİL, Olca (2006). Çalışma Hayatında Tükenmişlik Sendromu, Ankara: Nobel Yayınları.
5. TORUN, Alev (1997). “Stres ve Tükenmişlik”, Endüstri ve Örgüt Psikolojisi, (Edt.: Suna Tevrüz), 2. Bsk, Ankara: Türk Psikologlar Derneği Yayınları, ss.43-53
6. IZGAR, Hüseyin (2003). “Çalışanlarda Stres ve Tükenmişlik”, Endüstri ve Örgüt Psikolojisi, Konya: Eğitim Kitabevi, ss. 159-172.

Psixologiya Elmi-Tədqiqat İnstitutunun Müasir Azərbaycan Psixoloqları İctimai Birliyi ilə birgə "Ulu öndər Heydər Əliyev və liderlik fenomeni" mövzusunda həyata keçirdiyi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransının materialları (məqalə və tezislər) / Psixologiya Elmi-Tədqiqat İnstitutu, 06 may 2023-cü il. – Bakı: ADPU-nun mətbəəsi, – 2023. – 247 səh.

© Psixologiya Elmi-Tədqiqat İnstitutu

***Çapa imzalanmış __.___.2023-cü il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 1***
***Sifariş ___, sayı 100***

***ADPU-nun nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+99412) 493-74-10***
***E-mail: poliqrafiya@mail.ru***